# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
## ƏLİYEV

# DOXSAN SƏKKİZİNCİ KİTAB

## NOYABR 2019 - DEKABR 2019

AZƏRNƏŞR
BAKI - 2020

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2020

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2020, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının ulu öndər Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar Fəxri xiyabanı ziyarətinə, Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı mərasimindəki geniş çıxışı və bu ölkəyə işgüzar səfərinə dair materiallar toplanmışdır.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Kitabda oxucular dövlət başçısının Bakı Dövlət Universitetinin yaranmasının 100 illiyi və Sumqayıt şəhərinin salınmasının 70 illiyinə həsr olunmuş tədbirlərdəki geniş məzmunlu çıxışı, Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – «BakuTel–2019» ilə tanışlıq zamanı sərgidə təmsil olunan müxtəlif ölkələrin nümayəndələri ilə görüş və söhbətlərinə dair materiallar ilə də tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{0801000000}{М - 651(07) - 2020}$ **ББК - 32**

© Azərnəşr, 2020

## MOSKVA VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLL İLƏ GÖRÜŞ

*14 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva noyabrın 14-də Moskva və bütün Rusiyanın patriarxı Kirill ilə görüşmüşlər.*

*Dövlət başçısı Moskva və bütün Rusiyanın patriarxı Kirili salamladı.*

**İ l h a m Ə l i y e v:** Zati-müqəddəsləri, Sizə bir daha «Xoş gəlmisiniz!» – demək istəyirəm, Sizi yenidən görməyimə çox şadam. Sağ olun ki, Dünya Dini Liderlərinin Sammitində iştirak edirsiniz. Sizin bu tədbirdə iştirak etməyiniz ona xüsusi əhəmiyyət verir. Dərin nitqinizi çox diqqətlə dinlədim, tezislərinizlə, vəziyyətə verdiyiniz qiymətlə, ənənəvi dəyərləri, dünya dinlərinin prinsiplərini müdafiə etmək və dinlərarası dialoqu inkişaf etdirmək üçün nə etmək lazım olması barədə fikirlərinizlə tam razıyam.

Fikrimcə, bugünkü tədbir dünya üçün çox böyük əhəmiyyət kəsb edir, dini liderlərin bu formatda keçirilən sammiti dünya dini liderlərinin əməkdaşlığa yönəlmiş əhval-ruhiyyəsini əks etdirir. Dünya din nümayəndələrinin sözündən çox şey asılıdır. Söz sağalda da bilər, söz yaralaya da bilər, söz öldürə də bilər. Ona

görə də bu gün bütün çıxışlarda səslənən konsensus belə bir nikbinlik yaradır ki, biz birgə səylərimizlə humanizm, əməkdaşlıq, sülh, qarşılıqlı anlaşma dəyərlərini inkişaf etdirəcəyik. Əlbəttə, Azərbaycan bu istiqamətdə mühüm rol oynayır. Mən öz çıxışımda dedim ki, biz mədəniyyətlərarası dialoqun inkişafı ilə bağlı humanitar xarakterli çoxlu tədbirlər keçiririk. Lakin bugünkü tədbir, əlbəttə ki, xüsusi bir tədbirdir. Sevindirici haldır ki, bu tədbirdə dünya dinlərinin görkəmli nümayəndələri, rəhbərləri iştirak edirlər.

Sizə bir daha təşəkkürümü bildirirəm ki, vaxt tapıb bu tədbirdə iştirak edirsiniz. Bu gün Mehriban xanımla mən sizinlə həm Bakıda, həm də Moskvadakı görüşlərimizi xatırladıq. Bütün Azərbaycan xalqı adından sizə bir daha dərin ehtiramımızı bildirmək istərdim. Biz bilirik ki, sizin ölkəmizə münasibətiniz çox xeyirxahdır, siz dəfələrlə bizə təşrif gətirmisiniz. Sizə bir daha təşəkkür edirəm və ümidvaram ki, yaxın vaxtlarda yenidən görüşəcəyik.

**K i r i l l:** Cənab Prezident, hörmətli İlham Heydər oğlu, Sizə ürəkdən təşəkkür edirəm. Bakıya səfər etmək mənim üçün həmişə yalnız müsbət emosiyalarla bağlıdır. Özümüzdən soruşsaq ki, hər hansı bir yer nə üçün xoşumuza gəlir və ya gəlmir, yəqin ki, cavab belə olacaq: hər şey bizim bu və ya digər yerə gedərkən keçirdiyimiz hisslərdən asılıdır. Bakı çox cəhətdən heyrət doğurur. Mən hələ sovet dövründə burada, Bakıda olmuşam və bu gün gördüklərimi o zamanla müqayisə etsəm, gecə və gündüz qədər fərq vardır. Bu,

əlbəttə, Sizin rəhbərliyinizlə ölkənizdə həyata keçirilmiş və davam edən böyük inkişafa dəlalət edir. Əlbəttə, Azərbaycan yoxsul ölkə deyil, lakin biz elə nümunələr göstərə bilərik ki, orada pulun olması inkişafa kömək etmir. Burada isə həqiqətən, vəsait həyatın daha da yaxşılaşmasına, insanların daha yaxşı yaşamasına sərmayə kimi qoyulur.

Bir daha vurğulamaq istərdim ki, təkcə Bakının zahiri görkəmi çox böyük tərəqqiyə dəlalət edir. Sizə həm də ona görə təşəkkür etmək istərdim ki, bizə dünya dinlərinin nümayəndələri ilə görüşmək imkanı yaratdınız. Mənim fikrimcə, bizim bu görüşlərdən çıxarmalı olduğumuz ən başlıca nəticə ondan ibarətdir ki, əxlaq olmasa, dünyada istər siyasi, istərsə də fəlsəfi səviyyədə heç bir konsensus ola bilməz. Dünyada konsensus üçün yalnız bir bazis var – əxlaq. Ona görə ki, əxlaq universal dəyərdir. Əgər nəzərə alsaq ki, əxlaq universaldır, xeyir və şər anlayışları bütün bəşəriyyət üçün eynidir. Bu, birinci növbədə, əlbəttə, onu göstərir ki, Tanrı vardır. Ona görə ki, materialist nöqteyi-nəzərdən bəşər mədəniyyətlərinin müxtəlifliyi şəraitində vahid əxlaqa malik olmaq mümkün olmazdı. Lakin əxlaq vahid və ümumi olduğuna görə, o bizim ünsiyyət saxlamağımıza, həqiqətən birlik yaratmağımıza və qarşıda duran hədəflərə nail olmağımıza imkan verir. Bu mənəvi, dini amilin vacibliyini anlayan dövlət xadimləri dərin hörmətə layiqdirlər.

Mən Sizi aşkar görünən nailiyyətlər, rəhbərliyinizlə xalqınızın, ölkənizin qazandığı uğurlar münasibətilə

bir daha ürəkdən təbrik etmək, gələcək işlərinizdə Tanrıdan Sizə kömək diləmək, gözəl ailənizə xeyir-dua vermək istərdim. Mən bu ailə ilə sadəcə, tanış olmaq deyil, onlarla daxilən, mənəvi cəhətdən yaxın oldum. Qoy Sizin bütün işləriniz, xalqınızın, ölkənizin firavanlığına yönəlmiş fəaliyyətiniz uğurlu olsun! Tanrının köməyi ilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər inkişaf etsin. Həqiqətən, bu ölkələr çox sıx qarşılıqlı əlaqə saxlayır. Moskvada böyük Azərbaycan diasporunun olduğunu bilirsiniz. Bu bizim Moskva həyatının mühüm hissəsidir. Tanrının köməyi ilə bütün bu amillər ümumi rifaha xidmət etsin. Qonaqpərvərliyə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm.

**İlham Əliyev:** Çox sağ olun.

## RUSİYA FEDERASİYASI QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TEMREZOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**Rəşid Temrezov:** Çox sağ olun, hörmətli cənab Prezident. Həqiqətən, mən bu gün iştirak edən ölkələrin sayına diqqət yetirdim: 80 ölkə, 10-dan çox dini təşkilat. Əlbəttə, bu kifayət qədər ciddi meydandır. Bütün qitələrdən, dünyanın əksər ölkələrindən iştirakçılar vardır. Eyni zamanda, bizim əziz şeyximizi yubiley münasibətilə təbrik etmək üçün də bir səbəbdir. Mən təkcə Sizin dəvətinizlə bu il üçüncü dəfədir ki, Azərbaycana səfər edirəm.

**İlham Əliyev:** Mən çox şadam ki, tez-tez gəlirsiniz. Bu çox mühümdür, faydalıdır. Çünki həm Rusiya–Azərbaycan münasibətləri, həm də regionlararası əməkdaşlıq çərçivəsində birgə həll etməli olduğumuz xeyli məsələlər vardır. Keçən ilin sentyabrında Vladimir Vladimiroviçin və mənim iştirakımla Bakıda regionlararası forum keçirildi. Növbəti regionlararası fo-

rum bu ay artıq Moskvada olacaqdır, bu da mühüm meydandır. İkitərəfli planda Rusiya–Azərbaycan münasibətlərində çox fəal siyasi proses gedir, yüksək səviyyədə – idarələr, nazirliklər səviyyəsində görüşlər keçirilir, yəni çox fəal qarşılıqlı fəaliyyət vardır. Zati-müqəddəsləri Moskva və Bütün Rusiyanın patriarxı Kirilin bizim sammitdə iştirakı bu tədbirə xüsusi önəm gətirir. Biz şadıq ki, Rusiya Federasiyası sammitdə çox geniş tərkibdə – həm dini seqmentdə, həm Şimali Qafqaz respublikalarından bizim müfti qardaşlarımız, həm Prezident Administrasiyası, həm də digər nümayəndələrlə təmsil olunub. Yəni sammitdə iştirak edən ən böyük nümayəndə heyəti Rusiya Federasiyasındandır. Sammitin özü də qlobal miqyaslı hadisədir. O çox universal xarakter daşıyır və düzü bilmirəm, belə səpkili tədbir daha haradasa keçirilirmi. Buna görə də Azərbaycan bu istiqamətdə də özünü ölkələri, dinləri birləşdirə və dialoq üçün yaxşı imkan yarada bilən ölkə kimi nümayiş etdirdi. Fikrimcə, indi bu ən mühüm məsələdir.

## DÜNYA ETNOİDMAN KONFEDERASİYASININ SƏDRİ BİLAL ƏRDOĞANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdı. O, rəhbərlik etdiyi nümayəndə heyətinin Dünya Dini Liderlərinin II Sammitində iştirakından məmnunluğunu bildirdi.*

*Dünya Dini Liderlərinin II Sammitinin əhəmiyyətinə toxunan dövlət başçısı Türkiyənin bu tədbirdə geniş tərkibdə təmsil olunmasının önəmini qeyd etdi. Dövlət başçısı İlham Əliyev bu yaxınlarda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilmiş növbəti sammiti çərçivəsində Prezident Rəcəb Tayyib Ərdoğanla görüşünü məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Dövlət başçısı İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

# DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*14 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından noyabrın 14-də Dünya Dini Liderlərinin II Sammiti iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Dövlət başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ziyafətdə iştirak etdilər.*

**FƏLƏSTİN DÖVLƏTİNİN
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MAHMUD ABBASA**

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Fələstin əlaqələri xalqlarımızın istək və iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Fələstin xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 noyabr 2019-cu il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EGİLS LEVİTSƏ**

Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Latviyanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, xoş ənənələrə malik əlaqələrimizin genişləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə inkişaf etdirilməsi bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2019-cu il*

**OMAN SULTANI**
**ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2019-cu il*

## RUSİYA FEDERASİYASININ ŞİMALİ QAFQAZ RESPUBLİKALARINDAN OLAN BİR QRUP MÜSƏLMAN DİN XADİMLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İlham Əliyev:** Sizə bir daha «Xoş gəlmisiniz!» – demək istəyirəm, sizi yenidən görməyimə şadam. Şimali Qafqaz respublikalarının dini liderləri Azərbaycanda tez-tez qonaq olurlar. Artıq uzun illərdir ki, biz görüşür, söhbət edir, dinlərarası dialoq, təhsil, Qafqazın dini liderlərinin qarşılıqlı əlaqələri ilə bağlı mühüm məsələləri müzakirə edirik. Hesab edirəm ki, bizim görüşlərimiz və fikir mübadilələri Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Əlbəttə ki, bizim görüşlər və sıx qarşılıqlı əlaqələr çox uğurla inkişaf edən və artıq çoxdandır strateji tərəfdaşlıq səviyyəsinə çatmış

Rusiya–Azərbaycan münasibətlərinin mühüm amilidir.

Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə mənim çoxsaylı görüşlərim bizim dostluq, mehriban qonşuluq əlaqələrimizin daha da möhkəmləndirilməsində çox mühüm rol oynayır. Bu yaxınlarda – ötən ay mən Rusiya Prezidentinin dəvəti ilə Soçidə «Valday» Diskussiya Klubunun işində iştirak etdim və həmin səfər çərçivəsində Rusiya Prezidenti ilə də görüşümüz oldu. Biz münasibətlərimizin çox geniş gündəliyinə bir daha nəzər saldıq və əlaqələrimizin bütün istiqamətlər üzrə durmadan inkişaf etdiyini bir daha gördük. Əlbəttə, Qafqazda qarşılıqlı fəaliyyət, əməkdaşlıq və dinlərarası dialoq məsələləri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir. Hamıya yaxşı məlumdur ki, Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqını çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır. Biz sadəcə, atalarımızın, babalarımızın ənənələrini davam etdirir, əlaqələrimizi möhkəmləndirir, bununla da Qafqazda təhlükəsizliyin, sabitliyin və inkişafın möhkəmləndirilməsi işinə çox böyük töhfə veririk. Dəfələrlə dediyimiz kimi, Qafqaz vahid orqanizmdir, o elə bir məkandır ki, orada yerli xalqlar əsrlərboyu yaşayır, qurur, memarlıq abidələri yaradır və gələcəyə inamla baxırlar. Hesab edirəm ki, Qafqazda təhlükəsizliyin daha da möhkəmləndirilməsi və əməkdaşlığın inkişafı üçün Rusiya–Azərbaycan münasibətləri həlledici rol oynayır. Şadam ki, siz bu sammitdə iştirak edirsiniz. Sammit həm də qlobal

miqyaslı hadisədir. Fikrimcə, bu qəbildən olan və bu səviyyədə təmsil olunmuş sammit dünya arenasında nadir hadisədir. Əlbəttə, zati-müqəddəsləri Moskva və bütün Rusiyanın patriarxı Kirilin iştirakı və onun dünən səsləndirdiyi çox müdrik kəlamları bu tədbirə xüsusi əhəmiyyət verir. Onu da qeyd etməliyəm ki, Rusiya nümayəndə heyəti 70-ə yaxın ölkədən olan nümayəndə heyətlərinin ən böyüyüdür. Əlbəttə, dünən sammit masası arxasında bizim qardaşlarımızı, Şimali Qafqazın dini liderlərini görmək çox xoş idi. Bu insanlar öz respublikalarında, bütün Qafqazda və Azərbaycanda çox böyük nüfuz sahibləridir. Sizi yaxşı tanıyırlar, sizə hörmət edirlər və biz sizə fəaliyyətinizə görə təşəkkür edirik. Sizin sözləriniz xalqlarınızın nümayəndələrinin qəlbində əks-səda doğurur. Siz inkişafa, sabitliyə, sülhə və təhlükəsizliyə çağırırsınız. Azərbaycanda biz bunların hamısını çox yüksək qiymətləndiririk. Əlbəttə ki, bizim möhtərəm şeyximiz Allahşükür Paşazadə ilə sizin münasibətləriniz əməkdaşlığımızın çox mühüm amilidir. Dünən biz möhtərəm şeyxə təntənəli şəraitdə bir çox ölkələrin yüksək mükafatlarının, Azərbaycanın ən ali ordeni olan «Heydər Əliyev» ordeninin, həmçinin digər dövlətlərin ordenlərinin təqdim edilməsinin şahidi olduq. Bu, şeyxin təkcə bizim regionda deyil, həm də dünyada nüfuz sahibi olmasını göstərir. Möhtərəm şeyx bizim böyük sərvətimizdir. O, dünya səviyyəli dini liderdir. Biz həmişə onunla ünsiyyətdə olarkən, o cümlədən dünən də sizin barənizdə, sizin münasibətləriniz barə-

də də danışdıq. Nə yaxşı ki, münasibətlərin belə formatı yaranıb. Əlbəttə, belə bir gündə mən çox mühüm bir missiyanı yerinə yetirmək istərdim. Bir neçə ay bundan əvvəl mənim fərmanımla İsmayıl Əliyeviç Berdiyev Azərbaycanın yüksək ordeni – «Dostluq» ordeni ilə təltif edilib. Bu orden öz fəaliyyəti ilə xalqlarımız arasında dostluğun möhkəmləndirilməsinə töhfə verən xarici ölkə nümayəndələrinə təqdim edilir. Odur ki, bu gün görüşümüzü məhz sizə bu yüksək mükafatı təqdim etməklə başlamaq istərdim.

*Prezident İlham Əliyev «Dostluq» ordenini Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyevə təqdim etdi.*

**İsmayıl Berdiyev** (*müfti*): Çox sağ olun, İlham Heydər oğlu. Biz burada özümüzü vətənimizdəki kimi hiss edirik. Bu Sizin sayənizdə, şeyxülislamın sayəsində belədir. Bu mükafat şəxsən mənə deyil, bizim hamımıza aiddir. Biz hamımız bunu çox gözəl başa düşürük. Lakin biz də nə iş görürüksə, bu, şeyxülislamın sayəsindədir. O bizim ağsaqqalımız, müəllimimizdir. Bizim də 65 yaşımız var, az deyil, lakin o bizi hələ də öyrədir. Bütün bunlar onun müdrikliyi sayəsindədir.

Atanızın Azərbaycanda gördüyü işlərin bəhrələrini biz burada Sizin timsalınızda görürük. Çox sağ olun. Biz hər dəfə buraya gələndə Azərbaycanda necə dəyişikliklər baş verdiyini görürük. Burada hər yer gözəldir. Bütün bunlar Sizin sayənizdə mümkün olub. Axı

mən Bakını sovet dövründə də, Elçibəyin zamanında da görmüşəm. İndi isə tamamilə başqadır. Siz nə edirsinizsə, Azərbaycan xalqı üçün edirsiniz. Çox sağ olun. Mən heç vaxt unutmuram, mənə söyləyiblər ki, biz hamımız Kəbədə, Qara daşın qarşısında dayananda atanız Sizə demişdi: «Heyif ki, anan burada yoxdur». O bu sözləri nə üçün demişdi? İnsanın əhvalı yaxşı olanda istəyir ki, doğmaları onun yanında olsun. O buna görə belə demişdi. İnşallah, Heydər Əliyev Azərbaycan üçün etdiklərinə görə cənnətdə olacaq. Biz hamımız onunla fəxr edirdik. Sovet dövründə biz fəxr edirdik ki, Sov. İKP MK Siyasi Bürosunda bir müsəlman vardır. Siz onun yolunu davam etdirirsiniz. Bu işi davam etdirmək üçün Allah Sizə qüvvət və sağlamlıq versin!

**İ l h a m Ə l i y e v:** Xoş sözlərinizə görə çox sağ olun. Siz çox düzgün olaraq qeyd etdiniz ki, bugünkü Azərbaycan Heydər Əliyevin qəhrəmancasına fəaliyyətinin nəticəsidir. O, Azərbaycanın inkişafı üçün həmişə çox böyük səy göstərib. Sovet dövründə, 1969-cu ildə Azərbaycana rəhbərlik edəndə o, cavan idi, 46 yaşı vardı. O, Azərbaycanı inkişaf səviyyəsinə görə SSRİ-də ən axırıncı yerdən ən qabaqcıllar sırasına çıxardı. O vaxt Rusiya Federasiyasından başqa, cəmi iki respublika – Azərbaycan və Belarus ümumittifaq xəzinəsinə aldıqlarından çox verirdi. Rusiya Federasiyası sırf şərti mənada müttəfiq respublika idi. O, dövləti və respublikanı yaradan qurum idi. Bütün digər respublikalar dotasiya alırdı. Heydər Əliyevin rəhbər-

liyi illərində Azərbaycan bütün göstəricilər üzrə ən yüksək yerlərə çıxdı – həm sənayedə, həm kənd təsərrüfatında, həm elektronikada, həm infrastrukturda, həm də regionların inkişafında. Təsadüfi deyil ki, bizim xalqımız böyük çətinliklərlə, faciə ilə üzləşəndə insanlar ilk növbədə, Heydər Əliyevə müraciət etdilər. Xalqımız 1993-cü ildə onu Azərbaycana rəhbərliyə dəvət etməklə, əslində bizi fəlakətdən xilas etdi. Mən dünən də, bundan əvvəlki tədbirlərimizdə də demişəm ki, Heydər Əliyevin möhtərəm şeyx ilə dostluğu təkcə onların şəxsi münasibətləri deyildi. Onlar bir-birini çoxdan tanıyırdılar, hələ möhtərəm şeyx gənc yaşlarında Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etməyə başladığı vaxtdan. Biz də çox sıx dostluq münasibətləri saxlayırıq. Düşünürəm ki, bu bizim uğurlu inkişafımızın rəhnidir.

Əlbəttə, biz hamımız tariximizin qaranlıq dövrünü xatırlayırıq. O vaxt təsadüfi adamlar hərbi çevriliş yolu ilə ölkə rəhbərliyinə gəlmişdi. Hərçənd bunu çevriliş də adlandırmaq çətindir. Ona görə ki, hətta çevriliş etmək üçün belə, cəsarət və ağıl lazımdır. Bu sadəcə, hakimiyyətsizlik dövrü idi. O vaxt hakimiyyət tam iflasa uğramışdı və hakimiyyətə küçə adamları gəlmişdi.

**İsmayıl Berdiyev:** Bu, hakimiyyətin qəsb edilməsi idi.

**İlham Əliyev:** Bəli, qəsb edilməsi idi. Xalq Cəbhəsində Azərbaycan cəmiyyətinin ən tör-töküntü təbəqəsi toplaşmışdı. Hər bir cəmiyyətdə tör-töküntülər vardır. Onlar da belə idi. Onlar hakimiyyəti qəsb et-

dilər. Mahiyyət etibarilə Azərbaycan xalqının çoxəsrlik ənənələrini məhv etdilər. Onlar düşmənçilik, nifrət toxumu səpir, dinlərarası ayrı-seçkiliyi qızışdırır, oğurluqla məşğul olur, tramvay xətlərini kəsirdilər, çünki orada mis vardı, kəsdiklərini qonşu ölkələrə satırdılar. Təsəvvür edin ki, savadsız bir «demaqoq» Müdafiə naziri olmuşdu. Xırda alverlə məşğul olması ilə tanınan bir adam Baş Nazir olmuşdu. İdarəçilik sahəsində heç bir təcrübəsi olmayan insan ölkəyə başçılıq edirdi. O hətta kolxoza da rəhbərlik etməmişdi. Hələ onu demirəm ki, parlamentin rəhbəri 11 il kiçik elmi işçi olmuşdu və bu illər ərzində hətta namizədlik dissertasiyasını da müdafiə edə bilməmişdi. Onlar sadəcə, savadsız adamlar idi. Dövlət katibi isə keçmiş komsomol fəalı, karyerist və qorxaq adam idi. Onun qorxaqlığını bütün Azərbaycan xalqı bu yaxınlarda bir daha gördü. Heç bir xarici dildə danışa bilməyən, hətta Azərbaycan dilində də pis danışan fizika müəllimi Xarici İşlər naziri olmuşdu. O nə ingilis, nə də rus dilini bilirdi. Ümumiyyətlə, o, diplomatiyanın nə demək olduğunu anlamırdı. O vaxt vəziyyət, bax, belə idi. Şeyx bunu yaxşı xatırlayır. Onlar faciəyə, torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsinə, vətəndaş müharibəsinə gətirib çıxardılar. Ərazilərimiz işğal olunur, onlar isə öz hakimiyyətini möhkəmlətmək üçün Gəncəni bombalamaq əmri verirlər. Onların Gəncə aeroportunu, bir çox evləri bombalamasını, insanların həlak olmasını göstərən kadrlar vardır. Bu canilər vətəndaş müharibəsi təşkil etmişdilər. Burada

onları asmaq üçün dar ağacı qurulanda qorxuya düşərək, o vaxt Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən Heydər Əliyevə müraciət etdilər ki, gəlib onları xilas etsin. Onlar xalqı deyil, özlərini düşünürdülər. Onlar Heydər Əliyevi uzun müddət dilə tutdular, üç dəfə onun üçün təyyarə göndərdilər. O vaxt Heydər Əliyevin yaşı az deyildi, 70 yaşı vardı. O, xalqı fəlakətdən xilas etmək üçün gəldi və bunu etdi. Biz belə yollar keçmişik, biz bunların hamısını xatırlayırıq və qiymətləndiririk. Gərək gənc nəsil də bunu bilsin. Çünki o vaxt onlar balaca idilər və ya heç doğulmamışdılar. Buna görə də möhtərəm şeyx də, biz də çalışırıq ki, bu həqiqət hamıya məlum olsun və bunu xatırlayanlar unutmasınlar. Çünki yaxşıya çox tez vərdiş edirlər. Buna görə biz bütün bunları xatırlayırıq və öz müstəqilliyimizin, ləyaqətimizin, öz yolumuzun – inkişaf, əməkdaşlıq, tərəqqi yolunun qədrini bilirik. Əlbəttə ki, bugünkü görüş, mənim fikrimcə, çox böyük əhəmiyyət kəsb edir. Biz hamımız Qafqazın birliyini, qardaşlığımıza, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığa sadiq olduğumuzu nümayiş etdiririk və inşallah, beləcə də irəli gedəcəyik.

**İsmayıl Berdiyev:** İnşallah. Sizin Rusiyada çox böyük nüfuzunuz vardır. Biz Prezidentimiz Vladimir Vladimiroviçin Sizə necə münasibət bəslədiyini görürük, o Sizə hörmətlə yanaşır. O Sizin atanızı tanıyır. Onlar vaxtilə birlikdə işləyiblər. Belə adamlar heç nəyi gözdən qaçırmırlar, onlar hər şeyi bilirlər. Sizin dostluğunuz bizim üçün çox dəyərlidir. İndi Rusiya dün-

yada Sovet İttifaqına bənzər böyük dövlətə çevrilib. Onlar dağıtmaq, uçurmaq, tapdalamaq istəyirdilər. Lakin məhz Putin buna imkan vermədi. O, başa düşdü ki, biz birlikdəyik, bizim gücümüz bundadır.

**İlham Əliyev:** Siz tamamilə haqlısınız. Rusiya Prezidenti ilə məni yaxın, etimada əsaslanan münasibətlər bağlayır. Bu çox vacibdir. Biz dəqiq başa düşürük ki, sıx qarşılıqlı fəaliyyətimiz, strateji tərəfdaşlığımız bizim üçün, xalqlarımız üçün vacibdir. Bundan əlavə, şəxsi münasibətlər də vardır. Məhz bu qarşılıqlı etimad səviyyəsi çoxillik, səmimi və həqiqi əməkdaşlıq sayəsində qazanılıb. Bu etimad səviyyəsi bizim hər hansı məsələləri müzakirə etməyimizə və onları həll etməyimizə imkan verir. Mən də Rusiya Prezidentinə böyük hörmət bəsləyirəm, onunla hələ Heydər Əliyev Azərbaycan Prezidenti olduğu dövrdən tanışam. O vaxt Vladimir Vladimiroviç Azərbaycana səfər etmişdi. Ona qədər Sovet İttifaqı dağılandan sonra 10 il ərzində Rusiya Prezidenti Azərbaycana gəlməmişdi. Hərçənd biz qonşularıq, bizi çox şey bağlayır. Vladimir Vladimiroviç isə Prezident olan kimi atamın dəvətini qəbul etdi, Azərbaycana gəldi və bizə hörmətini göstərdi. Əslində o vaxt Heydər Əliyevlə Vladimir Vladimiroviç bizim münasibətlərimizin təməlini qoydular, bu münasibətlər bu gün də davam edir. Mən də bu yolla gedirəm və Rusiya Prezidenti ilə mənim çoxsaylı məzmunlu görüşlərim bir-birimizə səmimi münasibətin təzahürüdür. Xalqlarımız bunu bilir və görür. Bu, böyük sərvətdir.

## QÜDS SEFARDİ ORTODOKS BAŞ RAVVİNİ ŞLOMO AMAR İLƏ GÖRÜŞ

*15 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarı qəbul etmişdir.*

*Söhbət zamanı Bakıda keçirilən Dünya Dini Liderlərinin II Sammitinin əhəmiyyəti qeyd edildi. Bu tədbirdə dünyanın bir sıra ölkələrindən böyük nümayəndə heyətlərinin, nüfuzlu ictimai və din xadimlərinin iştirakından məmnunluq ifadə olundu.*

*Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarın dinlərarası dialoq və Azərbaycanla bağlı fikirlərinin önəmi vurğulandı. Şlomo Amar Azərbaycana səfərindən və Dünya Dini Liderlərinin Sammitində iştirakından dərin məmnunluq hissi keçirdiyini bildirərək, ölkəmizə və dövlət başçısına xeyir-dualarını çatdırdı.*

## BEYNƏLXALQ DİNLƏRARASI VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ MƏRKƏZİNİN BAŞ KATİBİ FEYSƏL BİN MUAMMAR İLƏ GÖRÜŞ

*15 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarı qəbul etmişdir.*

*Görüşdə dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artması ilə əlaqədar narahatlıq ifadə olundu.*

*Söhbət zamanı Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus maddi mədəniyyət və dini abidələri, o cümlədən məscidləri məhv etməsi vurğulandı, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə və işğalçı Ermənistanla diplomatik əlaqə qurmadığına görə Səudiyyə Ərəbistanının mövqeyi yüksək qiymətləndirildi.*

## SİMON VİZENTAL MƏRKƏZİNİN HƏMTƏSİSÇİSİ VƏ SƏDR MÜAVİNİ, YƏHUDİ DİN XADİMİ RAVVİN ABRAHAM KUPER VƏ ABŞ-ın XRİSTİAN LİDERLƏR KONQRESİNİN RƏHBƏRİ CONNİ MUR İLƏ GÖRÜŞ

*15 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi ravvin Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru qəbul etmişdir.*

**Abraham Kuper:** Hesab edirəm ki, sammitin özü heyrətamiz və uğurlu idi. Ümid edirik ki, Azərbaycan lider ölkə olaraq, sadəcə, danışmaqla yox, çoxkonfessiyalılıq, liderlik nöqteyi-nəzərdən özünün təqdim olunmasında səylərini davam etdirəcəkdir. Biz buraya gələndə özümüzü evimizdəki kimi hiss edirik. Biz bilirik ki, bu şəxsən Sizin rəhbərliyiniz və mərhum atanızın birgə səyləri nəticəsində mümkün olubdur.

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Prezident İlham Əliyev Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini, soydaşlarımızın öz doğma torpaqlarından qovulduğunu bildirdi.*

**İ l h a m Ə l i y e v:** Bütün azərbaycanlılar torpaqlarından qovulmuşdur və bundan sonra ermənilər qeyri-qanuni, saxta referendum təşkil etdilər və heç kim onun nəticələrini tanımır. O vaxtdan bəri onlar bir neçə dəfə saxta referendumlar təşkil ediblər, lakin Minsk qrupunun həmsədr ölkələri olan Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın hökumətləri bunu açıq şəkildə pisləyib. Onlar bizim məscidlərimizi dağıdıblar, lakin biz erməni kilsəsini bərpa etmişik. Beləliklə, bu bizim və onların dini abidələrə münasibətimizin göstəricisidir. Azərbaycan çoxkonfessiyalı, multietnik ölkədir, Ermənistan isə monoetnik ölkədir. Bütün digər etnik qrupların nümayəndələri qovulublar. Eşitmişəm ki, Ermənistanda guya yəhudi icmasının rəhbəri var, lakin onun Karapetyan və ya Varapetyan kimi bir adı vardır. Orada yəhudilər də yoxdur, azərbaycanlılar da yoxdur.

**A b r a h a m K u p e r:** Lakin orada antisemitizm vardır.

**İ l h a m Ə l i y e v:** Bəli, antisemitizm vardır. Bu ilin oktyabr ayında keçmiş Sovet İttifaqı respublikaları rəhbərlərinin görüşdüyü Aşqabad şəhərində keçirilmiş MDB Sammiti çərçivəsində mövzulardan biri İkinci dünya müharibəsində Qələbənin 75-ci ildönümünün qeyd olunması ilə bağlı idi və mən söz alaraq dedim ki, Azərbaycan və MDB-yə üzv olan digər ölkələr faşizmin pislənməsi ilə bağlı ortaq mövqedən çıxış edir. Nasistlərin

qəhrəmanlaşdırılması haqqında danışarkən mən təəssüflə dedim ki, bizim bölgədə, MDB məkanında faşistləri tərənnüm edən bir ölkə vardır. Mən faşistlərə xidmət edən, Ermənistan hökuməti tərəfindən şərəfinə 6 metr hündürlüyündə abidə ucaldılmış Qaregin Ter-Arutunyanın adını çəkdim. O, faşist Almaniyası ilə müharibə zamanı «Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur» – ifadəsini işlədən bir şəxs idi və bu şəxsin müxtəlif millətlərin, o cümlədən yəhudilərin və digər insanların qətlində əli olubdur. O, Bolqarıstanda gizli casusluq şəbəkəsi yaratmışdı. Sonradan həbs olunmuş, uzun müddətə azadlıqdan məhrum edilmiş və Vladimir şəhərində həbsxanada vəfat etmişdi. Mən Ermənistanın yeni hökumətini o abidəni sökməyə çağırdım, çünki onu əvvəlki hökumət ucaltmışdı. Yeni hökumət özünü demokratik hökumət kimi göstərir. Buyurun, bunu göstərin, abidəni sökün. Mənim ittihamlarım ona qarşı deyildi, onun qondarma inqilab nəticəsində devirdiyi sələflərinə qarşı idi. Amma o dedi ki, Soljenitsin də həbsdə olub və bir çox başqa sovet dissidentləri Vladimir həbsxanasında olublar. Beləliklə, o, faktiki olaraq deyirdi ki, faşist qatil Soljenitsinlə eynidir. Bundan daha səfeh bəyanatı təsəvvürə gətirmək mümkün deyil. Bu səbəbdən, əlbəttə ki, biz hər şeyi olduğu kimi deməliyik. Biz bilirik ki, Amerikada, Rusiyada, Fransada, Minsk qrupunun həmsədr ölkələrinin hamısında erməni lobbisi vardır. Lakin bir həqiqət var – Qələbənin 75-ci ildönümü ərəfəsində biz İrəvanın mərkəzində bu

abidənin olmasına necə dözə bilərik?! İndi onlar – mən mətbuatdan eşitmişəm – Bolqarıstanda abidə ucaltmağa çalışırlar. Onlar birini Rusiyanın Armavir şəhərində ucaldıblar. Çox cəsur bir insan gəlib onun üstünə qara boya töküb və indi erməni diasporu ona hücum edir. Onlar faşisti müdafiə edirlər. Biz ümid edirik ki, dünyadakı yəhudi icmaları bizim səsimizə səs verəcək və Ermənistan hökumətini bu abidəni sökməyə məcbur edəcək.

**Abraham Kuper:** Bildiyimiz kimi, yanvarın sonunda Auşvitzdə Qələbənin ildönümü münasibətilə bəlkə də sonuncu toplantı keçiriləcək. Dəqiq desək, keçmiş Sovet İttifaqı ölkələrinin əksər rəhbərləri, onlara bunun baha başa gəlməsinə baxmayaraq, Hitler və silahdaşlarının məğlubiyyətində böyük rol oynamaqları ilə fəxr edirlər.

Bu həmçinin Ermənistanın da digər dövlətlərin sıralarına qoşulmasını təmin etmək üçün münasib vaxtdır. Əfsuslar olsun ki, Avropada tarix yenidən yazılır və nasistlərin silahdaşlarına, kütləvi qırğın törədənlərə abidələr ucaldılır.

**İlham Əliyev:** Tamamilə doğrudur. Qələbənin 75-ci ildönümü ərəfəsində biz – mən siyasətçiləri, ictimai xadimləri, dini liderləri, QHT-ləri, medianı nəzərdə tuturam – səylərimizi birləşdirməliyik. Biz bir mövqedən çıxış etməliyik. Çünki bu, böyük təhlükədir. Bu, təkcə tarixin təhrif olunması demək deyil. Bu, gələcək diskriminasiya üçün zəmin yaratmaqdır.

## TANINMIŞ RUSİYALI YUMORİST, TELEAPARICI, ŞOUMEN VƏ MÜĞƏNNİ MAKSİM QALKİNİN YARADICILIQ GECƏSİNDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*15 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva noyabrın 15-də Heydər Əliyev Mərkəzində Rusiyanın tanınmış yumoristi, teleaparıcı, şoumen və müğənni Maksim Qalkinin yaradıcılıq gecəsində iştirak etmişlər.*

*Maksim Qalkin Azərbaycan tamaşaçılarının qarşısına gözəl əhval-ruhiyyə yaradan mahnı ilə çıxdı. Azərbaycan Respublikasının Prezidentini və xanımını bu zalda salamlamağın onun üçün şərəf olduğunu bildirən Maksim Qalkin Bakıya tez-tez gəldiyini, şəhərimizin ildən-ilə daha da gözəlləşdiyini vurğuladı. Azərbaycan dilini sevdiyini qeyd edən şoumenin ana dilimizdə «Azərbaycan dilini öyrənmişəm. Mən Azərbaycan dilində danışıram. Amma nə danışıram, özüm də bilmirəm» – deməsi gülüş, zarafat dolu bir gecənin başlanğıcından xəbər verirdi.*

*Maksim Qalkin tamaşaçılar qarşısında öz şousu ilə çıxış etdi. O, Rusiya və Avropanın məşhur sənətkarları-*

*nın, o cümlədən Anna German, Lyudmila Zıkina, Lev Leşşenko, Vladimir Vinokur, Dima Bilan, Valeri Leontyev, Filipp Kirkorov, Valeri Meladze, Toto Kutunyo, Co Dassen və başqa tanınmış ifaçıların mahnılarına parodiyalar təqdim etdi.*

*Gecənin maraqlı məqamlarından biri isə Maksim Qalkinin dünya şöhrətli müğənni və bəstəkar Müslüm Maqomayevin repertuarından «Mavi əbədilik» mahnısını ifa etməsi oldu. Dünya şöhrətli sənətkar Alla Puqaçovanın repertuarından «Arlekino» mahnısını oxumasını da tamaşaçılar alqışlarla qarşıladılar.*

*Maksim Qalkinin təqdim etdiyi proqramlar özündə parodiya, mahnı, yumor, məşhur televiziya şoularından konsert nömrələrini birləşdirir. O, auditoriyanı hiss edir və tamaşaçıları ilə şou boyu ünsiyyət qurur. Bu axşam da istisna olmadı.*

*Gecənin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Maksim Qalkinlə görüşdülər.*

*İki saat davam edən gecədə tamaşaçı gülüşünün, sevinc əhval-ruhiyyəsinin ardı-arası kəsilmirdi. Yaradıcılıq axşamı hər kəsə xoş əhval-ruhiyyə bəxş etdi.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOV İLƏ GÖRÜŞ

*18 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul etmişdir.*

**İlham Əliyev:** Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində yüksək dərəcədə inkişaf edib, həm sosial, həm iqtisadi sahələrdə, həm də sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılıbdır. Bu çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, 3 tərəfdən düşmənlə əhatə olunubdur. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir.

Çətin coğrafi vəziyyəti nəzərə alaraq, Naxçıvanda ilk növbədə, təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf vardır. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir. Hazırda düşmənlə sərhəddə vəziy-

yət necədir və hərbi potensialın möhkəmləndirilməsi üçün əlavə hansı işlər görülməlidir?

**Vasif Talıbov:** Çox sağ olun, cənab Prezident. Bunların hamısı Sizin ölkəmizə uğurlu rəhbərliyinizin, ümummilli liderimizin yolunu uğurla davam etdirməyinizin nəticəsidir. Bütün bunlara görə muxtar respublika sakinləri adından Sizə minnətdarlığımı bildirirəm. Bu günlər sərhədlərdə məhəlli münaqişələr baş verir, ancaq buna baxmayaraq, Sizin rəhbərliyinizlə, qayğınızla muxtar respublikada yerləşən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin birləşmə və hissələri uğurlu yol keçib, Əlahiddə Ümumqoşun Ordusu korpusdan Əlahiddə Ümumqoşun Ordusuna qədər yol keçibdir. Bu da Sizin qayğınızla yaradılıb. Alınmış silah və sursatla bu gün muxtar respublikanın ordusu da lazımınca təmin olunur. Hazırda muxtar respublikada yerləşən birləşmə və hissələrdə qəbul edilmiş planlara uyğun olaraq təlimlər və nəzəri işlər həyata keçirilir. Eyni zamanda, hazırda muxtar respublikanın əsgəri məişət komplekslərinin yaxşılaşdırılması sahəsində işlər gedir, hava hücumundan müdafiə sahəsində işlər həyata keçirilir. Bir sözlə, Sizin qayğınızla muxtar respublikanın müdafiəsi üçün orada yerləşən hərbi hissələr hər bir tapşırığı yerinə yetirməyə tam hazırdır.

**İlham Əliyev:** Dağ postlarına təchizatın təşkili ilə bağlı hansı işlər görülübdür?

**Vasif Talıbov:** Demək olar ki, hamısına yollar çəkilibdir. Bəzi postlarımız var ki, onların təminatı

avqust–sentyabr aylarında həyata keçirilir. Bütün postlarımızla əlaqəmiz var, gələn ilin iyun ayına qədər təminat artıqlaması ilə həyata keçirilib və xidmətin aparılmasında heç bir problem yoxdur.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Digər vacib sahə energetikadır. Bu istiqamətdə də böyük işlər görülüb. Hazırda Naxçıvanda generasiya gücü 220 meqavata yaxındır və sevindirici hal ondan ibarətdir ki, bunun əksəriyyəti bərpa olunan enerji növləridir. Su və günəş elektrik stansiyalarının tikintisi geniş vüsət alıbdır. Hazırda uzun illər üzərində işlədiyimiz və İran İslam Respublikası ilə imzalanmış anlaşma nəticəsində reallaşan önəmli layihə icra edilir – 36 meqavat gücündə Ordubad Su-Elektrik Stansiyası tikilir. Bu istiqamətdə hansı işlər görülüb və stansiyanın tikintisi ilə bağlı əlavə hansı addımlar atılmalıdır?

**V a s i f T a l ı b o v:** Sizin qayğınız və iştirakınızla 2005-ci il dekabrın 20-də muxtar respublikada İran İslam Respublikasından alınmış qazın açılışı həyata keçirildi, bu gün 90 minə yaxın abonent qazla təmin olunubdur. Elektrik enerjisi sahəsində də böyük işlər görülüb. Əgər 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur. Siz qeyd etdiyiniz kimi, bunun da 6-sı bərpa olunan enerji sistemləridir. Əgər 2003-cü ildə muxtar respublika 1 milyard kilovat-saata yaxın enerji idxal etmişdisə, 2018-ci ildə 35 milyon kilovat-saata yaxın ixrac edibdir. Bu sahədə də Sizin qayğınızla işlər davam etdirilir, problem yoxdur. Ordubad

Su-Elektrik Stansiyası ilə bağlı Araz çayının bizim əraziyə tərəf hissəsində bənd tikilib, qapılar qoyulub, kanalda işlər davam etdirilir. İran İslam Respublikası ilə danışıqlar aparılır ki, o tərəfdən də bəndin tikintisi ilə bağlı işlərə başlanılsın. Vəsait ayırıbsınız, heç bir problem yoxdur, işlər davam etdirilir.

**İlham Əliyev:** Çox yaxşı. Bu doğrudan da tarixi nailiyyətdir. Çünki Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan ayrılıb və belə olan halda, enerji təminatı xüsusi əhəmiyyət kəsb edir. Bu əslində təhlükəsizlik məsələsidir və heç bir daxili enerji resursu olmayan Naxçıvan hazırda elektrik enerjisini ixrac edir. Bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə, mümkün deyildi, bu gün isə bu reallıqdır. Şadam ki, bərpa olunan enerjinin ümumi enerji balansındakı payı getdikcə artır və Ordubad Su-Elektrik Stansiyasının istifadəyə verilməsi nəticəsində prinsip etibarilə Naxçıvan Muxtar Respublikası öz enerji təminatını 100 faiz bərpa olunan enerji hesabına qarşılayacaqdır.

Yolların tikintisinə də böyük vəsait ayrılıbdır və yollar keyfiyyətli tikilir. Mən şəxsən bunun şahidi olmuşam. Naxçıvan–Şərur–Sədərək avtomobil yolu bir neçə ildir ki, istifadəyə verilib. Naxçıvan–Şahbuz və Naxçıvan–Culfa yol layihələri tam icra edilib. Hazırda Culfa–Ordubad yolunun tikintisi davam etdirilir. Bu istiqamətdə hansı işlər görülüb və bu yolun nə vaxt istifadəyə verilməsi nəzərdə tutulur?

**Vasif Talıbov**: Çox sağ olun. Ayırdığınız vəsaitlə orada işlərə başlanılıb, yolun uzunluğu 50 kilometrdir. Layihəni təsdiq edən zaman verdiyiniz tapşırığa əsasən, onun 11 kilometri 2 gedişli-2 gəlişli, qalan 40 kilometrə yaxını isə 1 gedişli-1 gəlişlidir. Artıq orada torpaq və bir qat asfaltın qoyulması işləri başa çatıbdır. Bu ilin sonuna kimi orada ikinci asfalt qatının qoyulması başa çatacaqdır. İcazənizlə, biz üçüncü qatı qışda deyil, may–iyun aylarında qoyaq.

**İlham Əliyev:** Gələn ildə?

**Vasif Talıbov:** Bəli, yol böyüsün, otursun, may–iyun aylarında tamamilə tamamlanacaqdır.

**İlham Əliyev:** Beləliklə, şəhərlərarası bütün yollar artıq ən yüksək standartlara cavab verəcəkdir.

**Vasif Talıbov:** Bəli, birinci dərəcəli yollar, demək olar ki, tam standartlara cavab verən səviyyədə qurulur.

**İlham Əliyev:** Kənd yolları da tikilir, bu istiqamətə də vəsait ayrılıb və gələn ilin investisiya proqramında bu, nəzərə alınmalıdır.

**Vasif Talıbov:** Sağ olun. Ümumiyyətlə, 2003–2019-cu illər ərzində kənd yolları da daxil olmaqla, 2000 kilometrə yaxın ümumi yollar investisiya və büdcə vəsaiti hesabına qurulubdur.

**İlham Əliyev:** Çox yaxşı. Şərur Sənaye Məhəlləsinin yaradılması üçün bu il 5 milyon manat vəsait ayrılıbdır. Bu sahədə hansı işlər görülür? Eyni zamanda, Naxçıvanda yeni Xalça fabrikinin tikintisi də nəzərdə tutulur. Bu sahədə hansı işlər görülüb?

**V a s i f T a l ı b o v:** Ayırdığınız vəsait hesabına Şərur Sənaye Məhəlləsində artıq layihə-planlama işlərinə başlanılıb, qısa müddət ərzində investorların cəlb olunması ilə bağlı təkliflər vermişik. Təklifləri gözləyirik ki, orada hansı sənaye müəssisələri qurulsun. Demək olar ki, bu ilin sonuna artıq orada ilk müəssisənin qurulması işlərinə başlanılacaqdır. İlk olaraq bitki yağları istehsalı müəssisəsinin qurulması nəzərdə tutulubdur. Ona görə ki, muxtar respublikamızda bu, 100 faiz idxal hesabına həyata keçirilir.

Xalça fabrikinin qurulması işləri başa çatdırılıbdır. İndi yun tədarükü sexinin qurulması işləri davam etdirilir. Artıq orada işçilər götürülüb, yəni sınaq işləri başlanılıbdır, xalçalar toxunur. Bir-iki ay müddətində orada işlər tamamilə başa çatdırılacaqdır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Artıq bir neçə ildir ki, Naxçıvan özünü taxılla tam təmin edir və məhsuldarlıq da yaxşıdır. Kənd təsərrüfatının inkişafı üçün indi pivot suvarma qurğularının alınmasına vəsait ayrılıbdır. Eyni zamanda, bu ilin investisiya proqramında ümumi dəyəri təqribən 7 milyon manat olan Süni Mayalanma Mərkəzinin tikintisi nəzərdə tutulur. Bu vəsaitin böyük hissəsi bu il verilibdir. Bu sahədə hansı işlər görülübdür?

**V a s i f T a l ı b o v:** Muxtar respublikada bu sahəyə də diqqətiniz sayəsində, cənab Prezident, deyə bilərəm ki, bu illər ərzində 4000 hektara yaxın ərazidə yeraltı suvarma şəbəkələri qurulub, 160-dan yuxarı artezian quyusu qazılıb və kəhrizlər bərpa olunubdur. Bu-

nun hesabına 2003-cü ildə muxtar respublikanın əkinəyararlı torpaqları əgər 39 min hektarı əhatə edirdisə, «Heydər Əliyev» su anbarı istifadəyə verildikdən, yeraltı suvarma şəbəkələri qurulduqdan sonra bu gün artıq 62 min hektar əkinəyararlı torpaqlardan istifadə olunur və muxtar respublika özünü ərzaqla tam təmin edə bilir. Deyə bilərik ki, Sizin rəhbərliyinizlə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyi məsələləri tam təmin olunubdur.

**İlham Əliyev:** Çox yaxşı. Eyni zamanda, əminəm ki, artıq ixrac potensialı da formalaşa bilər. Bildiyiniz kimi, Türkiyə tərəfi böyük addım ataraq, Naxçıvan istehsal mallarının idxalı ilə bağlı göstəriş veribdir. Hesab edirəm ki, Naxçıvanın istehsal potensialı artdıqca ixrac imkanları da genişlənəcəkdir.

Bir məsələyə də toxunmaq istəyirəm. Keçən il Naxçıvan büdcəsinin gəlirləri təqribən 400 milyon manata yaxın idi. İndi növbəti il üçün büdcə məsələləri müzakirə olunur. Əlbəttə ki, Naxçıvanın uğurlu və təhlükəsiz inkişafı üçün nə lazımdırsa, biz onu da edəcəyik. Ancaq bir məsələyə diqqətinizi cəlb etmək istəyirəm. Naxçıvan büdcəsinin cəmi 22 faizi yerli gəlirlər hesabına formalaşır, yəni 383 milyon manatdan cəmi 83 milyon manatı yerli gəlirlər hesabına formalaşır, qalan 300 milyon manat Bakıdan dotasiya verilir. Hesab edirəm ki, növbəti illərdə yerli gəlirlərin artırılması istiqamətində işlər aparılmalıdır ki, onların faiz nisbəti artsın. Əminəm, belə olan halda, daha da böyük

imkanlar olacaq ki, sosial və sənaye layihələri icra edilsin.

Bütün ölkədə olduğu kimi, bu gün Naxçıvanda da maliyyə və iqtisadi sahələrdə şəffaflıq tam təmin edilməlidir. Bildirməliyəm ki, aparılan islahatlar nəticəsində təkcə bu ilin 10 ayı ərzində büdcə gəlirləri plandan əlavə 850 milyon manat artıbdır. Bunun yarısı gömrük, yarısı vergi orqanları hesabına formalaşıbdır. Bu əlavə 800 milyon manat sırf idarəetmədə aparılan islahatlarla, şəffaflıqla bağlıdır və bizə imkan verir ki, maaşları da, pensiyaları da, investisiya layihələrinə vəsaiti də artıraq. Ona görə gələn ilin büdcəsinə baxdıqda yerli gəlirlərin həm mütləq rəqəmlərinin artırılması, həm də ümumi büdcədə yerli gəlirlərin faizinin artırılması üçün əlavə addımlar atılmalıdır.

**Vasif Talıbov:** Gələn ilin büdcəsi ilə əlaqədar deyə bilərik ki, maaş artımı ilə əlaqədar büdcənin həcmi də artıbdır. Gəlirlər hissəsi isə 12 milyon manata yaxın artırılıbdır, yəni 2020-ci ilin büdcəsində yerli gəlirlər 100 milyon manata yaxındır. Pensiya və təqaüdlərin ödənilməsi üçün yerli büdcədə təqribən 100 milyon manata yaxın yığım nəzərdə tutulubdur.

**İlham Əliyev:** Çox yaxşı. Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır.

## QƏTƏR DÖVLƏTİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ FEYSAL BİN ABDULLAH HƏMƏD ABDULLAH ƏL-HİNZAB İLƏ GÖRÜŞ

*18 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah əl-Hinzabın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Feysal bin Abdullah Həməd Abdullah əl-Hinzab Fəxri qarovul dəstəsinin qarşısından keçdikdən sonra etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**Feysal bin Abdullah:** Cənab Prezident, böyük şərəf hissi ilə qardaş və dost Azərbaycan Respublikasına səfir təyin olunmağımla bağlı etimadnaməmi və sələfimin geri çağırılması ilə bağlı məktubu Sizə təqdim edirəm. Sizin baxışınıza ən uyğun şəkildə ikitərəfli münasibətlərimizin inkişafı üçün əlimdən gələni edəcəyəm. Çox sağ olun.

**İlham Əliyev:** Xoş gəlmisiniz! Sizi görməyimə çox şadam. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi arzu edirəm. Əminəm ki, sizin Azərbaycandakı fəaliyyətiniz zamanı ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafı davam edəcəkdir. Bizim çox yaxşı siyasi əlaqə-

lərimiz vardır. Hər iki tərəf bu münasibətləri qardaş ölkələr arasında münasibətlər kimi dəyərləndirir. Bu həqiqətdir. Əminəm ki, siyasi, iqtisadi və müxtəlif sahələrdə biz çoxlu tərəqqi müşahidə edəcəyik. Ölkələrimiz beynəlxalq arenada fəal əməkdaşlıq edir. Dövlət başçıları səviyyəsində qarşılıqlı rəsmi səfərlər olubdur. Bizim hökumətlərarası fəaliyyətimiz vardır. Nazirlər səviyyəsində qarşılıqlı səfərlər vardır. Ona görə əminəm ki, tərəfdaşlığımızın ənənəvi sahələrinə əsas diqqəti yetirmək və yeni sahələri aşkar etmək üçün gələcəkdə çoxlu imkanlar olacaqdır.

Hesab edirəm ki, ticarət dövriyyəsi ilə bağlı olan məsələyə xüsusi diqqət yetirməliyik. Ticarət dövriyyəsini hər iki istiqamətdə artırmaq üçün potensial vardır. Çünki indi bizim bir-birimizə təqdim edə biləcəyimiz daha çox şey vardır. Şadam ki, ölkənizdən gələn turistlərin sayı artmaqdadır və bu da bizim əməkdaşlığımızın yaxşı əlamətidir. Bildiyiniz kimi, sizin vətəndaşlar üçün heç bir viza tələbi yoxdur və əminəm ki, hər iki istiqamətdə biz turistlərin sayının artdığını görəcəyik.

Potensial əməkdaşlıq sahələrindən biri də investisiyalardır. Bilirəm ki, sizin ölkəniz xaricə sərmayə yatırır, Azərbaycan da xaricə sərmayə yatırır, biz birgə investisiya layihələri üçün sahələri tapa bilərik. Odur ki, diqqətimizi cəmləşdirmək üçün çoxlu sahələr olacaqdır. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı siz çox məşğul olacaqsınız və əlaqələrimizin gücləndirilməsi üçün bütün vaxtınızı sərf edəcəksiniz.

**F e y s a l b i n A b d u l l a h:** Təşəkkür edirəm, zati-aliləri. Cənab Prezident, burada olmaqdan, Sizinlə görüşməkdən, Sizə etimadnaməmi təqdim etməkdən şərəf hissi duyuram. Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd əl-Taninin Sizə salamlarını, xalqınıza daha böyük nailiyyətlər, rifah və tərəqqi arzularını çatdırıram. Burada biz hərtərəfli inkişafın şahidi olmuşuq və mən bunu görüşdüyüm hər kəsə söyləyirəm. Biz ilk baxışdan ölkənizə aşiq olmuşuq. «Qoşulmama Hərəkatı» Sammitində iştirak etmək, dini liderlərin sammitini isə izləmək fürsəti mənə nəsib olubdur. Zati-aliləri, bu iki sammitin uğurlu keçirilməsi münasibətilə Sizi, hökumətinizi və xalqınızı təbrik edirik. Bu bizdə belə bir təəssürat yaradır ki, Azərbaycan dünya xəritəsində öz çəkisinə malik olan ölkələrdəndir, düzgün istiqamətdədir və müxtəlif tədbirlərin keçirilməsi üçün ev sahibi kimi çıxış edir. Bu da Azərbaycan üçün siyasi vasitədir. Əlbəttə, bizim çox mükəmməl münasibətlərimiz vardır. Mənə şəxsən bu münasibətlərin bütün istiqamətlərdə inkişafı üçün gərgin çalışmaq təlimatı verilibdir.

* * *

*Prezident İlham Əliyev Qətər Dövlətinin Əmiri əlahəzrət şeyx Təmim bin Həməd əl-Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.*

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ SAMİ ABDULLAH ĞOŞEH İLƏ GÖRÜŞ

*18 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Sami Abdullah Ğoşehin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Sami Abdullah Ğoşeh Fəxri qarovul dəstəsinin qarşısından keçdikdən sonra etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**Sami Abdullah Ğoşeh:** Cənab Prezident, İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri kimi, etimadnaməmi və sələfimin geri çağırılma məktubunu təqdim etmək mənim üçün şərəfdir.

**İlham Əliyev:** Xoş gəlmisiniz, cənab səfir! Sizi Azərbaycanda salamlayıram, sizə uğurlar arzulayıram. Əminəm ki, fəaliyyətiniz dövründə biz İordaniya–Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafını görəcəyik.

Bildiyiniz kimi, əlaqələrimiz çox yüksək səviyyədədir və biz bir çox sahələrdə uğurlu əməkdaşlıq edirik. Mənim qardaşım Kral həzrətləri ilə çox möhkəm dost-

luq, qardaşlıq münasibətlərimiz vardır. Bildiyiniz kimi, dövlət başçılarının bir çox qarşılıqlı səfərləri təşkil edilmişdir. Beynəlxalq təşkilatların tədbirləri zamanı biz həmişə bir-birimizlə görüşürük. Ötən ay Rusiyada «Valday» Diskussiya Klubunun iclasında birlikdə iştirak etmişik. Doğrudan da Kral həzrətləri ilə bizim çox yaxın əlaqələrimiz var və bu əlaqələr ikitərəfli münasibətlərimizin inkişafı üçün də mühüm rol oynayır. Beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birimizi dəstəkləyirik və bu qarşılıqlı dəstək və həmrəylik davam etdiriləcəkdir.

Hesab edirəm ki, biz növbəti mərhələdə daha çox iqtisadi əməkdaşlığa fikir verməliyik. Hələ ki, qarşılıqlı ticarət dövriyyəmiz bizim istəklərimizi əks etdirmir. Ona görə ticarət dövriyyəsinin artırılması istiqamətində əlavə addımların atılması lazımdır. Hesab edirəm ki, hökumətlərarası birgə Komissiya da bu istiqamətdə önəmli addımlar atacaq. Qarşılıqlı sərmayə qoyuluşu məsələlərinə də çox diqqətlə baxmaq lazımdır. Son zamanlar turizm sahəsində yaxşı irəliləyiş var və əminəm ki, bu müsbət dinamika davam etdiriləcək. Ölkənizin çox məşhur, dünya səviyyəli tarixi abidələri, əlbəttə ki, bir çox ölkələrdən turistləri cəlb edir. Son illərdə Azərbaycana da xaricdən gələn turistlərin sayı kəskin artıbdır. Bu ilin 10 ayında 11 faiz artım vardır. Ancaq oktyabr ayında keçən ilin oktyabrı ilə müqayisədə 25 faiz artım olubdur.

Biz sözlə, əlaqələrimizin hərtərəfli inkişafı üçün çox gözəl şərait vardır. Əminəm ki, siz öz fəaliyyə-

tinizlə bu işlərə yeni təkan verəcəksiniz. Bir daha xoş gəlmisiniz!

**Sami Abdullah Ğoşeh:** Cənab Prezident, gərgin iş qrafikinizə baxmayaraq, vaxt ayırıb bizi qəbul etdiyinizə, etimadnaməni təqdim etmək üçün şərait yaratdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. İcazə verin, İordaniya Haşimilər Kralı II Abdullahın salamlarını Sizə çatdırım. Azərbaycan Respublikasına və Azərbaycan xalqına davamlı inkişaf, rifah və şəxsən Sizə cansağlığı, uzun ömür arzulayıram.

Əlahəzrət Kralın təlimatına uyğun olaraq, mən işlədiyim müddət ərzində iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı istiqamətində səylərimi əsirgəməyəcəyəm. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindəki həmkarlarımla birlikdə və digər qurumların köməyi ilə bu əlaqələrin daha da inkişaf etməsinə nail olacağıq. İki ölkə arasında iqtisadiyyat, investisiya və turizm sahələrində əlaqələrin inkişafı üçün azərbaycanlı həmkarlarımızla birgə iş görəcəyik. Cənab Prezident, əlahəzrət Kral gələn ay Sizinlə görüşmək arzusundadır.

Mən Azərbaycanda gördüyüm bu möhtəşəm inkişaf, bütün sahələri əhatə edən tərəqqiyə valeh olduğum barədə hisslərimi Sizə bildirmək istərdim. Əlbəttə, Azərbaycanın necə gözəl, füsunkar ölkə olduğunu şəkillərdən, fotolardan bilirdim, amma buraya gəldiyim ilk gündən bunun bilavasitə şahidi oldum. Əldə olunmuş bu misilsiz, əvəzolunmaz tərəqqinin adamda ya-

ratdığı ilk təəssürat odur ki, həqiqətən, Azərbaycan inkişaf etmiş dövlətlərin sırasındadır.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, xahiş edirəm mənim də səmimi salamlarımı Kral həzrətlərinə çatdırasınız. Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Əminəm ki, fəaliyyətiniz dövründə siz Azərbaycanın müxtəlif regionlarına səfər edəcək, ölkəmizlə, xalqımızla yaxından tanış olacaq və görəcəksiniz ki, İordaniyaya, onun xalqına Azərbaycan cəmiyyətində nə qədər böyük rəğbət vardır.

## «AZƏRBAYCAN DƏMİR YOLLARI» QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN BAKI DAİRƏVİ DƏMİR YOLU SABUNÇU–PİRŞAĞI XƏTTİNİN YENİDƏN QURULMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*19 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin Bakı dairəvi dəmir yolu Sabunçu–Pirşağı xəttinin yenidən qurulmadan sonra açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı Pirşağı stansiyasında Sabunçu–Pirşağı xəttinin rəmzi açılışını bildirən lenti kəsdi və stansiya ilə tanış oldu.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Prezident İlham Əliyevə Abşeron dairəvi dəmir yolu xəttində aparılmış yenidən qurulma işləri və perspektiv planlar barədə məlumat verdi.*

*Bildirildi ki, Abşeron dairəvi dəmir yolu xəttində ümumilikdə 17 stansiya və dayanacaq vardır. Bakı sərnişin–Sabunçu–Pirşağı–Sumqayıt sərnişin–Xırdalan–Biləcəri–Bakı sərnişin dairəvi dəmir yolu xəttinin ümumi uzunluğu 191,6 kilometrdir. Aparılmış yenidən qu-*

*rulma işləri çərçivəsində Zabrat-1, Məmmədli dayanacaqları, Pirşağı və Zabrat-2 stansiyaları yenidən qurulubdur.*

*Dövlət başçısı Pirşağı stansiyasından qatarla Zabrat-2 stansiyasına yola düşdü.*

*Prezident İlham Əliyev Zabrat-2 stansiyasına gəldi. Yenidən qurulma işləri çərçivəsində bu stansiya da müasir səviyyəyə çatdırılıbdır.*

*Sonra dövlət başçısı İlham Əliyev Zabrat-2 stansiyasından Bakı Dəmir Yolu vağzalına yola düşdü. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial məsələlərinin həlli dayanır. Vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində icra olunan layihələr ardıcıl və davamlı xarakter daşıyır. Bu layihələr sırasında ölkəmizdə yol-nəqliyyat infrastrukturunun yenilənməsinə xüsusi diqqət yetirilir. Görülmüş işlər nəticəsində Azərbaycanda ən müasir yol-nəqliyyat infrastrukturu yaradılıb. Bu da vətəndaşların rahatlığına hərtərəfli imkan yaradır. Bu baxımdan Abşeron dairəvi dəmir yolu xəttinin yenidən qurulması böyük rol oynayır. Paytaxtətrafı qəsəbələrdə yaşayan sakinlər rahat və təhlükəsiz şəkildə şəhər istiqamətinə və mənzil başına çata biləcəklər. Layihənin icrası paytaxtda tıxacların qarşısının alınmasına, hərəkətin təhlükəsizliyinin və intensivliyinin təmin olunmasına, həmçinin ekoloji vəziyyətin daha da yaxşılaşdırılmasına töhfə verir.*

*Bakı Dəmir Yolu vağzalına gələn Prezident İlham Əliyevə burada «Defektoskop» infrastruktur-diaqnostika kompleksi barədə məlumat verildi.*

*Dövlət başçısı İlham Əliyev burada bir qrup dəmiryolçu ilə görüşdü.*

**İlham Əliyev:** Bu gün yeni dəmir yolu xəttinin açılışını qeyd etdik. Pirşağı stansiyası istifadəyə verildi. Şəhərə qədər yolboyu bütün stansiyalar ən yüksək standartlara cavab verir, bugünkü müasir Azərbaycanımızı bir daha güclü dövlət kimi göstərir.

Dəmir yollarının yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Mən artıq bu rəqəmləri səsləndirmişəm. Dünya miqyasında ən mötəbər beynəlxalq təşkilatlardan biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanda dəmir yollarının keyfiyyəti ilə bağlı hesabatda göstərib ki, Azərbaycan dəmir yollarının səmərəliliyi baxımından dünyada 12-ci, dəmir yollarının keyfiyyətinə görə isə 34-cü yerdədir. Bütün bunları biz son illər ərzində həll etmişik. Dəmir yollarının abadlaşdırılması, qurulması, dəmir yolu xidmətlərinin təkmilləşdirilməsi istiqamətində son illər ərzində, xüsusilə mən Cavid Qurbanovu bu vəzifəyə təyin etdikdən sonra böyük irəliləyiş vardır. Azərbaycan artıq beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilib, Bakı–Tbilisi–Qars dəmir yolu istifadəyə verilib, Şimal–Cənub nəqliyyat dəhlizi işləyir, yükdaşımalar kəskin artır, eyni zamanda, ölkə daxilində infrastruktur təzələnir, İsveçrə istehsalı olan yeni müasir «Stadler»

vaqonları alınıb. Hesab edirəm ki, bu vaqonlar dünya miqyasında ən gözəl və təhlükəsiz vaqonlardır.

Dəmir yolları, stansiyalar tikilir, şəhərətrafı dəmir yolu uğurla inşa edilir. Bu gün mən Pirşağıdan Bakıya çox rahat gəlmişəm. Gələn il artıq Sumqayıt–Pirşağı dəmir yolu birləşəcək və beləliklə, dairəvi yol formalaşacaqdır. Gələn ilin investisiya proqramında yenə də əlavə vəsait nəzərdə tutulacaq ki, biz dəmir yolu şəbəkəsini genişləndirək.

Dəmir yolu həm bizim iqtisadi gücümüzü artırır, Azərbaycan bir çox ölkələr üçün önəmli dəmir yolu məntəqəsinə çevrilir, həm də bu, vətəndaşların rahatlığı üçün çox böyük əhəmiyyət daşıyır. Bakı–Gəncə sürət qatarının işləməsi görün ölkəmizə nə qədər böyük dəyişiklik gətirib. İndi Gəncə–Ağstafa sürətli dəmir yolunun işə salınması istiqamətində işlər gedir. Bundan sonra da bu işlər görüləcək. Qəbələyə, Şahdağa qədər dəmir yollarının tikintisi nəzərdə tutulur. Bakı–Yalama, Astara–Ələt dəmir yolunun bərpası nəzərdə tutulur. İşlər çoxdur. Mən dəmiryolçuları görülmüş işlər münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra dövlət başçısı metronun «28 May» stansiyasının qarşısında vətəndaşlarla görüşdü, onlarla söhbət etdi.*

*Daha sonra Prezident İlham Əliyev Dəmir Yolu Muzeyi ilə tanış oldu.*

*Məlumat verildi ki, Azərbaycanda ilk elektrikləşdirilmiş dəmir yolu sahəsinin təntənəli açılışı 1926-cı il iyulun 6-da olub. Muzeydə ölkəmizin dəmir yolu sahəsinin inkişaf mərhələlərinə aid müxtəlif maraqlı eksponatlar sərgilənir. Köhnə Sabunçu vağzalının binasında yerləşən muzeydə XIX əsrdə dəmir yolunun yaranması tarixini əks etdirən foto və videomateriallar, dəmir yolu və qatar modelləri yer alır. Muzeydə XX əsrdə dəmir yolunda gedən inkişaf proseslərinin müxtəlif sahələrinə aid eksponatlar, dəmir yolu qatarlarının modelləri nümayiş olunur. Burada eyni zamanda, bədii və sənədli filmlərin nümayişi də nəzərdə tutulur. Zaqafqaziya dəmir yolunun tarixi xəritəsi də muzeyin nadir eksponatlarındandır.*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*21 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərinə səfərə gəlmişdir.*

*Dövlət başçısı İlham Əliyev ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülmüş işlər haqqında məlumat verdi.*

*Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## SUMQAYIT ŞƏHƏRİNDƏ «NİZAMİ» KİNOTEATRININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*21 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıtda «Nizami» kinoteatrının yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı kinoteatrın binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərikimya» İstehsalat Birliyinin baş direktoru İmran Arzumanzadə məlumat verdi ki, «Nizami» kinoteatrı üçün yeni binanın inşasına bu ilin mayında başlanılıb. Nəriman Nərimanov küçəsində yerləşən binanın ərazisi abadlaşdırılıb, ətrafda istirahət parkı salınıbdır. İkimərtəbəli binada hər biri 80–100 yerlik olmaqla, 3 kinozal və digər inzibati otaqlar vardır.*

*Müasir səviyyədə yaradılan, ən son texnoloji yeniliklərə əsaslanan video və audiosistemlə təchiz olunan «Nizami» kinoteatrının yeni binasının istifadəyə verilməsi Sumqayıtın mədəni həyatında mühüm hadisədir. Bu, şəhər həyatı ilə bağlı mədəni tədbirlərin keçirilməsini daha da stimullaşdıracaq, insanların istirahətinin təşkilində əhəmiyyətli rol oynayacaq və gənclərin bu tədbirlərdə daha fəal iştirakına təkan verəcəkdir.*

*Kinoteatrın qarşısında Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin heykəli qoyulubdur.*

*Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan uğurlu islahatlar digər sahələrlə yanaşı, mədəniyyət sferasını da əhatə edir. Bu islahatların səmərəli nəticələrini isə istər mədəniyyət sahəsində çalışanların sosial rifah halının yaxşılaşdırılmasında, yeni mədəniyyət obyektlərinin inşasında və mövcud olanların müasir səviyyəyə çatdırılmasında, istərsə də bu sferanın maddi-texniki bazasının möhkəmləndirilməsində aydın görmək olar. Ölkəmizdə bu istiqamətdə icra olunan layihələr isə davamlı xarakter alıb. Sumqayıtda «Nizami» kinoteatrı üçün yeni binanın inşası bunu bir daha göstərir. Belə layihələrin həyata keçirilməsi yeni mədəniyyət ocaqlarının yaradılması baxımından ölkəmizdə görülən işlərin ardıcıllığını nümayiş etdirir. Eyni zamanda, şəhər sakinlərinin və qonaqların asudə vaxtlarının səmərəli təşkilində, onların müasir kino sənayesinin yeni məhsulları ilə tanış olmasında belə mədəniyyət ocaqları mühüm rol oynayır.*

## Muğam Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıtda Muğam Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı Muğam Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, inşasına bu ilin mayında başlanılmış mərkəzin binası ikimərtəbəlidir. Burada konfrans zalı, qrim, məşq, rejissor otaqları yaradılıb. Sinif otaqlarının hamısı zəruri avadanlıqlarla təchiz edilib. Tamaşaçı tutumu 400 nəfər olan konsert zalında müxtəlif mədəni tədbirlərin, o cümlədən muğam gecələrinin keçirilməsi üçün hər cür şərait vardır. Sinif otaqlarında isə muğamın sirlərinə yiyələnmək üçün bütün imkanlar mövcuddur.*

*Sumqayıt bulvarı ərazisində yerləşən Muğam Mərkəzinin ətrafı abadlaşdırılıbdır.*

*Burada yaradılmış şərait bir daha təsdiqləyir ki, xalqımızın ən qədim musiqisi olan muğamın yaşadılması, onun gələcək nəsillərə çatdırılması daim diqqət mərkəzindədir. Xalqın ruhundan süzülən muğamın inkişafı ilə bağlı dövlətin nümayiş etdirdiyi konsepsiya onun təbliği və dünya xalqlarına çatdırılmasında da əhəmiyyətli rol oynayır.*

*Son illərdə istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda muğamın təbliğinə dövlət səviyyəsində yüksək diqqət göstərilir. Bu baxımdan son dövrlərdə yaradılmış Muğam mərkəzlərinin müstəsna əhəmiyyəti vardır. 2008-ci ildə Bakıda və Ağcabədidə, 2010-cu ildə Füzulidə, 2018-ci ildə Ağdamda inşa olunmuş Muğam Mərkəzi ölkəmizdə muğamın inkişafına mühüm töhfələr verib. Bəşəriyyətin şifahi və mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlət tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın Birinci vitse-prezidenti*

*Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da tarixi töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESKO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf edibdir. Muğam UNESKO-nun «Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri» siyahısına salınıb. Ötən illərdə Heydər Əliyev Fondu ilə Azərbaycan Televiziyasının birgə layihəsi əsasında «Muğam televiziya müsabiqələri»nin keçirilməsi bu əvəzsiz sənət nümunəsinin yaşadılması, xalqımızın qədim yaddaşından gələn muğamlarımızın qorunması istiqamətində mühüm hadisələr kimi tarixə düşübdür.*

## Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısı elektromobillə Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsini gəzdi.*

*Məlumat verildi ki, Sumqayıt bulvarı şəhərin şimal-qərb istiqamətində 1 kilometr uzunluğunda, 400 metr enində, ümumilikdə isə 40 hektar sahədə genişləndirilib. Beləliklə, bu istirahət məkanının sahəsi 106 hektara, uzunluğu isə 5,2 kilometrə çatdırılıb. Ərazidə geniş miqyasda yaşıllıq sahəsi salınıb, müasir işıqlandırma sistemi qurulubdur. Parkboyu 1 kilometr*

*uzunluğunda yeni yol inşa olunub. Kompleksin yeni salınmış hissəsində bütün yaş qruplarının istirahəti üçün yüksək səviyyəli şərait yaradılıbdır.*

*Bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biri də yeni istirahət guşələrinin, park və xiyabanların yaradılmasıdır. Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığına əsasən, bütün şəhər və rayonlarda yeni parkların, xiyabanların, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində mühüm layihələr icra edilir. Bu istiqamətdə reallaşdırılan ən mühüm layihələrdən biri də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Bu kompleksdəki şərait sübut edir ki, Azərbaycan dövləti vətəndaşların istirahətini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Xəzərin sahilindəki bu kompleks Sumqayıt şəhərinin simasının daha da gözəlləşdirilməsi baxımından da olduqca əhəmiyyətlidir.*

## SUMQAYIT ŞƏHƏRİNİN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ İŞTİRAK

*21 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak etmişdir.*

*Dövlət başçısı tədbirdə geniş nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Əziz sumqayıtlılar, əziz dostlar!

Mən sizi və bütün sumqayıtlıları, bütün Azərbaycan xalqını Sumqayıt şəhərinin 70 illiyi münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram.

Bu gün Sumqayıt müasir, böyük sənaye potensialına malik olan, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir. Əldə edilmiş bütün nailiyyətlər münasibətilə sumqayıtlıları təbrik edirəm. Sumqayıtın qədim tarixi vardır. Ancaq şəhər kimi, Sumqayıt 70 il bundan əvvəl formalaşıb. 1949-cu il noyabrın 22-də Nazirlər Sovetinin qərarı ilə Sumqayıt şəhəri yaradılıb və Sumqayıtın sürətli inkişafı başlanıbdır. Sumqayıt sənaye şəhəri kimi formalaşıb, kimyaçılar şəhəri kimi inkişaf edibdir. Sumqayıtda bir çox sənaye müəssisələri, yeni iş yerləri yaradılıbdır. Azərbaycanın

müxtəlif bölgələrindən Sumqayıta kadrlar gəlməyə başlayıbdır. Sovet İttifaqının digər respublikalarından gələnlər də Sumqayıtda işlə təmin olunurdular.

Ancaq əfsuslar olsun ki, şəhərin yaranmasının birinci mərhələsini əhatə edən dövr ərzində Sumqayıtda ekoloji tarazlığa fikir verilməmiş, ekoloji tarazlıq pozulmuşdur. Sumqayıt o illərdə Sovet İttifaqında ekoloji cəhətdən ən qeyri-təmiz şəhər kimi fəaliyyət göstərirdi. Əlbəttə ki, bu, insanların sağlamlığına da zərər vururdu. Ancaq 1969-cu ildə ulu öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra ekoloji vəziyyətə diqqət yetirməyə başlamışdır. Mən bilirəm ki, Heydər Əliyev Sumqayıtın ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün mərkəzi orqanlara dəfələrlə müraciət etmişdir, bunun nəticəsində müvafiq tədbirlər görülmüş, təmizləyici qurğular quraşdırılmış və ötən əsrin 70-ci illərində şəhərin ekoloji vəziyyəti yaxşılaşdırılmışdır, ancaq standartlara hələ də tam cavab vermirdi. Bu gün biz görürük ki, Sumqayıt ekoloji cəhətdən təmiz bir şəhərdir, təbiəti çox gözəldir. Əminəm ki, bu istiqamətdə bundan sonra da atılacaq addımlar Sumqayıtı daha da gözəlləşdirəcəkdir.

Heydər Əliyevin fəaliyyəti dövründə Sumqayıt müasir sənaye şəhəri kimi inkişaf edib, burada yeni yaşayış binaları tikilib, sosial obyektlər yaradılıb, parklar, xiyabanlar salınıb, ağaclar əkilib və Sumqayıt Sovet İttifaqı müstəvisində mühüm ümumittifaq əhəmiyyətli sənaye şəhəri kimi inkişaf edibdir. 1982-ci ildə ulu öndər Heydər Əliyev Moskvaya gedəndən sonra Azər-

baycanın hər bir yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başlanıbdır. Ovaxtkı respublika rəhbərliyi öz məsuliyyətini tam dərk etmirdi, proseslərə nəzarət etmirdi və bunun nəticəsində Azərbaycanda inkişaf, demək olar ki, getmirdi, durğunluq dövrü başlamışdı. Heydər Əliyev Siyasi Büronun üzvü və Sovet İttifaqının Nazirlər Soveti Sədrinin Birinci müavini kimi, Azərbaycana daim kömək və diqqət göstərirdi, buna baxmayaraq, respublikada işlər tənəzzülə uğrayırdı. Xüsusilə 1985-ci ildən sonra Sovet İttifaqında «yenidənqurma» dövrü başlandı. Sovet İttifaqında, o cümlədən Azərbaycanda çox mənfi proseslər getməyə başlandı. Təsadüfi deyil ki, «yenidənqurma» siyasəti başlanandan 6 il sonra Sovet İttifaqı kimi nəhəng dövlət çökdü.

1985-ci ildə Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Çünki həm iqtisadi sahədə durğunluq hökm sürürdü, həm də erməni millətçiləri baş qaldırmışdı. Həm Dağlıq Qarabağda, həm də respublikamızın digər yerlərində, o cümlədən Sumqayıtda vəziyyət yaxşı deyildi. Ulu öndər Heydər Əliyevin dövründə Dağlıq Qarabağda azərbaycanlı əhalinin faiz nisbəti kəskin şəkildə – 2 dəfə artmış və azərbaycanlı əhali 30 faizə çatmışdır. Əgər Heydər Əliyev 1982-ci ildə Moskvaya getməsəydi və Azərbaycanda qalsaydı, bəlkə də 10 il ərzində artıq orada azərbaycanlı əhali 50 faizə çatacaqdı. Dağlıq Qarabağda erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında məsələ qaldırmışdılar. Əfsuslar olsun ki,

Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı. Eyni zamanda, erməni millətçiləri Sumqayıtda da yuva qura bilmişdilər və burada da xoşagəlməz proseslərə artıq təkan verilmişdi. Bildirməliyəm ki, Sovet İttifaqının süquta uğramasının bir neçə səbəbi vardır. Onların ən başlıcası odur ki, iqtisadi münasibətlər düzgün qurulmamışdı, planlı iqtisadiyyat özünü doğrultmamışdı. Sovet İttifaqının inkişafı keçən əsrin 80-ci illərində daha çox neft amilinə söykənirdi və neftin qiyməti dünya bazarlarında kəskin düşəndən sonra gəlirlər də azaldı və bu gəlirləri başqa sahələrdən əldə edilən mənfəət hesabına formalaşdırmaq mümkün olmadı. Ona görə, əlbəttə, iqtisadi amil birinci rol oynayırdı, eyni zamanda, 1985-ci ildən sonra Sovet İttifaqında milli siyasət sahəsində çox kobud səhvlər buraxılmışdır. Sovet İttifaqını böyük, çoxmillətli ölkə kimi ayaqda saxlayan milli siyasət idi. Müttəfiq respublikalarda yerli milli kadrların qabağa çəkilməsi adi təcrübə idi. 1985-ci ildən sonra bu sahəyə böyük zərbə vuruldu. Biz yaxşı xatırlayırıq ki, o vaxt xüsusilə müsəlman respublikalarına münasibət çox mənfi idi. Müsəlman respublikalarının rəhbərlərinə qarşı qarayaxma kampaniyaları aparılırdı. Ümumittifaq mətbuatında bu respublikalar haqqında ancaq mənfi materiallar dərc edilirdi. Bu respublikalara mərkəzdən istintaq qrupları göndərilmişdi və elə bir rəy yaradılmışdı ki, Orta Asiya respublikalarında və Azərbaycanda vəziyyət bərbaddır,

vəziyyət kritik həddə çatıb və o respublikaları idarə edənlər vəzifə borcunu yerinə yetirə bilmirlər. Əlbəttə, hər bir respublikada pozuntular da, nöqsanlar da olmuşdur, digər respublikalarda da bunlar var idi. Nə üçün bu istintaq qrupları Ermənistana, Gürcüstana, Ukraynaya, Moldovaya və digər respublikalara göndərilmirdi, ancaq Orta Asiya respublikalarına və Azərbaycana göndərilirdi? Beləliklə, Sovet İttifaqının təməl sütunu olan milli siyasət artıq deformasiyaya uğramışdı.

Eyni zamanda, separatçılara imkan yaradılmışdı ki, onlar nəinki öz cəfəng fikirlərini səsləndirsinlər, həm də ictimai rəyə təsir etsinlər. Biz yaxşı xatırlayırıq ki, o vaxt erməni millətçiləri, o cümlədən cəllad Balayan, Kaputikyan və digərləri azərbaycanlılara qarşı açıq-aydın etnik ayrı-seçkilik toxumları səpirdilər. Ümumittifaq mətbuatda bu barədə açıq söhbət gedirdi və ümumiyyətlə, Azərbaycana qarşı ədalətsiz münasibət göstərilirdi. Bütün bunlar 1987-ci ildən sonra baş vermişdir. Çünki 1987-ci ildə Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra Azərbaycan hədəf seçildi. O dövrü təhlil edərkən bir daha görürük ki, bütün bu hadisələr erməni millətçilərinin və onların havadarlarının məkrli planının bir hissəsi idi. Baxın, 1985-ci ildən sonra Heydər Əliyev Qorbaçovun yarıtmaz siyasətinə qarşı açıq şəkildə çıxış etmişdi, buna görə həm mərkəzi mətbuat orqanlarında, həm də Azərbaycanda ona qarşı kampaniya başlamışdı. Burada da milli satqınlar mərkəzə donoslar yazmağa başlamışdılar.

1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş verdi. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar. Onlar belə cəhdlər edirdilər, amma Heydər Əliyev bunun qarşısını layiqincə alırdı. Yəni plan onu vəzifədən uzaqlaşdırmaq və bu məqsədlə buradakı yerli satqınlar, xainlər vasitəsilə donos göndərmək, erməni millətçiləri tərəfindən məsələ qaldırmaq idi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz. Beləliklə, iğtişaş törətmək, hansı ki Sumqayıtda baş verdi və ondan sonra məsələ qaldırmaq ki, ermənilər Azərbaycanın tərkibində təhlükəsiz şəkildə yaşaya bilmirlər. Buna görə də Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməlidir. Bax, plan bundan ibarət idi və əfsuslar olsun ki, bu plan həyata keçdi.

Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirdilər. Tamamilə əsassız və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələ-

rini törədən erməni millətçiləri və erməni dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi olub. Sonra nə baş verdi? İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etdi ki, həmin o Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetiribmiş. O, həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və orada sərbəst buraxılır. Bax, sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o onların tapşırıqlarını icra edib. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət alır və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş verir. Mən dəfələrlə bunu demişəm, əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi.

Ondan sonra bizi yeni, çox ağır sınaq və faciə gözləyirdi – Yanvar faciəsi. Yenə də Qorbaçov sovet xalqına qarşı böyük cinayət törədərək, dinc əhalini qırdırdı. 100-dən çox günahsız insan həlak oldu. Azərbaycan xalqının qanı axıdıldı. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi tamamilə iflic vəziyyətdə idi. O vaxt respublikaya rəhbərlik edən, antimilli siyasətlə fərqlənmiş Vəzirov respublikanı tərk edərək, hərbi təyyarə ilə Moskvaya qaçdı. Heç bir rəhbər işçi bu

qanlı cinayəti qınamadı. Ancaq o vaxt pensiyada olan Heydər Əliyev ona qarşı çox çirkin kampaniya gedə-gedə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək – mən də onun yanında idim – öz etiraz səsini ucaltdı, bütün dünyaya Yanvar faciəsi haqqında məlumat verdi. Sovet İttifaqının rəhbərliyini qınadı, onların siyasətini pislədi və uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etdi.

O vaxt Sovet İttifaqının dağılmasına hələ 2 il var idi. Heç kimin ağlına gələ bilməzdi ki, bir gün Sovet İttifaqı dağılacaq. Yəni bu addımı atarkən Heydər Əliyev təcrübəli rəhbər kimi bilirdi ki, ona qarşı çox böyük təzyiqlər olacaq və nəinki təzyiqlər, onun hətta həyatı təhlükə altına düşə bilər. Belə də oldu. Sonrakı tarix bunu bir daha göstərdi, onun həbs edilməsi haqqında qərar verildi. Bakıya gəlməli idi, həmin gün onun yaxın tərəfdarı qətlə yetirildi. Ondan sonra onun səfəri təxirə salındı. Sonra Bakıya gəldi. Ovaxtkı rəhbərlik ona burada da yaşamağa imkan vermədi, Naxçıvana üz tutdu. Beləliklə, Azərbaycanın yeni dövrü başlandı.

Bu gün, noyabrın 21-i Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması günüdür. Çünki o vaxt özünü demokrat adlandıran, hakimiyyəti qanunsuz yollarla zəbt etmiş satqın AXC–Müsavat hakimiyyəti imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Heydər Əliyevi dəstəkləyən vətənpərvər insanlar, ziyalılar Naxçıvana gedib soyuq, işıqsız şəraitdə – hər on dəqiqədən bir işıqlar kəsilirdi – Yeni Azərbaycan Partiyasını təsis etdilər.

Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Dövlət bayrağı kimi ucaltdı və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı ki, onlar da eyni addımı atsınlar. Onlara hələ bir neçə ay lazım oldu və artıq görəndə ki, Sovet İttifaqı çökür, ondan sonra bunu etdilər.

Biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq. Elə etməliyik ki, gənclər də bunu bilsinlər, hesab etməsinlər ki, bugünkü inkişaf, bugünkü tərəqqi göydən düşüb. Bilsinlər ki, biz buna qanımız, canımız bahasına nail olmuşuq. Biz tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik. Ona görə ki, o rüsvayçı dövr təkrarlanmasın.

Bunu deyəndə, əlbəttə ki, mən ilk növbədə, AXC–Müsavat dövrünü qeyd edirəm. 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş o antimilli dəstə Azərbaycanı uçuruma aparırdı. Azərbaycan əldən gedirdi. Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talan, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü. Ermənilər orada torpaqlarımızı işğal edirdi, Xalq Cəbhəsi isə vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı. Vətəndaş müharibəsi ən ağır müharibədir. Çünki qardaş qanı axıdılır. Ona da getdilər ki, öz laxlamış hakimiyyətlərini qoruya bilsinlər. Görəndə ki, qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki,

gəl bizi xilas et. Yalvarırdılar, mən bunun şahidiyəm. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas et, çünki artıq gəlirdilər onları öldürməyə, yaxud da ki, yıxmağa. Qaçıb gizləndilər, bəziləri guya vəzifələrini dondurdular. O vaxt belə cəfəng ifadələr işlədilirdi. Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də o antimilli AXC–Müsavat dəstəsi öz cəzasını alacaqdı. Yəni Heydər Əliyevin humanistliyi onları layiq olduqları bu cəzadan xilas etdi.

Başqa cür ola da bilməzdi. Çünki baxın, bizi kimlər idarə edirdi. İndi bu tarix yaddan çıxır, amma çıxmamalıdır. Baxın, Azərbaycan xalqı hansı rəzil dövrdə yaşayırdı. Baxın, kimlər idi. Mən bir daha deməliyəm ki, yaddan çıxmasın, gənclər də bilsin. Prezident elmi işçi, zəif, iradəsiz bir adam idi. Heç vaxt heç bir idarəyə rəhbərlik etməmişdi. Hətta kiçik bir idarənin rəhbəri belə, olmamışdı. Sadəcə, küçələrdə, orada-burada çığırıb bağırmaqla gəldi Prezident oldu və ölkəni rüsvay etdi. Görün hansı kadrlar seçilmişdi. İndi bunu təsəvvür etmək çətindir ki – bağışlayın sözümə görə – belə yaramaz adamlar Azərbaycana rəhbərlik edirdi. Baş Nazir – o da elmi işçi idi. O da heç bir dissertasiya müdafiə edə bilməmişdi. Hamı yaxşı bilir, indi bu, sirr deyil, mövsümi ticarətlə məşğul olan adam Baş Nazir təyin edilir. Məhz onun dövründə «otkat» sözü bizim lüğətimizə daxil edilib. Gəldi ki, ölkəni talan etsin, onun sərvətini oğurlasın, tramvay xətlərini kəsdirsin, göndərsin İrana və pul əldə etsin. Bax, bu adam Baş Nazir idi. Parlamentin sədri – o da elmi işçi idi. 11 il as-

piranturada oxumuşdu. Təsəvvür edin – 11 il! Dissertasiyanı müdafiə edə bilməmişdi. Rəhmətlik akademik Ziya Bünyadovun onun haqqında dediklərini mən təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bunu özümə rəva bilmirəm. Uğursuz aspirant, biliksiz, savadsız adam parlamentin sədri olur. Ondan nə gözləmək olardı? Yaxud da ki, Dövlət katibi. İstəyirdi komsomolda öz karyerasını artırsın, sonra partiya işinə keçsin və karyerist kimi hansısa bir vəzifəyə sahib olsun. Belələrinə siyasi dönük, flüger deyirlər. Onun bütün tarixi satqınlıq tarixidir. Komsomolçuları satıb, öz partiya himayədarlarını satıb, ondan sonra qoşulub Xalq Cəbhəsinə, orada da Əbülfəz Elçibəyi satıb. Bunu cəbhəçilər yaxşı bilirlər. Əbülfəz Elçibəy xəstələnəndə ən çox sevinən elə o idi. Mən bunu dəqiq bilirəm, məlumatım vardır. Sevinirdi ki, xəstələnib öləcək, o da keçəcək onun yerinə.

İndi son hadisələr də göstərdi ki, o hansı hünərə sahibdir. Yəni bu isterika, bu paranoya, bu qorxaqlıq – özünü lider sayan hansı adam özünə rəva bilər ki, bunu nümayiş etdirsin və ondan sonra bütün millətə bəyan etsin ki, mənə qarşı zor tətbiq ediblər. Bu yalandır. Özünə hörmət edən, ləyaqəti üstün tutan hansı adam belə söz deyər. Bax, bu adam Prezidentlik iddiasında olub və bu gün vaxtilə xalq hərəkatı tərəfindən yaradılmış Xalq Cəbhəsinə rəhbərlik etməyə çalışır.

Nazirlərə fikir verin, kimlər idi? Müdafiə naziri riyaziyyat müəllimi, savadsızın biri, demaqoq, küçə adamı. Nə ilə yadda qaldı? Şuşanı ermənilərə satdı. O, Şuşanı

birinci tərk etdi. Özü demişdi ki – o kadrlar var, tarix hər şeyi saxlayır, arxivlər var – Şuşa əldən getsə, başıma güllə vuracağam. Yenə də meydanlarda sülənir, özünü elə aparır ki, guya heç kim bilmir, bunun keçmişi nədir. Bax, belə bir adam Müdafiə naziri ola bilərdimi? Belə bir adam bizim ərazi bütövlüyümüzü qoruya bilərdimi? Mən hələ onun biznes tərəfini demirəm. Burada yığdıqları pulları Moskvaya daşıyırdı. Orada özü üçün böyük biznes qurmuşdu. Lazım olarsa, bu barədə də məlumat veriləcək. O, əsaslı olaraq ömürlük cəzaya məhkum edilmişdi. Şuşanı satana gərək o cəza veriləydi. Bax, ona görə bizim torpaqlarımız işğal altına düşmüşdür. Mən humanistlik göstərərək, 2004-cü ildə onu əfv etdim.

Ondan sonra Daxili İşlər naziri, nə ilə seçilirdi? Vəzifə sahibi kimi, gedib canlı efirdə jurnalisti döymüşdü. Sən bir adi adam kimi, əgər kiməsə qarşı nəsə eləsəydin, tutaq ki, sənə toxunublar, mən deyərdim ki, ola bilər, ləyaqətinə toxunub, emosiyalarını cilovlaya bilmir. Vəzifə sahibi ola-ola mühafizəçilərlə gəlib, jurnalisti döyüb və bununla da fərəhlənirdi. Sən gedib doğma rayonunu müdafiə edərdin. Doğulduğun Kəlbəcər əldən gedəndə, işğal altına düşəndə sən nazir idin. O vaxt Naxçıvana desant göndərirdi və demişdi ki, Heydər Əliyevin başına güllə vuracağam. Naxçıvanlılar ona elə cavab verdilər ki, qorxusundan bilmirdi hara getsin. Oraya desant da getmədi. Ümumiyyətlə, o vaxt orada çevriliş cəhdi olmuşdu. İndi yenə meydanda sülənir, elə bilir ki, hamının yadından çıxıb.

Baş prokuror Gəncədə girov götürülmüşdü, Prezidentə həbs əmri vermişdi. Bu da Baş prokuror. Xarici İşlər naziri – heç bir xarici dildə danışa bilmirdi, hətta Azərbaycan dilində nə dediyini heç kim başa düşmürdü. Budur xalq cəbhəsi, müsavat hakimiyyəti. Ona görə biz bu faciəvi vəziyyətlə üzləşmişdik. Əgər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, Azərbaycan dağılacaqdı. Bunların da hərəsi qaçıb bir yerdə gizlənəcəkdilər, necə ki qaçıb gizlənmişdilər.

Beləliklə, bizim müstəqilliyimiz XX əsrin əvvəllərində olduğu kimi, yenə də yarımçıq qalacaqdı. Heydər Əliyevin hakimiyyətə gəlməsi, əlbəttə ki, tarixi hadisədir. Bu gün biz onun yolu ilə gedirik. Onun yürütdüyü siyasət bu gün yaşayır, zənginləşir. Əlbəttə, həyat yerində durmur. Qarşımızda yeni çağırışlar, yeni vəzifələr durur və biz bu vəzifələri icra edirik. Çünki bu gün Azərbaycanın uğurlu inkişafı aparılan islahatlarla sıx bağlıdır. Ulu öndərin Sumqayıt şəhərinə də həmişə çox isti münasibəti var idi. Həm sovet vaxtında, həm də müstəqillik dövründə dəfələrlə Sumqayıtda olmuşdur. Mən də bu siyasəti davam etdirirəm. Mənim Sumqayıta bugünkü səfərim 15 il ərzində sayca 24-cüdür. Yəni bu özlüyündə göstərir ki, Sumqayıta daim diqqət, qayğı göstərilir.

Əlbəttə ki, Sumqayıtın problemlərinin həlli istiqamətində böyük işlər görülüb. İlk növbədə, infrastruktur müasirləşdirilməli idi. Bu məqsədlə hələ 2005-ci ildə 525 meqavat gücündə elektrik stansiyası istifadəyə

verildi, böyük vəsait xərcləndi. Qazlaşdırılmanın səviyyəsi 100 faizə çatıbdır. İçməli su problemi həllini tapıbdır. Şəhərdaxili yollar yenidən tikilir, abadlaşdırılır, təmir olunur. Bakı–Sumqayıt yolu çəkildi. İndi göstəriş vermişəm ki, yol genişləndirilsin. Çünki artan nəqliyyat sıxlıq, tıxac yaradır. Biz bunu da həll edəcəyik. Bakı–Sumqayıt qatarı artıq fəaliyyət göstərir. Özü də dünyanın ən qabaqcıl şirkətinin istehsalı olan ikimərtəbəli, çox rahat «Stadler» vaqonlarıdır. Verilmiş kredit hesabına şəhər nəqliyyatı üçün müasir avtobuslar gətirilib. Yəni bütün bu işlər planlı şəkildə həyata keçirilir.

Şəhərin kommunal təsərrüfatı yenilənir. Lift təsərrüfatının təqribən 80 faizi yenilənib. Sumqayıtda 1300-dən çox hündürmərtəbəli binanın təxminən 1000-inin artıq dam örtüyü vurulub, qalan binaların da dam örtükləri vurulacaqdır.

«ASAN xidmət» Mərkəzi yaradılıbdır. Göstəriş vermişəm ki, ikinci «ASAN xidmət» yaradılsın. Çünki tələbat artır və bəzən növbələr yaranır. Biz buna imkan verə bilmərik.

Sosial infrastruktur yenilənir. Məcburi köçkünlər üçün yeni şəhərciklər, evlər tikilir. Bu il 1800 ailə artıq evlərinə yerləşibdir. Gələn il minimum 3000 köçkün ailəsi yeni evlərə köçəcək. Köçkünlər üçün Sumqayıtda evlərin tikintisi bundan sonra da təmin ediləcək ki, evsiz-eşiksiz, pis vəziyyətdə yataqxanalarda, bağçalarda və s. yerlərdə yaşayan köçkünlər yaxşı evlərə köçürülsünlər. Biz bunu da edəcəyik.

Məktəb tikintisi gedir. 1 saylı xəstəxana mənim göstərişimlə artıq 5-6 ildir ki, təmirdən çıxıb. İndi 2 saylı xəstəxananın təmiri və əslində yenidən tikilməsi üçün vəsait ayrılıb. Biz bunu da edəcəyik. Sumqayıt, əlbəttə, sənaye şəhəri kimi inkişaf edir. Ancaq bugünkü sənaye bugünkü çağırışlara cavab verir. Köhnədən qalan sənaye müəssisələrinin, demək olar ki, hamısı artıq fəaliyyətini dayandırıb. O ərazidə – yüz hektarlarla ölçülən ərazilərdə sənaye parkları yaradılıb – Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı. Sumqayıt Texnologiyalar Parkında 10, Sumqayıt Kimya Sənaye Parkında isə 13 zavod fəaliyyət göstərir və əlavə 7 zavod yəqin ki, gələn il fəaliyyətə başlayacaq. Sumqayıt Kimya Sənaye Parkında 20 rezident vardır. Qoyulmuş sərmayə milyardlarla dollar səviyyəsindədir. Onların arasında dövlət xətti ilə tikilmiş «SOCAR Polymer», Karbamid və digər zavodlar vardır. Özəl sektor da çox böyük maraq göstərir. Sumqayıt bu gün müasir sənaye şəhəridir, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıt müəssisələrində ildə təqribən 2 milyard manata yaxın məhsul istehsal olunur. Sumqayıt bundan sonra da müasir sənaye şəhəri kimi inkişaf edəcəkdir.

Parklar abadlaşır, yeni parklar, bağlar salınır. Əlbəttə, onların arasında Sumqayıt bulvarını xüsusilə qeyd etmək istərdim. Mən bu bulvarın açılışı ilə əlaqədar keçirilmiş tədbirdə demişəm və bir daha demək istəyirəm ki, bu möcüzədir, cəmi 11 ay ərzində 5,2 kilometr uzunluğunda və 150 hektarı əhatə edən gözəl

bulvar salınıbdır. Sumqayıt bulvarının salınması mənim çoxdankı arzum idi. Mən əvvəlki dövrlərdə də dəfələrlə şəhər rəhbərliyinə belə göstəriş vermişdim. Ancaq Zakir Fərəcovu vəzifəyə təyin edəndən sonra bu məsələ də həll olundu. Çox şadam ki, bu gün Sumqayıt bulvarı vətəndaşlar üçün yeni, gözəl bir istirahət zonasıdır. Orada ictimai obyektlər var, indi orada Muğam Mərkəzi yaradılıb, digər ictimai obyektlər şəhərə yeni gözəllik verir. Onsuz da Sumqayıtın kifayət qədər istirahət zonaları vardır. Parkların hamısı abadlaşdırılıb. Amma bulvar, əlbəttə, ayrı bir məsələdir. Uzunluğu əvvəlki Bakı bulvarından təxminən 2 dəfə böyükdür. Çünki əvvəlki ənənəvi Bakı bulvarının uzunluğu 3 kilometr idi, indi isə 16 kilometrdir. Əlbəttə, mən demək istəmirəm ki, burada da 16 kilometr uzunluğunda bulvar tikilsin. Amma hər halda, əgər imkan olarsa, biz gələcəkdə bulvarı genişləndirməliyik.

Yəni bütün sahələr üzrə inkişaf var, inkişaf gedir. Dram Teatrının, «Kimyaçı» sarayının binalarının əsaslı təmiri də bunun təzahürüdür. Bu Dram teatrinda ulu öndər Sumqayıtın yubileyini qeyd etmişdir. Yəni bu teatrın böyük tarixi vardır. Bu gün burada bizim görüşməyimiz həm rəmzi xarakter daşıyır, həm də təbiidir. Bu, tarixi həqiqəti təsdiqləyir. Bu binada ulu öndərin ruhu vardır. O, Sumqayıtı gözəl, müasir, havası təmiz, insanlar üçün rahat şəhər kimi görmək istəyirdi. O siyasi vəsiyyətində demişdi ki, bir çox işlər

görülüb, amma görə bilmədiyimiz işləri bizim davamçılarımız görəcəkdir. Şadam ki, belə də oldu.

Əziz dostlar, bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

* * *

**Zakir Fərəcov** (*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident! Hörmətli qonaqlar!

İcazə verin, sumqayıtlılar adından Sizi ulu öndərimiz Heydər Əliyevin «kiçik bir Azərbaycan» adlandırdığı gözəl Sumqayıtda salamlayaq və şəhərimizə «Xoş gəlmisiniz!» – deyək.

Ulu öndər Sumqayıta, onun zəhmətkeş insanlarına xüsusi qayğı ilə yanaşırdı, şəhərimizin inkişafına çox böyük diqqət yetirirdi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev şəhərimizə 16 dəfə səfər etmişdi. Sumqayıtın müasir şəhər kimi formalaşması, inkişafı məhz ulu öndərin adı ilə bağlıdır. Biz sevinirik ki, ulu öndərimizin şəhərimizə olan bu münasibəti bu gün Sizin tərəfinizdən də uğurla davam etdirilir. Sizin hər gəlişiniz sumqayıtlılar üçün böyük bayrama çevrilir, şəhərimizin inkişafında yeni mərhələ açır.

Cənab Prezident, Azərbaycana rəhbərlik etdiyiniz illər ərzində ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə olunub, xalq və dövlət üçün taleyüklü layihələr həyata keçirilibdir. Azərbaycanın iqtisadi potensialı güclənib, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlibdir. Odur ki, Azərbaycan

iqtisadi inkişaf sürətinə görə son illərdə dünyanın qabaqcıl dövlətləri sırasında şərəflə addımlayır.

Sizin həyata keçirdiyiniz siyasət nəticəsində Azərbaycanın regionun lider dövlətinə, söz sahibinə çevrilməsi, beynəlxalq birlikdəki yerini daha da möhkəmləndirməsi dünya miqyasında qəbul edilən reallıqdır. Bu reallığı təsdiqləyən bir çox amilləri sadalamaq mümkündür. Bu sırada Sizin ideyanız və iştirakınızla Bakıda keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər gənc Azərbaycan dövlətinin dünyada artan nüfuzunu təsdiq edən mühüm faktorlardandır. Azərbaycan müxtəlif xarakterli – siyasi, iqtisadi, idman, səhiyyə və digər tədbirlərin keçirildiyi məkana çevrilib. Ölkəmizin mədəniyyətlərarası və sivilizasiyalararası dialoq mərkəzlərindən biri olmasını artıq bütün dünya qəbul edir və bunlar dövlətimizin artan nüfuzundan xəbər verir.

Cənab Prezident, bu gün müstəqil Azərbaycan dövlətinin öz dəstxəti, dövlətçilik siması, inkişaf yolu vardır. Bu Sizin milli maraqlara əsaslanan siyasətiniz, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyətinizin nəticəsidir.

Azərbaycanın beynəlxalq imicinin yüksəlişinə təkan verən amillərdən biri də ölkəmizin iqtisadi cəhətdən dinamik inkişafıdır. Həyata keçirilən dövlət proqramları bütün bölgələrin inkişafına nail olmaqla, əhalinin məşğulluğunun təmin edilməsinə, abadlıq və quruculuq işlərinin aparılmasına, infrastrukturun yenidən qurulmasına yol açıb. Son illər ərzində ölkəmizdə

baş vermiş inkişaf və tərəqqi, sözün həqiqi mənasında, qürur hissi doğurur.

Cənab Prezident, müstəqil Azərbaycanımızın bütün bölgələri kimi, Sumqayıt şəhəri də dinamik inkişaf dövrünü yaşayır. Sizin rəhbərliyiniz, yüksək diqqət və qayğınız nəticəsində həyata keçirilən bu abadlıq, quruculuq və tikinti işləri sumqayıtlılara xoş ovqat və sakit həyat tərzi bəxş edib. Birbaşa rəhbərliyiniz, yüksək diqqət və qayğınız nəticəsində həyata keçirilən genişmiqyaslı uğurlu layihələr şəhərimizin simasını tamamilə dəyişibdir.

Məlumdur ki, hər bir işin icrası zamanı ilk növbədə, dəqiq hədəflərin, aydın tezislərin müəyyən edilməsi tələb olunur. Bu baxımdan, Sumqayıtda görülən işlər xaotik xarakter daşımır, Sizin tövsiyələrinizi əsas tutaraq, sistemli, planlı və müasir şəhərsalma prinsiplərinə uyğun olaraq, vahid yanaşmaya əsaslanmış proqram çərçivəsində və konseptual şəkildə aparılır.

Möhtərəm cənab Prezident, Sizin qeyri-neft sektorunun inkişafı istiqamətində verdiyiniz tapşırıqlara uyğun olaraq, görülən işlər ölkəmizin hər yerində olduğu kimi, Sumqayıt şəhərində də öz bəhrəsini verməkdədir. Şəhərin inkişafı ilə əlaqədar nəzərdə tutulmuş tədbirlər mərhələ-mərhələ uğurla icra edilir. Bu prosesin əsasını Sizin verdiyiniz dəyərli tövsiyə və tapşırıqlar təşkil edir. Siz Sumqayıtdakı vəziyyətlə yaxından tanışsınız, ətraflı məlumata maliksiniz. Fürsətdən istifadə edib diqqətinizə çatdırmaq istərdim ki, Sizin son illərdə şəhərimizə səfərləriniz zamanı açılışını

etdiyiniz «SOCAR Polymer», Polipropilen və Yüksək Sıxlıqlı Polietilen, Karbamid zavodları və digər müəssisələr hesabına minlərlə yeni iş yerləri yaradılıb. Hazırda Kimya Sənaye Parkında Şüşə, Əyirici-Boyaq fabriklərinin tikintisi başa çatmaq üzrədir. Artıq əminliklə deyə bilərik ki, Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzinə çevrilib. Son illərdə şəhərimizin iqtisadiyyatı sürətlə inkişaf edib, aparıcı sahələrdə müsbət irəliləyişlər təmin olunub, yeni istehsal sahəsinin yaradılması nəticəsində ümumi daxili məhsul istehsalının həcmi 2,5 dəfə, sənaye məhsulu istehsalı isə 3 dəfə artıbdır.

2011-ci il avqustun 7-də Siz Sumqayıt şəhərində səfərdə olarkən, burada müasir bulvar kompleksinin yaradılmalı olduğunu vurğulamışdınız. Qeyd etmək istərdim ki, hələ 45 il əvvəl – 1974-cü ildə ulu öndər şəhərin 25 illik yubiley tədbirində bu səhnədə çıxış edərkən, Sumqayıtda dəniz kənarında böyük park və bulvarın yaradılması fikrini irəli sürmüşdü. Cənab Prezident, 45 ildən sonra bu park və bulvarın yaradılması Sizin tapşırığınızla reallaşdı. Qısa müddət ərzində ümumi sahəsi 106 hektar, uzunluğu 4,2 kilometr olan ərazidə möhtəşəm bulvar yaradıldı. Burada şəhər sakinlərinin piyada gəzintisi, avtomobil yolu, istirahət obyektləri, uşaqlar üçün əyləncə mərkəzi, idman infrastrukturu quruldu, fərqli ölçülərdə və bir-birini təkrarlamayan yaşıl parklar salındı. Son günlərdə isə Sizin razılığınızla Sumqayıt bulvarı əlavə olaraq, daha 40 hektar genişləndirildi və 1 kilometr uzadıldı. Şəhə-

rimizdə 60-dan çox küçə əsaslı təmir olunub, 10 mikrorayon, 17 məhəllədaxili ərazilərə, Hacı Zeynalabdin, Corat qəsəbələrinə, Sumqayıt stansiyası, Ceyranbatan, Novxanı və Corat bağları yaşayış massivlərinə yeni asfalt döşənibdir.

Cənab Prezident, məlumat üçün bildirmək istəyirəm ki, şəhərin mərkəzində asfalt salınmamış küçələr artıq qalmayıbdır. Ümumilikdə şəhər ərazisinə 3,5 milyon kvadratmetr yeni asfalt döşənibdir. Uzun illər şəhərdə həlli vacib olan məsələlərdən biri – dam örtüklərinin yenidən qurulması məsələsi mərhələli şəkildə həll olunur. Sizin tapşırığınız əsasında şəhərimizdə 1361 yaşayış binasından 950-sinin dam örtüyü dəyişilib, 250 binanın fasadı isə yenidən qurularaq, təmir olunubdur. Şəhərdə mövcud 594 liftdən istismar müddətini ötmüş 400-dən çox lift yenisi ilə əvəz edilibdir.

Yaşayış fonduna daxil olan binaların 800-nün zirzəmisi çirkab sularından təmizlənib, kommunikasiya xətləri dəyişdirilib, dezinfeksiya edilib, yaşayış binalarında 3200 giriş və pilləkən qəfəsləri təmir olunubdur. 70 nümunəvi məhəllə yaradılıb, şəhər ərazisində 500 mindən çox ağac, milyondan artıq gül və kollar əkilibdir. Küçə işıqlandırılması şəhərin 80 faizini əhatə edir. Bu sahədə görüləcək işlər isə hələ çoxdur.

Mövcud uşaq bağçalarından 48-ində təmir işləri aparılıb, dam örtükləri yenilənib, istilik sistemi bərpa olunubdur. Məktəblərdə əsaslı və cari təmir işləri aparılıb, istilik sistemi bərpa edilibdir. 9 saylı tam orta

məktəb binasının tikintisi başa çatmaq üzrədir. Məktəblərdə şagird sıxlığı olduğundan yeni məktəbin və 8 məktəbdə əlavə tədris korpusunun tikintisinə ehtiyac vardır.

Səhiyyə ocaqlarının 11-i əsaslı və 3-ü cari təmir olunubdur. Sizin sərəncamınızla ayrılmış vəsait hesabına 2 saylı Şəhər Xəstəxanası sökülərək, yerində yeni müasir xəstəxananın tikintisi ilə əlaqədar müvafiq işlər aparılır. Şəhərin ən böyük ekoloji problemlərindən biri olan Acıdərə kanalının boruya alınması işləri davam etdirilir. Kanalın 1600 poqonmetr hissəsi artıq boruya alınıbdır.

Cənab Prezident, Sizin yaxından köməyiniz və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın aidiyyəti qurumların rəhbərlərinə qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə verdiyi tapşırığa uyğun olaraq, 2005 məcburi köçkün ailəsi yeni tikilmiş evlərə köçürülübdür. Bu işlər davam etdirilir. Şəhər icra hakimiyyəti tərəfindən məcburi köçkünlərə mənzil tikintisi üçün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 30 hektar torpaq sahəsi ayrılıbdır.

Möhtərəm cənab Prezident, Sizin tapşırığınıza əsasən, şəhərdəki şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə bu il 125 mənzil verilibdir. Əsası 1968-ci ildə qoyulmuş Sumqayıt Dövlət Dram Teatrı uzun illər idi təmir olunmurdu. Minnətdarlıq hissi ilə bildirirəm ki, Sizin tapşırığınızla teatrın binası yüksək zövqlə əsaslı təmir və rekonstruksiya olunaraq, yenidən qurulub,

binanın bütün xidməti, dekorasiya və qrim otaqları estetik üslubda yaradılıb, bədii və texniki cəhətdən yüksək səviyyədə tamaşalar təqdim etmək üçün müasir avadanlıqlar və işıqlandırma sistemi ilə təchiz olunubdur.

Şəhərimizin mədəni həyatını canlandıracaq davamlı infrastruktur layihələri də həyata keçirilib. Ümummilli liderimizin adını daşıyan parkda möhtəşəm Heydər Əliyev Mərkəzi tikilərək, istifadəyə verilib. Bu Mərkəzdə 420 nəfərlik akt zalı, gənclər üçün müzakirə və diskussiya otaqları, nikah mərasimi zalı, elektron kitabxana hər gün insanlarımızın üz tutduğu bir məkana çevrilibdir. Müasirtipli Uşaq İncəsənət və Şahmat məktəbləri qısa müddət ərzində tikilib istifadəyə verilibdir. Son dövrlərdə Yeni Azərbaycan Partiyasının şəhər təşkilatı üçün yeni bina, Bayraq Muzeyi inşa olunubdur. Sizin tapşırığınızla əsaslı təmir olunmuş Kimyaçılar Mədəniyyət sarayı şəhərimizin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayır. Bir qədər sonra Sizin xeyir-duanızla açılacaq Muğam Mərkəzini, Nizami kinoteatrını da bu sıraya aid etmək olar.

Şəhər ərazisində sərnişinlərin rahatlığının təmin olunması məqsədilə Türkiyə istehsalı olan 206 avtobus kreditlə alınaraq, xətlərə buraxılıbdır. Planlı şəkildə salınmış yeni parklar, xiyabanlar, asfalt yollar, gözəlləşən prospektlər, bütövlükdə abadlaşan məhəllədaxili yollar, tikilmiş sosial obyektlər, əlbəttə, Sizin böyük iradənizin, dövlətçilik qətiyyətinizin sayəsində

meydana gəlib. Bütün bunlar Sumqayıtda aparılan abadlıq və quruculuq salnaməsinin bir hissəsinə çevrilibdir.

Cənab Prezident, görülmüş işlər şəhər sakinlərində dövlətimizin iqtisadi qüdrətinə, siyasi gücünə, iradəsinə inamı daha da artırır. Ən əsası odur ki, şəhərimizin sakinləri arasında sağlam mənəvi-psixoloji iqlim yaranıb. Şəhər sakinləri Sizin daxili və xarici siyasətinizi bəyənir, ürəkdən dəstəkləyir və həmişə Sizin yanınızdadırlar.

Fəxrlə deмək olar ki, bugünkü Azərbaycan ümummilli liderimizin arzu etdiyi Azərbaycandır və Sumqayıt şəhəri də bu gün ulu öndərin arzuladığı kimi, güllü-çiçəkli, işıqlı və abad bir şəhərə çevrilibdir.

Sumqayıt müstəqilliyimizin canlı simasıdır. Ötən illər onun tarixinə neçə-neçə gözəl anlar yazıb. İnsan zəkasının, əməyinin və birliyinin vəhdəti olan Sumqayıt islahatların nümunə göstərildiyi məkandır. Doğma şəhərimizə, onun inkişafına hər birimiz öz töhfəmizi verməli, nümunə göstərməliyik. Əminliklə bildirmək istərdim ki, illər ötəcək, xariqələr şəhəri Sumqayıt həmişə dövlət başçısına verdiyi sözə sahib çıxacaqdır. Çünki sumqayıtlılar etimadı doğrultmağa çalışan zəhmətkeş insanlardır. Onların həyat amalı Heydər Əliyevin bizə miras qoyduğu ideyalara sədaqət, Sizin diqqət və qayğınıza məsuliyyətlə yanaşmaq, uğurlu işimizlə cavab verməkdir. Sevinirik ki, indi Sumqayıtın gündüzü də, gecəsi də al-əlvandır, könül oxşayır, insanlarımız sağlam ruhla, rahat şəkildə işləyir və istirahət

edirlər. Artıq Sumqayıtda sağlam mühit, sağlam atmosfer formalaşıb və mehriban bir Sumqayıt ailəsi yaranıbdır.

Cənab Prezident, yeri gəlmişkən, icazə verin, Sumqayıtın şəhər statusu almasının 70 illiyi münasibətilə sumqayıtlıları səmimi-qəlbdən təbrik edim. Hamımız fərəh duyuruq ki, bu gün Sizin sayənizdə Azərbaycanın adı dünya kürsülərindən çox ucadan səslənir. Bu gün Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, özü öz gələcəyini müəyyən edir, müstəqil və sabit siyasət yeridir. Bu, tarixi bir həqiqətdir. Biz bununla qürur duyuruq. İnanırıq ki, gələcəkdə də Sizin rəhbərliyiniz altında ölkəmiz yeni-yeni zirvələr fəth edəcəkdir.

Möhtərəm cənab Prezident, Sizin dünənki sərəncamınızla 66 nəfər sumqayıtlı fəxri adlar və medallarla təltif olunub. Bu Sizin Sumqayıta və sumqayıtlılara göstərdiyiniz böyük diqqət və qayğınızın daha bir bariz nümunəsidir. Təltif olunanlar adından bu diqqət və qayğıya görə Sizə dərin minnətdarlıqlarını bildirirəm. Siz artıq Sumqayıta 24-cü dəfədir səfər edirsiniz. Sizin hər səfəriniz Sumqayıtın tarixinə yeni səhifələr açır.

Cənab Prezident, Sizi sumqayıtlılar adından əmin edirəm ki, bu gündən sonra da Sizin tapşırıq və tövsiyələrinizin layiqincə yerinə yetirilməsi üçün əzmlə çalışacağıq.

Sizi şəhərimizin 70 illik yubileyinə həsr olunmuş tədbirdə görməyə çox şadıq. Sizə Sumqayıtın çoxminli əhalisinin dərin hörmət və ehtiramını, şəhərimizin in-

kişafına, çiçəklənməsinə göstərdiyiniz diqqətə, qayğıya görə minnətdarlığını çatdırıram.

Tanrı Sizi qorusun!

**Ofeliya Babayeva** (*«Şöhrət» ordenli Əməkdar müəllim*): Hörmətli cənab Prezident!

Sizi bu möhtəşəm salonda salamlamaqdan böyük qürur və fəxarət hissi keçirirəm. Mən bu salonda dəfələrlə çıxış etmişəm. Ancaq ilk çıxışımı hər dəfə həyəcanla xatırlayıram. 1974-cü il – Sumqayıtın şəhər statusu almasının 25 illiyi.

Rəyasət Heyətində ulu öndərimiz, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi, bütün ölkənin sevimlisi Heydər Əlirza oğlu Əliyev əyləşmişdi. Düz 45 il əvvəl mənə – 26 yaşlı gənc müəllimə və şairəyə Sumqayıt ziyalıları adından çıxış etmək səadəti nəsib olmuşdu. Çıxışım ulu öndərin, o böyük insanın xoşuna gəldi. «Afərin!» – dedi.

Bəli, cənab Prezident, taleyimə çox-çox minnətdaram ki, 45 il sonra ulu öndərin layiqli davamçısının, bu gözəl ölkənin Prezidentinin qarşısında da çıxış edirəm. Xatirələr heç zaman unudulmur, yaddan çıxmır.

Ulu öndərin xeyir-duasını aldığım o gündən bu ana kimi hər cür qayğı və diqqəti hiss etmişəm. Sonralar Azərbaycan Yazıçılar Birliyinin üzvü, uzun illər bu şəhərin məktəblərində direktor, Təhsil şöbəsinin müdiri, Şəhər Sovetinin deputatı, Mədəniyyət Komissiyasının sədri olduğum zamanlarda da o böyük insanın qayğısı və tövsiyələri mənim uğur yolu-

ma işıq saçıb. Bu gün Azərbaycan bütün dünyada özünün uğurları ilə diqqəti cəlb edir. Bu günlərdə gözəl paytaxtımız Bakıda keçirilmiş «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etməsi, Sizin rəhbərliyinizlə Azərbaycanımızın 3 il bu Hərəkata sədrliyi, Dünya Dini Liderlərinin II Sammitində dərin məzmunlu nitqiniz, il ərzində ölkə əhalisinin rifahının yüksəlməsinə yönəldilmiş sərəncamlarınız hər kəsdə minnətdarlıq hissi doğurur. Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin, görkəmli ədiblərimiz Cəfər Cabbarlının, Cəlil Məmmədquluzadənin, İsmayıl Şıxlının yubileyləri ilə bağlı sərəncamlarınız ədəbi irsə yüksək hörmətinizdən irəli gəlir. Bir neçə kəlmə ilə Sumqayıtın şəhər statusu almasının 70 illiyi günlərində təhsilimizin uğurları haqqında danışmaq istəyirəm.

Sizin göstərişinizlə şəhərimizdə 52 məktəb, 58 uşaq bağçası, idman məktəbləri təmir edilib və müasir tələblərə cavab verir. Qəzalı vəziyyətdə olan 9 saylı orta məktəb üçün yeni binanın tikilməsi orada təhsil alan yüzlərlə şagirdin, onların valideynlərinin, pedaqoji kollektivin hədsiz sevincinə səbəb olub. Pedaqoji kollektiv, şagirdlər, valideynlər də bu qayğınıza əməli işlə cavab verirlər. Neçə illərdir ki, Sumqayıt təhsili ali məktəblərə qəbula görə ilk üçlükdədir. Yüksək balla ali məktəblərə daxil olan məzunlarımızın hər il ən azı 8–10 nəfəri Prezident təqaüdünə layiq görülür. Bütün bunlara görə mən Sizə sonsuz minnətdarlığımı bildi-

rirəm, əziz Prezident! Son illər Sumqayıtın bu inkişafı Sizin şəhərimizə olan böyük diqqətinizin bəhrəsidir. Mənim sadə əməyimə yüksək qiymət verdiyinizə görə minnətdarlığımı bildirirəm. Müstəqil Azərbaycanın yüksək dövlət mükafatları olan «Tərəqqi» medalını, «Şöhrət» ordenini, Əməkdar müəllim fəxri adını Sizin sərəncamlarınızla almağım ömrümün ən xoş yaşantılarıdır.

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə göstərdiyi qayğıya görə minnətdarlığımızı ona çatdırmağı xahiş edirəm.

Allah Azərbaycanımızı, Sizi, xeyirxah ailənizi qorusun!

**Nazim Talıbov** (*«Sumqayıt Kimya Sənaye Parkı» MMC-nin direktoru*): Möhtərəm cənab Prezident! Hörmətli tədbir iştirakçıları!

Ölkəmizin son illərdə iqtisadi inkişaf sahəsində qazandığı böyük nailiyyətlər heç şübhəsiz ki, ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır. Müasir Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin misilsiz idarəçilik istedadı, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı inkişafı üçün möhkəm zəmin yaradıbdır.

Hələ ötən əsrin 70-ci illərinin ortalarından başlayaraq, Sumqayıtda kimya sənayesinin yenidən qurul-

ması, yeni istehsal müəssisələrinin yaradılması sahəsində xeyli işlər görülmüşdür.

Həyata keçirilmiş genişmiqyaslı işlərin, qısa müddətdə reallığa çevrilmiş layihə və ideyaların nəticəsi idi ki, artıq ötən əsrin 70–80-ci illərində Sumqayıt öz iqtisadi potensialına görə keçmiş Sovet İttifaqında güclü sənaye şəhəri kimi daha geniş tanınmağa başlanmışdır. Sumqayıtda istehsal olunan məhsullar SSRİ-nin və xarici ölkələrin 100-dən artıq şəhərinə ixrac olunurdu. Həmin dövrlərdə Sovetlər Birliyində istehsal olunan kimya məhsullarının təqribən 40 faizi Sumqayıt şəhərində fəaliyyət göstərən müəssisələrin payına düşürdü.

Təsadüfi deyil ki, Sumqayıtın sənaye sahəsində keçmiş şöhrətini qaytarmaq məqsədilə, möhtərəm cənab Prezident, Sizin tərəfinizdən 2011-ci ildə ölkəmizdə ilk sənaye parkı məhz şəhərimizdə yaradıldı.

Ötən müddət ərzində bu parkda fəaliyyət göstərən rezidentlərin biznes fəaliyyətinin dəstəklənməsi, o cümlədən investisiya xərclərinin azaldılması üçün dövlət tərəfindən sənaye parkının infrastrukturunun yaradılması ilə bağlı zəruri tədbirlər həyata keçirilib, sənaye parkının rezidentlərinə 7 il müddətinə vergi və gömrük güzəştləri müəyyən edilibdir.

Cənab Prezident, Sizin Sumqayıt Kimya Sənaye Parkına göstərdiyiniz yüksək diqqət və dövlət tərəfindən görülən kompleks təşviqedici tədbirlər sənaye parkına yerli və xarici investorların marağını getdikcə

artırır. Siz gərgin iş qrafikinizə baxmayaraq, vaxt tapıb ötən dövrdə Sumqayıt Kimya Sənaye Parkına 6 dəfə səfər etmiş, 5 sənaye müəssisəsinin təməlqoyma, 12 sənaye müəssisəsinin isə açılışı mərasimlərində iştirak etmisiniz.

Hazırda Sumqayıt Kimya Sənaye Parkında investisiyalarının həcmi 3 milyard dollar olan 20 rezident qeydiyyata alınıb. Sənaye parkının təməlinin Sizin iştirakınızla 2013-cü ildə qoyulmasına baxmayaraq, artıq burada 13 müəssisə istehsal fəaliyyəti ilə məşğuldur və parkda 5000-dən artıq insan daimi işlə təmin edilibdir. Bunların əksəriyyəti Sumqayıt şəhərinin və ətraf ərazilərin sakinləridir.

Möhtərəm cənab Prezident, bu gün təkcə Sumqayıt Kimya Sənaye Parkının nümunəsində deyil, Sizin fərman və sərəncamlarınıza uyğun olaraq yaradılmış təkrar emal, gəmiqayırma, yüngül sənaye və əczaçılıq sahələrində ixtisaslaşmış digər sənaye parklarının da müsbət səmərəsini görə bilərik. İlk növbədə, sənaye parklarının iqtisadi inkişafda və sənayedə əsas əhəmiyyətli rolu heç şübhəsiz ki, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılmasıdır. Azot gübrəsi, polimerlər, şpris, ferroərintilər, tütün məmulatları, aqrokimyəvi məhsullar və ölkəmiz üçün ənənəvi olmayan bu kimi onlarla yeni məhsulun istehsalı sənaye parklarında həyata keçirilənədək, həmin məhsullar, demək olar ki, 100 faiz həcmdə idxal olunurdu. Bu məhsullar üzrə idxalın əvəzlənməsi, eləcə də həmin məhsulların daha çox ixraca hesablanması və nəticədə ölkəmiz üçün yeni ixrac imkanlarının yaranması nəinki ölkədən valyuta çıxarılmasının qarşısını alır, əksinə, ölkəyə əlavə valyuta gəlməsinə zəmin yaradır ki, bu da nəticədə iqtisadiyyatın

vacib amillərindən biri kimi, milli valyutanın möhkəmlənməsinə öz töhfəsini verir.

Eyni zamanda, sənaye parklarının iqtisadiyyatda digər vacib rolu ölkəyə yeni texnologiyaların gətirilməsidir. Bu gün sənaye parklarında dəyəri 100 milyonlarla dollar olan zavodlarda dünyanın ən qabaqcıl texnologiyalarından istifadə edilir. Bu texnoloji yeniliklərin tətbiqi bizə rəqabətqabliyyətli məhsul istehsal etməyə imkan verməklə yanaşı, həm də sosial səmərə yaratmaqla, insan resurslarının inkişaf etdirilməsində, bilikli kadrların cəlb olunmasında, eləcə də mövcud kadr potensialının artırılmasında mühüm əhəmiyyətə malikdir.

Digər əhəmiyyətli məsələ sənaye parklarının ölkənin xammal ixracatçısından hazır məhsul ixracatçısına çevrilməsindəki roludur. Ölkəmiz ənənəvi olaraq neft və qaz ixracatçısıdır, lakin bu göstərici qeyri-neft sektorunun xeyrinə dəyişməkdədir. Misal üçün, Sumqayıt Kimya Sənaye Parkında reallaşan Karbamid zavodu və «SOCAR Polymer» layihələrinin icrası nəticəsində karbohidrogen ehtiyatlarına söykənən yeni məhsullar istehsal olunur ki, nəticədə neft və qaz xammal şəklində deyil, daha dəyərli məhsula çevrilərək ixrac edilir. Bundan başqa, Mingəçevir Sənaye Parkında Pambıq İpliyi fabrikinin timsalında pambıqçılıq sahəsində də analoji prosesi müşahidə etmək olar.

Möhtərəm cənab Prezident, hörmətli tədbir iştirakçıları! Bu günədək sənaye parklarında 2 milyard manata yaxın məhsul istehsal olunub, təqribən 400 milyon manatlıq məhsul ixrac edilibdir. Əksəriyyəti ölkəmiz üçün yeni olan sənaye məhsullarının ixrac coğrafiyasında MDB ölkələrini, Türkiyə, Ukrayna, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Yaponiya, Birləşmiş Ərəb Əmirlikləri, Polşa, Danimarka və Hollandiyanı misal göstərmək olar.

Statistik göstəricilərə nəzər saldıqda, 2018-ci ilin 9 ayında Sumqayıt Kimya Sənaye Parkında 170 milyon manatlıq məhsul istehsal edilmişdisə, bu ilin 9 ayında 2,6 dəfə çox – yəni 440 milyon manatlıq məhsul istehsal olunubdur. İxrac isə 2018-ci ilin analoji dövrü ilə müqayisədə 3,6 dəfə artaraq, bu ilin 9 ayında 190 milyon manat təşkil edibdir. Diqqətinizə çatdırıram ki, 2018-ci ildə bu göstərici 52 milyon manat olubdur.

Həmçinin bu ilin 9 ayında parka 600 milyon manat investisiya yatırılıbdır ki, bu da ölkə sənayesinin qeyri-neft sektoru üzrə investisiyalarının 50 faizini təşkil edir. Eyni zamanda, bu ilin 9 ayında 440 milyon manatlıq məhsul istehsalı ilə Sumqayıt Kimya Sənaye Parkının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 5,3 faiz olubdur. Bundan əlavə, bu il 190 milyon manatlıq ixracla Sumqayıt Kimya Sənaye Parkının ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında xüsusi çəkisi 11 faiz təşkil edibdir. Beləliklə, deyə bilərik ki, cənab Prezident, bilavasitə Sizin təşəbbüsünüzlə Sumqayıt şəhərində yaradılmış Kimya Sənaye Parkı müsbət nəticələrini verməkdədir və ölkənin qeyri-neft sektoru üzrə makroiqtisadi göstəricilərinə birbaşa müsbət təsirini göstərir.

Möhtərəm cənab Prezident, sonda fürsətdən istifadə edərək, Kimya Sənaye Parkının kollektivi adından Sumqayıt əhalisini şəhərin 70 illik yubileyi münasibətilə təbrik edirəm. Əminəm ki, möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə Sumqayıt bundan sonra daha da inkişaf edəcək, şəhərin sənaye potensialı, o cümlədən Kimya Sənaye Parkı ölkəmizin iqtisadiyyatına daha da böyük töhfələr verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**A r z u  B ə n d ə l i y e v a** (*Sumqayıt 1 saylı poliklinikanın baş həkimi*): Möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Sizi bu gün 70 illiyini qeyd etdiyimiz, öz gözəlliyi, möhtəşəmliyi ilə hər kəsi heyran qoyan doğma şəhərimizdə çoxsaylı səhiyyə işçiləri adından salamlayıram.

Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ulu öndərimiz xalqın sağlamlıq məsələlərinə daim taleyüklü məsələ kimi yanaşıb, səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir: «Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir».

Siz ulu öndərimizin uzaqgörən siyasətini bütün sahələrdə davam etdirdiyiniz kimi, sosial sahə olan səhiyyənin inkişafına da daim xüsusi diqqət və qayğı göstərirsiniz. Mən bir həkim kimi, səhiyyəmizin inkişafını diqqətlə izləyirəm. Bu sahədə əldə olunmuş nailiyyətlərə, tərəqqiyə hədsiz sevinirəm. Bu uğurların təməlində Sizin sosial siyasətinizin əsasını təşkil edən insan amili, insan sağlamlığı dayanır. Eyni zamanda, mətbuatda gedən məlumatlarla da tanış oluram. Təkcə bir faktı demək kifayətdir ki, son illər Sizin və Birinci vitse-prezidentimiz, Heydər Əliyev Fondunun rəhbəri hörmətli Mehriban xanım Əliyevanın qayğısı sayəsində ölkəmizdə 600-dən çox tibb müəssisəsi yenidən tikilib və yaxud əsaslı təmir edilib, ən müasir tibbi avadanlıqlarla təchiz olunaraq, əhalinin istifadəsinə verilibdir.

Göstərdiyiniz yüksək diqqət və qayğı nəticəsində bütün sahələrdə aparılan genişmiqyaslı quruculuq, abadlıq işləri nəticəsində doğma Sumqayıtımız hazırda ekoloji cəhətdən

təmiz, füsunkar bir şəhərə çevrilibdir. Şəhərimizin səhiyyəsinə olan dövlət qayğısı nəticəsində son illər burada 10-dan çox tibb müəssisəsi əsaslı təmir olunaraq, ən müasir avadanlıqlarla təchiz edilib və sakinlərin istifadəsinə verilibdir. Hazırda Sumqayıtda 5000 səhiyyə işçisi yüksək zövqlə təmir olunmuş həmin sağlamlıq müəssisələrində şəhərimizin əhalisinə keyfiyyətli tibbi xidmət göstərir.

Son illər səhiyyənin prioritet sahələri üzrə qəbul edilmiş 11 Dövlət Proqramı əsasında həyata keçirilmiş tədbirlər nəticəsində ana və uşaqlara, onkoloji, endokrinoloji, irsi qan xəstəlikləri, böyrək çatışmazlığı olan və s. xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yaxşılaşdırılıbdır. Təbii ki, səhiyyəni prioritet sahə kimi müəyyənləşdirən Heydər Əliyev Fondunun bu sahədəki xidmətləri əvəzsizdir. Həyata keçirilən çoxlu sayda irimiqyaslı layihələrə dəstək olan çox hörmətli Mehriban xanım Əliyeva ana, uşaq və ailə sağlamlığının qorunmasına və möhkəmlənməsinə böyük önəm verir. «Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı»nın icrası ilə bağlı diridoğulmanın yeni beynəlxalq meyarlarına əsasən, 2017-ci ilin dekabrından Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən, Sumqayıt 1 saylı Doğum evi Perinatal Mərkəz kimi fəaliyyət göstərərək, şəhərin perinatal patologiyalı yeni doğulmuşları ilə bərabər, ətraf rayonların patologiyalı yeni doğulmuşlarına da beynəlxalq standartlara uyğun tibbi yardım göstərir. Bu da yüzlərlə yarımçıq doğulmuş, azçəkili uşaqların həyatda qalmasına və yaşamasına səbəb olur.

Cənab Prezident, Sizin ölkə əhalisinin sağlamlığının qorunmasına göstərdiyiniz diqqət və qayğının nəticəsidir ki, tapşırığınıza əsasən, hər il respublikamızın bütün

bölgələrində olduğu kimi, şəhərimizin də minlərlə sakini pulsuz tibbi profilaktik müayinədən keçirilir. Bu da onların xəstəliklərinin vaxtında aşkar olunaraq, sağalmalarına imkan yaradır. Bu bir daha göstərir ki, Siz bu siyasətinizlə bütün dəyərlər sırasında insan sağlamlığını hər şeydən üstün tutursunuz.

Möhtərəm Prezident, qeyd etmək istəyirəm ki, mənim də uzun müddət çalışdığım şəhərin aparıcı müalicə ocaqlarından biri, əsaslı təmirə ehtiyacı olan, rentabelliyini itirmiş çoxprofilli 2 saylı şəhər xəstəxanasının sökülərək yenidən tikilməsi barədə verdiyiniz sərəncam Sumqayıtın 70 illik yubileyinə töhfə olmaqla bərabər, bütün şəhər sakinlərində və tibb işçilərində hədsiz sevinc hissi doğurubdur.

Əziz Prezidentimiz, bütün sosial sahələrə, o cümlədən səhiyyə sahəsinə göstərdiyiniz diqqət və qayğıya görə çoxsaylı tibb işçiləri adından Sizə minnətdarlığımı və təşəkkürümü bildirirəm. Sizi əmin edirəm ki, tibb işçiləri həmişə olduğu kimi, bundan sonra da səhiyyə sahəsində fədakar xidmətləri ilə bərabər, Sizin ətrafınızda sıx birləşərək, dövlətə və dövlətçiliyimizə töhfələrini layiqincə verəcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

**Maqsud Maqsudov** *(Əməkdar inşaatçı):* Möhtərəm cənab Prezident, hörmətli tədbir iştirakçıları!

Bizə çox xoşdur ki, cənab Prezident, bu gün Sumqayıtın şəhər statusu almasının 70 illik yubileyini Sizinlə birlikdə qeyd edirik. 54 il bundan əvvəl – 1965-ci ildə Sumqayıt şəhərində Qırmızı Əmək Bayrağı ordenli 1 saylı Tikinti trestinə ali təhsilli inşaatçı-mühəndis kimi göndərişlə gəlmişəm. İşlədiyim kollektiv Sumqayıtın şəhər statusu almasından xeyli əvvəl burada fəaliyyət göstərib. Sonradan Azərbaycanın Sənaye Tikintisi Nazirliyinin tərkibində 1

saylı Tikinti Tresti yaradıldı və Sumqayıt şəhərində yerləşdirildi. Bu kollektivdə çoxsaylı xalqların nümayəndələri çalışırdı. Sumqayıtda istifadəyə verilmiş zavod və fabriklər, uşaq bağçaları, məktəblər, xəstəxanalar və mədəniyyət saraylarının əksəriyyəti bu kollektivin əməyinin məhsuludur. Sumqayıtda çox güclü inşaatçılar ordusu yaradılmışdı. Onların çoxu hazırda Sumqayıtda yaşayır.

Əsas diqqətçəkən məqam odur ki, Sumqayıt şəhərinin yaranmasında, inkişafında və İttifaq səviyyəsində tanınmasında əməyi olan insanlar Sizin diqqətinizdədir. Onlar orden və medallarla təltif olunur, şəhər tədbirlərinə dəvət edilir, onlara qayğı göstərilir. Necə deyərlər, bizim respublikamızda heç kəs unudulmur, heç kəs yaddan çıxmır.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Sumqayıtda tikinti-quraşdırma işləri 1969-cu ildən ulu öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsinə seçildikdən sonra daha geniş vüsət almışdır. Qara və Əlvan Metallurgiya, Kimya, Neft-kimya, Məişət Kimyası, Mineral Gübrə zavodlarında yeni istehsal sahələri işə salınmışdır. Bu zavodlarda istehsal olunan məhsullar Sumqayıtı İttifaq səviyyəsində tanıtmış və respublikanın ikinci sənaye şəhəri səviyyəsinə yüksəltmişdir. 1978-ci ildə Sumqayıtda istehsal gücü 100 min ton olan Yuyucu Vasitələr zavodunun istismara verilməsində Sov.İKP MK siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini ulu öndər Heydər Əliyevin və Nazirlər Sovetinin Sədri Nikolay Tixonovun iştirakı biz inşaatçıların həyatına ömürlük həkk olundu. Ulu öndər kollektivlə görüşdü, məsləhətlərini verdi və təbriklərini çatdırdı.

Ulu öndər daha bir kompleksin – Sintetik Kauçuk zavodunun təməlini qoydu və bu tikintini Mərkəzi Komitənin nəzarətində olan obyektlərin cədvəlinə daxil etdirdi. Mən çox fəxrlə qeyd etmək istəyirəm ki, bu kompleks vaxtında istismara verildi və bu gün də öz fəaliyyətini davam etdirir. Şəhərimizdə ən böyük «Kimyaçı» Mədəniyyət sarayının tikintisi məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu sarayın tikintisinə Moskva vəsait ayırmırdı və tikinti uzadılırdı. Ulu öndərin yaxından iştirakı və köməyi nəticəsində maliyyələşmə həll olundu və bu saray tikilib istifadəyə verildi. Hazırda burada ən vacib tədbirlər keçirilir.

Möhtərəm cənab Prezident, Sumqayıt son illərdə daha sürətlə inkişaf edir. Sumqayıtda nəhəng sənaye, yaşayış, sosial-mədəni və məişət obyektləri inşa olunur. Şəhər gündən-günə gözəlləşir, yeni ünvanlar yaranır.

Respublikada aparılan islahatlar, yeniliklər, Prezident sərəncamları Sumqayıt şəhərində öz uğurlu bəhrəsini verir. Bilirsiniz ki, Sumqayıt şəhərindəki qaçqın və məcburi köçkünlər uzun illərdir ayrı-ayrı insanlara məxsus mənzillərdə, bağçalarda, məktəblərdə, Mədəniyyət evlərində yaşayırdılar. 12-ci mikrorayonda və Stansiya Sumqayıtda tikilmiş yaşayış binaları istismara verildikdən sonra ayrı-ayrı şəxslərin mənzillərində, bağçalarda, məktəblərdə, Mədəniyyət evlərində məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin müəyyən hissəsi o evlərə köçürüldü. Bunun nəticəsində ayrı-ayrı insanların mənzilləri özlərinə qaytarıldı və onların həyat şəraiti yaxşılaşdırıldı, bağçaların, məktəblərin müəyyən hissəsi boşaldıldı. Sumqayıtda aparılan geniş tikinti-quraşdırma və abadlıq işləri insanların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlibdir.

Cənab Prezident, görülmüş bütün bu işlər Sizin Sumqayıta və sumqayıtlılara diqqət və qayğınızın, şəhər rəhbərinə isə inamınızın nəticəsidir. Siz Sumqayıtın inkişafı üzrə bir neçə sərəncam imzalamış, maliyyə vəsaiti ayırmısınız. Sumqayıtın inkişafında əməyi olan insanları orden və medallarla təltif etmisiniz. Bütün bu diqqət, qayğı və inama görə şəhərimizin inşaatçılar ordusu adından Sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

**Cəlal Məmmədov** (*Sumqayıt Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist*): Çox hörmətli cənab Prezident, hörmətli qonaqlar, əziz sumqayıtlılar!

Cənab Prezident, şəhərimizin 70 illik yubileyi münasibətilə bizimlə görüşə gəldiyinizə görə Sizə bütün Sumqayıt ictimaiyyəti adından, xüsusilə mədəniyyət və incəsənət xadimləri adından dərin təşəkkürümü bildirirəm.

Son illər Sumqayıtın sürətli inkişafı şəhərimizin mədəni həyatında da yeni uğur və nailiyyətlərin qazanılmasına güclü təkan verib. Sizin Azərbaycan mədəniyyətinə verdiyiniz dəyər, onun inkişafına göstərdiyiniz diqqət və qayğı parlaq surətdə özünü göstərir. Məhz Sizin çox böyük sevgi ilə bu kövrək sahəyə, xüsusilə teatra və teatr xadimlərinə göstərdiyiniz diqqət və qayğı mədəniyyətimizin bütün sahələrində yeni uğurların əldə edilməsinə, onun daha da zənginləşməsinə münbit şərait yaradır. Həmçinin vurğulamalıyam ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri çox hörmətli Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin dünya miqyasında təbliğ olunmasında, tanınmasında, Dünya İrs siyahısında yer almasında və mədəniyyətimizin bir bəşəri dəyər

kimi qiymətləndirilməsi yolunda Sizinlə çiyin-çiyinə çalışır və böyük xidmətlər göstərir.

Cari ilin martında Sizin və Mehriban xanımın mədəniyyət və incəsənət xadimləri ilə görüşünüz, onların problemlərini dinləməyiniz, bir çox məsələlərin yerindəcə həllini tapması bizləri çox sevindirir, teatr xadimlərinə diqqət və qayğınız bizə gələcəkdə daha da həvəslə işləmək üçün böyük stimul verir.

Cənab Prezident, qısaca olaraq Sumqayıt Dövlət Dram Teatrı haqqında danışmaq istərdim. 1968-ci ildə Azərbaycan Nazirlər Sovetinin qərarı və Mədəniyyət Nazirliyinin sərəncamı ilə şəhərimizdə ilk professional kollektiv – H.Ərəblinski adına Sumqayıt Dövlət Gənclər Teatrı yaradıldı. 1969-cu il mart ayının 14-də Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin «Müsyo Jordan və Dərviş Məstəli Şah» pyesinin tamaşası ilə tamaşaçıların üzünə öz pərdəsini açdı. 1974-cü ildə Mədəniyyət Nazirliyinin qərarı ilə teatr Sumqayıt Dövlət Dram Teatrı adlandırıldı. Müxtəlif dövrlərdə bu teatrda Xalq artistləri Barat Şəkinskaya, Rza Əfqanlı, Əliağa Ağayev, Məlik Dadaşov, Nəsir Sadıqzadə və bir çox başqa görkəmli sənətkarlar çalışıblar.

Bir faktı böyük qürur hissi ilə vurğulamaq istəyirəm ki, 1981-ci ildə Moskva şəhərində keçirilmiş «Ümumittifaq teatr festivalı»nda N.Həsənzadənin «Bütün Şərq bilsin» əsəri əsasında hazırlanmış tamaşa ilə çıxış edən Sumqayıt teatrı festivalın Fəxri diplomuna, Nəriman

Nərimanov obrazını yaratmış Xalq artisti Məlik Dadaşov isə 1-ci dərəcəli diploma layiq görülmüşdür.

O vaxtlar Azərbaycan KP MK-nın Birinci katibi işləyən ulu öndər Heydər Əliyev bu tamaşaya baxdıqdan sonra səhnəyə qalxaraq, teatrın kollektivini təbrik etmiş və teatr sənətini mükəmməl bilən teatrşünas kimi, tamaşa haqqında müsbət fikirlərini söyləmişdir. 2003-cü il aprelin 3-də ulu öndər Heydər Əliyev Sumqayıt şəhərinə tarixi səfəri zamanı teatrımızın işini yüksək qiymətləndirmiş, teatra xüsusi diqqət və qayğı göstərilməsini vacib hesab etmişdir.

Bir faktı xüsusi qeyd etmək istəyirəm ki, Aqşin Babayevin ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinə həsr olunmuş «Xilaskar» əsərinin tamaşası 2005-ci ildə məhz bizim Sumqayıt teatrında hazırlanıb. Azərbaycanda ulu öndər Heydər Əliyevin bədii obrazı ilk dəfə Sumqayıt Dövlət Dram Teatrının səhnəsində yaradılıbdır.

Hörmətli cənab Prezident, Sizin tapşırığınıza əsasən, son dövrlərdə Sumqayıtda mədəniyyət və incəsənət sahəsinə, ədəbiyyata böyük diqqət və qayğı vardır. İnşa olunan yeni binalar, inzibati tikililər, böyük zövqlə yaradılan istirahət guşələri, yeni çəkilən yollar, salınan parklar şəhərin iqtisadi qüdrətinin göstəricisi olmaqla yanaşı, həm də mədəniyyət nümunələri kimi, estetik bir mənzərə yaradır.

Mən xüsusilə bu gün işləyib çalışdığım, uzun illər təmirsiz qalan, məhz Sizin diqqət və qayğınız sayəsində yüksək maddi-texniki baza ilə təmin olunmuş bu

möhtəşəm teatrımızın binasına görə kollektivimiz və şəhərimizin mədəniyyət işçiləri adından Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

Son illər şəhərimizdə gedən sürətli abadlıq və quruculuq işləri biz sumqayıtlıları həqiqətən sevindirir. Ulu öndərin adını daşıyan möhtəşəm Heydər Əliyev Mərkəzi, Uşaq İncəsənət Məktəbi, Sizin möcüzə adlandırdığınız, qısa müddət ərzində inşa olunmuş Sumqayıt Bulvarı, bulvarımıza xüsusi gözəllik verən Bayraq Muzeyi, 750 yerlik «Kimyaçı» Mədəniyyət sarayı, bu gün açılışını etdiyiniz möhtəşəm Muğam Mərkəzi, həmçinin dahi Nizaminin adını daşıyan kinoteatrın şəhərimizin yubileyi ərəfəsində istifadəyə verilməsi biz Sumqayıt sakinlərini çox sevindirir. Bu mədəniyyət ocaqları şəhərimizin mədəni həyatına böyük töhfələr verir.

Cənab Prezident, çıxışımın sonunda bildirmək istəyirəm ki, Sumqayıt teatrı heç vaxt ölkədə digər teatrların qazandığı nailiyyətlərdən kənarda qalmayıb. Teatrımız dünyanın bir çox ölkələrində keçirilən beynəlxalq teatr festivallarında iştirak edib və böyük uğurlar qazanıb, Hindistan, Türkmənistan, Gürcüstan, Rusiya, Türkiyə və başqa ölkələrdə Azərbaycanı və şəhərimizi layiqincə təmsil edibdir.

Cənab Prezident, fürsətdən istifadə edib paytaxt Bakıda fəaliyyət göstərən bir neçə teatrın statusunun, həmçinin teatr xadimlərinin əməkhaqqının artırılmasına görə Sizə dərin təşəkkürümü bildirirəm. Diqqətinizə görə çox sağ olun.

Yaşasın Sumqayıt!

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

## BOLQARISTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ MLADEN MARİNOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İ l h a m  Ə l i y e v:** Xoş gəlmisiniz! Düşünürəm ki, ölkələrimizi bir-birinə bağlayan məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Mən şadam ki, münasibətlər çox uğurla inkişaf edir. Əlbəttə, yüksək səviyyədə qarşılıqlı səfərlər bizim əlaqələrimizi möhkəmləndirir. Mən bir neçə dəfə, o cümlədən rəsmi səfərlə sizin ölkənizdə olmuşam. Bolqarıstan prezidentləri dəfələrlə Azərbaycana səfər ediblər. Həmçinin Baş Nazir cənab Borisov da bizim qonağımız olub. Beləliklə, ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur.

Əlbəttə, biz energetika sahəsində də əməkdaşlıq edirik. Bolqarıstan «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının işində həmişə yüksək səviyyədə, nazir səviyyəsində iştirak edir. Əminəm ki, ölkələrimizi birləşdi-

rən bu layihə yaxın vaxtda uğurla başa çatdırılacaq. Beləliklə, uzun illər ərzində biz energetika gündəmi ilə bağlı olacağıq. Həmçinin əmtəə dövriyyəsinin də artırılmasını nəzərdə tuturuq. Düşünürəm ki, «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşdırılmasından sonra ölkələrimizin biznes qurumları bir-biri ilə daha çox əlaqə saxlayacaq və daha sıx əməkdaşlıq edəcəkdir.

Gələcək əməkdaşlığın daha bir istiqaməti nəqliyyat sahəsidir. Azərbaycan artıq qonşu ölkələrə və digər dövlətlərə yüklərin Şərq–Qərb marşrutu ilə daşınması üçün tranzit xidmətləri göstərir. Beləliklə, əminəm ki, bu mühüm dəhlizin genişləndirilməsi ilə ölkələrimizdən yükgöndərənlər əməkdaşlıq üçün əlavə imkanlar əldə edəcəklər.

Əlbəttə, siz səfər çərçivəsində həm Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq mövzusuna, həm də ictimai asayişin, təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlərə toxunacaqsınız. Təcrübə mübadiləsi də böyük əhəmiyyət kəsb edir. Daxili işlər orqanları ictimai asayişin qorunması, vətəndaşların dinc yaşayışının təmin edilməsi üzrə mühüm vəzifəni yerinə yetirir. Lakin qeyd etməliyəm ki, artıq uzun illər ərzində həm Bolqarıstanda, həm də Azərbaycanda ictimai-siyasi sabitliyin olduğunu nəzərə alaraq, polis orqanlarının işi sizin bəzi həmkarlarınızın işindən daha azdır. Biz bir sıra inkişaf etmiş ölkələrin polis orqanlarının, demək olar ki, hər gün nümayişçilərlə necə davrandığını, onları döydüklərini, öldürdüklərini, xəsarət yetirdiklərini, qaz, su, dəyənəklə, itlərlə qovduqlarını və çox

böyük qəddarlıq nümayiş etdirdiklərini televiziyada görürük. Həm də biz belə halları dünyanın müxtəlif ölkələrində, müxtəlif regionlarında, o cümlədən ən inkişaf etmiş ölkələrdə görürük. Lakin Azərbaycanda bizi bir məsələ həmişə maraqlandırır: nə üçün insan hüquqlarının təmininə cavabdeh olan beynəlxalq təşkilatlar bəzən dinc nümayişçilərin qəddarcasına, qeyri-insani dağıdılmasını görərkən susurlar? Azərbaycanda hansısa kiçik epizod baş verdikdə isə, məsələn, təxminən bir ay əvvəl qanunsuz aksiyanın qarşısının heç bir güc tətbiq etmədən alınmasından sonra beynəlxalq təşkilatlar, bəzi ölkələrin Azərbaycandakı səfirləri bəyanatlar verməyə başlayıblar və az qala hökumətimizi ittiham etməyə cəhd ediblər. Bu hal Avropada həm də qurbanlarla, qətllərlə, xəsarətlərlə, nümayişlərin dağıdılması ilə baş verdikdə isə hüquq müdafiə təşkilatları və beynəlxalq strukturlar susurlar. Bu, ikili standartların təzahürüdür və bu ikili standartlar onları nümayiş etdirən həmin təşkilatları nüfuzdan salır. Kimisə hər hansı məsələdə ittiham etmək üçün ilk növbədə, buna mənəvi haqqın olmalıdır. Bizi isə bəzən insan hüquqlarını kobud şəkildə pozanlar və dinc nümayişçiləri qəddarcasına dağıdanlar ittiham etməyə cəhd göstərirlər.

Lakin bir daha demək istəyirəm ki, istər Bolqarıstanda, istərsə də Azərbaycanda ictimai-siyasi sabitlik və asayiş xalqın iradəsi ilə təmin olunur. Sizin ölkəniz mənim dostum cənab Borisovun rəhbərliyi ilə inkişaf və sabitlik yolu ilə irəliləyir. Biz bunu yüksək

qiymətləndirir və sizi bütün bu uğurlar münasibətilə təbrik edirik. Beləliklə, mən bizim daxili işlər orqanlarının işinin o qədər də çox olmadığını dedikdə məhz bunu nəzərdə tuturam. Arzu edirəm ki, həmişə sizin işiniz az olsun.

Bir daha xoş gəlmisiniz!

**Mladen Marinov:** Hörmətli cənab Prezident, çox sağ olun. Sizin məni qəbul etməyiniz mənim üçün böyük şərəfdir. İcazə verin, Sizi cənab Baş Nazir Boyko Borisovun adından salamlayım.

Azərbaycan bizim həm energetika sahəsində, həm də gələcək nəqliyyat dəhlizlərinin inkişafında, iqtisadi əlaqələr üzrə və təhlükəsizlik sahəsində strateji tərəfdaşımızdır. «Cənub Qaz Dəhlizi»nin tikintisinin vaxtında başa çatdırılmasına nail olmaq və beləliklə, bir milyard kubmetr qaz tədarükünü təmin etmək bizim üçün çox vacibdir.

*Prezident İlham Əliyev Bolqarıstanın Baş Naziri Boyko Borisovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Bolqarıstanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

**BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JELKO KOMŞİÇƏ**

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, Bosniya və Herseqovinanın dost xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 22 noyabr 2019-cu il*

## RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ VALERİ GERASİMOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Valeri Vasilyeviç!

Hörmətli qonaqlar!

Sizi yenidən görməyimə çox şadam. Xoş gəlmisiniz! Rusiyanın və NATO-nun ali hərbi komandanlığının Bakıda görüşlər keçirməsi yaxşı bir ənənəyə çevrilib. Biz bunu yüksək qiymətləndiririk. Keçən il üç belə görüş olub. Bu il artıq ikinci görüşdür. Yəni bu ənənə artıq yaşayır və düşünürəm ki, davam edəcəkdir. Biz bunu bizə qarşı böyük etimad əlaməti kimi qiymətləndiririk. Ona görə ki, belə görüşlərin keçirildiyi yer bir çox ölkələr ola bilərdi, lakin seçim Bakının üzərinə düşüb və artıq üçüncü ildir ki, bu ənənə davam edir – görüşlərin təməli 2017-ci ildə qoyulub – bu o deməkdir ki, bu məkan yaxşı nəticə verir. Biz belə düşünürük.

Əlbəttə, hər bir görüş, zənnimcə, bütün dünyada ümid doğurur. Ona görə ki, təkcə bizim regionda deyil, həm də dünyada təhlükəsizlik və sülh sizin əldə etdiyiniz razılaşmalardan asılıdır. Biz, əlbəttə ki, bundan qürur duyuruq. Bunu həm də bizim aramızda böyük etimada əsaslanan münasibətlərin əlaməti kimi qəbul edirik. Bu gün ən yüksək səviyyəyə çatmış münasibətlərimizin qədim tarixi də bunu təsdiq edir.

Mehriban Əliyevanın Moskvaya dünən başa çatmış rəsmi səfəri də bizim münasibətlərin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi. Biz bu səfəri çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam Prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin Prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli Prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir. Biz dəvət faktının özünü, münasibətlərin səviyyəsini, Mehriban Əliyevanın şəxsən Prezident tərəfindən ali «Dostluq» ordeni ilə təltif edilməsini, bu təltifdən sonra deyilən sözləri çox yüksək qiymətləndiririk və əlbəttə, şadıq ki, ölkələrimiz arasında münasibətlər belə yüksək səviyyəyə çatıb. Əlbəttə, hökumətin sədri və Federasiya Şurasının sədri ilə görüşlər də çox konstruktiv, zəngin olubdur. Həmçinin regionlararası yubiley forumunun keçirilməsi və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun açılması – bütün bunlar bizim əlaqələrimizin möh-

kəmləndirilməsi işində çox mühüm addımlardır. Əminəm ki, növbəti il də səmərəli olacaq. Gələn ay Vladimir Vladimiroviçlə görüşümüz olacaqdır.

Əlbəttə, sizin məşğul olduğunuz sahədə də müsbət dinamikanı görürük. Sizin Bakıya hər gəlişiniz, o cümlədən hərbi əməkdaşlığı, çox uğurla inkişaf edən hərbi-texniki əməkdaşlığı bir daha müzakirə etmək və gələn il qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirmək üçün bir fürsətdir. Hesab edirik ki, Rusiya ilə Azərbaycan arasında həm ənənəvi, həm də yeni istiqamətlərdə əməkdaşlıq potensialını artırmağa imkan vardır. Bir daha xoş gəlmisiniz. Qarşıdakı görüşdən yaxşı nəticələr arzu edirəm.

*Görüşdə tərəflər beynəlxalq və regional təhlükəsizlik problemlərini, həmçinin hərbi və hərbi-texniki əməkdaşlığın aktual məsələlərini, o cümlədən müdafiə idarələrinin Xəzərdə qarşılıqlı fəaliyyətini müzakirə etdilər.*

## NATO HƏRBİ KOMİTƏSİNİN SƏDRİ SER STÜART PİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da NATO Hərbi Komitəsinin sədri ser Stüart Piçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İ l h a m  Ə l i y e v:** Çox şadam ki, artıq neçə il ərzində Azərbaycan belə mühüm görüşlər üçün öz logistika dəstəyini və məkanını təqdim edir. Biz bunu aramızda olan dostluq, tərəfdaşlıq əlaməti hesab edirik və yüksək qiymətləndiririk. Həmçinin etimad əlaməti kimi də qəbul edirik. Çünki dünyada çoxlu ölkə vardır. Birləşmiş Millətlər Təşkilatında, demək olar, 200 ölkə vardır. Lakin müəyyənliyə, əməkdaşlığa, risklərin azalmasına və planetimizin daha təhlükəsiz olmasına gətirib çıxaran bu görüşlərin keçirilməsi üçün Azərbaycan seçilibdir. Biz çox şadıq və qürur hissi keçiririk ki, Azərbaycan həm NATO, həm də Rusiya tərəfindən bu görüşün keçirilmə yeri kimi seçilibdir. Ümidvarıq ki, əvvəlki, bugünkü və növbəti görüşlər

sülh və sabitliyə töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz!

**Stüart Piç:** Cənab Prezident, təşəkkür edirəm. Əvvəlcə, icazə verin, baş katib cənab Stoltenberqin salamlarını Sizə çatdırım. O Sizə ən səmimi salamlarını çatdırır.

**İlham Əliyev:** Çox sağ olun, mənim də salamlarımı cənab baş katibə çatdırın. Mən onunla NATO-nun mənzil-qərargahında görüşümü xatırlayıram. Həmçinin Şimali Atlantika Şurasında səfirlərlə ünsiyyətimi xatırlayıram. Mən orada dəfələrlə olmuşam.

**Stüart Piç:** Bugünkü görüşə əlavə olaraq, icazə verin, Silahlı Qüvvələrinizin NATO-ya dəstəyinə görə Sizə təşəkkürümü bildirim. Tərəfdaş və dost olaraq, bu bizim üçün çox önəmlidir. Sizin Silahlı Qüvvələrinizə bizim böyük hörmətimiz var, onlar çox peşəkar və effektivdirlər.

**İlham Əliyev:** Çox sağ olun. Biz NATO-nun etibarlı tərəfdaşıyıq və bizim hərbçilərimiz Əfqanıstanda NATO hərbçiləri ilə çiyin-çiyinə xidmət edirlər. Bildiyiniz kimi, bu yaxınlarda biz hərbçilərimizin sayını 30 faiz artırdıq, indi onların sayı 120 nəfərdir. Həmçinin biz «Sülh Naminə Tərəfdaşlıq» Proqramı çərçivəsində də işləyirik. Eyni zamanda, Əfqanıstana gedən yüklərə mühüm logistik və nəqliyyat dəstəyini təmin edirik. Həmçinin 2 il bundan əvvəl biz Azərbaycan və Türkiyə arasında dəmir yolunun açılışını etdik və hazırda bu yoldan daşımalar üçün istifadə edilir. Digər vacib məsələ ondan ibarətdir ki, biz Lapis-Lazulinin öz

sistemimizlə bağlanmasına nail olduq. Biz artıq Əfqanıstandan onların ixrac etdiyi yükləri qəbul etməyə başlamışıq. Beləliklə, Əfqanıstana iqtisadi və sosial inkişaf üçün daha çox pul qazanmağa kömək edirik. Eyni zamanda, biz bir neçə dəfə Əfqan Milli Ordusunun Etimad Fonduna ianələr vermişik. Həmçinin Əfqanıstan hökuməti ilə islahatlar üzərində yaxından işləyirik. Çox qürurvericidir ki, dövlət xidmətlərinin göstərilməsi üzrə ilk mərkəz olan ASAN – bu nou-xaunun sahibi bizik – Əfqanıstanda açılıbdır. Beləliklə, bu, «vahid pəncərə» sistemi çərçivəsində çox nadir dövlət xidmətləri mərkəzidir. 200-dən çox xidmət var, bunlar onlayn və çox səmərəli şəkildə göstərilir. Burada bu mərkəzin bəyənilmə səviyyəsi 100 faizə yaxındır. Bəlkə nümayəndə heyətinizin bəzi üzvləri onların birinə baş çəkə bilər, Bakıda 5 mərkəz mövcuddur. Bunu biz əfqan tərəfdaşlarımıza nəyi təklif etdiyimizi görsünlər deyə deyirəm. Əlbəttə, təhlükəsizlik və terrorla mübarizə əməliyyatları çox vacibdir, lakin ölkəyə iş yerləri, məşğulluq, sosial müdafiə, iqtisadi islahatlar lazımdır və biz bu məsələlərlə bağlı Əfqanıstan hökuməti ilə çox geniş iş aparırıq.

## BAKI DÖVLƏT UNİVERSİTETİNİN 100 İLLİK YUBİLEY MƏRASİMİNDƏ İŞTİRAK

*Bakı Konqres Mərkəzi*

*26 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Bakı Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilmiş mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli müəllimlər və tələbələr!

Mən sizi və bütün Azərbaycan xalqını Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Universitetin bütün kollektivinə yeni uğurlar arzulayıram.

Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmişdir. Bu qərar bir daha göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərib. Xalq Cümhuriyyətinin qurucuları yaxşı anlayırdılar ki,

savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq mümkün deyil. Baxmayaraq ki, gənc respublika böyük çətinliklərlə üzləşmişdi və ölkə ərazisinə tam nəzarət edə bilmirdi, bu qərar bir daha respublikanın niyyətini, qurucuların siyasətini əks etdirir. Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr veribdir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Bu bir daha göstərir ki, müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan daha asandır. Müstəqilliyi qorumaq, onu müdafiə etmək, gücləndirmək böyük siyasi bilik, böyük cəsarət tələb edir.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra Bakı Dövlət Universiteti yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirdi. 100 il ərzində universitetin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdiribdir. Məzunlar arasından görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər çıxıbdır. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini veribdir.

Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. Heydər Əliyev həm sovet dövründə, həm müstəqillik ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə

qədər yüksəldi. O vaxt – gənclər təbii ki, bunu bilmirlər – respublikaları fərqləndirən bir neçə əlamət var idi. Onların arasında keçici «Qırmızı bayraq» var idi. Yəni «Qırmızı bayraq» ilə o respublikalar təltif olunurdu ki, orada həm sənayedə, həm kənd təsərrüfatında, həm də bütün digər sahələrdə böyük uğurlar var idi. Bax, Heydər Əliyevin dövründə 13 il ərzində Azərbaycan hər il bu «Qırmızı bayrağ»ı alırdı. Bu bir daha təsdiq edir ki, onun rəhbərliyi ilə Azərbaycan böyük uğurlu yol keçibdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda biz ən sonuncu yerlərdə idik. O, Azərbaycanı böyük inkişafa doğru apararaq, ən qabaqcıl yerlərə qədər ucaltdı. Sovet dövründə cəmi 2 respublika var idi ki, onlar donor kimi fəaliyyət göstərirdi, onlardan biri də Azərbaycan idi.

Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət göstərirdi, hər il böyük müşavirələr keçirirdi. Eyni zamanda, Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində oxuması üçün böyük səylər göstərmişdi və bu, unikal xarakter daşıyırdı. Çünki sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın Azərbaycan gənci Bakıda imtahan verməklə, Sovet İttifaqının Moskva, Leninqrad və digər böyük şəhərlərinin aparıcı ali məktəblərinə ezam edilirdi. Beləliklə, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialı yaradılırdı. Məhz bu kadr potensialı, o cümlədən bu gün ölkəmizin, müstəqil dövlətin uğurlu inkişafını təmin edir. O illərdə yüksək təhsil almış kadrlar bu gün Azərbaycanı ləyaqətlə təmsil edir.

Heydər Əliyevin qərarı ilə ötən əsrin 70-ci illərinin əvvəllərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. Bu da ulu öndərin uzaqgörənliyini göstərir. Çünki o vaxt azərbaycanlılar sovet ordusunda az təmsil olunurdu. Heydər Əliyev isə çox istəyirdi ki, azərbaycanlı hərbçilər yetişsin. Sanki bilirdi ki, nə vaxtsa Azərbaycan müstəqil dövlət olacaq və bu kadrlar bizə lazım olacaq.

Bir sözlə, təhsilə, bütün başqa sahələrə göstərilən diqqət, onun fədakar əməyi və Azərbaycan xalqının müdrikliyi imkan verdi ki, Heydər Əliyev Azərbaycanın ən ağır günlərində öz xilaskarlıq missiyasını icra etsin. Əgər keçən əsrin 70-ci illərində onun gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı – 90-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı – Azərbaycan xalqı ona müraciət etməzdi. Məhz o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində ona inam hissini saxlayırdı.

Ölkəmizin müstəqilliyə qədərki dövründə də, müstəqillik dövründə də Heydər Əliyev daim xalqın yanında idi və xalqa xidmət etmək onun başlıca missiyası idi. 20 Yanvar faciəsindən sonra o, etiraz səsini ucaltdı, Moskvadakı daimi nümayəndəliyə gəlib, orada mətbuat konfransı keçirdi, sovet rəhbərliyini, Kommunist Partiyasının rəhbərliyini ittiham etdi, bu qanlı faciəni pislədi və bütün dünyaya bu həqiqəti çatdırdı. Çünki onun böyük nüfuzu var idi və onun dilindən səslənən sözlər, həqiqətlər dünyanın bütün yerlərində əks-səda

vermişdi. Halbuki o vaxt Sovet İttifaqının dağılmasına hələ 2 il var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağılacaq. O cəsarətli addım Heydər Əliyevin xalqa nə qədər bağlı olduğunu göstərir.

Ondan sonra uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etdi. O da böyük təhlükə idi. Onu da bildirməliyəm ki, 20 Yanvar faciəsindən sonra Azərbaycan rəhbərliyində təmsil olunanlar susmuşdular, biri də bu qanlı faciəni qınamadı, biri də öz səsini ucaltmadı. Bu bir daha göstərdi ki, ovaxtkı rəhbərlik antimilli rəhbərlik idi. O hakimiyyəti əvəzləyən, qanunsuz yollarla hakimiyyəti zəbt etmiş AXC–Müsavat cütlüyü bir ildən çox hakimiyyətdə oldu. Bir il ərzində 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilmədi. Hakimiyyət onların əlində idi. Nə üçün bunu etmədilər? Nə üçün xalqımızın bu faciəsinə, bu yarasına biganə qaldılar? Bu həqiqətdir. 20 Yanvar faciəsinə, Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətə məhz Heydər Əliyev hakimiyyətə qayıdandan sonra siyasi-hüquqi qiymət verdi və bu tarixdir. Bu bir daha ulu öndərin xalqa nə qədər bağlı olduğunu göstərir.

Müstəqilliyə gedən yol da Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun qərarı ilə Naxçıvan Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi təsis olundu və buna oxşar digər qərarlar qəbul edildi. O vaxt Sovet İttifaqının saxlanılmasına dair referendum keçirilmişdi və Azərbaycan üzrə referendum saxtalaşdırılmışdı. Guya ki, Azərbaycan əhalisi Sovet İttifaqının saxlanıl-

masına səs veribdir. Halbuki bu belə deyildi. Naxçıvanda referendum keçirilmədi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından «Sovet Sosialist» sözləri çıxarıldı. Bu da müstəqilliyə aparan yol idi. Azərbaycanda siyasi sistemi formalaşdıran Yeni Azərbaycan Partiyası təsis edildi. Çünki partiya yaranana qədər Azərbaycanda siyasi sistem, partiyalar yox idi. Ayrı-ayrı silahlı dəstələr öz adlarını partiya qoymuşdular və bir-biri ilə mübarizə aparırdılar, torpaqlar isə işğal altına düşürdü. Əgər Heydər Əliyev müstəqilliyin ilk illərindən Azərbaycanda rəhbər olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi.

Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə tərk etmiş, qaçmışlar – ikisi Moskvaya, biri Kələkiyə. Bu fərarilikdir, satqınlıqdır, xəyanətdir. Liderin vəzifəsi dövləti qorumaqdır, liderin vəzifəsi xalqla bir yerdə olmaqdır. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O hər birimiz üçün nümunədir. Burada əyləşən gənclər də bu tarixi bilməlidir. Mən dəfələrlə bunu demişəm. Biz – bu tarixi yaşayan insanlar, əlbəttə, heç vaxt bunu unutmayacağıq. Bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik. Gənclər bunu görməyiblər. Onlara elə gəlir ki, həmişə belə olub. Onlara elə gəlir ki, Azərbaycan həmişə belə çiçəklənən, firavan dövlət olub. Lakin belə deyildi. Biz o günləri yaxşı xatırlayırıq. Xalq Cəbhəsi–Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində

dayanırdı. Əlisilahlı quldurlar meydan oxuyur, şəhərlərimizdə insanları incidir, oğurlayır, işgəncələr verir, jurnalistləri döyürdülər.

Məhz Xalq Cəbhəsi–Müsavat hakimiyyəti – özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə bir də heç vaxt belə ağır vəziyyətə düşməsin – gözükölgəli olmasın, başqasının iradəsindən asılı olmasın, başqa dövlətlərin qarşısında baş əyməsin. AXC–Müsavat cütlüyü dövründə Prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar, ona göstərişlər verirdilər. O da məzlum bir adam kimi, o göstərişləri yerinə yetirirdi. Ona görə belə günə düşdü. Məgər bizi bizdən çox sevən, istəyən varmı? Bu gün bəzi hallarda bəzi xarici dairələrdən eşidirik ki, biz Azərbaycana kömək etmək istəyirik, biz Azərbaycanı inkişaf etmiş ölkə kimi görmək istəyirik. Hamısı yalandır. Mən tam səmimiyyətlə deyirəm. Bizim ən ağır günlərimizdə xəzinə boş idi, Xalq Cəbhəsi–Müsavat cütlüyü talamışdı, Ləl-Cəvahirat Fondunu talamışdı. İnsanlar öz axırıncı qızıl əşyalarını aparırdılar ki, ordumuza kömək etsinlər. O vaxt Prezident, Dövlət katibi, Baş Nazir o Ləl-Cəvahirat Fondunu talan etmişdilər. İndi onun izi-tozu da qalmayıb. O vaxt xəzinə boş olanda, biz kreditlər üçün müraciət edəndə heç kim bizə kredit vermirdi. Yaxşı, əgər siz Azərbaycanı bu qədər sevirsi-

nizsə, nə üçün o vaxt bizə kömək etmədiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etmədiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir.

Bu göstəriciyə görə biz dünyada 9-cu yerdəyik. İndi istənilən məbləğdə – bax, sabah 10 milyard dollar lazım olsa, alarıq. Almırıq, qoymuram. Borcu yenə də endirirəm. Ona görə kimsə deyəndə ki, biz Azərbaycanın yaxşılığını istəyirik, inanmayın, gənclər də inanmasınlar. Bizdən çox bizi istəyən heç vaxt olmayıb və olmayacaqdır.

Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlərboyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur? O vaxt hətta müstəqil dövlətlər olanda onların da imkanları məhdud olub. Elə götürək Azərbaycan Xalq Cümhuriyyətini, ölkəni idarə edə bilmirdi. Xarici hərbi missiyaların rəhbərləri qərarlar qəbul edirdilər. Hətta bizim o vaxt qəbul edilmiş birinci Dövlət bayrağımız xarici hərbi missioner tərəfindən dəyişdirilmişdi. Ultimatum qoyulmuşdu, tarixçilər bunu yaxşı bilirlər. Müstəqil dövlətin rəhbərliyinə ultimatum qoyulmuşdu ki, siz bu bayrağı dəyişdirməlisiniz və dəyişdirdilər də. Ondan sonra indiki üçrəngli bayraq təsis edildi. Ona görə də o dövrlərdə müstəqillik yarımçıq idi, natamam idi.

Bu gün isə əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar belə, yapışmır bizə. Çünki xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları da bunu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir. Əhalinin mütləq əksəriyyəti bizə alternativ görmür və kim ola bilər bu alternativ? Hətta havadarları artıq onlardan üz döndəriblər. Biz bunu dəqiq bilirik. Mən indi bu auditoriyada bəzi operativ məlumatları da bölüşə bilərəm sizinlə, Azərbaycan xalqı ilə. İndi anti-Azərbaycan dairələr, xaricdəki dairələr artıq açıq deyirlər ki, bizdə ənənəvi müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr var ki, onların da kitabı bağlanıb, onlara ümid bəsləmək olmaz. Onların pul təminatı da azalıb, ona görə çabalayırlar. Onlar gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq, onların beyinlərini zəhərləmək, onları xalqa qarşı, Vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq da.

Çünki Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndir, Vətənə bağlıdır. Ancaq o niyyət var və biz bunu bilməliyik, müəllimlər də bilməlidirlər.

Müəllimlər tələbələrə nəinki bilik verməli, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə, Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar vardır. Bizi istəməyən qüvvələr, o cümlədən erməni lobbisi tərəfindən maliyyələşən qurumlar bu boşluqlardan istifadə edir, xüsusilə bu gün azad internetin mövcud olduğu bir dövrdə. Azərbaycanda internet istifadəçilərinin faiz nisbəti 80-ni keçib. Azərbaycanda azad, demokratik cəmiyyət formalaşıb, azad media vardır. Ona görə istənilən yalanı ortalığa atmaq olar. Ondan sonra bu yalan ətrafında müzakirələr təşkil olunur, bu yalan artıq bir real fakt kimi təqdim edilir və gənclərin beyinlərini zəhərləmək istəyirlər. Biz buna imkan verə bilmərik. Gənclər özləri də tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı.

Bir daha demək istəyirəm ki, bizim müstəqillik dövrlərimiz Azərbaycan xalqının tarixində çox məhduddur. Məhz ona görə ki, aldanmışıq, əzilmişik. Buna imkan vermək olmaz və verməyəcəyik, biz möhkəm

dayanmışıq. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy ləkələsinlər, qoy yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli, vətənə bağlı, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək.

Bu gün Azərbaycan inkişaf edir, dünyada bizə rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verir. Necə ki, 8 il bundan əvvəl biz 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Özü də necə seçildik. Diplomatlar bunu yaxşı bilirlər ki, adətən, səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi. 3 gün, 16 tur. Nəyə görə? Çünki bizə rəqib olan ölkə öz namizədliyini geri götürmürdü. Biz hər bir turda böyük səs fərqi ilə qalib idik, amma lazım olan səsləri yığa bilmirdik. Adətən, belə olan halda, səslərdə fərq böyük olanda məğlub ölkə öz namizədliyini geri götürür. O isə götürmürdü. Özü də bizə dost ölkə idi. Təəccüb etdim, bu nə məsələdir, sonra öyrəndik ki, imkan vermirlər. Bəzi böyük dövlətlər imkan vermir və istəyir ki, bizim üzvlüyümüzün qarşısı alınsın. Bir daha qayıdıram bu məsələyə. Əgər həmin o ölkələrin nümayəndələri sizə desələr ki, «biz Azərbaycanı istəyirik, inkişafını istəyirik», inanmayın. İstəsəydilər, imkan verərdilər.

Mən indi onların adını çəkmək istəmirəm, maraqlananlar öyrənə bilərlər. 16 tur və 3 gün bizim üzvlü-

yümüzü əngəlləmək istəyirdilər. Sonra nə oldu? Gəldilər bizim nümayəndələrə yaxınlaşıb dedilər ki, Azərbaycan, öz namizədliyinizi geri götürün. Gələn il biz sizə kömək edərik, amma indi geri götürün. Mən bu 3 gün ərzində Nyu Yorkla birbaşa əlaqədə idim. Dedim ki, qətiyyən, axıra qədər, lap bir il də çəksə, biz orada bu səsvermədə iştirak edəcəyik. Bir il çəksə, biz Təhlükəsizlik Şurasının işini iflic vəziyyətə sala bilərik. Ancaq ondan sonra həmin o rəqib ölkəyə göstəriş verildi, o, namizədliyini geri götürdü. Bu nəyin bahasına oldu? Çünki əksər ölkələr bu sistemdən bezib, yorulub. Bizə səs verənlər də vaxtilə bizim kimi müstəmləkə olub, əzilib, soyulub, talan ediliblər. Artıq onların da səbri tükənib.

Bu yaxınlarda biz 120 ölkənin qərarı ilə «Qoşulmama Hərəkatı»na sədrlik etməyə başladıq. Mən sizə deyim və Bakıda keçirilmiş Zirvə görüşü bunu bir daha göstərdi, bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir. Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamır. Amma onların hər biri – 119-u bizə səs verdi. Nadir bir vəziyyətdir. Biri də bitərəf qalmadı, yaxud da əleyhinə səs vermədi. Nəyə görə? Bax, dediyim sözlərə görə. Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir. Bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üzə qalsaq belə. Bu müddət ərzində belə təxribatlar az olmayıbdır.

2003-cü ili xatırlayaq – Prezident seçkilərindən sonra Azərbaycanda çevriliş cəhdi. Heç kimə sirr deyil ki, mən Prezident seçkilərində təmiz qələbə qazanmışdım. Çünki insanlar Heydər Əliyev siyasətinə səs vermişdilər. İğtişaş törədildi. 2005-ci il – Azərbaycan artıq o inqilabların sırasında növbəti yer kimi göstərilirdi. Belə maykalar buraxılmışdı və üzərində yazılmışdı: «Gürcüstan, Ukrayna, Qırğızıstan, Azərbaycan». Yəni dördüncü biz olmalı idik və bizdən sonra da başqaları olmalı idi. Biz dayandırdıq bu vəbanı, bu xəstəliyi, bu azarı. İndi bütün dünya görür ki, bu inqilablar o ölkələrə ancaq bədbəxtlik gətirib və indi öz problemləri ilə üz-üzədirlər, orada iğtişaşlar səngimir. Çünki oralara bu zəhərli inqilab toxumu səpilmişdi. Necə ki, zəhərli alaq otu kimi, Xalq Cəbhəsi–Müsavat cütlüyü hakimiyyətdə bir il qaldı. O qədər zəhərlədilər ki, bu günə qədər də o zəhərin təsiri bəzi yerlərdə qalır. Ona görə növbəti məntəqə biz olmalı idik və narıncı maykaları da gətizdirmişdilər, sadəcə olaraq, özünü müxalifət adlandıran ünsürlər bir daha öz kütlüyünü göstərdilər. Fikirləşmədilər ki, noyabr ayında parlament seçkiləri keçirilməli idi, noyabr ayı soyuq keçir. Ona görə o maykaları bilmirdilər necə geyinsinlər, bəziləri pencəyin üstündən mayka geymişdi.

Çox gülməli bir mənzərə idi. O da alınmadı. Nəyə görə?! Xalq istəmədi! Xalq dedi ki, yox, bəsdir, görmüşük sizi, necə ki, hakimiyyət uğrunda mübarizə naminə talamısınız, döymüsünüz, söymüsünüz, öldürmüsünüz, Gəncəni bombalamısınız, vətəndaş mühari-

bəsini başlatmısınız, Qarabağı satmısınız, Şuşanı satmısınız, Laçını satmısınız. Sonra da fərari kimi qaçmısınız – Prezident Kələkiyə, Dövlət katibi Kələkiyə, o birilər isə vəzifələrini dondururdular. Belə də hakimiyyət olar? Belə də qorxaq adamlar olar? Heç adi adam hansı ki, özünü lider hesab etmir, özünə rəva bilməz ki, belə biabır olsun. Amma onların utanan üzü yoxdur. Bu yaxınlarda yenə də o mənzərəni hamımız gördük, biabırçılıqdır. Bu gün müxalifət düşərgəsində boşluq yaranıb və bizi istəməyənlər gənclərdən istifadə etmək istəyirlər ki, onları xalqın üstünə qaldırsınlar. Sağlam müxalifət yaradılmalıdır – dövlətçiliyə sadiq, xalqa bağlı, hakimiyyəti tənqid edən, amma konstruktiv təklif verən, yol göstərən müxalifət. Biz ancaq sevinərik, əgər belə müxalifət yaranarsa. Doğrudan da bizim işimizə kömək olar. Biz hər şeyi indi öz üzərimizə götürmüşük, bəlkə də hansısa alternativ yanaşma, yaxud da ki, mövqe kömək edə bilər. Amma yoxdur və yaxın üfüqlərdə də görünmür. Bizim xarici siyasətlə bağlı uğurlarımız təkcə bu sədrliklə məhdudlaşmır. Halbuki bu çox önəmli məsələdir.

Oktyabr–noyabr aylarında – cəmi 2 ay ərzində görün nə qədər böyük hadisələr baş verdi. Prezident Putinin dəvəti ilə mən «Valday» Diskussiya Klubunda iştirak etdim. Oraya cəmi üç dövlət başçısı dəvət olunmuşdu, o cümlədən də Azərbaycan. Bu bir daha göstərir ki, Rusiya və onun Prezidenti Azərbaycana nə qədər böyük önəm verir və bizə böyük hörmət göstərir. Orada da canlı efirdə sözümü dedim. Mən bunu

Bakıda da, hansısa rayonda da deyə bilərdim. Amma kim eşidəcəkdi? Bizimkilər. Yəni biz bunu özümüz üçün demirik, biz deyirik ki, dünya bilsin. Orada canlı efirdə mən dedim: «Qarabağ Azərbaycandır, nida işarəsi». Bir daha bütün dünya gördü ki, Qarabağ Azərbaycanındır, bir daha bütün dünya bu həqiqəti eşitdi.

Ondan sonra MDB Zirvə görüşündə – o, «Valday»dan bir neçə gün sonra baş verdi – mən qeyd etdim ki, biz İkinci dünya müharibəsində Qələbənin 75 illiyinin ərəfəsindəyik. Biz imkan verə bilmərik ki, MDB məkanında faşistlərə abidələr ucaldılsın. Dedim ki, Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu sökülməlidir, bu qəbuledilməzdir. Dedim ki, o vaxt o, həbs olunmuşdu və həbsxanada da çürümüşdü. Onu da bildirmək istəyirəm ki, həbs edən təşkilatın adı SMERŞ idi. Bilməyənlər bilsinlər ki, bu abreviaturadır, bunun adı «Smert Şpionam» – SMERŞ, yəni «Casuslara ölüm». O, casus kimi həbs olunub, ona 25 il cəza verilib, faktiki olaraq, ölüm cəzası və o, Vladimir türməsində dünyadan köçübdür.

İndi görün, Ermənistan Baş Nazirinin cavabı nə oldu? Dedi ki, Soljenitsın da lagerdə olub, dissidentlər də türmədə olub. Yəni bu adam Soljenitsını və söz azadlığına görə həbs edilmiş və sonra reabilitasiya olunmuş digər adamları faşist Njde ilə eyniləşdirir. Bu onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir. Mən onlara şans verdim. Öz çıxışımda dedim ki, onu

əvvəlki hakimiyyət ucaldıb. İndiki hakimiyyət özünü demokratik adlandırırsa, söksün, yıxsın bu abidəni. Bu ləkəni Ermənistan yusun üzündən. Heç olmasa, onlar bir ləkədən canlarını qurtarsınlar. Yox, görün bunların faşist mahiyyəti hara gedib çıxıb ki, bu, türklərə qarşı vuruşub. Yəni onlar üçün əsas budur. Onlar uşaqları da belə yetişdirirlər, bizə qarşı, Türkiyəyə qarşı, müsəlmanlara qarşı nifrət ab-havasında.

Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə yeksan etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Axı bu təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar?! Necə belə riyakarlıq etmək olar?!

Biz dəfələrlə islam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılmış abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa, o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?! Ona görə bizim bu istiqamətdə siyasətimiz davam etdiriləcək. Amma məsələ bununla bitmir. Ermənistanın Baş Naziri Aşqabad Zirvə

görüşündə böyük səhv buraxdı, Soljenitsınla faşisti eyniləşdirdi. Amma heç olmasa, ondan sonra bir nəticə çıxaraydı. Çünki mətbuatda, özü də Rusiya mətbuatında, başqa mətbuatda onu lağa qoydular ki, bu nə deyir, nə danışır, bu nədir? Ondan sonra görün nə deyir. Rusiya jurnalistləri ilə görüşdə deyir ki, nə olsun ki, Njde Hitlerlə görüşüb, Molotov da Hitlerlə görüşüb. Bax, bilirsiniz, buna daha şərh vermək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub, 1939-cu ildə müharibənin mümkünlüyünü aradan qaldırmaq üçün görüşübdür. O, Hitlerə xidmət etmirdi. O, Hitlerə qarşı koalisiyanın başında duran Sovet İttifaqının aparıcı simalarından biri idi. Onu Njde ilə eyniləşdirmək olar?! Mən bu misalları ona görə gətirirəm ki, gənclər yaxşı oxusunlar, gələcəkdə belə gülünc vəziyyətə düşməsinlər, tarixi yaxşı bilsinlər. Amma bunu deyən bu gün o ölkənin rəhbəridir. Yəni onlardan nə gözləmək olar?! Bu sual ritorik sualdır.

Elə bu iki ay ərzində bizim xarici siyasətlə bağlı digər önəmli hadisələr də baş vermişdir. Biz oktyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərimizə götürdük və Zirvə görüşünü Bakıda keçirdik. «Qoşulmama Hərəkatı»nın sədrliyini öz üzərimizə götürmüşük. Üç il ərzində biz bu təşkilata sədrlik edəcəyik. Bu, BMT-dən sonra dünyada ikinci təşkilatdır və əslində elə birinci təşkilatdır. Çünki BMT indi elə vəziyyətdədir ki, onu islah etmək istəyənlərin sayı gündən-günə artır. İkincisi, BMT-nin rəhbəri

yoxdur. Heç bir ölkə BMT-yə rəhbərlik etmir. Təhlükəsizlik Şurasına da sıra ilə rəhbərlik olunur. Biz də o cümlədən rəhbərlik etmişik. Bu rəhbərlik müddətlidir. Biz isə dünyanın BMT-dən sonra ən böyük təşkilatının sədriyik və indi bizim sözümüz keçəcəkdir. Gündəliyi biz formalaşdırırıq, məsələləri biz müzakirəyə çıxaracağıq. Əlbəttə ki, öz məsələmizi və əzilmiş, ədalətsizliyə düçar olmuş ölkələrin məsələlərini qaldıracağıq, onları müdafiə edəcəyik.

Noyabr ayında Bakıda Dünya Dini Liderlərinin II Zirvə görüşü keçirildi, 70 ölkənin dini liderləri Bakıya gəldilər. Dünyada buna bənzər ikinci yığıncaq yoxdur. Mən iclaslarda bir-birinin yanında oturanlara fikir verirdim, əgər onlar başqa yerdə görüşsəydilər, bəlkə başqa cür danışardılar. Amma oturublar, bir-birini dinləyirlər, bir-birinə salam verirlər. Biz bunu istəyirik. Çünki dünya başqa istiqamətdə gedir. Deyirlər ki, multikulturalizm ölüb, yoxdur. Müsəlman miqrantlarını qəfəsdə saxlayırlar, «stop islam!» deyirlər demokratiya beşikləri. Deyirlər ki, biz miqrantları qəbul edə bilərik – mən Avropa ölkələrini nəzərdə tuturam – ancaq müsəlman miqrantları yox. Deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Amma biz göstəririk ki, yox, elə deyil. Bu, siyasi iradədən, baxışlardan asılıdır, sən nə istəyirsən, hansı siyasəti yürüdürsən. Bax, biz bu siyasəti yürüdürük.

Bu siyasət yeganə düzgün siyasətdir. Əks təqdirdə, gələcək müharibələr, o cümlədən ola bilsin, dini müharibələr qaçılmazdır. Ona görə, bax, dini liderlərin Zirvə

görüşünün keçirilməsi belə səviyyədə və belə təmsilçiliklə bir daha bizim hörmətimizi, rolumuzu göstərir. Biz nəinki ölkə daxilində, dünya miqyasında bu gün çox önəmli ölkəyə çevrilmişik. O ki qaldı daxili məsələlərə, onlar da öz həllini tapır. Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə də davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan çoxdur. Xarici borcumuz azalır, yenə də azaldacağıq. İndi ümumi daxili məhsulun 17 faizini təşkil edir, mən göstəriş vermişəm ki, təqribən 10 faizinə qədər enməlidir. Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır. Davos Dünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır.

İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin 10 ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Onları sosial sahəyə yönəldirik. Amma bu hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır.

Bundan sonra daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək. Bundan 4 milyon 200 mindən çox insan faydalanıb. Bu il minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, müavinətlər 2 dəfə, tələbələrin təqaüdləri 50 faiz, köçkünlərə verilən təqaüd 50 faiz artırılıb. Nəyin hesabına? Bu, göydən düşən deyil, bunları islahatların hesabına əldə edirik, əldə də etməliyik.

Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol vermək olmaz. Mən bir neçə dəfə bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var, getməlidir. Qətiyyən belə şey ola bilməz. Mən imkan verməərəm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliyi – bu sintez Azərbaycanda vardır.

Həm cəmiyyətdə, həm iqtidarda vardır. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik vardır. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə etməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi dü-

şüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən «ağsaqqal», «ağbirçək» sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm – hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, «stop islam!» – deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır. Ancaq bu, kampaniyaya çevrilməməlidir.

O ki qaldı müəllimlərin fəaliyyətinə, mən onların fəaliyyətini çox yüksək qiymətləndirirəm. Müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir. Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görür, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Biz müasir dövrdə köhnə «baqaj»la yaşaya bilmərik. İndi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar vardır. Müəllimlər daim

yeniliklərə baxsınlar, onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli bilik versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq eyni zamanda, müəllimlər də daim öz üzərlərində işləməlidirlər.

Mən də müəllim olmuşam. İnstitutu bitirəndə mən bir xarici ölkəyə təyinat aldım, ancaq ondan imtina etdim, xaricə getmək istəmədim. Qaldım institutda, aspiranturaya daxil oldum, dissertasiya müdafiə etdim və 23 yaşımda dərs verməyə başladım, özü də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, 23 yaşında, 5 il ərzində. Ona görə müəllim peşəsi mənim üçün yad peşə deyil. Mən də müəllim olmuşam, müəllim kimi, sizi salamlayıram.

Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil. Sovet vaxtında belə bir söz var idi: «tapş», o, instituta «tapşla» daxil oldu. Əvvəllər sovet dövründə əsas məqsəd diplom almaq idi. Evlənmək üçün, yəni elçiliyə getmək üçün diplomu var, yoxsa yox? Hə, varsa onda markası artır. Diplom heç nədir, bilin. Əgər bilik olmasa, savad olmasa müasir dünyada bu, əhəmiyyətsiz bir şeydir. Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi

artan ölkəyik. 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə də biz o yeni peşələri gərək mənimsəyək.

Gərək bizim vətəndaşlara imkan yaradaq ki, o peşələrə yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad – onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bunlar olmasa ölkəmizin gələcəyi olmayacaq və nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaqlar. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir – bilikli, savadlı, vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin.

Biz 1920-ci ildə müstəqilliyi əldən verdik. Bunun obyektiv və subyektiv səbəbləri vardır. Ancaq bu reallıqdır, indi hansı səbəbi istəyirsən gətir, xeyri yoxdur, getdi əldən müstəqillik. Nəyə görə gücümüz çatmadı? Onun da müxtəlif səbəbləri var, amma fakt odur ki, çatmadı. Ona görə bu acı tarix daim bizim gözümüzün önündə olmalıdır.

Müstəqillik 1993-cü ildə də əldən gedirdi, əgər Heydər Əliyev gəlməsəydi. O, müstəqilliyi qorudu, saxladı, gücləndirdi, bizi düz yola gətirdi. Biz də onun yolu

ilə gedirik, müstəqilliyi möhkəmləndiririk və möhkəmləndirəcəyik.

Bizim müstəqilliyimiz başlıca vəzifəmizdir. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə çox nikbin baxan dövlətdir. Bir daha sizi təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və universitetin professoru, hüquq elmləri doktoru Firuzə Abbasova çıxış etdilər.*

*Daha sonra pianoçu Etibar Əsədlinin ifasında Bakı Dövlət Universitetinin məşhur 60 griminə həsr olunmuş «İthaf» kompozisiyası təqdim edildi.*

*Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin ikinci kurs tələbəsi Rəşad İmanov çıxış etdi. Universitetin 16 fakültəsi üzrə elm sahəsini əhatə edən rəqəmsal qrafikin təqdimatı oldu.*

*Sonda Bakı Dövlət Universitetinin himni səsləndirildi.*

**RUMINİYA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS VERNER İOHANNİSƏ**

Hörmətli cənab Prezident!

Rumıniyanın Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan–Rumıniya dostluğu və əməkdaşlığının, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək, ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2019-cu il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İLİR METAYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş güclü zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Albaniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2019-cu il*

## SLOVAKİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ AVROPA NAZİRİ MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Slovakiya Respublikasının Xarici İşlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İlham Əliyev:** Azərbaycana xoş gəlmisiniz! Sizi görməyə çox şadıq. Əminəm ki, səfəriniz çox səmərəli və uğurlu olacaq. Əlbəttə, biz ikitərəfli əməkdaşlığımızla bağlı məsələləri əhatə edəcəyik, həmçinin ATƏT-in sədri kimi, bizim ənənəvi gündəliyimiz vardır. Əminəm ki, səfər əlaqələrimizin inkişafına öz töhfəsini verəcək. Düşünürəm ki, hazırda əlaqələrimiz yeni, çox fəal mərhələyə qədəm qoyur. Nisbətən bu yaxınlarda biz burada Baş Nazirlə görüşdük və tərəfdaşlığımızı inkişaf etdirməklə bağlı çox yaxşı söhbətimiz oldu, fikir mübadiləsi apardıq. Bizim uğurla əməkdaşlıq edə biləcəyimiz çoxsaylı məsələlər vardır. Sözsüz ki, biz yaxşı siyasi əlaqələrə malikik. Lakin biz hələ də çox aşağı olan ticarət dövriyyəmizin artması üzərində diqqəti cəmləşdirməli və bunu etmək üçün yollar axtarmalıyıq. Zənnimcə, yollardan biri biznes dairələri-

miz arasında daha fəal qarşılıqlı əlaqə ola bilər. Bəlkə də müəyyən mərhələdə biz potensialımızı təqdim etmək üçün birgə biznes-forum, bəzi başqa tədbirlər təşkil edə bilərik. Çünki ticarət dövriyyəmizin aşağı olmasının səbəblərindən biri məlumat çatışmazlığıdır. Bizim daha çox ünsiyyətimiz, potensialla bağlı daha çox məlumatımız olsa, əminəm ki, bunun müsbət təsiri olacaqdır. Düşünürəm ki, ölkələri birləşdirən layihələrlə bağlı məsələlər maraq kəsb edə bilər. Bildiyiniz kimi, hazırda Azərbaycan nəqliyyat sahəsində körpülərin yaradılması ilə fəal məşğul olur. Biz artıq öz dəmir yolu sistemimizin Gürcüstan və Türkiyə vasitəsilə Avropa və Xəzər hövzəsi ətrafında olan tərəfdaşlarımızla birləşdirilməsi sahəsində çox yaxşı uğur qazanmışıq. Artıq Çindən və Mərkəzi Asiya ölkələrindən yükləri qəbul etməyə, tranzit daşımalara başlamışıq və onun həcmi artır. Düşünürəm ki, biz yükdaşımaların artmasına birgə necə töhfə verəcəyimizlə bağlı nəqliyyat rəsmiləri arasında məsləhətləşmələrə başlaya bilərik.

Sözsüz ki, enerji təhlükəsizliyi avropalı tərəfdaşlarla əməkdaşlığın ənənəvi mövzusudur. Biz bütün əsas transmilli enerji layihələrimizi uğurla həyata keçirmişik və çox tezliklə – bir neçə günə bizim təbii qaz fiziki olaraq, artıq Avropa İttifaqının sərhədində olacaq. Bu, bir sıra ölkələr və həmçinin Avropa İttifaqı arasında hərtərəfli əməkdaşlıq sayəsində əldə olunmuş çox nəzərəçarpan nailiyyətdir. Bildiyiniz kimi, Azərbaycan və Avropa İttifaqı ənənəvi olaraq «Cənub Qaz

Dəhlizi» Məşvərət Şurasını keçirir. Biz artıq 5 iclas keçirmişik. Növbəti iclas gələn ilin fevralında keçiriləcək. Əməkdaşlığın bu formatı çox səmərəlidir.

Əlbəttə, tərəfdaşlığımızla əlaqədar bir çox başqa məsələlər də vardır. Viza rejiminin liberallaşdırılması sayəsində indi Slovakiyadan gələnlər Azərbaycana asan giriş əldə edirlər. Eşidəndə ki, siz ölkəmizdə səfirlik açırsınız, çox şad oldum. Bu çox müsbət göstəricidir. Mən həmçinin öz komandamıza eyni istiqamətdə hərəkətə başlamaq tapşırığını vermişəm. Beləliklə, bizim də təqdımatımız olacaq və bu, əlbəttə ki, əməkdaşlıq üçün daha çox imkanların tapılmasına kömək edəcəkdir.

ATƏT məsələlərinə gəldikdə, sözsüz ki, münaqişə region üçün böyük problem, böyük təhlükədir. Əfsuslar ki, bu il əldən verilmiş fürsətlər ili oldu. Bunun başvermə səbəbi isə Ermənistanın beynəlxalq hüquq normalarına əməl etmək, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və ATƏT tərəfindən qəbul olunmuş qətnamələri icra etmək istəməməsi ilə bağlıdır. Bu il ölkə başçıları və Xarici İşlər nazirləri səviyyəsində danışıqların bir neçə mərhələsi oldu. Növbəti görüş tezliklə sizin ölkənizdə olacaq. Ümid edirik ki, növbəti il daha məhsuldar olacaqdır. Çünki münaqişənin ən tez müddətdə həll olunması Azərbaycanın və əminəm ki, Ermənistanın maraqlarına xidmət edir. Lakin bu məsələdə hər hansı bir irəliləyişə nail olmaq üçün yerlərdə praktiki addımlar atılmalıdır. Birinci addım Azərbaycanın beynəlxalq səviyyədə tanınmış

sərhədlərinin, ərazilərinin deokkupasiyasının başlanılmasıdır. Əlbəttə, biz bir çox başqa məsələləri də müzakirə edəcəyik, lakin düşünürəm ki, başlanğıc üçün bu qədər yetər.

**Miroslav Layçak:** Çox sağ olun, cənab Prezident. Bakıya yenidən gəlmək məndə böyük məmnunluq hissi oyadır. Məni və nümayəndə heyətimizi qəbul etmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm.

Böyük sevinc hissi ilə demək istəyirəm ki, mənim Bakıda keçirəcəyim vaxtın ən önəmli hissəsi burada Slovakiya səfirliyinin açılışı olacaqdır. Bununla biz vədimizi yerinə yetiririk və ikitərəfli münasibətlərimizdə yeni mərhələnin açılışını edirik. Fakt ondan ibarətdir ki, biz ölkənizin böyük potensialına bələdik. Artıq neçə ildir heç bir şübhəmiz yox idi ki, burada təmsilçiliyimiz olmalıdır. Nəhayət, zəruri resursları tapa bildik və bu gündən etibarən biz rəsmi olaraq burada olacağıq. Mən bizim ən təcrübəli səfirlərimizdən birini və adı mənim adıma çox oxşayan Layçakı bura göndərmişəm.

*Slovakiyanın Xarici İşlər və Avropa naziri Miroslav Layçak Azərbaycanın regiondakı strateji mövqeyini çox yüksək qiymətləndirdiklərini bildirdi.*

*Görüşdə Azərbaycan–Slovakiya hökumətlərarası birgə Komissiyasının yaradılması, kənd təsərrüfatı, əczaçılıq, enerji, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT NEFT FONDUNUN İCRAÇI DİREKTORU VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ İSRAFİL MƏMMƏDOV İLƏ GÖRÜŞ

*29 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da İsrafil Məmmədovu yeni vəzifəyə – Dövlət Neft Fondunun icraçı direktoru təyin olunması ilə əlaqədar qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Azərbaycan Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov Prezidentin köməkçisi vəzifəsinə təyin edilibdir. Siz 10 ildən çoxdur ki, direktor müavini vəzifəsində işləyirsiniz, təcrübə toplamısınız. Mən qərara gəldim ki, sizi icraçı direktor vəzifəsinə təyin edim. Bu, böyük etimaddır. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

Dövlət Neft Fondu bizim strateji aktivimizdir. Bu il biz Fondun yaradılmasının 20-ci ildönümünü qeyd edəcəyik. Əlamətdar hadisə ondan ibarətdir ki, «Çıraq» platformasından ilk neft çıxarılandan 2 il sonra – 1999-cu ildə Azərbaycanda Dövlət Neft Fondu yaradıldı. Fondun yaradılması ulu öndər Heydər Əliyevin tarixi qərarı idi və bu gün bu qərar göstərir ki, nə qədər düzgün və vaxtında atılmış bir addım idi. Onu da bildirməliyəm ki, Neft Fondunun yaradılması ilə bağlı

təklifi ulu öndərə mən vermişdim. O vaxt hökumətdə müxtəlif fikirlər var idi və hökumət üzvlərinin bəziləri bunun əleyhinə çıxmışdılar. Onların təklifi ondan ibarət idi ki, neftdən gələcək bütün gəlirlər büdcəyə daxil olsun və hər il xərclənsin. Əgər bu yanaşma seçilsəydi, bu gün Dövlət Neft Fondumuzda pul olmayacaqdı. Mən bu təklifin əleyhinə çıxdım. Sübut etməyə çalışdım və buna nail oldum ki, məhz vəsaiti şəffaf şəkildə saxlamaq, ölkəmizin strateji istiqamətlərinə yönləndirmək və gələcək nəsillər üçün qoruyub saxlamaqdan ötrü mütləq Dövlət Neft Fondu yaradılmalıdır.

Mənim təşəbbüsümlə Azərbaycanın dövlət qurumları nümayəndələrindən ibarət heyət dünyanın müxtəlif ölkələrinə ezam edildi və orada oxşar fondların fəaliyyəti ilə tanış oldu. Bundan sonra biz dünyada mövcud olan ən şəffaf və ən işlək model üzərində dayanıb onu qəbul etdik və ötən 20 ilin təcrübəsi göstərdi ki, bu, yeganə düzgün qərar idi. Deyə bilərəm ki, bu, tarixi qərar idi. Çünki Dövlət Neft Fondunun vəsaiti – orada toplanan, neftdən əldə edilmiş və hazırda artıq qazdan əldə edilmiş gəlirlər ölkəmizin ümumi inkişafını yüksək dərəcədə şərtləndirir.

Biz ölkə qarşısında duran önəmli sosial layihələri icra edə bilmişik. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məhz Dövlət Neft Fondunun vasitəsi ilə icra edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənibdir. Hər il Dövlət Neft Fondundan büdcəyə edilmiş transfertlər hesabına biz sosial

layihələri icra edə bilirik, bu, maaşların, pensiyaların, müavinətlərin artırılmasına imkan yaradır. Eyni zamanda, ölkəmiz üçün strateji sayılan sahələri də Neft Fondu maliyyələşdirir. Onların arasında təhsillə bağlı olan layihələr vardır. Azərbaycan gənclərinin dünyanın aparıcı ali məktəblərində təhsil alması ilə bağlı təşəbbüs də Fond tərəfindən təmin edilib. Bakı–Tbilisi–Qars dəmir yolu, «Cənub Qaz Dəhlizi», digər önəmli strateji layihələr, qazma qurğularının tikintisi – bütün bunlar Dövlət Neft Fondunun vəsaiti hesabına icra edilibdir.

Bir sözlə, deyə bilərəm ki, bu gün Azərbaycan Dövlət Neft Fondu ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir qurumdur. Eyni zamanda, Fondumuzun beynəlxalq imici də çox müsbətdir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl Dövlət Neft Fondu BMT-nin mükafatı ilə təltif edilibdir. Onu da bildirməliyəm ki, mənim təşəbbüsümlə Azərbaycan o vaxt Böyük Britaniyanın Baş Naziri tərəfindən irəli sürülmüş təşəbbüsə qoşuldu. Təşəbbüsün adı «Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü» idi. Azərbaycan bu təşəbbüsə qoşulan və onun bütün meyarlarını təmin edən ilk ölkələrdən idi. Uzun illər biz bu təşkilat çərçivəsində fəaliyyət göstərmişik. Ancaq görəndə ki, artıq bu təşkilat öz mahiyyətini itirir, burada siyasiləşmə prosesi gedir və Azərbaycana qarşı qeyri-obyektiv, qərəzli yanaşma tətbiq olunur, biz məsələ qaldırdıq ki, əgər buna son qoyulmasa, Azərbaycan bu təşkilatdan çıxacaqdır. O vaxt mən bunu

bildirəndə, sözün düzü, təşkilatın rəhbərliyi buna o qədər də inanmadı. Yadımdadır, o vaxt təşkilatın rəhbər işçiləri ilə görüş keçirildi və mən açıq dedim ki, mənim sözümlə əməlim arasında fərq yoxdur. Əgər deyirəmsə biz buradan çıxacağıq, belə də olacaq. Biz o qərarı qəbul etdik, o, asan qərar deyildi. Çünki biz bu təşəbbüsə qoşulan ilk ölkələrdən biri kimi, bu təşkilatın formalaşmasında önəmli rol oynamışdıq. Ancaq həyat göstərdi ki, nə qədər düzgün addım atıldı. Bizdən bir qədər sonra Amerika Birləşmiş Ştatları da bu təşəbbüsdən çıxdı və beləliklə, «Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsü» adlandırılan qurum tamamilə nüfuzdan düşdü və bu gün onun adı heç yerdə çəkilmir. Bu təşkilatda üzvlüyümüz əslində bizim niyyətimizə o qədər də böyük təsir etmədi. Çünki şəffaflıq bizim şüurlu seçimimizdir və bu gün Dövlət Neft Fondu dünyadakı suveren fondlar sırasında ən şəffaf, ən səmərəli işləyən fondlardan biridir. Mən yaxşı bilirəm ki, buna oxşar bəzi fondlar son vaxtlar böyük itkilərə məruz qalıb, çünki onlar çox riskli siyasət aparır, daha çox pul qazanmaq əzmində idilər. Bizim isə yanaşmamız – mən bunu həmişə demişəm – konservativ və mühafizəkar olmalıdır. Bizim əsas vəzifəmiz vəsaiti qorumaq və riskli olmayan alətlərə yatırmaqdır. Biz artıq çoxşaxəli valyuta səbətini əldə etmişik və burada da valyuta məzənnəsinin dəyişkənliyi bizim vəsaitimizə təsir etmir. Biz qızıla və daşınmaz əmlaka böyük yatırım etmişik, Fondun vəsaiti coğrafi baxımdan da çoxşaxəlidir. Yəni biz özümüzü mümkün olan bütün

risklərdən qoruduq. Ən önəmlisi ondan ibarətdir ki, 20 il ərzində biz vəsait itirmədik və Fondun vəsaitini isə ildən-ilə artırırıq. Hətta böhranlı, devalvasiyaya uğradığımız illərdə də Fondun vəsaiti azalmadı. Mən imkan vermədim. Biz xərcləri azaltdıq, böyük qənaət tədbirlərinə yol açdıq, strateji valyuta ehtiyatlarımızı qoruduq və onları artırdıq. Deyə bilərəm ki, bu çox nadir hallarda baş verən hadisədir. Çünki o dövrdə, neftin qiymətinin kəskin – 4 dəfə düşdüyü dövrdə bütün suveren fondlar böyük pullar itirdi. Milyardlarla, on milyardlarla dollar itirildi. Biz isə itirmədik, ona görə ki, çox düşünülmüş siyasət aparırıq.

Mən çox şadam ki, Fondun idarəetmədən əldə edilən gəlirləri artır. Bu çox yaxşı göstəricidir. Bu il – hələ il başa çatmayıb – Dövlət Neft Fondunun gəlirləri 4 milyard dollardan çox artıbdır. Bunun 1,8 milyard dolları məhz idarəetmədən əldə edilmiş gəlirlərdir. Yəni bu böyük vəsaitdir. Fondun düzgün siyasəti və vəsaitin düzgün yerləşdirilməsi, bax, belə imkanlar yaradır. Əminəm ki, bizim valyuta ehtiyatlarımız ildən-ilə artacaq. Hazırda bizim strateji valyuta ehtiyatlarımız 50 milyard dollardan çoxdur. Bu rekorddur, tarixi göstəricidir. Bu göstərici məhz ona görə önəmlidir ki, o bizim ümumi daxili məhsulumuzdan da çoxdur. Belə hallar indi çox nadir ölkələrdə müşahidə olunur. Eyni zamanda, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir və biz bu göstəriciyə görə dünyada 9-cu yerdəyik. Biz gələn ilin büdcəsində neftin qiymətini 55 dollar səviyyəsində

nəzərdə tuturuq. Bu da çox mühafizəkar yanaşmadır. Hazırda «Azəri layt» neftinin qiyməti 70 dollara yaxınlaşır, biz 55 götürürük. Qoy daha çox pul yığılsın. Məsələn, biz 65 götürsək, onda bu pul transfert şəklində büdcəyə gələcək və xərclənəcək. Buna ehtiyac yoxdur. İndi biz şəffaflıq, dürüstlük, islahatlar nəticəsində büdcəmizi digər sahələr vasitəsilə təmin edirik. Vergi və gömrük orqanları 10 ay ərzində 850 milyon manat əlavə vəsait toplayıb. İlin sonuna qədər vaxt var, bu artacaq. Ona görə biz Neft Fondunun gəlirlərinə qənaət etməliyik. Bir sözlə, Azərbaycanda bir çox sahələrdə olduğu kimi, bu sahədə də çox düzgün yanaşma, düşünülmüş siyasət və xalqın maraqlarına uyğun atılan addımlar, bax, bu gözəl nəticəni əldə etməyə imkan verdi.

Mən Fondun fəaliyyətini yüksək qiymətləndirirəm. Məhz buna görə Fondun icraçı direktoru Şahmar Mövsümov mənim tərəfimdən Prezidentin köməkçisi vəzifəsinə təyin edilib. Əminəm ki, o, köməkçi kimi, islahatların dərinləşdirilməsi istiqamətində önəmli rol oynayacaqdır.

Sizə isə tövsiyəm ondan ibarətdir ki, əldə olunmuş uğurları davam etdirəsiniz. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Dövlət Neft Fondu həm öz aktivlərini artırmalı, həm də onları əmniyyətli şəkildə yerləşdirməlidir. Strateji resursumuz olan Neft Fondumuz daim ölkəmizin, xalqımızın mənafeyi üçün çalışmalıdır.

Artıq il başa çatır. Bu il əldə edilmiş nailiyyətlər və gələn il üçün planlaşdırılan addımlar haqqında məlumat verin.

**İ s r a f i l M ə m m ə d o v:** Möhtərəm cənab Prezident! İlk növbədə, göstərdiyiniz bu böyük etimada görə Sizə dərin təşəkkürümü bildirirəm. Siz dediyiniz kimi, bu il Azərbaycan Respublikasının Dövlət Neft Fondu ulu öndər tərəfindən yaradılmasının 20 illiyini qeyd edir. Qeyd etdiyiniz kimi, bu 20 il ərzində Dövlət Neft Fondu aktivləri ildən-ilə artan, beynəlxalq səviyyədə nüfuzlu və şəffaflığın təmin edilməsi baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşməyə qadir olan maliyyə qurumuna çevrilibdir.

Möhtərəm cənab Prezident, Sizin hər zaman verdiyiniz yüksək qiymət bizim üçün böyük şərəfdir. Biz – Dövlət Neft Fondunun kollektivi də həmişə Fondun Sizin qarşınızda götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində əlindən gələni əsirgəməyib. Təbiidir ki, bu nailiyyətlərin heç biri Sizin dəstəyiniz olmadan mümkün olmazdı. Fondumuzun bütün kollektivi daim Sizin diqqətinizi hiss edir. Siz bütün işlərimizdə bizə dəstək olmusunuz.

Möhtərəm cənab Prezident, Sizi əmin edirəm ki, göstərdiyiniz bu böyük etimadı doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Çox minnətdaram, cənab Prezident.

Siz qeyd etdiyiniz kimi, bu il Fondun vəsaiti 10 faiz artıb və ilin axırına 42,5 milyard dollar həcmində gözlənilir. Qeyd etdiyiniz kimi, Fondun tarixində in-

vestisiya gəlirləri ilk dəfə olaraq 1,8 milyard dolları keçib. Bir daha Sizi əmin etmək istərdim ki, Fondun investisiya portfelinin daha da şaxələndirilməsi və risklərin azaldılması istiqamətində əlimdən gələni əsirgəməyəcəyəm.

**İlham Əliyev:** Çox yaxşı. Mən əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirirəm. O cümlədən, bildirmək istəyirəm ki, mən Davos Dünya İqtisadi Forumu çərçivəsində dünyanın aparıcı fondlarının rəhbərləri ilə görüşlər keçirmişəm və çox böyük məmnunluq hissi ilə deyə bilərəm ki, onların da Fondumuz haqqında fikirləri çox müsbətdir. Azərbaycan Dövlət Neft Fondu nəinki ölkə ərazisində önəmli layihələr icra edir, eyni zamanda, dünyanın aparıcı fondları ilə də – o fondların vəsaiti yüz milyardlarla ölçülür – əməkdaşlıq edir və onlarla birlikdə müxtəlif sərmayə layihələrində iştirak edir. Bu, Fondun ilk növbədə, nə qədər səmərəli təşkilat olduğunu göstərir. Digər tərəfdən, dünyanın vəsaiti yüz milyardlarla ölçülən aparıcı fondları öz reputasiyalarına çox böyük həssaslıqla yanaşır və onlar üçün pul əsas deyil. Onlar üçün əsas reputasiya və şəffaflıqdır.

Bizim üstünlüyümüz ondadır ki, Fondumuz təkcə bir xəzinə kimi yox, doğrudan da önəmli beynəlxalq təşkilat kimi, ölkəmizin imicinə çox müsbət təsir göstərir. Hesab edirəm ki, gələcəkdə dünyanın aparıcı maliyyə qurumları ilə bizim əməkdaşlığımız dərinləşməlidir. Fondun investisiya portfelinin şaxələndirilməsi istiqamətində indi aparılan işlər qənaətbəxşdir.

Ancaq həyat yerində durmur, yeni alətlər meydana çıxır, yeni sərmayə yerləri maraq doğurur. Ona görə siz bu sahədə də çox çevik siyasət aparmalısınız. İndi dünyada iqtisadi inkişaf qeyri-bərabər şəkildə gedir. Bəzi ölkələrin iqtisadiyyatı daha böyük inkişafla artır və biz çox çevik siyasət aparmaqla, daha çox gəlir əldə etmək üçün ancaq azriskli aktivlərə fikir verməliyik.

İndi Fondun komandası da çox təcrübəlidir, uzun illərdir ki, işləyir. Siz də 10 ildən çoxdur ki, müavin vəzifəsində işləyirsiniz. Əminəm ki, müsbət dinamika davam etdiriləcəkdir. Sizi təbrik edirəm və uğurlar arzulayıram.

**İsrafil Məmmədov:** Çox sağ olun, çox minnətdaram.

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2019-cu il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2019-cu il*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VORAÇİTƏ**

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2019-cu il*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*İpsala, Türkiyə*

*30 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı mərasimində iştirak etmişdir.*

*Əvvəlcə «Cənub Qaz Dəhlizi»nin ən mühüm seqmentlərindən biri və Avropanın enerji təhlükəsizliyində mühüm amil olan TANAP – Trans–Anadolu qaz boru kəməri layihəsinin icrasına həsr olunmuş videoçarx nümayiş etdirildi.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz TANAP layihəsinin əhəmiyyətindən danışdılar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Türkiyə Respublikasının Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Hörmətli dövlət və hökumət başçıları!

Əziz dostlar!

İlk növbədə, qardaşım Rəcəb Tayyib Ərdoğana məni bu tarixi mərasimə dəvət etdiyi və göstərdiyi qonaqpərvərlik üçün dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam.

Bu gün tarixi gündür. Bu gün 4 il bundan əvvəl birlikdə təməlini qoyduğumuz TANAP Avropa sərhədinə çatdı. Bu münasibətlə hamımızı ürəkdən təbrik edirəm. Əminəm ki, TANAP-ın ömrü uzun olacaq, TANAP Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir.

Dörd il əvvəl Qars şəhərində əziz qardaşım Prezident Ərdoğanla birlikdə TANAP-ın təməlini qoyduq. Ancaq TANAP-a aparan yol 2012-ci ildən başlanır. Tarixi İstanbul Sazişi nəticəsində TANAP-ın yaşıl işığı yandırıldı. Tarixi İstanbul anlaşması Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində mümkün oldu. Çünki TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq bu heç bir nəticə verməmişdir. Belə olan halda, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara

gəldik ki, bizə lazım olan bu nəhəng layihəni özümüz həyata keçirək və belə də oldu. Bu gün bu layihəyə qoşulmuş *bp* şirkəti bizim tərəfdaşımızdır. Ancaq əsas texniki və maliyyə yükünü Azərbaycan və Türkiyə öz üzərinə götürübdür.

TANAP-a qədər apardığımız birgə işlər TANAP-a yol açdı. Çünki əgər 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. Bakı–Tbilisi–Ceyhan neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoyubdur və 2006-cı ildə əziz qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə Ceyhanda Bakı–Tbilisi–Ceyhan neft boru xəttini istismara vermişik. Bu günə qədər Bakı–Tbilisi–Ceyhan boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın, həmçinin digər dövlətlərin 450 milyon tondan çox nefti nəql edilibdir. Bunun böyük hissəsini – 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistan, 12 milyon tonunu Qazaxıstan, 7 milyon tonunu isə Rusiya nefti təşkil edir. Bir sözlə, Bakı–Tbilisi–Ceyhan nəinki Azərbaycanın, eləcə də digər ölkələrin nefti üçün gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir. 2007-ci ildə yenə də əziz qardaşımla Bakı–Tbilisi–Ərzurum qaz boru xəttinin açılışını etdik və bu da TANAP-a yol açan digər layihə idi. Qeyd etdiyim kimi, 2015-ci ildə Qarsda TANAP-ın inşasına başlanıldı. Fürsətdən istifadə edərək, TANAP-ın inşasında iştirak etmiş bütün insanlara dərin təşəkkürümü

bildirmək istəyirəm. Onların fədakarlığı və peşəkarlığı bu nəhəng layihənin vaxtında istismara verilməsində böyük rol oynayıbdır.

TANAP «Cənub Qaz Dəhlizi»nin bir hissəsidir. «Cənub Qaz Dəhlizi» nəhəng infrastruktur layihəsidir, maliyyə dəyəri 38 milyard dollardır və 4 layihədən ibarətdir. Onlardan 3-ü – «Şahdəniz» və «Cənubi Qafqaz» boru kəməri istifadəyə verilib, bu gün isə TANAP tam istifadəyə verilir. Dördüncü layihə olan TAP-ın icrası artıq 90 faizi keçib. Əminəm ki, TAP da vaxtında istismara veriləcək. Beləliklə, Avrasiyada ən böyük infrastruktur layihələrindən biri olan «Cənub Qaz Dəhlizi» vaxtında istismara veriləcəkdir.

Bildirməliyəm ki, bu layihələrin həyata keçirilməsi Türkiyə və Azərbaycanın birgə siyasi iradəsinin məhsuludur, eyni zamanda, biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırmışıq. Bu gün «Cənub Qaz Dəhlizi» özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaqdır. Bu layihədə iştirak edən 7 ölkə – onlardan 3-ü Avropa İttifaqının üzvüdür – bundan sonra uzun illər birlikdə çalışacaq və bunun faydasını bölüşəcəklər. Yəni bu layihə əməkdaşlıq, sabitlik, uzunmüddətli anlaşma gətirir. Bu layihələrə sadəcə olaraq, enerji layihələri kimi baxmaq düzgün olmaz. Onu da bildirməliyəm ki, bizim enerji layihələrimiz digər layihələrə də yol açdı. 2 il bundan əvvəl əziz qardaşım, Prezident Ərdoğanla

birlikdə Bakıda Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını qeyd etdik. Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə həm Azərbaycanın, həm Orta Asiya ölkələrinin, həm də Əfqanıstanın və Çinin yükləri daşınır. Bu dəmir yolu qitələri birləşdirir. Necə ki, bizim boru xətlərimiz. Digər layihə elektrik enerjisinin ötürülməsidir. Artıq Azərbaycan Gürcüstana və Türkiyəyə elektrik enerjisini ixrac edir. Əgər enerji layihələri, yaşadığımız bölgədə sabitlik, qarşılıqlı dəstək, anlaşma olmasaydı, bunların biri də həyata keçməzdi.

Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı gündən-günə möhkəmlənir. Mən bu gün dünya miqyasında ikinci belə ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olsun. Bizim aramızdakı ticarət dövriyyəsi artır. Bu ilin 9 ayında ticarət dövriyyəmiz 40 faizdən çox artıb və 3,4 milyard dollara çatıbdır. Qarşılıqlı yatırımlar bizim qardaşlığımızı və bir-birimizə güvənimizi göstərir. Biz bir-birimizin iqtisadiyyatına dəstək veririk. Türkiyə bu günə qədər Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox vəsait yatırıb. Azərbaycan isə Türkiyəyə 17,5 milyard dollar sərmayə qoyub və bu yatırımlar bizim xalqlarımızın rifah halını yaxşılaşdırır.

Eyni zamanda, Türkiyə bu gün xarici sərmayələr üçün açıq ölkədir və çox məqbul yerdir. Əziz qardaşım, Prezident Ərdoğanın liderliyi sayəsində Türkiyə həm iqtisadi, həm də siyasi sahədə böyük uğurlara imza atıb. Biz əvvəlki dövrü yaxşı xatırlayırıq. O vaxt

Türkiyə Beynəlxalq Valyuta Fondunun və başqa maliyyə qurumlarının borcundan yaxa qurtara bilmirdi, asılı vəziyyətdə idi. İqtisadi asılılıq istər-istəməz siyasi asılılığa gətirib çıxara bilərdi. Məhz Prezident Ərdoğan tərəfindən aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində Türkiyə bu asılılıqdan yaxasını qurtara bildi və bu gün çox güclü iqtisadiyyata sahib ölkə kimi, dünya miqyasında öz sözünü deyir. Bu gün Türkiyə dünya miqyasında güc mərkəzidir. Nəinki yerləşdiyi bölgədə, hətta dünyada da Türkiyənin sözünün çəkisi artır, imkanları genişlənir. Hər kəs bilməli və unutmamalıdır ki, qardaş ölkə buna görə kimə borcludur.

Tarixdə liderlərin rolu haqqında kifayət qədər kitablar yazılıb, elmi əsərlər yaradılıb və müxtəlif fərziyyələr, fikirlər vardır. Onların hər biri qəbuldur. Ancaq tarix göstərir ki, liderin rolu bir çox hallarda həlledici olur, bu danılmazdır. Bu gün möhkəm Türkiyə və onun lideri inkişafı, sabitliyi təcəssüm etdirir və gələcəyə nikbinliklə baxmaq üçün imkan yaradır. Biz buna sevinirik. Çünki Türkiyənin gücü bizim gücümüzdür, Türkiyənin uğuru bizim uğurumuzdur və biz birlikdə bundan sonra da iki qardaş ölkə kimi, çiyin-çiyinə irəliyə gedəcəyik. Bizim qarşımızda bütün üfüqlər açıqdır. Həyata keçirdiyimiz bu nəhəng layihələr bizim gücümüzü göstərir və bizim gücümüzü artırır. İqtisadi güc nəticədə siyasi gücə çevrilir.

TANAP və «Cənub Qaz Dəhlizi» eyni zamanda, enerji təhlükəsizliyi layihəsidir. Bu gün dünya miqyasında enerji təhlükəsizliyi haqqında danışılır və bu

məsələ dünyanın gündəliyini zəbt edibdir. Hesab edirəm ki, burada çox gözəl əməkdaşlıq formatı yaradılıb. İstehsalçı ölkə olan Azərbaycan, tranzit ölkələri və istehlakçı ölkələr birlikdə çalışır. Bizim mənafeyimiz də birdir, gəlirimiz də ədalətli şəkildə bölünür. Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir.

Mən əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz bütün layihələr TANAP kimi, Bakı–Tbilisi–Ceyhan kimi, Bakı–Tbilisi–Ərzurum kimi, Bakı–Tbilisi–Qars kimi uğurlu olacaq, Türkiyə və Azərbaycan birlikdə gələcəyə inamla addımlayacaq.

Yaşasın Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı!

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Azərbaycan Prezidenti, çox hörmətli qardaşım İlham Əliyev!

Gürcüstanın Baş Naziri hörmətli Giorgi Qaxaria!

Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü cənab Şefik Caferoviç!

Serbiya Milli Məclisinin Sədri xanım Maya Qoykoviç!

Hörmətli nazirlər, səfirlər, enerji ictimaiyyətinin təmsilçiləri!

Sizi ən səmimi hisslərimlə, sevgi və ehtiramla salamlayıram.

«Cənub Qaz Dəhlizi» layihəsinin bel sütununu təşkil edən Trans–Anadolu təbii qaz boru kəməri – TANAP-ın Avropa ilə birləşən hissəsinin xeyirli olmasını diləyirəm. Sizi bu mühüm açılış mərasimi münasibətilə ölkəmizdə qəbul etməkdən böyük məmnunluq duyuram. Sevincimizi bölüşmək məqsədilə Ədirnəyə gəldiyiniz üçün hər birinizə təşəkkür edirəm.

Bu gün hamımız birlikdə ölkələrimiz və bölgəmiz üçün həqiqətən də tarixi bir ana şahidlik edirik. Hər mərhələsi səbirlə, diqqətlə, Türkiyə, Azərbaycan və Gürcüstanın ortaq səyləri ilə ərsəyə gələn 7 il yarımlıq uzun və çətin bir prosesi uğurla başa çatdırmağın haqlı qürurunu yaşayırıq.

Birincisi, TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya – TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək, Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu, bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür.

Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilibdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə

bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb. Xatırlatmaq istərdim ki, TANAP-la bağlı ilk addımı 2012-ci ilin iyun ayında İstanbulda hökumətlərarası müqavilələrin imzalanması ilə atmışdıq.

«Şahdəniz-2» yekun investisiya Sazişini isə 2013-cü ilin dekabr ayında Bakıda təşkil edilmiş mərasimlə başa çatdırdıq. Bundan sonra 2015-ci il martın 17-də Qarsda Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirildi. Bu tarixdən 3 il sonra – 2018-ci il iyunun 12-də isə dost və qardaş ölkələrin iştirakı ilə Əskişəhərdə TANAP-ın açılışı mərasimini keçirdik. 2012-ci ilin iyunundan ötən müddətdə TANAP layihəsinin reallaşdırılması üçün həqiqətən, böyük əmək sərf etdik. Xüsusilə daxildə və xaricdə dəf etdiyimiz bir neçə təhlükəli vəziyyətə, regional gərginliyə, hətta silahlı toqquşmalara qədər gedib çıxan qeyri-sabitliklərə baxmayaraq, TANAP-ı planlaşdırıldığı kimi həyata keçirdik.

Çox dəyərli qardaşım Əliyevin şəxsən diqqəti, Gürcüstanın aidiyyəti qurumları ilə əməkdaşlıq və bu layihədə əməyi olan qardaşlarımızın səyləri nəticəsində, şükür olsun, TANAP-ı bugünkü səviyyəyə gətirdik. Bu gün hamımız birlikdə sərf etdiyimiz əməyin hədər getmədiyini görürük. «Enerjinin İpək yolu» adlandırılan bu möhtəşəm layihənin nəzərdə tutulmuş təqvimə, hədəflərimizə və öhdəliklərimizə uyğun şəkildə ölkələrimizlə bağlı hissəsini bu gün tamamlayırıq.

Bu layihə ilə sahib olduğumuz zənginlikləri öz vətəndaşlarımızın, onlarla yanaşı, bütün bölgə xalqlarının, bütün insanlığın xidmətinə verməklə bağlı iradəmizi bir daha ortaya qoyduq. Biz TANAP ilə ölkəmizin enerji ehtiyacını təmin etməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinə də töhfə verməyi hədəflədik.

Siz də bildiyiniz kimi, TANAP Azərbaycandan Avropaya uzanan 3500 kilometrlik enerji dəhlizinin ən önəmli hissəsidir. Bu gündən etibarən Azərbaycanın təbii qazı ölkəmizin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək, artıq Avropanın qapısına, yəni buraya çatıbdır. TANAP ilə 16 milyard kubmetr Azərbaycan təbii qazının Türkiyənin və Avropanın istifadəsinə verilməsi əfsanədən həqiqətə çevrilibdir. Bu 16 milyard kubmetr qazın 6 milyardını biz, 10 milyardını isə Avropa ölkələri istifadə edəcəkdir.

Həqiqətən də 2019-cu il noyabrın 18-dək TANAP vasitəsilə Türkiyəyə daşınan qazın həcmi 3,23 milyard kubmetrə çatdı. Qarşıdakı illərdə TANAP-ın nəqletmə qabiliyyətini əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. Bundan sonra əsl məsuliyyət sərhədin o biri tərəfindəki qonşularımızın üzərinə düşür. Avropaya qaz nəqlinin başlaması üçün Trans–Adriatik təbii qaz boru kəməri – TAP qısa müddətdə başa çatdırılmalıdır. İnşallah, TAP-ın 2020-ci ildə başa çatdırılmasını gözləyirik.

Əziz dostlar, bəşəriyyət son iki əsrdə enerji mənbələrinə nəzarət uğrunda müharibələr, mübarizələr

aparmış, nəticədə milyonlarla insan həyatını itirmişdir. Xüsusilə yerləşdiyimiz coğrafiya enerji mənbələri ilə bağlı yaşanan ağır rəqabətə bilavasitə səhnə olub. Yaxın Şərqin on illər boyunca qeyri-sabitliklə mübarizə aparması planının arxasında məhz bu məsələ vardır. Bir damcı nefti insan qanından, insan həyatından daha qiymətli hesab edən düşüncə dünyaya sülh və əmin-amanlıq gətirə bilməmişdir. Yaşanan bu qədər acıya, ölümə, fəlakətə baxmayaraq, təəssüf ki, bu düşüncənin müəyyən qüvvələr tərəfindən davam etdirildiyini görürük. Xüsusilə Aralıq dənizinin şərqində mövcud karbohidrogen ehtiyatlarının bölüşdürülməsi məsələsində bəziləri ədalətli bölgü əvəzinə, gərginliyi körükləməyə çalışırlar.

Ədalətli bölgü imkanı var ikən, təhdid dilinə və şantaj siyasətinə əl atırlar. Halbuki heç bir ölkə beynəlxalq hüquqdan üstün deyil. Zor gücü ilə bir nəticənin hasil ola bilməyəcəyi artıq dərk edilməlidir. «Mən etdim, oldu» məntiqi ilə heç kəs öz istəyinə çata bilməz. «Əba altından dəyənək» göstərərək, heç bir ölkə başqasını öz haqlarından əl çəkməyə məcbur edə bilməz. Xüsusilə Türkiyə belə bir düşüncəyə əsla boyun əyməz.

Ölkəmiz nə öz hüququnun, nə də Kipr türkünün maraqlarının tapdanmasına icazə verməz. Aralıq dənizinin şərqində uzun dəniz sahillərinə sahib olan bir ölkəni kənarlaşdıraraq, layihələr həyata keçirməyə çalışmaq onsuz da mümkün deyil. Hazırda ən son texnologiyalara sahib 2 qazma gəmimiz – «Fateh»

və «Yavuz» ilə 2 seysmik araşdırma gəmimiz bölgədə fəaliyyətlərini davam etdirir. Biz onların çığırbağırı ilə bu gəmilərimizi oradan çəkməyəcəyik. Onlar hazırda orada öz vəzifələrini yerinə yetirir və yetirməkdə də davam edəcəklər. Gəmilərimizin və heyətlərimizin təhlükəsizliyi isə Dəniz Qüvvələrimiz tərəfindən ən yüksək səviyyədə təmin edilir. Bu gəmilərin həyata keçirdiyi fəaliyyətlərin qısa müddətdə bəhrə verəcəyinə inanıram. Bilirsiniz, indi Liviya ilə də anlaşma əldə etmişik.

Liviya ilə əldə etdiyimiz bu anlaşma parlamentimizdə təsdiq olunduqdan sonra həmin işi xeyli fərqli səviyyəyə çatdıracağıq. İndi nə edirlər? Liviyanı təhdid etməyə başlayıblar. Bu anlaşma əldə edildi. İndi bu anlaşmanın digər hissələri də eyni qaydada tətbiq ediləcək. Bizim qazma işlərimizdən münaqişə və qan deyil, sülh və rifah püskürəcəkdir.

Mən bu inamla sizin vasitənizlə Aralıq dənizindəki bütün tərəflərə səmimi bir çağırış etmək istəyirəm: gəlin enerjini münaqişə vasitəsi əvəzinə, əməkdaşlıq zəmininə çevirək. Diplomatiyanın imkanlarından istifadə etmək var ikən, bölgəyə yeni qurbanlar verdirəcək yollara əl atmayaq!

Əziz dostlar, artan əhali və böyüyən iqtisadiyyat nəticəsində enerjinin çox ciddi bir qlobal məsələ olaraq qarşımızda durduğunu bilirik. Eyni qaydada dünya enerji xəritəsinin dəyişdiyini, bu sahədə yeni aktorların, yeni layihələrin məhz bu gün burada olduğu kimi, yeni əməkdaşlıq modellərinin ortaya çıxdığını

görürük. Enerji təhlükəsizliyinin təmin edilməsində istehsalçı, tranzit və istehlakçı ölkələr arasındakı möhkəm əməkdaşlığın vacib olduğuna inanırıq.

Türkiyə strateji mövqeyi ilə enerjini hasil və istehlak edən ölkələrin tam qovuşuğunda yerləşir. Bu gün Yer kürəsində mövcud təbii qaz ehtiyatlarının 70 faizi, neft ehtiyatlarının isə 60 faizi qonşularımızın torpaqlarındadır. Bundan başqa, ölkəmiz Avropanın 4-cü, dünyanın isə 18-ci ən böyük təbii qaz bazarıdır. 2002-ci ildə 5 vilayətimizdə təbii qaz var idisə, artıq 81 vilayətimizin hamısına təbii qazın çatdırılmasını təmin etmişik. 2019-cu il avqustun sonuna olan rəqəmlərə əsasən, 144 min kilometrdən çox təbii qazpaylama şəbəkəsinə nail olmuşuq. Ölkə əhalimizin 81 faizinə, yəni 66,5 milyon insanımıza təbii qazı çatdırmışıq. 2018-ci ildə təbii qaz tələbatımız isə 49,3 milyard kubmetrə çatıb. Təbii qazsaxlama potensialımızı 4 milyard kubmetrdən 11 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. İki üzən qazsaxlama və qazlaşdırma gəmisini istifadəyə verdik. İnşallah, bunlara daha birini də əlavə edəcəyik. Ümumilikdə 5,4 milyard kubmetr tutumu olan Duz gölü yeraltı qaz anbarlarının sonuncusunun təməlini bu il qoyduq. Onun 2023-cü ildə istifadəyə verilməsi ilə dünyanın ən böyük yeraltı qaz anbarlarına sahib olacağıq.

Bütün bu statistik rəqəmlərin ölkəmizə təmin etdiyi imkanlarla yanaşı, çox ciddi bir məsuliyyət də tələb etdiyini bilirik. Həqiqətən də bu günə qədər bu məsuliyyətimizi dərk edərək, hərəkət etdik. Qarşılaş-

dığımız bir çox ikili standartlara baxmayaraq, dialoqdan, diplomatiyadan, beynəlxalq hüquqdan əsla geri çəkilmədik. Rəqabət əvəzinə əməkdaşlığın, gərginlik əvəzinə müzakirənin, münaqişə əvəzinə məsələlərimizi danışaraq, həll etmək yolunu seçdik. Bizə bir addım atana biz qaçaraq getdik. Bu gün də, sabah da eyni xoş niyyətlə hərəkət etməyə davam edəcəyik. Nə öz haqlarımızdan, nə Şimali Kiprin haqqından vaz keçəcəyik, nə də haqqımız olmayana əl uzadacağıq. Ədalət, sabitlik və regional əməkdaşlıq üçün səylərimizi davam etdirəcəyik.

Bu gün hamımız birlikdə Avropa ilə birləşməsinin açılışı mərasimini qeyd etdiyimiz TANAP ölkəmizin sülhpərvər baxışının konkret nümunəsidir. Dünya gündəmini ticarət müharibələrinin, terrorun, etirazların, qeyri-sabitliyin zəbt etdiyi bir dövrdə biz bu gün Avropa ilə Asiyanı TANAP vasitəsilə birləşdiririk. Buradan bölgəmizlə yanaşı, bütün dünyaya əməkdaşlıq və tərəfdaşlıq mesajları veririk. Türkiyəni üç qitənin enerji və ticarət mərkəzinə çevirmək yolunda yeni bir addım atırıq.

Çıxışımı bu düşüncələrlə yekunlaşdırarkən, TANAP-ın Avropa ilə birləşən hissəsinin açılışı mərasimində iştirak etdiklərinə, görülən işlərdə əməyi olan memarından mühəndisinə qədər bütün qardaşlarıma, bütün rəhbər şəxslərə, xüsusilə qardaşım İlham Əliyevə, Gürcüstandakı dostlarımıza səylərinə görə şəxsən öz adımdan, millətim adından bir daha təşəkkürlərimi bildirirəm.

Təbii ki, qardaşım İlham Əliyevin liderliyini unutmaq əsla mümkün deyil. Qonşumuz Gürcüstana əməkdaşlığı ilə bu layihəyə həyat verdikləri üçün minnətdarlığımızı xüsusilə ifadə edirəm. Qarşıdakı dövrdə «hamımız qazanaq» prinsipi ilə yeni layihələrə imza atacağımıza inanır, hamınızı sevgi və ehtiramla salamlayır, «Yaşasın Azərbaycan–Türkiyə qardaşlığı!» – deyirəm.

* * *

*Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Baş Naziri Georgi Qaxaria və digər rəsmi şəxslərin iştirakı ilə TANAP kəmərinin TAP kəməri ilə birləşdirilməsi mərasimi oldu.*

*Mərasim xatirə şəklinin çəkdirilməsi ilə başa çatdı.*

*«Cənub Qaz Dəhlizi»nin əsas seqmenti olan TANAP Xəzərin Azərbaycan sektorundakı «Şahdəniz-2» qaz-kondensat yatağından çıxarılan qazı avropalı istehlakçılara çatdıracaq. TANAP Türkiyənin Ərdahan vilayətinin Posof qəsəbəsindən başlayaraq, qardaş ölkənin ərazisi boyunca 20 şəhər, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru kəməridir. Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıran TANAP Türkiyə–Gürcüstan sərhədində «Cənubi Qafqaz» boru kəmərinə, Türkiyə–Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşibdir. TANAP-ın Gürcüstan–Türkiyə sərhədi–Əskişəhər his-*

*səsinin uzunluğu 1350 kilometr, Əskişəhər–Türkiyə–Yunanıstan sərhədi boyunca uzanan hissəsi isə 480 kilometrdir.*

*TANAP layihəsi ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans–Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənibdir. Layihə üzrə yekun investisiya qərarı isə 2013-cü il dekabrın 17-də qəbul edilibdir. 2015-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Qarsda keçirilmiş təməlqoyma mərasimindən sonra boru kəmərinin inşasına başlanılıbdır.*

*Boru kəmərinin quru hissəsinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. TANAP-dan Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir.*

*«Enerjinin İpək yolu» adlandırılan TANAP-ın birinci fazası keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlanıbdır.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İpsala, Türkiyə*

*30 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı mərasimi çərçivəsində görüşü olmuşdur.*

*Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin, TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı mərasiminin önəmi qeyd edildi. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bundan sonra da daim möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.*

# TANAP QAZ KƏMƏRİNİN AVROPA İLƏ BİRLƏŞƏN HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*İpsala, Türkiyə*

*30 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı mərasimi iştirakçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişdir.*

*Bununla da Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfəri başa çatdı.*

**RUSİYA FEDERASİYASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Zabaykalyedə yol-nəqliyyat hadisəsi nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verir, zərərçəkənlərin hamısının tezliklə sağalmasını arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2019-cu il*

## XXV BEYNƏLXALQ «BAKUTEL–2019» TELEKOMMUNİKASİYA, İNNOVASİYA VƏ YÜKSƏK TEXNOLOGİYALAR SƏRGİSİ İŞTİRAKÇILARINA

Hörmətli sərgi iştirakçıları!

Sizi Bakı şəhərində XXV beynəlxalq «BakuTel–2019» telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisinin işə başlaması münasibətilə salamlayır, hər birinizə fəaliyyətinizdə uğurlar arzulayıram.

25 ildir ki, təşkil edilən ənənəvi «BakuTel» sərgisi regionun informasiya və kommunikasiya texnologiyaları üzrə mötəbər tədbirlərindəndir. Sərgi təkcə Azərbaycanın deyil, eləcə də dünyanın bir çox ölkələri və aparıcı şirkətlərinin qabaqcıl texnologiyalar sahəsində ən yeni nailiyyətlərinin təqdim olunduğu mühüm platformaya çevrilibdir.

Təqdirəlayiq haldır ki, Davos Dünya İqtisadi Forumunun qlobal informasiya texnologiyalarına dair son hesabatında Azərbaycan informasiya-kommunikasiya texnologiyalarına verdiyi əhəmiyyətə görə 139 ölkə arasında 8-ci yerdə qərarlaşıbdır.

Ölkəmizdə innovasiya ekosisteminin, yüksək texnologiyaların inkişafı və cəmiyyətin bu texnologiyaların imkanlarından faydalanması üçün əlverişli mühit

mövcuddur. Telekommunikasiya sahəsində yeni texnologiyaların istifadəsi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərlə bağlı müvafiq işlər aparılır. Regionlarda müasir telekommunikasiya xidmətləri istiqamətində irimiqyaslı layihələr icra olunur. İnnovativ layihələrə dövlət dəstəyi bu sahənin potensialının artırılmasını, «startap»ların genişləndirilməsini və təşəbbüskarlığın yüksəldilməsini təmin edir, bu isə bütövlükdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına müsbət təsir göstərir.

Sərgidə bir çox yeni iştirakçıların da milli pavilyonlarla təmsil olunması beynəlxalq aləmdə özünəməxsus mövqe və nüfuza malik Azərbaycanla informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığa artan marağın təzahürüdür.

Bu tədbir sizə qabaqcıl texnoloji nailiyyətlərin və yeniliklərin təqdimatı, biznes əlaqələrinin qurulması və təcrübə mübadiləsi ilə yanaşı, həmçinin ölkəmizi yaxından tanımağınıza şərait yaradır.

İnanıram ki, sərgi çərçivəsində görüşlər və fikir mübadiləsi yeni təşəbbüslərin meydana çıxması və müvəffəqiyyətlə gerçəkləşməsi baxımından əhəmiyyətli olub, qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsinə öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2019-cu il*

**TAİLAND KRALI ƏLAHƏZRƏT MAHA VAÇİRALONQKORN BODİNDRADEBAYAVARANQKUNA**

Əlahəzrət!

Tailand Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Tailand xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2019-cu il*

## CİSCO ŞİRKƏTİNİN QLOBAL İNNOVASİYALAR ÜZRƏ VİTSE-PREZİDENTİ QAY DİDRİXİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Cisco şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi yenidən görmək çox xoşdur. Xoş gəlmisiniz!

**Qay Didrix:** Təşəkkür edirəm. Sizi görmək və bu gözəl şəhərə yenidən qayıtmaq hər zaman çox xoşdur.

**İlham Əliyev:** Təşəkkür edirəm. Biz dəfələrlə görüşmüşük. Bu görüşlərin hamısı sizin şirkət və Azərbaycan arasında uğurla inkişaf edən tərəfdaşlığın irəliyə doğru aparılması baxımından faydalı olub. Bilirəm ki, burada həyata keçirmək üçün çoxlu planlarınız olub və bütün planlarınızı reallaşdırmısınız. Sizin şirkətlə hakimiyyət orqanları arasında əməkdaşlıq çox yaxşı səviyyədədir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi sizin üçün yaxşı tərəfdaşdır. Bildiyiniz kimi, biz gələcəklə bağlı planlarımızı, Azərbaycanın müasirləşdirilməsi, informasiya texnologiyaları sektorunun inkişafı ilə bağlı plan-

larımızı dəfələrlə müzakirə etmişik. Xüsusən də indi, yəqin ki, siz eşitmisiniz, biz hazırda çox aktiv transformasiya mərhələsindəyik. Struktur islahatları, siyasi, iqtisadi islahatlar, məsuliyyətin gücləndirilməsi ilə bağlı tədbirlər, şəffaflıq – bütün bunlar ölkəyə böyük faydalar gətirir, həm siyasi, həm də iqtisadi.

Əlbəttə, iqtisadiyyatımızın rəqəmsallaşdırılması hazırda bizim gündəliyimizdədir. Bu yaxınlarda Prezident Administrasiyasında aparılmış struktur islahatlarından sonra bizim müxtəlif hökumət strukturlarının bu sahədəki fəaliyyətlərini koordinasiya edəcək və özəl sektorun inkişafını asanlaşdıracaq innovasiya departamentimiz vardır. Biz hazırda həqiqətən, çox vacib beynəlxalq platformaya çevrilmiş «BakuTel» sərgisinin açılışı ərəfəsindəyik. Bu, təkcə sərgi və bu sahədəki əsas şirkətlərin nailiyyətlərinin təqdimatı deyil, həm də işgüzar əlaqələrin gücləndirilməsi baxımından imkandır. Mən ənənəvi olaraq, «BakuTel» sərgisində iştirak edirəm, ilk növbədə, bu məsələnin inkişafı ilə bağlı hökumətin mövqeyini göstərmək baxımından. İkincisi də, 1 il ərzində hansı yeniliklərin olduğunu görmək baxımından da mənim üçün maraqlıdır. Çünki zaman çox sürətlə keçir. Bu sektorda dəyişikliklər zamandan da sürətlə baş verir.

**Q a y D i d r i x:** Elədir.

**İ l h a m Ə l i y e v:** Siz də builki sərgidə iştirak edəcəksiniz. Sizə uğurlar arzu edirəm və əminəm ki, əməkdaşlığımız uğurla davam edəcəkdir.

**Q a y  D i d r i x:** Təşəkkür edirəm. Siz möhtəşəm tərəfdaş olmusunuz. Bizimlə əməkdaşlıq edən elə bir ölkə yoxdur ki, onun Prezidenti detallarla bu qədər diqqətlə və müdrikcəsinə məşğul olsun. Biz bunu bəyənirik. Biz birlikdə işlə bağlı danışa bilirik. Bu əladır. Bir sıra şərh verməzdən öncə «Formula-1» yarışlarına şəxsi dəvətə görə Sizə təşəkkür etmək istərdim. Mən çox əyləndim. İlk növbədə, fantastik yarış idi. Biz «Maklaren»lə əlaqəli olduğumuzdan hər il UF-1 yarışlarını təşkil etmək imtiyazına sahibəm. Sözsüz ki, Bakı yarışı mənim sevimli yarışımdır.

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm.

**Q a y  D i d r i x**: Bakı çox qədim şəhərdir və insanları çox mehribandır. Yarış yaxşı təşkil olunub və trek möhtəşəmdir. Təbrik edirəm. Sizin orada mükafatları təqdim etdiyinizi görmək gözəl idi.

**İ l h a m  Ə l i y e v:** Bəli, bu, artıq ənənədir, ənənəvi mərasimdir. Ən fəal tamaşaçıların rəyinə görə, Bakıdakı yarış lap əvvəldən həqiqətən də cəlbedici olub. Birincisi, bu yarış Azərbaycanda çox populyar deyildi. Çox insanlar hətta qaydaları, bunun necə baş verdiyini başa düşmürdülər, lakin indi artıq Bakıda çox sayda yarış keçiriləndən sonra o daha da məşhurlaşır. Ən mühümü isə odur ki, yarış Bakıya çox sayda turist cəlb edir. Biz faktiki olaraq müşahidələr aparmışıq. Azərbaycana gələn turistlərin sayının artması məhz birinci yarışdan sonra başlayıb. Birinci yarışdan sonra bizdə 24 faiz artım oldu. İkinci yarışdan sonra əlavə olaraq 26 faiz artım oldu. Maraqlısı ondadır ki,

bu ilin oktyabrında – çünki oktyabr turistlər üçün, belə demək mümkündürsə, əlverişli ay deyil, adətən, onlar yayda gəlirlər – ötən ilin oktyabrı ilə müqayisədə bizdə 25 faiz artım qeydə alındı. Ona görə də «Formula-1» Azərbaycana həqiqətən də çoxlu dividend gətirdi. Ölkə daha çox tanındı və yüz milyonlarla dollar qazanc əldə etdi. Mən biznes dairələrini, xidmət sektorunda və digər sektorlarda olanları nəzərdə tuturam. Beləliklə, bu çoxlu gəlir gətirir və həmçinin ölkənin yaxşı təqdimatıdır.

## DİLARƏ SEYİDZADƏ İLƏ GÖRÜŞ

*2 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Dilarə Seyidzadəni qəbul edib ona «Şərəf» ordenini təqdim etmişdir.*

**İlham Əliyev:** Hörmətli Dilarə xanım, bildiyiniz kimi, keçən həftənin sonunda Prezident Administrasiyasının yeni strukturu təsdiq edildi. Bu struktura görə, uzun illər rəhbərlik etdiyiniz katiblik, bir neçə şöbə ləğv olundu və bir neçə yeni şöbə yaradıldı. Bu, təbii prosesdir. Çünki ölkəmizin hər yerində islahatlar aparılır, o cümlədən struktur islahatları. Yaxın günlərdə Nazirlər Kabinetinin yeni strukturu təsdiq olunacaqdır. Yaxın gələcəkdə parlament yenidən formalaşacaqdır. Bu, təbii prosesdir. Eyni zamanda, gəncləşmə prosesi aparılır, bu da təbiidir. Çünki biz gərək gənc kadrlara imkan yaradaq ki, onlar da öz bacarıqlarını göstərsinlər.

Siz 1993-cü ildə Prezident Administrasiyasına ulu öndər Heydər Əliyev tərəfindən dəvət olunmusunuz. Demək olar ki, Heydər Əliyev Prezident kimi fəaliyyətə başlayandan dərhal sonra sizə bu böyük etimadı göstərmişdir və 10 il ərzində onun rəhbərliyi altında işləmisiniz. Yəni siz 26 ildir Prezident Administrasi-

yasında çalışırsınız, onun 20 ilini katibliyin rəisi kimi. Ulu öndərin sizə olan xoş münasibətini mən şəxsən bilirəm, bunun şahidi olmuşam. O sizə çox inanırdı, güvənirdi və məhz buna görə sizə böyük vəzifəni etibar etmişdir.

Son 16 ildir biz birlikdə işləyirik. Mən də sizin işinizdən həmişə razı olmuşam. Siz çox məsuliyyətli, bilikli, peşəkar insan kimi, ölkəmizin ümumi inkişafına böyük töhfələr vermisiniz. Bütün bunları nəzərə alaraq, sizi yüksək dövlət ordeni – «Şərəf» ordeni ilə təltif edirəm. Siz bu yüksək ordenə layiqsiniz. Bu orden sizin gördüyünüz işlərə dövlət tərəfindən verilən yüksək qiymətdir. İcazə verin, bu yüksək mükafatı sizə təqdim edim.

**Dilarə Seyidzadə:** Çox sağ olun.

*Dövlət başçısı «Şərəf» ordenini Dilarə Seyidzadəyə təqdim etdi.*

**İlham Əliyev:** Təbrik edirəm sizi.

**Dilarə Seyidzadə:** Çox sağ olun, cənab Prezident. Bu gün mənim üçün çox böyük bir gündür. Mən bütün həyatımı bir tarixçi kimi çalışmışam. Bu mənim üçün çox böyük bir şərəf idi, elə bu ordenin də adı «Şərəf»dir. Çox şadam ki, böyük, unudulmaz şəxsiyyət, bizim dahi rəhbərimiz Heydər Əliyev mənə inanıb, etimad göstərib, əvvəlcə özünə köməkçi, sonra isə katiblik yaradıb qarşımda çox məsuliyyətli vəzifələr qoymuşdur. O, katibliyi yaradanda mənə işin hamısını izah etmişdi. Görünür o, hesab edirdi ki, həmin dövrdə katiblik çox lazımi işlər görəcəkdir.

Mən Sizə minnətdarlığımı bildirirəm ki, Siz də bizə etimad göstərdiniz, mənim başçılıq etdiyim katibliyə diqqət, qayğı göstərdiniz. Biz bu diqqət və qayğını hər gün hiss edirdik. Biz fəxr edirdik ki, gündəlik işimizlə Sizə nəsə kömək göstəririk. Bu bizim həyatımızın mənası idi.

Bu gün də yüksək diqqət göstərib, vaxt ayırıb məni qəbul etdiniz, mənə belə böyük mükafat verdiniz. Mən həmişə Sizin çıxışlarınıza valeh oluram, çox diqqətlə qulaq asıram. Siz Azərbaycan xalqının çox böyük oğlusunuz. Biz hamımız Sizinlə fəxr edirik, Sizi hamı sevir. Arzum odur ki, Siz həmişə xoşbəxt olasınız, həmişə bizim bu gözəl Vətənimizi irəliyə aparasınız.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Xoş sözlərə görə təşəkkür edirəm. Əminəm ki, siz çox gözəl tarixçi, ictimai xadim kimi, bundan sonra da ölkəmizin ümumi inkişafına dəyərli töhfə verəcəksiniz və Azərbaycan tarixini, xüsusilə müasir tarixi olduğu kimi, bütün həqiqətləri təfsilatı ilə ictimaiyyətə, xüsusilə gənc nəslə çatdıracaqsınız.

Mənim Bakı Dövlət Universitetinin 100 illiyinə həsr edilmiş tədbirdəki çıxışım əsasən məhz gənclərə verilən çox ciddi mesaj idi. Həqiqəti onlar olduğu kimi bilməli, bugünkü reallıqları qiymətləndirməli, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının qarşısında göstərdiyi tarixi xidmətləri bilməlidirlər. Biz hamımız o acı günləri yaxşı xatırlayırıq. Azərbaycanda xaos, anarxiya, özbaşınalıq hökm sürürdü, ölkəmizin müstəqilliyi sual altında idi. Demək olar ki, Azərbay-

can parçalanma ərəfəsində idi. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, biliyi, xalqın ona olan inamı bizi bu ağır vəziyyətdən çıxardı və inkişaf yoluna qoydu.

Hesab edirəm ki, müasir tariximizlə bağlı daha böyük əsərlər – həm elmi, həm də publisistik əsərlər yazılmalıdır. Çünki buna böyük ehtiyac vardır. Xüsusilə ona görə ki, biz bu tarixi yaşamışıq, biz hamımız o tarixin şahidləriyik. Bu tarixi olduğu kimi çatdırmaq, onu bizim tarixlə bağlı kitablarda əks etdirmək böyük iş olardı. Əminəm ki, Siz tarixçi və Azərbaycan dövlətçiliyinin formalaşmasında önəmli rol oynamış bir insan kimi, bundan sonra da öz elmi fəaliyyətinizdə bu işləri görəcəksiniz. Sizə cansağlığı və yeni uğurlar arzulayıram.

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*2 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

*Xarici İşlər naziri Sergey Lavrov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlət başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Prezident Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.*

**İlham Əliyev:** Hörmətli Sergey Viktoroviç, sizi Azərbaycanda yenidən salamlamağa şadam. Xarici İşlər nazirlərinin qarşılıqlı müntəzəm səfərləri yaxşı ənənəyə çevrilib. Əlbəttə ki, nümunə göstərən prezidentlərdir. Bu il biz Vladimir Vladimiroviç ilə beynəlxalq tədbirlərdə ünsiyyətimizi saymasaq, 2 dəfə görüşmüşük – Pekində və Soçidə. İlə yekun vurarkən – zənnimcə, artıq yekun vurmaq olar – qeyd edirik ki, bu il bizim münasibətlərimiz üçün çox uğurlu olubdur. Biz bir sıra istiqamətlər üzrə əhəmiyyətli dərəcədə irəliləmişik, beynəlxalq təşkilatlarda bir-birimizi fəal dəstəkləməklə, qarşılıqlı siyasi əlaqələri möhkəmlətmişik. Deməliyəm ki, Azərbaycan nümayəndə heyəti tam heyətdə Rusiyanın AŞPA-ya qayıtmasının lehinə səs ve-

rib və beləliklə, həmrəyliyini bildiribdir. Biz də həmişə beynəlxalq strukturlarda bizi narahat edən məsələlərlə bağlı Rusiya Federasiyasının dəstəyini hiss edirik.

Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri çox uğurlu olub. Sizdən xahiş etmək istərdim ki, Mehriban Əliyevanın dəvət edilməsinə, ona göstərilmiş diqqətə, onun «Dostluq» ordeni ilə təltif olunmasına, onun ünvanına deyilmiş xoş sözlərə, çox konstruktiv söhbətə və praktiki olaraq, bizim qarşılıqlı fəaliyyətimizin bütün sahələrinə toxunulmuş danışıqlara görə Prezident Vladimir Vladimiroviç Putinə təşəkkürümü çatdırasınız. Rusiya hökumətinin sədri, Federasiya Şurasının sədri ilə də görüşlər olub. Regionlararası yubiley forumu çox uğurla keçib və əlbəttə, səfərin sonunda Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində «Azərbaycan» pavilyonunun açılması bizim dərin tarixə malik olan sıx dostluq əlaqələrimizin rəmzi oldu.

Bu il iqtisadi baxımdan da uğurlu olub. Əmtəə dövriyyəsi ildən-ilə artır. Hələ ilə yekun vurulmayıb, lakin zənnimcə, artım təxminən 25 faiz civarında olacaqdır. Bundan aşağı olmayacaqdır. Nəqliyyat sahəsində də yaxşı nəticələrə nail olmuşuq və Samur çayı üzərindən salınmış körpünün yaxın vaxtlarda açılmasını gözləyirik. Bu, əmtəə dövriyyəsini və qarşılıqlı səfərləri xeyli artırmağa imkan verəcəkdir. Yəni çox sahələri sadalamaq olar, lakin əsas odur ki, bizim münasibətlərimizdə dinamizm qorunub saxlanılıbdır. Zənnimcə, dinamizm artırılıb. Bu, böyük nikbinlik doğurur.

Əlbəttə ki, səfər çərçivəsində biz Ermənistan ilə Azərbaycan arasında münaqişənin nizamlanması problemləri barədə danışacağıq. Təəssüf ki, bu istiqamətdə nəzərəçarpan nəticələr olmayıb. Hesab edirəm ki, bunun əsas səbəbi Ermənistan rəhbərliyinin səmərəsiz siyasəti,

xüsusən «Qarabağın Ermənistan olması» barədə bəyanatıdır. Şadam ki, həm sizin tərəfinizdən, həm də digər ölkələrdən olan həmsədrlər tərəfindən, yumşaq desək, bu qəribə bəyanata düzgün qiymət verilib. Minsk qrupunun həmsədrləri ilə əməkdaşlığı davam etdirəcəyik. Yaxın vaxtlarda Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin görüşü olacaq. Ümidvarıq ki, siz danışıqlar prosesində fəal iştirakınızı davam etdirəcəksiniz. Bir daha xoş gəlmisiniz! Bakıda vaxtınızın xoş keçməsini arzu edirəm.

**S e r g e y L a v r o v:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Mənim dost Azərbaycana növbəti səfərim çərçivəsində Sizinlə görüşmək imkanına görə çox sağ olun. Biz həqiqətən, münasibətlərimizi analoji şəkildə qiymətləndiririk, onlar yüksəlişdədir, bütün sahələrdə durmadan inkişaf edir. Siz xatırlatdığınız kimi, Prezident Putin ilə Sizin müntəzəm əlaqələriniz bunu təsdiq edir. Həm Çində, həm də Soçidə «Valday» Forumunda Sizin iştirakınız çərçivəsində geniş söhbət oldu. Soçidə çox faydalı ikitərəfli görüş, dünya siyasətinin və regional siyasətin mühüm problemlərinə dair Sizin iştirakınızla çox maraqlı çoxtərəfli diskussiya oldu.

Biz Mehriban Arif qızı Əliyevanın Rusiya Federasiyasına səfərini, onun Prezident Putinlə, Baş Nazir Medvedevlə, Federasiya Şurasının Sədri Matviyenko ilə görüşlərini, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində «Azərbaycan» pavilyonunun çox mühüm açılışı mərasimində, Regionlararası Forumda iştirakını yüksək qiymətləndiririk və bu səfərin gedişində müzakirə edilmiş təşəbbüsləri biz hökmən həyata keçirəcəyik. Bu təşəbbüslər, o cümlədən bizim hökumətlərarası iqtisadi əməkdaşlığımıza yeni bir mövzu – innovasiyalar və yüksək texnologiyalar

mövzusunun əlavə edilməsinə aiddir, xüsusi «Yol Xəritəsi» yaradılacaqdır. Artıq bir neçə gündən sonra hökumətlərarası birgə Komissiya bu sahədə işlərin vəziyyətini nəzərdən keçirəcəkdir.

Siz də xatırlatdığınız kimi, əmtəə dövriyyəsi sürətlə artır. Əmtəə dövriyyəsinin həcmi yəqin ki, 3 milyard dollara yaxın olacaq. Rusiya Federasiyasının Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının həcmi 1,5 milyard dollar olub. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla əməkdaşlıq edir. Azərbaycanda Rusiya kapitalının iştirakı ilə 300-dən çox müəssisə fəaliyyət göstərir. Rusiyada da Azərbaycan kapitalı öz mövqelərini getdikcə möhkəmlədir.

Mehriban Arif qızı Əliyevanın Rusiya Federasiyasına səfərinin daha bir maraqlı və hesab edirəm ki, çox vacib nəticəsi Rusiya–Azərbaycan Gənclər Forumunun daha müntəzəm keçirilməsi barədə razılaşma oldu. Bu, varislik baxımından, tarixi yaddaşın qorunub saxlanılması və həm Rusiyada, həm də Azərbaycanda gənc nəslin münasibətlərimizə həmişə xas olmuş dostluq, mehriban qonşuluq ruhunda tərbiyəsi baxımından prinsipial əhəmiyyət kəsb edir. Həm regional, həm qlobal, həm də universal beynəlxalq təşkilatlarda əməkdaşlığımıza gəldikdə, biz sıx qarşılıqlı fəaliyyəti, həmişə bir-birinin mövqelərini nəzərə almaq istəyini çox yüksək qiymətləndiririk. Biz bundan sonra da ortaq mövqelərimizin dəstəklənməsinə, Azərbaycan və Rusiya üçün xüsusi maraq doğuran mühüm məsələlərin həllinə kömək edəcəyik. Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına aiddir. Biz həm Vyana Sammitində, həm sonradan nazirlərin Moskva

görüşündə etimad tədbirlərinin, humanitar əlaqələrin, kütləvi informasiya vasitələri xətti ilə əlaqələrin nizamlanması barədə əldə edilmiş razılaşmaların bu il təsdiqlənməsində və həyata keçirilməsində maraqlıyıq. Onlar tədricən reallaşır və ümidvaram ki, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin bu həftə keçiriləcək görüşü bu prosesləri əlaqələndirməyə imkan verəcəkdir. Eyni zamanda, Sizinlə razıyam ki, siyasi nizamlama, uzunmüddətli nizamlama baxımından hələ çox iş görülməlidir. Burada Sizin bu tezisinizi tam dəstəkləyirəm ki, hər iki tərəfin bəyəndiyi əsas prinsiplərə, BMT Nizamnaməsində və Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplərə zidd olan ritorikadan çəkinmək lazımdır.

Hörmətli İlham Heydər oğlu, Sizinlə söhbət etmək imkanına görə bir daha səmimi-qəlbdən minnətdarlığımı bildirirəm. Ümidvaram ki, sabah da davam edəcək bu səfər bizim münasibətlərimizi daha yüksək etimada əsaslanan, daha məhsuldar səviyyəyə çatdırmağa kömək edəcəkdir. Çox sağ olun.

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə və dost Finlandiya xalqına ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2019-cu il*

## TÜRKİYƏ RESPUBLİKASININ NƏQLİYYAT VƏ İNFRASTRUKTUR NAZİRİ MƏHMƏT CAHİT TURHANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Türkiyə Respublikasının Nəqliyyat və İnfrastruktur naziri Məhmət Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Çox şadam ki, «BakuTel» sərgisində iştirak edirsiniz. Biz çox məmnunuq ki, Türkiyə bu sərgidə yüksək səviyyədə, nazir səviyyəsində iştirak edir. Bu çox önəmli bir tədbirdir, uzun illər ərzində ənənəvi olaraq keçirilir. Həm Azərbaycanın bu sahədəki nailiyyətlərini nümayiş etdirir, həm də dost ölkələrin texnoloji inkişafını əks etdirir.

Hörmətli Prezident, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla biz bu günlərdə TANAP-ın açılışını qeyd etdik. Bu, dostluq layihəsidir və bir daha Türkiyə–Azərbaycan dostluğunu ifadə edir. Türkiyə və Azərbaycan birgə iradə göstərmişdir. Bildiyiniz kimi, Azərbaycan qazını Avropaya çıxarmaq üçün uzun illər müzakirələr gedirdi, Nabukko layihəsi üzərində dayanmışdılar. Ancaq onun texniki və maliyyə tərəfi həll edilməmişdi. Əslində biz bir neçə il itirdik. Nəhayət, 2012-ci ildə

birgə qərarla tarixi «İstanbul Anlaşması» imzalandı və TANAP-a yol açdı. Onu da bildirməliyəm ki, TANAP-ın inşasında iştirak edən şirkətlərin böyük əksəriyyəti Türkiyə şirkətləridir. İşlərin təqribən 80 faizini Türkiyə şirkətləri görüb. Biz artıq bu nəhəng, böyük layihəni istismara verdik. Bu doğrudan da tarixi nailiyyətdir.

Sizin rəhbərlik etdiyiniz sahədə də çox uğurlu əməkdaşlıq aparılır. Əlbəttə, ilk növbədə, biz Bakı–Tbilisi–Qars dəmir yolunun inşasını qeyd etməliyik. Bu da tarixi layihədir. Azərbaycan Türkiyə üzərindən Asiya ilə Avropanı dəmir yolu ilə birləşdirdi. Bunu da tarixdə ilk dəfə olaraq biz icra etdik. İndi yüklərin daşınması da artır. Hazırda Orta Asiya ölkələrindən, Çindən, hətta Əfqanıstandan yüklər bu yolla dünya bazarlarına çıxarılır. Əlbəttə, bu, Türkiyə–Azərbaycan birliyi, dostluğu sayəsində mümkün olubdur. Bu bizim mövqelərimizi möhkəmləndirir, gücümüzü artırır. Əminəm ki, bu yol əbədi çalışacaq və daşınan yüklərin həcmi artacaqdır.

Bir də ki, Türkiyədə texnoloji inkişaf çox sürətlə gedir. Biz bunu izləyirik, buna sevinirik. Sənaye sahəsində, informasiya texnologiyaları sahəsində çox böyük uğurlar əldə edilib. Türkiyədə elmi potensial da çox güclüdür. Əlbəttə ki, biz bu sahədə də daha sıx əməkdaşlıq etmək istəyirik. Çünki dünyanın gələcək inkişafı innovasiyalardan, texnoloji inkişafdan asılıdır. Burada birgə elmi araşdırmalar, tətbiqi tədbirlər bizim əməkdaşlığımızı daha da gücləndirəcəkdir. Bir sözlə,

qarşıda iş çoxdur. Əminəm ki, biz bütün işləri TANAP, Bakı–Tbilisi–Qars kimi, vaxtında icra edəcəyik.

**Məhmət Cahit Turhan:** Hörmətli cənab Prezident! Azərbaycanın qlobal səviyyədə təşkil etdiyi «BakuTel» sərgisi ilə əlaqədar bir daha qardaş ölkədə olmaqdan məmnunluq duyduğumu ifadə etmək istəyirəm.

İşlərinizin çoxluğuna baxmayaraq, bizi qəbul etdiyiniz üçün də təşəkkürlərimi bildirmək istəyirəm. Sizə hörmətli Prezidentimizin salamlarını gətirmişəm. Fürsətdən istifadə edərək, indiyədək çox uğurlu şəkildə həyata keçirilən və beynəlxalq səviyyədə etibarı yüksək olan Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – «BakuTel»in 25-ci ildönümünü hökumətimiz və türk xalqı adından ən səmimi hisslərimlə təbrik edir və bundan sonrakı fəaliyyətinizdə də uğurlar diləyirəm.

Azərbaycan Sizin rəhbərliyinizlə bütün sahələrdə mühüm islahatlar həyata keçirir, ciddi irəliləyişlər əldə edir. Əldə olunan hər irəliləyişdən, hər uğurdan məmnunluq duyuruq. Azərbaycanın bu uğurları artırmaqda və bölgəmizin parlayan ulduzu olmaqda davam edəcəyinə ürəkdən inanırıq.

Bu gün kənardan baxdıqda görürük ki, Azərbaycan siyasi və ictimai sabitliyi iqtisadi və bəşəri zənginliyə çeviribdir. Qardaş xalqlarımız ümummilli lider mərhum Heydər Əliyevin «bir millət–iki dövlət» kəlamı ilə güclərini ölkələrimizin və bölgəmizin faydasına uyğun olaraq birləşdirmişlər.

Sarsılmaz təməl üzərində qurulmuş əlaqələrimiz böyük bir mərhələ keçərək, strateji tərəfdaşlıq səviyyəsinə çatdırılıbdır. Həqiqətən də bir çox sahədə birlikdə mühüm layihələr gerçəkləşdiririk. Bakı–Tbilisi–Ceyhan neft boru kəməri və Bakı—Tbilisi–Ərzurum təbii qaz boru kəməri kimi iki böyük, mühüm layihəni həyata keçirərək, qlobal və regional baxımdan enerji strategiyamızı da inkişaf etdirdik. Bundan başqa, XXI əsrin layihəsi olan 45 milyard dollarlıq «Cənub Qaz Dəhlizi» layihəsi xüsusilə Azərbaycanın və Türkiyənin səyləri və maliyyə mənbələri hesabına gerçəkləşdirilməyə başlanılıbdır.

Möhtərəm cənab Prezident, hörmətli Prezidentimiz ilə Sizin əhəmiyyətli töhfəniz və güclü iradənizlə başladılan bu layihələr Türkiyə və Azərbaycan üçün yeni imkanlar olaraq, ortaq gücə çevrilmək hədəfinə mühüm dəstək təmin etməkdədir.

Böyük öndər Mustafa Kamal Atatürkün «Azərbaycanın acısı acımız, sevinci sevincimizdir» və ümummilli lider Heydər Əliyevin «bir millət–iki dövlət» kəlamlarından hərəkət edərək, Türkiyə və Azərbaycan bu günə qədər olduğu kimi, bundan sonra da hər sahədə bir-birinin yanında yer almaqda davam edəcəkdir. Bundan sonra bizim öhdəmizə düşən vəzifə kədəri də, sevinci də ortaq olan qardaş ölkələrimiz arasındakı strateji tərəfdaşlığı cənab Prezidentimiz və zati-alinizin liderliyi ilə yeni layihələrlə daha da irəlilətməkdir.

* * *

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MƏHƏMMƏD CAVAD AZƏRİ CƏHROMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Sizi yenidən görməyə şadam. Şadam ki, İran sərgidə yüksək səviyyədə– nazir səviyyəsində iştirak edir. Keçən dəfə də sərgi günlərində sizinlə görüşmüşdüm. Əminəm ki, bütün sahələrdə olduğu kimi, rəhbərlik etdiyiniz sahədə də əməkdaşlığımızın gələcəyi çox yaxşı olacaqdır.

Bildiyiniz kimi, oktyabrın sonunda Prezident Ruhani ilə mənim görüşüm olub. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Son bir neçə il ərzində 10-dan çox görüşümüz olub. Onların hamısı çox məhsuldar olub. Bir çox məsələlər öz həllini tapıb. Şadam ki, əldə edilmiş razılaşmalar həyatda öz əksini tapır.

Bu gün bizim Baş Nazirin müavini Şahin Mustafayev İranda səfərdədir və gələcək əməkdaşlıq haqqında

danışıqlar aparacaq. Əlbəttə, baxmayaraq ki, bir çox məsələlər artıq reallaşıb, yenə də həllini gözləyən məsələlər vardır. Əminəm ki, onlar da öz həllini tapacaq. Son illərdə, xüsusilə nəqliyyat, energetika, ticarət sahələrində çox yaxşı nəticələr əldə etmişik. Eyni zamanda, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Bu da tarixi nailiyyətdir. Bir sözlə, ikitərəfli gündəlik kifayət qədər genişdir. Bu il ikitərəfli əlaqələr üçün çox məhsuldar il olub. Əminəm ki, 2020-ci il də əməkdaşlıq üçün uğurlu olacaqdır. Bir daha xoş gəlmisiniz!

**Məhəmməd Cavad Azəri Cəhromi:** Allahın adı ilə. Mən çox şadam ki, bu il də Azərbaycana səfərim çərçivəsində Sizinlə görüşürəm. Bizə vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. Bu günlərdə bizim ölkədə büdcə müzakirələri gedir. Mən səhər-axşam büdcə müzakirələrində, iclaslarda iştirak edirəm.

Dünən axşam cənab Prezident Ruhani ilə danışırdım. Sizə xüsusi salamlarını çatdırdı. Cənab Şahin Mustafayev ilə də biz dünən axşam aeroportda görüşdük və on dəqiqəlik söhbətləşdik, müzakirələr apardıq.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HAULİN JAO İLƏ GÖRÜŞ

*3 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Haulin Jaonu qəbul etmişdir.*

**H a u l i n J a o:** Siz mənim indiyədək dünyada ən çox görüşdüyüm Prezidentsiniz. «BakuTel» sərgisi hər il keçirilən tədbirdir. Bu il 25-ci ildönümünü qeyd edir. Həmçinin bu, indiyədək ən çox ziyarət etdiyim tədbirdir.

**İ l h a m Ə l i y e v:** Bu bizim əməkdaşlığımızın yaxşı göstəricisidir və Azərbaycanın İKT sektorunun inkişafına verdiyi önəmi əks etdirir. Əlbəttə, sərgidə sizin şəxsən iştirakınız çox vacibdir. Çünki bu, Beynəlxalq Telekommunikasiya İttifaqı üçün tədbirin əhəmiyyətli olduğunu göstərir. Biz həmçinin bunu sözügedən sektorda gördüyümüz işlərə verilən qiymətin göstəricisi hesab edirik. Qeyd etdiyiniz kimi, bu, 25-ci sərgidir. İldən-ilə marağın artdığını görürük. Əslində bu sərgi zamanı cari ildə əldə etdiyimiz nailiyyətlər barədə də danışa bilərik. Düşünürəm ki, biz İKT sektorunda çox yaxşı inkişafa nail olmuşuq və bu sektor bizim ölkənin əsas prioritetlərindən biri olaraq qalır.

O çoxlu yeni ideyalar yaradır, yeni texnologiyalar gətirir, ölkəmizi müasirləşdirməyə yardım edir.

Azərbaycan hazırda çox aktiv islahatlar mərhələsindədir – struktur islahatları, siyasi inkişafla, şəffaflıqla bağlı islahatlar. Biz çox yaxşı nəticələr görürük. Azərbaycan çox sabit ölkədir və əhalinin böyük əksəriyyəti siyasətimizi dəstəkləyir. Bu, güclü siyasi iradənin nümayişinə, həmçinin iqtisadi və sosial həyatdakı böyük nailiyyətlərə əsaslanır. Cari il də bu baxımdan çox nəzərəçarpan olub. İnsanların gündəlik həyat şəraitinin yaxşılaşdırılması, sosial proqramların həyata keçirilməsi, maaş və təqaüdlərin artırılması – bütün bunların hamısı, təbii ki, bizim inkişafımızın göstəricisidir. Əlbəttə, iqtisadiyyatın əsas aparıcı qüvvəsi kimi, İKT sektoru da qarşıdan gələn illərdə çox vacib rol oynayacaq. Bu sektorun inkişafı bizə islahatlarda daha çox səmərə əldə etməyə kömək edəcək. Təbii ki, bizim ölkəmizə göstərdiyiniz diqqətə görə sizə şəxsən təşəkkür etmək istəyirəm. Şadam ki, hər il bu sərgidə bizi ziyarət edirsiniz. Bunun sayəsində biz çox səmərəli əməkdaşlıq qura bilmişik. Beləliklə, mən sizə minnətdaram və Bakıda xoş vaxt keçirməyinizi arzu edirəm.

**Haulin Jao:** Çox sağ olun, cənab Prezident. Bəli, doğrudan da mən Azərbaycanda İKT-nin sürətlə inkişaf etdiyini görürəm. Bütün digər ekosistemləri əhatə etmək üçün çoxlu yeni İKT tətbiqləri artıq var və onlar bütün ekosistemlər üzrə geniş yayılıbdır. Təkcə bu il «BakuTel»də nəinki daha çoxsaylı ölkələrin

iştirak etdiyini, həmçinin çoxlu yeni məhsulları və yeni tətbiqləri görürəm. Məsələn, mən sərgidə gördüm ki, «məlumatların böyük həcmi» haqqında geniş söhbət gedirdi, «süni intellekt» məhsulları haqqında çoxlu danışdılar. Bunlar bir-birindən fərqlənir. Həmçinin bu gün buraya gəlməzdən əvvəl mən gənclərin hazırladıqları stendlərlə tanış oldum. Onlarla müəyyən ünsiyyətim oldu və bu uşaqların çox istedadlı olduqlarını aşkar etdim.

## TÜRKİYƏ RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI VƏ MEŞƏÇİLİK NAZİRİ BƏKİR PAKDƏMİRLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik naziri Bəkir Pakdəmirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Türkiyənin Kənd Təsərrüfatı və Meşəçilik naziri Bəkir Pakdəmirlinin ölkəmizə səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi işinə töhfə verdiyi və bu sahədə əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı qeyd olundu.*

*Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Kənd Təsərrüfatı nazirlərinin Bakıda keçirilmiş iclasının əhəmiyyətinə toxunuldu, mötəbər beynəlxalq tədbirlərin Azərbaycanda yüksək səviyyədə təşkil olunması məmnunluqla qeyd edildi.*

## HACIQABUL RAYON VƏ NAFTALAN ŞƏHƏR İCRA HAKİMİYYƏTLƏRİNİN YENİ TƏYİN OLUNMUŞ BAŞÇILARI RÜSTƏM XƏLİLOV VƏ VÜQAR NOVRUZOV İLƏ GÖRÜŞ

*4 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul etmişdir.*

**İlham Əliyev:** Bu gün mən sizi icra başçısı vəzifəsinə təyin edirəm. Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə, Vüqar Novruzovu isə Naftalan Şəhər İcra Hakimiyyəti başçısı vəzifəsinə təyin edirəm. Bu, böyük etimaddır. Siz bu etimadı öz işinizlə doğrultmalısınız. Ölkəmizdə köklü islahatlar aparılır. Bu islahatlar, demək olar ki, bütün sahələri əhatə edir. İqtisadi sahədə, maliyyə sektorundakı islahatlar, şəffaflıqla bağlı olan tədbirlər artıq öz gözəl nəticələrini verməkdədir. Mənə verilən məlumata görə, bu ilin 11 ayında təkcə vergi və gömrük orqanları büdcəyə plandan əlavə, 934 milyon manat vəsait daxil edibdir. Bunun da başlıca səbəbi kadr islahatıdır. Çünki həm vergi, həm gömrük orqanlarında

köklü kadr dəyişiklikləri həyata keçirilib, yeni rəhbərlər təyin edilibdir, nəticə də göz qabağındadır.

Struktur islahatları ilə bərabər, kadr islahatları da aparılır. Struktur islahatlarına gəldikdə, cəmiyyət bu islahatları yüksək qiymətləndirir. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yeni strukturları təsdiq edilib, Milli Məclis yenidən formalaşacaqdır. Bütün bunların bir məqsədi var: ölkəmizin uğurlu inkişafını təmin etmək, ölkədə mövcud olan gözəl ab-havanı qoruyub saxlamaq, gənc peşəkar kadrlara imkan vermək ki, onlar özlərini göstərsinlər. Ümumi idarəetmə işlərində vəziyyət müasir standartlara cavab verməlidir.

Ölkəmizin uğurlu inkişafı danılmaz həqiqətdir. Bütün mötəbər beynəlxalq qurumlar bunu qeyd edir. Ölkəmizin çox gözəl beynəlxalq imici vardır. Təkcə oktyabr–noyabr aylarında ölkəmizdə baş vermiş hadisələr, keçirilmiş mötəbər tədbirlər göstərir ki, Azərbaycanın beynəlxalq nüfuzu nə qədər yüksəkdir və bizə nə qədər beynəlxalq dəstək göstərilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü yüksək səviyyədə keçirildi və Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürdü. «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü yüksək səviyyədə keçirildi. 120 ölkənin dəstəyi ilə biz bu təşkilata sədr seçildik və 3 il ərzində sədrlik edəcəyik. Dünya Dini Liderlərinin Zirvə görüşü Azərbaycanda keçirildi və 70 ölkədən gəlmiş nümayəndələrin hər biri

qeyd edirdi ki, Azərbaycan bu sahədə dünyada aparıcı rol oynayır.

Bizim apardığımız kadr və struktur islahatları eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Keçirilmiş son rəy sorğusunun nəticələrinə görə, xalqımızın mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir və bəyənir.

Kadr islahatları davam etdiriləcək. Son vaxtlar aparılan islahatlar artıq öz nəticəsini verməkdədir. Cəmiyyətdə bu islahatlarla bağlı çox müsbət rəy formalaşıb və gözləntilər də vardır. Ona görə də təyin edilmiş bütün yeni kadrların qarşısında konkret vəzifələr qoyulur və bu kadrlar o vəzifələri icra etməlidirlər. Dövlət məmurları vəzifəyə gəlir mənbəyi kimi baxmamalıdırlar. Onlar xalqa xidmət etməlidirlər. Onların başlıca missiyası bundan ibarətdir və siz də belə işləməlisiniz.

Rüstəm Xəlilov uzun illərdir ki, Milli Məclisin üzvü kimi fəaliyyət göstərir. Əvvəlki dövrlərdə də böyük təcrübə toplayıbdır. Əminəm ki, Hacıqabul rayonunda bu təcrübəni tətbiq edəcək və rayonun inkişafına töhfə verəcəkdir. Vüqar Novruzov gənc kadrdır və bir müddət Prezident Administrasiyasında işləyib, indi isə Xəzər rayonunda icra hakimiyyəti başçısının müavini işləyir. Yəni bugünkü təyinat da mənim dediyim sözlərin təsdiqidir: təcrübə və gənclərin novatorluğu. Bax, bu sintez həm cəmiyyətdə mövcud olmalıdır, möhkəmlənməlidir, həm də iqtidar komandasında və bü-

tün idarəetmə strukturlarında. Təcrübəli kadrların bilikləri, hazırlığı, eyni zamanda, gənclərin novatorluğu, dinamizmi, yeniliklərə meyilliliyi – bu prinsiplərin vəhdəti uğurlu inkişafımızı bundan sonra da şərtləndirəcəkdir.

Sizin əsas vəzifəniz ondan ibarət olmalıdır ki, rəhbərlik edəcəyiniz şəhər və rayonda iqtisadi inkişaf təmin edilsin, işsizliklə bağlı problemlər öz həllini tapsın. Siz vətəndaşlarla daim təmasda olmalısınız. Mövcud olan bütün problemləri ilk növbədə, çox dərindən təhlil etməlisiniz və problemlərin həlli üçün iş planı tutulmalıdır. Təbii ki, problemlərin bir hissəsinin həlli mərkəzi icra orqanlarının səlahiyyətindədir. Belə olan halda, mərkəzi icra orqanları qarşısında məsələ qaldırmalısınız, eyni zamanda, Prezident Administrasiyasına məlumat verməlisiniz. O məsələlər ki, sizin fəaliyyətinizdən asılıdır, onları özünüz həll etməlisiniz və daim vətəndaşlardan onları narahat edən məsələləri eşitməlisiniz. Ona görə vətəndaşlarla sizin ünsiyyətiniz formal xarakter yox, işgüzar xarakter daşımalıdır və bu sizin iş qrafikinizdə prioritet məsələ olmalıdır.

İşsizliklə bağlı problemlər bütövlükdə Azərbaycanda öz həllini tapır və beynəlxalq qurumlar da bu sahədəki uğurlarımızı qeyd edir. Ancaq mən bunu dəfələrlə demişəm, bəzi qonşu ölkələrdən fərqli olaraq bizim əhalimiz artır. Azərbaycan Cənubi Qafqazda yeganə ölkədir ki, əhali artır və sovet dövründən sonra – müstəqillik illərində təqribən 30 faizə yaxın artaraq, 7 milyondan 10 milyona çatıbdır. Bütün bunlar, əlbəttə, tə-

ləb edir ki, yeni iş yerləri yaradılsın. İş yerlərinin yaradılması üçün investisiya layihələri icra edilməlidir. Ona görə də icra başçıları həm yerli, həm də xarici biznes dairələri ilə sıx təmaslar qurmalı, şəhər və rayonlara investisiyaları cəlb etməlidirlər ki, yerli istehsal artsın və işsizlik daim aşağı səviyyədə olsun.

Hacıqabul rayonunun potensialının inkişafı üçün mənim göstərişimlə Hacıqabul sənaye zonası yaradılır. Bu zonanın böyük potensialı olacaq və orada xüsusi güzəştlər rejimi tətbiq ediləcəkdir. Bilirəm ki, bu, sahibkarlar tərəfindən də yüksək qiymətləndirilir. Belə təcrübə artıq var – Sumqayıtda, Neftçalada, Masallıda, digər şəhər və rayonlarımızda. Mingəçevirdə sənaye zonaları yaradılıb və yaradılır. Sənaye zonasının fəaliyyətinə böyük diqqət verilməlidir. Digər layihələr, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı olan layihələr icra edilməlidir. Kənd təsərrüfatında məhsuldarlığın artımı gündəlikdə duran əsas məsələlərdən biridir. Hesab edirəm ki, bu il biz rekord göstəriciyə nail olmuşuq. Taxılçılıqda orta məhsuldarlıq hər hektardan 32 sentner olubdur. Bu, son illər ərzində ən yüksək nəticədir və daha da artacaqdır. Pambıqçılıqda hələ ki, yığım başa çatmayıb, az qalıb, amma artıq hektardan 29 sentner pambıq götürmüşük. Pambıqçılar yaxşı bilirlər ki, Azərbaycan tarixində cəmi 3, ya 4 il məhsuldarlıq 30 sentnerə yaxın, yaxud da ondan çox olubdur. Onlardan biri də 2019-cu ildir. Kənd təsərrüfatı, xüsusilə indi – əlbəttə, bu, Hacıqabul rayonuna aiddir – inkişaf etməlidir.

Naftalan şəhərini müasir kurort mərkəzinə çevirmək cəhdlərimiz, hesab edirəm ki, çox uğurludur. Mən Prezident kimi, ilk dəfə Naftalana gələndə ürəyim ağrıdı, çünki gördüm ki, demək olar, şəhər dağılmış vəziyyətdədir. İnfrastruktur yox, işıq yox, qaz yox, su yox, yollar bərbaddır. Sovet vaxtında tikilmiş sanatorilər dağılmış və şəhərdə minlərlə köçkün məskunlaşmışdı, onların da vəziyyəti çox ağır idi. Ona görə göstəriş verdim və tapşırdım ki, vəsait ayrılsın. İlk növbədə, biz köçkünləri köçürdük və onlar üçün gözəl evlər tikdirdik. Sonra investorları cəlb etdik və onlar investisiya qoymağa başladılar. Bununla paralel olaraq, Naftalan şəhərindəki bütün hündürmərtəbəli binalar əsaslı şəkildə təmir olundu, yeni parklar salındı, Mərkəzi Şəhər Xəstəxanası, beşulduzlu 3 hotel – «Çinar», «Qarabağ» və «Qaşaltı» açıldı. Bütün açılışlarda mən şəxsən iştirak etmişəm. Hazırda dördulduzlu və üçulduzlu hotellərin tikintisi davam etdirilir. Sovet vaxtında Naftalana hər il müalicə üçün 70 min adam gəlirdi. Biz indi bu hədəfə doğru gedirik. Artıq təqribən 30–40 min insan dincəlmə və müalicə almağa gəlir. Naftalanı beynəlxalq turizm mərkəzi kimi inkişaf etdirmək bizim başlıca vəzifəmizdir. Şəhər icra hakimiyyəti bu işlərə böyük diqqət verməlidir. Naftalanda yaşayan vətəndaşların mütləq əksəriyyəti xidmət sektorunda fəaliyyət göstərir.

Bir sözlə, sizə göstərilən bu etimad doğrudan da sizin üçün böyük avansdır. Çünki indiki şəraitdə kadrlara qarşı tələbkarlıq artır. Kadrlar qarşısında çox

ciddi vəzifələr qoyulur, xüsusilə pozuntularla bağlı. Rüşvətxorluq, korrupsiya sıfır dərəcəsində olmalıdır. İnvestorları incitməməlisiniz, əksinə, onlara kömək göstərməlisiniz, onları cəlb etməlisiniz ki, vətəndaşlar sizin işinizdən razı qalsınlar. Əgər vətəndaşlar razı olsalar – atalar sözü var: «Xalqın gözü tərəzidir» – mən də razı olacağam və sizin fəaliyyətinizə yüksək qiymət verəcəyəm. Yox əgər mənim etimadımı doğrultmasanız, onda sizi çox ciddi cəza gözləyir. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və müasir dövrün tələblərinə cavab verərək, rəhbərlik edəcəyiniz Naftalan şəhərinin, Hacıqabul rayonunun inkişafına öz töhfənizi verəcəksiniz.

## XXV AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA, İNNOVASİYA VƏ YÜKSƏK TEXNOLOGİYALAR SƏRGİSİ – «BAKUTEL–2019» İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*4 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – «BakuTel–2019» ilə tanış olmuşlar.*

*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və «Kaspian Event Organisers» şirkətinin region üzrə direktoru Edvard Stroun dövlət başçısı və xanımına 25 illik yubileyini qeyd edən builki sərgi haqqında məlumat verdilər.*

*Bildirildi ki, yubiley sərgisində 23 ölkədən 238 şirkət iştirak edir. Türkiyə, Rusiya, ABŞ, Belarus, BƏƏ, Fransa, İran, İsrail, İtaliya, Sloveniya, Xorvatiya və digər ölkələrin ticarət palataları və səfirliklərinin dəstəyi ilə aparıcı İT şirkətlərindən ibarət milli qruplar sərgidə təmsil olunur. Sərgiyə 11 ölkə milli pavilyonuyla qatılıb. Sərginin debütantlarının sayı ümumi iştirakçıların*

*30 faizini təşkil edir. Stendlərdə həm iş, həm də gündəlik həyat üçün «smart» həllər təklif olunur. Hər il olduğu kimi, bu il də tədbirdə bir-birindən maraqlı layihələr təqdim edən stendlər qurulubdur. Sərgi Xəzər bölgəsində innovasiya və yüksək texnologiyalar sahəsində ən böyük hadisə olmaqla yanaşı, işgüzar əlaqələrin qurulması üçün də nadir məkandır.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva İnnovasiyalar Agentliyinin stendi ilə tanış oldular. Burada agentliyin fəaliyyəti haqqında məlumat verildi. Qeyd olundu ki, agentlik regional investorları cəlb etmək üçün beynəlxalq ekspertlərin iştirakı ilə Fondlar Fondunun yaradılması üzərində iş aparır. Bu sahədə beynəlxalq təcrübə öyrənilir. Agentliyin indiyədək bir çox startapları həyata keçirilib. Bu startaplar sosial, süni intellekt, istehlakçılar, tibb və digər sahələri əhatə edir.*

*Dövlət başçısı İlham Əliyevə Azərbaycanda startapçılar üçün yaradılmış şərait barədə məlumat verildi. Bildirildi ki, İnnovasiyalar Agentliyi bütün regional startaplara Azərbaycanda öz şirkət nümayəndəliklərini qeydiyyatdan keçirməyə, yerli mütəxəssislərdən ibarət komanda formalaşdırmağa, məhsullarını adaptasiya etməyə və kommersiyalaşdırmağa kömək göstərir.*

*Bu stenddə Azərbaycan Prezidentinə və xanımına startap layihələri barədə məlumat verildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «AzInTelecom»un stendində təqdim olunmuş yeniliklərlə də tanış oldular. Burada «Hökumət buludu» layihəsi,*

*yeni məhsullar və layihələr təqdim edilir, eyni zamanda, proqram təminatı xidmətləri çərçivəsində yeniliklər nümayiş olunur. Stenddə, həmçinin Yevlaxda ehtiyat Data mərkəzi, «bulud» texnologiyaları üzrə ən son xidmətlərin «Azcloud MeetUp» adlı emalatxanası barədə də məlumat almaq olar.*

*«Aztelekom» MMC-nin stendində məlumatın yüksək sürətlə ötürülməsini təmin edən müasir və səmərəli ayrılmış xətt xidməti, GPON və LTE texnologiyaları üzərindən göstərilən genişzolaqlı xidmətlər, İPTV və internetdə olan məzmunun filtrasiya xidməti təqdim olunur.*

*«Baktelecom» stendində sərgi ziyarətçilərinə Bakı şəhərini əhatə edən «Evədək optika» layihəsi və paytaxtətrafı ərazilərdə tətbiq edilən «Simsiz rabitə» şəbəkəsinin növbəti mərhələsi, həmçinin İPTV texnologiyası ilə rəqəmsal televiziya xidmətləri, mobil və stasionar telefonları ümumi şəbəkəyə birləşdirməyə imkan yaradan «Virtual ATS» xidməti təqdim olunur.*

*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsas informasiya texnologiyaları infrastrukturu olan Məlumat Hesablama Mərkəzi ölkədə «elektron imza» üçün Milli Sertifikat Xidmətləri Mərkəzinin fəaliyyətini qanunvericiliyə əsasən təmin edən müəssisədir. 45 ildən çoxdur ki, fəaliyyət göstərən Məlumat Hesablama Mərkəzi Azərbaycanda kompüter texnologiyası ilə hesablama və təhlillər aparan ilk qurumdur. Müəssisənin xidmətlərinə «özəl şəbəkələrin qurulması», «proqram təminatı», «məlumatın saxlanma və emalı*

*sistemi», «sistem inteqrasiya həlləri», «veb saytların yaradılması» və digər mühüm xidmətlər daxildir. Mərkəz fəaliyyət sahələrini genişləndirərək, informasiya texnologiyalarının bir çox istiqamətlərini əhatə edir.*

*«Azərpoçt» MMC-nin stendində yeni «Postman» xidməti təqdim olunub. «Android» sistemi ilə çalışan mobil tətbiq poçtalyonların işini asanlaşdırmaq və onların fəaliyyətinə nəzarət etmək məqsədi daşıyır. Buradakı digər yenilik isə «Postpay» – elektron pul kisəsidir.*

*«Azərmarka» MMC-nin stendində markalı kitablar, bu il ərzində tədavülə buraxılan poçt markaları, suvenirlər təqdim edilir.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva poçt markalarını möhürlədilər.*

*Sonra Prezident İlham Əliyev sərgidə Rusiyanın «Rossiya-24» televiziya kanalına müsahibə verdi.*

*Sərgidə İnnovasiyalar Agentliyi və «Zəfər» Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin yardımı ilə şəhid ailələrin övladları üçün təmənnasız təşkil edilmiş STEM üzrə kursların iştirakçıları əldə etdikləri nailiyyətləri sərgi ziyarətçiləri ilə bölüşdülər. Kurs iştirakçıları hazırladıqları modelləri Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya nümayiş etdirdilər.*

*Belarus da «BakuTel–2019» sərgisinin iştirakçıları sırasındadır. Bu ölkədən «BakuTel»də 6 şirkət iştirak edir. Onlar İKT-nin ən son yeniliklərini Bakı sərgisində nümayiş etdirirlər. Prezident İlham Əliyev burada Bela-*

*rus və Azərbaycanın birgə buraxılışı olan markanı möhürlədi.*

*«Startap Avenyu» stendində İnnovasiyalar Agentliyində fəaliyyət göstərən 26 startap layihəsi nümayiş olunur. İnnovasiyalar Agentliyinin «Hibrid Startaps» proqramı çərçivəsində Rusiya, İtaliya, Yaponiya, Ukrayna və İrandan olan xarici rezidentlər də sərginin iştirakçıları sırasındadırlar.*

*Rusiya Federasiyasının Elm və Ali Təhsil Nazirliyinin sərgidəki stendində bu ölkənin 14 universiteti və bir elmi-tədqiqat institutunun ümumilikdə 35 layihəsi təqdim olunur. Bundan başqa, Rusiyanın digər 2 şirkəti də öz məhsullarını nümayiş etdirir.*

*Sərgidə İran İslam Respublikası da geniş təmsil olunur. Burada İrandan 15 şirkət məhsullarını təqdim edir. Şirkətlərin təqdim etdiyi layihələr arasında İKT ilə bağlı ən son yeniliklər nümayiş olunur.*

*Qardaş Türkiyə digər sərgilərdə olduğu kimi, bu sərgidə də təmsil olunur. Türkiyə şirkətləri peyk, İT, informasiya təhlükəsizliyi ilə bağlı innovativ məhsulları təqdim edir. Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyi ilə yanaşı, 4 şirkətin yenilikləri də ziyarətçilərə nümayiş etdirilir.*

*Xorvatiya «BakuTel–2019»da ümumilikdə 5 şirkətlə təmsil olunur. Bu şirkətlərdən ikisi ilk dəfədir ki, sərgiyə qatılır. Şirkətlər müxtəlif məhsul və layihələrini, o cümlədən İT, mobil bankçılıq və digər xidmətləri təqdim edir.*

*Amerika Birləşmiş Ştatları da sərginin iştirakçıları sırasındadır. Bu ölkədən 4 şirkət İKT ilə bağlı müasir xidmətlərini təqdim edir. Bu xidmətlərin arasında İT sahəsində təhlükəsizlik və digər məhsullar vardır.*

*İsrail də sərgidə iştirak edir. Bu ölkənin şirkətləri «BakuTel»də innovativ məhsul və xidmətlərini təqdim edir.*

*Fransa stendində ən son İT və informasiya təhlükəsizliyi məhsulları nümayiş olunur. Burada Fransanın 2 şirkəti ən son yeniliklərini sərgi iştirakçılarına nümayiş etdirir.*

*İtaliya stendi ilə tanışlıq zamanı məlumat verildi ki, burada 3 şirkət müxtəlif İT məhsullarını təqdim edir. İtaliya da sərgidə milli pavilyonla təmsil olunur.*

*«BakuTel–2019» sərgisində Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan «Elektron hökumət»in İnkişafı Mərkəzi öz stendi ilə təmsil olunur. Burada mərkəzin idarə etdiyi, o cümlədən texniki cəhətdən ərsəyə gətirdiyi layihələr, qurumun əməkdaşları tərəfindən dövlət xidmətlərinin təkmilləşdirilməsini təmin edən İKT sahəsində həllər nümayiş olunur. Stenddə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya «myGov» portalı, «ASAN ödəniş», «ASAN viza», «ASAN finans» sistemləri və süni intellekt sahəsində mərkəzin gördüyü işlər barədə ətraflı məlumat verildi.*

*İT sahəsində dünya liderlərindən olan Cisco şirkəti də sərginin iştirakçıları sırasındadır. Bu şirkət ən son*

*yenilik və məhsullarını sərgi iştirakçılarına təqdim edir.*

*Vətəndaşlara qeydiyyat prinsipi olmadan xidmət göstərən DOST Mərkəzinin sosial sahədə innovativ yenilikləri də «BakuTel–2019»da təqdim edilir. Dövlət başçısına və xanımına məlumat verildi ki, bu ilin mayında açılışı olan DOST Mərkəzi ötən müddətdə 55 min vətəndaşa xidmət göstərib. Vətəndaş məmnunluğu səviyyəsi 95 faizdən çoxdur. Hazırda vətəndaşlara 132 xidmət göstərilir. Getdikcə təkmilləşdirilən bu xidmətlərin sayı artır. DOST Mərkəzinin müasir «Çağrı mərkəzi» 200 mindən çox zəng qəbul edibdir.*

*Bildirildi ki, bir neçə həftədən sonra Bakının Xəzər və Pirallahı rayonlarını əhatə edən 2 saylı DOST Mərkəzi açılacaq. Növbəti il isə Bakı ilə yanaşı, bölgələrdə də 5 mərkəzin açılması nəzərdə tutulur.*

*«Azərkosmos» Açıq Səhmdar Cəmiyyəti də sərgidə təmsil olunur. Qafqazda ilk və yeganə peyk operatoru olan «Azərkosmos» telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksəkkeyfiyyətli peyk xidmətləri təqdim edir. Prezident İlham Əliyevə şoranlaşma ilə bağlı peyk vasitəsilə aparılmış müşahidələr barədə məlumat verildi.*

*1987-ci ildə təsis edilmiş «Huavei» şirkəti sərgidə yeniliklərini təqdim edir. Beynəlxalq aləmdə aparıcı informasiya və kommunikasiya texnologiyaları infrastrukturu və «smart» cihazların təminatçısı olan şirkət dünyada 3 milyarddan çox insana xidmət göstərərək, 170-dən artıq ölkədə və bölgədə təmsil olunur.*

*Rusiyanın Peyk Kommunikasiya şirkəti də sərgidə məhsullarını təqdim edir.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərginin «Robopark» sahəsində təqdim olunmuş yeniliklərlə tanış oldular. Məlumat verildi ki, burada 20-dən çox interaktiv və əyləncəli proqramlaşdırma, həmçinin dronlar üzrə biliklər təqdim olunur.*

*Eyni zamanda, sərgidə müxtəlif robotlar da nümayiş etdirilir.*

*Dövlət başçısı və xanımı robotların danışığını dinlədilər və Azərbaycan musiqisi altında rəqsinə tamaşa etdilər.*

*Digər bir robotun pianoda ifası da maraqla qarşılandı.*

*Daha sonra dövlət başçısına «Bakı Taksi» MMC-nin yeni elektrik mühərriki ilə işləyən avtomobil modeli barədə məlumat verildi. Bildirildi ki, elektrik enerjisi ilə işləyən yeni taksilər ekoloji cəhətdən zərərsizdir. Avtomobillərdə USB  və GPS qurğuları quraşdırılıbdır.*

## AVROPA–QAFQAZ–ASİYA BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN (TRASEKA) 20 İLLİK FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ YUBİLEY KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Əziz qonaqlar!

Sizi – Avropa–Qafqaz–Asiya beynəlxalq nəqliyyat dəhlizinin 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransında salamlayır və hər birinizi bu əlamətdar tədbir münasibətilə təbrik edirəm.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7–8-də 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın Bakı şəhərində keçirilməsi ölkəmizin TRASEKA proqramına verdiyi xüsusi önəmin və diqqətin təzahürüdür. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında «Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş» imzalanmışdır. Bundan əlavə, 2001-ci il 21 fevral tarixində Bakı şəhərində ümummilli lider Heydər Əliyevin iştirakı ilə TRASEKA hökumətlərarası birgə Komissiyasının Daimi Katibliyinin açılışı olmuşdur.

Fəaliyyət göstərdiyi 20 il ərzində TRASEKA proqramı üzv ölkələr arasında multimodal daşımaların təşviqi, tranzit daşımalar üçün əlverişli şəraitin yaradılması, ticari, iqtisadi və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi sahələrində əməkdaşlığın genişləndirilməsi, habelə həmin ölkələrin iqtisadi potensialının artırılması işinə mühüm töhfələr veribdir.

Azərbaycan Respublikası Avropa–Qafqaz–Asiya regionunda nəqliyyat dəhlizlərinin və əlaqəli infrastrukturun inkişaf etdirilməsinin vacibliyini tanıyaraq, bir sıra layihələrin həyata keçirilməsi üçün sərmayələr yatırır, ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq edir. Bununla bağlı xüsusilə vurğulamaq istərdim ki, Azərbaycan region üçün vacib layihələrin təşəbbüskarı olmaqla yanaşı, həm də Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Qars dəmir yolu, «Cənub Qaz Dəhlizi» kimi vacib beynəlxalq layihələrin əsas həmicraçısı, beynəlxalq nəqliyyat dəhlizlərində daşımaların, o cümlədən multimodal infrastrukturun təşviqinə dəstək verən şərq–qərb və cənub–qərb avtomobil yolları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və digər yerli layihələrin icraçısıdır.

Nəqliyyat sahəsində əməkdaşlığa böyük diqqət yetirən Azərbaycan Respublikası qarşıdakı dövrdə proqramın fəaliyyətini ölkələrimizin nəqliyyat sektorlarının inkişafı baxımından yeni mərhələnin başlanğıcı kimi qiymətləndirir. Bu fəaliyyətin uğurla aparılması üçün ölkəmiz bundan sonra da proqramın prioritet

istiqamətləri üzrə daha vacib layihələrin gerçəkləşməsində davamlı iştirak edəcəkdir.

Əminəm ki, konfrans çərçivəsində aparılan müzakirələr və qəbul edilən sənədlər proqramın gələcək fəaliyyətinin daha səmərəli həyata keçirilməsi üçün əlverişli zəmin yaradacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2019-cu il*

## ŞAMAXI RAYONUNA SƏFƏR

*5 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə Bakı–Şamaxı–Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101–117-ci kilometrlik hissəsinin yenidən qurulmadan sonra açılışında iştirak etdi.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, ümumi uzunluğu 16 kilometr olan yol yenidən qurularaq, 4 zolağa genişləndirilibdir.*

*Dövlət başçısına 4000 nəfər əhalinin yaşadığı, 5 məntəqəni birləşdirən Qonaqkənd–Həmyəli–İkinci Çaylı–İkinci Cabanı–Cabanı avtomobil yolunda görülmüş işlər barədə də məlumat verildi.*

*Sonra Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## ŞAMAXIDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

*5 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı şəhərinin mərkəzində Heydər Əliyev Mədəniyyət və istirahət parkında ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov rayonda görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Dövlət başçısı müvafiq tapşırıqlarını verdi.*

### «ASAN həyat» Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxıda «ASAN həyat» Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezidentin köməkçisi – Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin*

*sədri Ülvi Mehdiyev kompleks barədə dövlət başçısına məlumat verdilər.*

*Sifarişçisi Dövlət Agentliyi, podratçısı isə «Kristal Abşeron» olan kompleksin tikintisinə 2018-ci ilin iyun ayında başlanılıb. Kompleks Şamaxı, Qobustan, İsmayıllı, Ağsu və Göyçay rayonlarında qeydiyyatda olan 450 minə yaxın vətəndaşa xidmət göstərəcəkdir. «ASAN xidmət» Mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət həyata keçiriləcəkdir.*

*Qeyd edək ki, bu günədək ölkə üzrə «ASAN xidmət» mərkəzlərinə daxil olan müraciətlərin sayı 35 milyona yaxındır. 2019-cu ilin 9 ayı ərzində keçirilmiş rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,4 faiz təşkil edibdir.*

*Sonra Prezident İlham Əliyev kompleksin əməkdaşları ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Şamaxıda «ASAN həyat» Kompleksi açılır. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Əminəm ki, vətəndaşları razı salacaqsınız və «ASAN xidmət» öz yüksək keyfiyyətini saxlayacaq. Şadam ki, mənim təşəbbüsümlə yaradılmış bu xidmət bu gün nəinki ölkəmizdə, hətta xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır. Şadam ki, «ASAN xidmət»in vətəndaşlar tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Bu onu

göstərir ki, xidmət doğrudan da böyük nailiyyətdir, ictimai xidmətlər sahəsində böyük dəyişikliklərə gətirib çıxarıbdır. Eyni zamanda, «ASAN xidmət» cəmiyyətimizin ictimai şüurunda da inqilabi dəyişikliklərə səbəb olubdur. Çünki ictimai xidmətlər sektoru həmişə çox problemli sektor idi və vətəndaşlar çox əziyyət çəkirdilər. Bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq xidmət sektorunun əsas problemləri idi. «ASAN xidmət»in fəaliyyətə başlamasından sonra artıq bu sahədə tam şəffaflıq təmin edilibdir.

Təsadüfi deyil ki, mərkəzə artıq 34 milyondan çox müraciət daxil olub və bu müraciətlər cavabsız qalmır. «ASAN xidmət» öz coğrafiyasını genişləndirir. Bu, sayca 16-cı mərkəzdir və artıq 4 mərkəzdə tamamlama işləri aparılır. Kürdəmir, Ağcabədi, Tovuz mərkəzləri artıq hazırdır, Balakən mərkəzi isə gələn il istifadəyə veriləcəkdir. Mənə verilən məlumata görə, Bakı mərkəzlərində – baxmayaraq ki, Bakıda 5 mərkəz fəaliyyət göstərir – artıq növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, Bakıda əlavə 2 mərkəz də açılsın, eyni zamanda, Sumqayıt və Gəncə şəhərlərində ikinci mərkəz açılacaqdır. Artıq çoxdandır səyyar xidmət də göstərilir, 10-dan çox avtobus daim ölkəmizi dolaşır, «ASAN qatar» da fəaliyyət göstərir. Demək olar ki, ölkəmizin hər bir yeri belə gözəl xidmətlə əhatə olunub. Xidmətlərin sayı artır, artıq 320-dən çox xidmət göstərilir. ABAD mərkəzlərinin fəaliyyətini nəzərə alsaq, artıq bu rəqəm 350-yə çatır. Bu da onu göstərir ki, biz son illərdə ASAN-ın funksiyalarını xeyli

genişləndirə bilmişik və buna ehtiyac var idi. Çünki «ASAN xidmət»də işlər yüksək dərəcədə düzgün qurulur. Problemli sahələrin bir çoxu da «ASAN xidmət»in əhatəsinə daxil edilibdir. Beləliklə, artan xidmətlər və xidmətlərin keyfiyyəti göstərir ki, biz düzgün yoldayıq. Çünki biz başlayanda xidmətərin sayı təqribən 20–30 ətrafında idi.

ASAN bizim intellektual məhsulumuzdur. Mən çox şadam ki, Azərbaycan intellektual məhsul icad edir və bunu ixrac edir. İntellektual məhsulun, xidmətlərin ixracı hesab edirəm ki, bizim gələcək fəaliyyətimizdə çox böyük diqqətə layiq olmalıdır. «BakuTel» sərgisində də mənə edilən təqdimatlar göstərir ki, biz artıq xidmətləri, o cümlədən peyk xidmətlərini, innovasiyalarla bağlı olan xidmətləri ixrac edirik.

«ASAN xidmət» Mərkəzi artıq Əfqanıstanda fəaliyyət göstərir və bir neçə ölkə ilə bizim Anlaşma memorandumlarımız və sazişlər imzalanıbdır. ASAN dünyada öz fəaliyyətini genişləndirir və bizim gələcəkdə də bir çox ölkələrlə əməkdaşlığımız mümkündür. Əsas şərtimiz ondan ibarətdir ki, Azərbaycanda göstərilən xidmət orada da göstərilsin, çünki bu bizim brendimizdir və mərkəzin adı da bütün ölkələrdə ASAN olmalıdır. Təsadüfi deyil ki, ASAN artıq beynəlxalq mükafatlara da layiq görülüb və Azərbaycanın həm intellektual brendidir, həm də bizim siyasətimizi, niyyətimizi əks etdirir. Çünki bizim siyasətimiz ondan ibarətdir ki, hər bir sahədə şəffaflıq, dürüstlük, mədəni xidmət olsun, pozuntulara yol verilməsin. Hesab edi-

rəm ki, «ASAN xidmət» korrupsiyaya, rüşvətxorluğa qarşı ən səmərəli mexanizmlərdən biridir. Bu məsələlərlə bağlı köklü tədbirlər görülür. Azərbaycanda korrupsiyanı, rüşvətxorluğu aradan qaldırmaq, yaxud da ki, əhəmiyyətli dərəcədə azaltmaq üçün əməli tədbirlər görülür. Bu tədbirlər artıq nəticə verir və verəcəkdir. İnzibati tədbirlərlə, cəza tədbirləri ilə yanaşı, institusional tədbirlər də görülməlidir ki, biz korrupsiyanın və rüşvətxorluğun əhatə dairəsini daraldaq və beləliklə, Azərbaycanı müasir, çox sürətli inkişaf yoluna gətirək. Biz buna nail oluruq.

«ASAN xidmət» eyni zamanda, bizim siyasətimizi göstərir – bu mərkəzlərdə işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Bu həm gənclərimizin istedadını, biliyini aşkarlayır, həm də kadr hazırlığı üçün çox önəmlidir. Çünki artıq minlərlə ASAN könüllü müxtəlif önəmli vəzifələrdə çalışır. «ASAN xidmət»lərdə təlim keçmiş, yaxud da ki, işləmiş gənclərimiz artıq həyata da vəsiqə alırlar, bilikli kadrlar kimi, onlara inam artır və onları işə götürənlər əmin olurlar ki, dürüstlük, keyfiyyət, biliklər və mədəni xidmət olacaqdır.

Bildirməliyəm ki, könüllülər hərəkatı bizdə «ASAN xidmət»dən başlayıb. O vaxta qədər könüllülər hərəkatı yox idi. Bu gün minlərlə könüllü ölkəmizin müxtəlif sahələrində çalışır, işləyir, dövlətə xeyir gətirir. Bizim gənclərimiz məhz belə olmalıdır. Mən bu yaxınlarda Bakı Dövlət Universitetinin 100 illiyinə həsr edilmiş tədbirdə gənclərə öz sözlərimi dedim. Bilikli, savadlı, vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı

uğurunun təminatçısıdır. Gənclər biliklərlə yanaşı, vətənə bağlı olmalı, vətəni və dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar.

«ASAN xidmət» eyni zamanda, xidmət sektorunda yenilikdir. «ASAN xidmət» göstərdi ki, xidmət sektoru necə olmalıdır. Bax, bütün «ASAN xidmət» mərkəzlərinə gələn, müraciət edən vətəndaşlar sizi – gözəl gənclərimizi, gözəl mədəniyyəti, xoş münasibəti, gülər üzləri görürlər. Doğrudan da bu, böyük sərvətdir və bunu biz özümüz yaratmışıq. Bir daha demək istəyirəm ki, bu bizim milli brendimiz və milli sərvətimizdir.

ASAN mərkəzlərin sayının artırılması ilə bağlı mənim tərəfimdən göstərişlər verilir. Eyni zamanda, ASAN mərkəzlərin funksiyalarının genişləndirilməsi ilə əlaqədar «ASAN xidmət» və onun rəhbərliyi çox fəal işləyir. Hər mərkəzin açılışında mən hansısa bir yeniliklə rastlaşıram. Mənə edilən məruzələrdən görürəm ki, ildən-ilə yeni innovasiyaları hərəkətə gətirmək üçün imkan yaradılır və bu innovasiyalar da tətbiq ediləcəkdir. Bu gün mənə məruzə edilən məsələlərdən biri «smart citi» layihəsidir. Biz mütləq buna keçməliyik. Artıq müvafiq göstərişlər verildi ki, Bakı şəhərində «smart citi» sisteminin tətbiqi üçün əməli addımlar atılsın, o cümlədən digər şəhər və rayonlarımızda da bu istiqamətdə işlər görüləcəkdir.

Şadam ki, bu mərkəz Şamaxı şəhərində açılır. Şamaxı bizim qədim diyarımız, tarixi yerimizdir. Şamaxının çox zəngin tarixi, mədəniyyəti vardır və tarixi abidələri hər birimiz üçün çox əzizdir. Şadam ki,

mənim göstərişimlə qədim Şamaxı Cümə məscidi əsaslı təmir olundu. Bu, Azərbaycanın ən qədim məscididir, müsəlman aləminin ən qədim məscidlərindən biridir. 743-cü ildə inşa edilibdir. Biz Şamaxının tarixi simasını qorumaqla, onu müasirləşdiririk. Bu yaxınlarda rayon icra hakimiyyətinə kifayət qədər böyük vəsait ayrıldı ki, infrastrukturla bağlı layihələr icra edilsin. Müasir sərnişin avtobusları, müasir təcili tibbi yardım maşınları, kommunal texnika gətiriləcəkdir.

Tapşırıq verilib ki, Şamaxı şəhərinin bütün daxili yolları, kənd yolları əsaslı şəkildə təmir edilsin. Şəhərin içməli su problemi təxminən gələn ilin aprel–may aylarında həllini tapacaq və şamaxılılar təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin ediləcəklər. Şamaxı rayonunda qazlaşdırılma 95 faizdir. Baxmayaraq ki, bir çox kəndlər bir-birindən aralıdır və dağ kəndləridir, biz qazlaşdırılmanı 95 faizə çatdırmışıq. Elektrik enerjisi ilə heç bir problem yoxdur. Bakı–Şamaxı avtomobil yolunu mənim göstərişimlə 4 zolağa genişləndirdik. O yolun axırıncı hissəsi bu gün rəsmən açıldı. Həmçinin kənd yollarının tikintisi aparılır. Vaxtilə burada Müalicə-Diaqnostika Mərkəzi, Olimpiya Kompleksi inşa olunubdur. Şamaxı Rəsədxanası əsaslı təmir edilibdir. Əlbəttə, həm respublika sakinləri, həm də qonaqlar üçün Şamaxı–Lahıc yolu nəinki əsaslı şəkildə təmir olundu, eyni zamanda, Şamaxı–Dəmirçi, Dəmirçi–Lahıc yolu yenidən çəkildi.

Yəni indi Lahıca ən təhlükəsiz yol Şamaxıdan keçir. Biz indi Şamaxını müasir turizm mərkəzi kimi inkişaf etdiririk. Böyük üzüm bağları salınır, üzüm festivalı keçirilir, Şamaxı və Hacıqabul rayonlarının ərazisində ölkəmizin ən böyük aqroparkı salınır. O aqroparkın sahəsi 42 min hektardır və kənd təsərrüfatının inkişafına böyük dərəcədə təkan verəcəkdir. Şamaxı ənənəvi üzümçülük rayonudur. Üzümçülük ənənələri bərpa edilir, iş yerləri açılır, o cümlədən ödənişli ictimai işlər yaradılır.

Şamaxı Azərbaycan xalqının böyük oğlu İmadəddin Nəsiminin Vətənidir. Bilirsiniz ki, mənim sərəncamımla bu il «Nəsimi ili» elan edilibdir. Böyük Nəsiminin xatirəsinə hörmət və ehtiram əlaməti olaraq sabah bütün ölkəmizdə kütləvi ağac əkmə aksiyası keçiriləcək və bütövlükdə 650 min ağac əkiləcəkdir. Nəsimi festivalı ənənəvi xarakter alıbdır. Şamaxının çox qədim tarixi var və çox görkəmli nümayəndələri Azərbaycan xalqının şöhrətini yüksəklərə qaldırırlar.

Siz isə gəncsiniz, müstəqil həyata yenicə qədəm qoyursunuz. Şadam ki, sizin fəaliyyətiniz «ASAN xidmət» Mərkəzində başlayır və əminəm ki, burada qazanacağınız təcrübə gələcək həyatınızda sizə kömək edəcəkdir. Siz öz bilik və bacarığınızı ölkəmizin ümumi işinə bir töhfə kimi qoyacaqsınız. Sizi təbrik edirəm və uğurlar arzulayıram.

**Jalə Hüseynova** (*kompleksin əməkdaşı*): Salam, möhtərəm cənab Prezident! Sizi Şamaxıda görməyə çox şadıq. Mən hələ tələbə olarkən Bakı şəhərin-

də «ASAN xidmət» Mərkəzində könüllü kimi fəaliyyət göstərirdim. Fevral ayında Siz Gənclər Günü münasibətilə respublika gəncləri ilə görüşdünüz. Həmin görüşdə mən də ASAN könüllüsü kimi iştirak edirdim. Siz həmin görüşdə Azərbaycan gənclərinə öz həyat yolunuzdan misallar çəkərək, tövsiyələr verdiniz. Orada qeyd etdiniz ki, Azərbaycan uzun illər əsarət altında olmasına baxmayaraq, bu gün müstəqildirsə, öz müstəqilliyini qoruya, inkişaf etdirə bilirsə, öz milli dəyərlərini qorumağa, dilinə sahib çıxmağa borcludur. Gənclərə məsləhət gördünüz ki, hər zaman vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz dillərini, dəyərlərini qorusunlar və hansı sahədə çalışmaqlarından asılı olmayaraq, öz işlərinin peşəkarı olsunlar.

Həmin görüş mənim həyatımın dönüş nöqtələrindən biri oldu. Mən də qərar verdim ki, məhz bu yolda addımlamalıyam və dövlət qulluğuna hazırlaşdım. Mən çox şadam ki, fevral ayında Sizin qarşınızda könüllü kimi dayanmışdım, bu gün isə dövlət qulluqçusu kimi dayanıram.

Siz hər zaman bildirirsiniz ki, Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlət qulluqçuları hər zaman vətəndaşların xidmətində olmalıdırlar. Siz əmin ola bilərsiniz ki, Şamaxı regional «ASAN xidmət» Mərkəzində biz bu prinsipləri hər zaman öndə saxlayacağıq. Şamaxıdan, ətraf rayonlardan bizdən xidmət almaq üçün gələn vətəndaşlar bunu hər zaman görəcək, dövlətin dəstəyini hər zaman hiss edəcəklər. Bizim üçün yaratdığınız şəraitə

görə bütün gənclər adından Sizə öz təşəkkürümü bildirirəm. Çox sağ olun.

**İlham Əliyev:** Çox sağ ol, təşəkkür edirəm. Sən Bakıdan gəlmisən, yoxsa buralısan?

**Jalə Hüseynova:** Bakıdan gəlmişəm.

**İlham Əliyev:** Çox yaxşı. Burada işləyənlərin əksəriyyəti yəqin ki, Şamaxı rayonunun sakinləridir. Qonşu rayonlardan gələnlər varmı?

**Kompleksin əməkdaşı:** Bəli, mən İsmayıllıdanam.

**İlham Əliyev:** Çox gözəl. Sizi təbrik edirəm.

**Toğrul Cəfərov** (*kompleksin əməkdaşı*): Möhtərəm cənab Prezident, Sizi Şamaxı regional «ASAN həyat» Kompleksində görməkdən çox qürur duyduq. Mən bu günə kimi ölkəmizdə keçirilən bir çox könüllülük fəaliyyətlərinə qoşulmuşam. İlk könüllülük fəaliyyətim «Bakı–2015» Avropa oyunlarında oldu. Sonra 2016-cı ildə təşkil olunmuş Şahmat Olimpiadasında könüllü kimi çıxış etdim. «Bakı–2017» İslam Həmrəyliyi oyunları, daha sonra 3 il ard-arda davam edən «Formula-1» yarışları, ən sonda isə «ASAN xidmət» ailəsinin bir fərdi olaraq, «ASAN xidmət» könüllüsü oldum. Mən sadəcə, Sizə bildirmək istəyirəm ki, biz könüllü olan zaman şəxsi inkişafımız üçün bir sıra təlimlərin, seminarların keçirilməsi, ən kiçik ehtiyacımızdan tutmuş, ən böyük ehtiyaclarımıza kimi qarşılanması məhz Sizin biz gənclərə, biz könüllülərə göstərdiyiniz qayğı və diqqət nəticəsində olubdur.

Mən bir gənc kimi, hər zaman Sizin qayğınızı, diqqətinizi hiss etmişəm. Buna görə Sizə öz təşəkkürümü bildirirəm. Bir məqamı da qeyd etmək istəyirəm ki, mən bir könüllünün uğuru olaraq, bu gün Şamaxı regional «ASAN xidmət» Mərkəzinin əməkdaşı kimi, Sizin qarşınızda çıxış edirəm. Sonda demək istəyirəm ki, Siz çıxışlarınızın birində qeyd etmişdiniz ki, ölkəmizdə könüllülük fəaliyyəti var və bu könüllülük fəaliyyəti daim yaşayır. Biz də öz növbəmizdə, Sizə söz vermək istəyirik ki, bu illər ərzində keçdiyimiz bütün təcrübələri, Sizin bizə olan qayğınızı, diqqətinizi Şamaxı gəncləri ilə bölüşəcəyik. Bu könüllülük fəaliyyətini daim yaşadacağıq.

Onu da demək istəyirəm ki, bu gün – 5 dekabr Beynəlxalq Könüllülər Günüdür. Burada gördüyünüz əksər əməkdaşların müəyyən vaxtlar ərzində könüllülük fəaliyyəti olub. Bu gün də bizim yanımızda olduğunuz üçün Sizə öz minnətdarlığımızı bildiririk. Diqqətiniz üçün çox sağ olun.

**İlham Əliyev:** Mən çox şadam ki, Azərbaycanda könüllü hərəkatı geniş vüsət alır. Bu göstərir ki, siyasətimiz həyatda öz əksini tapır. Bir daha təkrar etmək istəyirəm ki, könüllülər hərəkatı «ASAN xidmət»dən başlanıb. Ondan sonra həmin «ASAN xidmət»də sənin kimi fəaliyyət göstərən gənclər mötəbər beynəlxalq idman yarışlarında da böyük işlər görüblər. Bilirsən ki, bütün oyunlarda iştirak etmiş könüllüləri mən şəxsi Fəxri diplomla təltif etmişəm. Çünki onların fəaliyyətini mən elə oyunlar gedən vaxt izləyirdim.

Görürdüm ki, bizim gənclərimiz necə böyük məhəbbətlə, peşəkarlıqla, nəzakətlə bütün qonaqlara xidmət göstərir, yol göstərir, kömək edirlər. Bilirsiniz, bu, artıq tərbiyədir. Bu proqramdan keçən gənclər artıq gələcək həyatlarında da belə olacaqlar. Xalqımıza xas olan, əsrlərboyu yaşatdığımız milli-mənəvi dəyərlər də bu prinsiplər üzərində qurulubdur. Mən bu barədə dəfələrlə demişəm ki, bizim gənclərimiz xalqımızın əsrlərboyu yaratdığı dəyərləri gələcəkdə qorumalıdırlar, necə ki, biz qoruyuruq. Məhz o təqdirdə biz öz milli mənliyimizi, ləyaqətimizi saxlaya bilərik, qoruya bilərik. Ona görə xalqımıza xas olan xüsusiyyətlər könüllülər hərəkatı ilə üst-üstə düşür. Artıq minlərlə, bəlkə də on minlərlə könüllümüz vardır. Mən bu yaxınlarda göstəriş vermişəm ki, dövlət orqanlarında da könüllülər fəaliyyətə başlasın, oraya cəlb olunsunlar.

Artıq nazirliklərdə, dövlət şirkətlərində könüllü qrupları vardır. Özəl şirkətlər könüllüləri işə cəlb etməlidir. Çünki bu həm onlara xeyir gətirəcək, həm də ümumi işimizə töhfə verəcəkdir. Beləliklə, könüllülər qarşısında bütün imkanlar açıqdır. Sən könüllüdən artıq dövlət qulluqçusu statusuna yüksəlmisən və sənə bundan da uğurlu gələcək arzulayıram.

**Ülkər Mahmudova** (*kompleksin əməkdaşı*): Möhtərəm cənab Prezident, Sizi Şamaxıda görməyimizə çox şadıq. Bu yaxınlarda 100 illiyini qeyd etdiyimiz Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin məzunuyam. Öncə qeyd edim ki, biz şamaxılılar

Sizin diqqət və qayğınızı həmişə hiss etmişik. Siz tez-tez bizim bölgəmizə səfər edirsiniz və daim bizim yanımızda olursunuz. Evlərimizin, məktəblərimizin vəziyyətini diqqətinizdə saxlayırsınız və onların yenilənməsinə bilavasitə özünüz nəzarət edirsiniz. Bildiyimiz kimi, bu ilin fevral ayında Şamaxıda zəlzələ baş vermişdir. Demək olar ki, elə həmin an Siz bizim yanımızda oldunuz. Bu bir daha təsdiq etdi ki, Siz bizə – vətəndaşlarınıza nə qədər önəm verirsiniz. Sabah ağac əkmə aksiyası olacaq, Şamaxıda 45 minə yaxın ağac əkiləcək. Bu da o deməkdir ki, Şamaxının təbiəti daha da gözəlləşəcək. Bunlar hamısı Sizin sayənizdə baş verir. Ölkə rəhbərliyinin yanımızda olduğunu hiss edirik. Buna görə Sizə dərin təşəkkürümüzü bildirir və söz veririk ki, vətəndaşlarımızın xidmətində layiqincə dayanacağıq.

**İlham Əliyev:** Çox sağ ol. Mən doğrudan da Şamaxıda tez-tez oluram. Bir tərəfdən ona görə ki, Şamaxıya xüsusi diqqət göstərilir, çünki bizim tarixi şəhərimizdir. Qədim xəritələrdə Şamaxının adı vardır, bunu hər bir Azərbaycan vətəndaşı bilməlidir. Biz Şamaxının tarixini, mədəni irsimizi qorumalıyıq. Digər tərəfdən, son illərdə Şamaxıda bir çox açılışlar olub, mən burada bir çox obyektlərin fəaliyyətə başlamasını qeyd etmişəm.

Mən Prezident kimi, Şamaxıda 12 dəfə olmuşam. Bu səfər 13-cüdür. Bu il isə 3-cü səfərdir. Birinci səfərlər zəlzələ ilə bağlı idi. Fevral ayında və ondan sonra birinci evlərin, o cümlədən Saray nənənin evinin ye-

nidən tikilməsini qeyd etmək üçün gəlmişdim. Onu da bildirməliyəm ki, zəlzələdən əziyyət çəkmiş vətəndaşların problemləri daim diqqət mərkəzindədir. Mən bu işlə, demək olar ki, müntəzəm maraqlanıram. Bu gün yeni çoxmərtəbəli evin açılışını da qeyd edəcəyik. Əsas yükü təbii ki, dövlət öz üzərinə götürübdür. Amma mənim çağırışımdan sonra özəl sektor da bu işlərə qoşulub. Mən dedim ki, şamaxılıların, zəlzələdən əziyyət çəkmiş bütün vətəndaşların məişət problemləri həll olunmalıdır və həll olunur. Necə ki, İsmayıllı və Ağsu rayonlarında, orada da böyük tikinti işləri aparılır.

Bu bir daha bizim siyasətimizi göstərir. Təbii fəlakətlər hər bir ölkədə baş verir. Bu yaxınlarda biz televiziyadan gördük ki, Venesiya kimi tarixi şəhər su altında qalıb. Heç bir kanalizasiya sistemi o yağışların qabağında davam gətirə bilməyib. Bu yaxınlarda bəzi Avropa ölkələrində böyük daşqınlar baş verib. Düzdür, bizdə də olur. Yağış yağanda, özü də leysan yağanda heç bir şəhərin kanalizasiya sistemi onu tam götürə bilməz. Baxmayaraq ki, biz çox çalışırıq və göstəriş verilib ki, yağışların, daşqınların fəsadları aradan qaldırılsın. Amma hətta ən inkişaf etmiş ölkələrdə belə, təbii fəlakətlər böyük problemlərə gətirib çıxarır, o cümlədən zəlzələlər.

Bir neçə il ərzində bizdə həm daşqın, həm də şimal-qərb bölgəsində zəlzələ olubdur. Hər iki halda dövlət bütün xərcləri öz üzərinə götürüb. Bu da deyə bilərəm ki, nadir bir təcrübədir. Çünki inkişaf etmiş ölkələrdə bu belə deyil. Orada vətəndaşların evləri sığortalanır

və əgər ev hansısa səbəbə görə ziyan çəkibsə, vətəndaş sığorta şirkətinə müraciət edir. Ondan sonra təqribən bir neçə ay ərzində ona vəsait ödəniləcək, ya ödənilməyəcək, hələ bəlli olmur. Bizdə isə belə deyil. Biz başa düşürük ki, bizim vətəndaşlar buna hələ ki, öyrəşməyiblər. Evlərin çoxu sığortalanmayıb. Ona görə nə etməliyik? İmkan verə bilmərik ki, onlar küçədə qalsınlar və  dövlət bu işi öz üzərinə götürür. Əlbəttə, bu, böyük məsrəfdir, böyük xərclərdir. Amma biz xalq üçün yaşayırıq, dövlət xalqı qorumalıdır. Ən ağır vəziyyətdə olan vətəndaşları biz daim diqqət mərkəzində saxlamalıyıq. Şamaxı rayonunda baş vermiş zəlzələnin fəsadlarının bir hissəsi aradan qaldırılıbdır.

Bu gün mənə növbəti addımlarla bağlı məruzə ediləcək. Zəlzələdən əziyyət çəkmiş yoldaşlar bilsinlər ki, biz onların yanındayıq. Necə ki, mən zəlzələdən dərhal sonra Şamaxıya gəldim. Bu gün də bu məsələ daim diqqət mərkəzindədir. Təmirə, tikintiyə ehtiyacı olan axırıncı evə qədər bu daim mənim diqqətimdə olacaqdır.

**Səbinə Kərimova** (*kompleksin əməkdaşı*): Möhtərəm cənab Prezident, Sizi salamlayırıq. Bizim üçün belə önəmli bir gündə yanımızda olduğunuz üçün Sizə təşəkkürümüzü bildiririk. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin məzunuyam. İxtisasıma uyğun olaraq, özəl sektorda işləmişəm. Bu gün dövlət qulluqçusu, olmağımda ən əsas motivasiyanı Sizdən almışam.

Qeyd edim ki, Sizin tərəfinizdən daim müxtəlif sahələrdə islahatlar həyata keçirilir ki, bu da hər zaman izlənilir və diqqət mərkəzindədir. Sosial sahədə həyata keçirilən islahatlardan biri «ASAN xidmət» Mərkəzinin yaradılması oldu. «ASAN xidmət» hazırda operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik və rahatlıq prinsipləri əsasında fəaliyyət göstərir və bu prinsiplərə sadiqdir. Qeyd etmək istəyirəm ki, bu prinsiplər məhz Sizin tərəfinizdən irəli sürülübdür. Bu prinsiplərə əməl olunduğuna görə də «ASAN xidmət» vətəndaşlar tərəfindən sevildi.

Möhtərəm Prezident, əmin ola bilərsiniz ki, biz gənclər daim Sizin siyasətinizi və islahatlarınızı dəstəkləyirik və daim Sizin yanınızdayıq. Qeyd etmək istəyirəm ki, son dövrlərdə hakimiyyətin hər üç qolunda apardığınız islahatlar, yəni qanunvericilik, icra, məhkəmə sahələrində həyata keçirdiyiniz islahatlar həm gənclər tərəfindən, həm də bütövlükdə xalq tərəfindən çox böyük rəğbətlə qarşılandı. Xüsusilə də qeyd etmək istəyirəm ki, son dövrlərdə əksər rəhbər vəzifələrə gəncləri təyin edirsiniz. Bu da təbii ki, gəncləri dövlət qulluğunda çalışmağa ruhlandırır.

Möhtərəm Prezident, həm gənclər olaraq, həm də dövlət qulluqçuları olaraq, Sizi əmin edirik ki, regionumuzda Sizin dövlət səviyyəsində korrupsiyanın qarşısının alınması və şəffaflığın artırılması sahəsində apardığınız islahatlar vətəndaşlara aşılanacaq və bunun nəticəsində vətəndaşlar hiss edəcəklər ki, dövlət

onların yanındadır və dövlət qulluqçuları onların xidmətindədir. Diqqətiniz üçün təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ ol, sən çox önəmli məsələyə toxundun. Mən də bir-iki kəlmə demək istəyirəm. Bilirsiniz, korrupsiya və rüşvətxorluq bizə qalan «miras»dır. Bundan canımızı qurtarmaq üçün, əlbəttə, maarifləndirmə işləri aparılmalı, düzgün siyasət aparılmalı və nəsillər dəyişməlidir. Mənim ümidim gənclərədir. Çünki gənclər yeni mühitdə, müstəqillik dövründə formalaşır.

Əlbəttə, bizim dövrümüzdə də pozuntular, çatışmazlıqlar vardır. Amma məsələ ondadır ki, biz bunlarla necə mübarizə aparırıq. Mən bir daha demək istəyirəm ki, biz bu mübarizədə təkcə inzibati, yaxud da ki, cəza tədbirləri ilə məqsədə müvəffəq ola bilmərik. Bütün bu tədbirlərlə yanaşı, institusional, sistem xarakterli islahatlar aparılmalıdır. İslahatların yeni dövrü keçən il Prezident seçkilərindən sonra başlandı. Mən andiçmə mərasimindəki çıxışımda bizim əsas strateji inkişaf parametrlərini xalqın diqqətinə çatdırdım və hazırda biz ardıcıllıqla bu yolla gedirik.

Baxın, Prezident Administrasiyası tamamilə yenidən formalaşıb, gənclər cəlb olunublar. Nazirlər Kabineti yenidən formalaşıb, gənc nəsil cəlb olunur. İndi artıq növbədənkənar parlament seçkiləri elan olunub. Ümid edirəm ki, gənclər də bu seçkilərə çox fəal qoşulacaqlar. Çünki yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır. Eyni zamanda, mən onu da bildirməliyəm ki, biz nəsillər arasında ziddiyyətlərə yol verə

bilmərik. Bu hər bir cəmiyyətdə vardır. Yaşlı nəslin nümayəndələri həmişə gənc nəsildən narazı olur. Biz bunu başa düşməliyik. Nəsillər arasındakı anlaşılmazlıq hər bir cəmiyyətdə vardır. Amma bizim cəmiyyət mühafizəkar, konservativ və ənənəvi dəyərlər üzərində qurulmuş cəmiyyətdir. Biz, əlbəttə, imkan verə bilmərik ki, bu təbii ziddiyyətlər hansısa böyük bir problemə çevrilsin. Mən gəncləri işə cəlb etməyə başlayanda, gördüm ki, yaşlı nəslə qarşı elə bil hansısa kampaniya aparılır. Mən bunu dayandırdım. Çünki yaşlıların təcrübəsi, gənclərin müasirliyi və bunun vəhdəti bizə xeyir gətirəcək. Siz və «ASAN xidmət»də çalışanların mütləq əksəriyyəti cavanlardır. Amma yaşlı nəslə xidmət edirsiniz. Çünki bu xidməti almaq üçün daha çox yaşlı nəslin nümayəndələri gəlir. Bax, bu nəzakətli davranış, bu mehribanlıq, xoş sözlər bizim cəmiyyətimizi də saflaşdırır və irəliyə aparır. Bir daha sizi təbrik edirəm və sizə uğurlar arzulayıram. Sağ olun.

*Daha sonra Prezident İlham Əliyev «ASAN həyat» Kompleksinin tərkibindəki «ABAD Food Hall»un fəaliyyəti ilə tanış oldu.*

*Dövlət başçısı burada yaradılmış iaşə mərkəzi və istirahət-əyləncə guşəsinə də baxdı.*

## ŞAMAXI RAYONUNDA ZƏLZƏLƏ NƏTİCƏSİNDƏ ZİYAN ÇƏKMİŞ AİLƏLƏR ÜÇÜN YENİ İNŞA EDİLMİŞ 44 MƏNZİLLİ YAŞAYIŞ BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*5 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov dövlət başçısına aparılmış tikinti və təmir işləri barədə məlumat verdi.*

*Prezident İlham Əliyev Fərdar Həsənovun mənzilində yaradılmış şəraitlə maraqlandı.*

*Dövlət başçısı çay süfrəsi arxasında Fərdar Həsənov və anası Xuraman Həsənova ilə söhbət etdi.*

**Xuraman Həsənova:** Xoş gəlmisiniz! Allah ən arzuladığım günü mənə qismət edibdir.

**İlham Əliyev:** Çox sağ olun. Sizi təbrik edirəm. Yeni mənzilə köçmüsünüz.

**Xuraman Həsənova:** Siz gözəl insan, gözəl ailə başçısısınız. Azərbaycanımızın fəxrisiniz. Allah Sizdən razı olsun. Sizə dəstək verənlərdən də, əziyyət çəkən-

lərdən də Allah razı olsun. Belə bir günü bizə qismət etmisiniz. Çox sağ olun.

**İlham Əliyev:** Mən bu il üçüncü dəfədir ki, Şamaxıdayam. Birinci dəfə o bədbəxt hadisə ilə əlaqədar gəlmişdim, fevral ayında, zəlzələ baş verəndən sonra. Müvafiq təlimatlar verildi. Bütün qüvvələr səfərbər olundu. İkinci dəfə mart ayında gəlmişdim. Artıq birinci evlərin tikintisini də qeyd etdik. Göstəriş verdim ki, maksimum çalışmalıyıq ilin sonuna qədər bütün evlər tikilsin. Şadam ki, buna nail olmuşuq. Bu da əslində misli görünməmiş məsələdir. Çünki 10 ay ərzində bütün fərdi evlər tikildi, təmir olundu, bəzilərinin tikintisi isə davam edir.

Hündürmərtəbəli, 174 mənzilli 3 bina tikilib, o cümlədən bu bina. Təkcə Şamaxı rayonunda yox, Ağsuda, İsmayıllıda da böyük işlər görülübdür. Bütün bunları biz dövlətin vəsaiti hesabına etdik. Bir daha göstərdik ki, Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır.

Biz evsiz-eşiksiz qalmış insanların problemlərini həll etməli idik, bu bizim borcumuzdur. Amma onu da bildirməliyəm ki, inkişaf etmiş ölkələrdə belə deyil. Orada əgər zəlzələ, daşqın baş verirsə, evlər uçursa, vətəndaş– əgər evi sığortalayıbsa – gedir sığorta şirkətinə. Sığorta şirkəti baxır, ölçüb-biçir, vaxt gedir, vətəndaş isə haradasa yaşamalıdır. Bəzilərinin məsələsi heç həll olunmur. Amma bizdə belə deyil. Əvvəlki dövrdə də zəlzələ baş verən zaman eyni yanaşma olub, bu gün də belədir. Bu, dövlətimizin niyyətini, gücünü göstərir.

Bir də onu göstərir ki, vətəndaşların problemləri diqqət mərkəzindədir. Bu ev yəqin ki, əvvəlki evdən də fərqlənir.

**Xuraman Həsənova:** Bəli, əlbəttə, çox fərqlənir. Allah ulu öndərimizə rəhmət eləsin, bizə Sizin kimi Prezident bəxş edib. Allah Zərifə xanıma da rəhmət eləsin. Mehriban xanımı təbrik edirəm, Rusiya Prezidenti Vladimir Putinin ona verdiyi ordenə görə. O da gözəl insan, gözəl xanımdır, hamının qeydinə qalır. Allah övladlarının canını sağ eləsin, o bir oğlunu gözünə çıraq eləsin.

Mənim atam əsl şamaxılı olub, Rəcəb kişi. O bizə zəlzələlərdən danışardı. O vaxt heç insanlar bir-birinə kömək də etmirdilər. Şamaxı dümdüz yer olub. Zəlzələlərdən sonra belə olub. Allaha şükür ki, Siz bu insanlara yardım edirsiniz, belə şərait yaradırsınız. Ömrünüz uzun olsun.

**İlham Əliyev:** Şamaxı seysmik zonada yerləşir, ona görə burada zəlzələlər tez-tez baş verir, özü də dağıntılar törətmiş zəlzələlər. İnsanlar da həlak olmuş. Bu dəfə xoşbəxtlikdən heç bir bədbəxt hadisə baş vermədi, hər kəs sağ-salamatdır. Amma siz də qeyd etdiyiniz kimi, əvvəlki dövrlərdə bütün binalar uçub-dağılmışdı, təkcə məscid qalmışdı. Məscidi elə tikmişdilər ki, həm zəlzələ, həm erməni vandallığı heç bir təsir edə bilməmişdi. İndi mən dəfələrlə bütün mötəbər tədbirlərdə bu məscidin adını çəkirəm.

**Xuraman Həsənova:** Allah ulu öndərimizə qəni-qəni rəhmət eləsin, məscidləri insanlara qaytardı.

Mənim rəhmətlik atam o məscidə görə Moskvaya kimi yazdı, şəkillərini çəkib göndərdi ki, bu məscidi insanlara qaytarsınlar. Sonradan bu işlər görüldü, o görmədi, yaşlı adam idi, rəhmətə getdi.

**İlham Əliyev:** Biz məscidi yenidən qurduq. Bu gün bu, Azərbaycanın və müsəlman aləminin ən qədim məscidlərindən biridir. Mən şəxsən onun təmiri ilə məşğul oldum. Mehriban xanım da böyük əziyyət çəkdi. Xaricdən də qonaqlar dəvət olundu, onu böyük təntənə ilə açdıq. Şamaxıda zəlzələ tez-tez baş verir. Bu dəfə də bir çox, yəni yüzlərlə evə ziyan dəymişdir.

**Kəmaləddin Heydərov** (*Fövqəladə Hallar naziri*): Möhtərəm cənab Prezident, Şamaxı rayonu üzrə 580 fərdi ev, 44, 20 və 110 mənzildən ibarət hündürmərtəbəli 3 bina tikilibdir. Bundan başqa, çoxlu bərpa işləri də görülübdür. Təkcə Şamaxı rayonu üzrə 1175 evdə bərpa işləri aparılıbdır. Demək olar ki, yenidən tikilmiş evlərə bərabərdir.

**İlham Əliyev:** Şamaxı rayonunun kompleks inkişaf planı artıq təsdiqlənib. Mənim bir neçə sərəncamım olub, həm yolların tikintisi, həm də kommunal texnikanın alınması ilə bağlı. Burada qar yağanda bəzi yollar keçilməz olur. Ona görə kommunal texnika, müasir sərnişin avtobusları, müasir təcili tibbi yardım maşınları alınacaq. Ondan sonra dayanacaqlar, şəhər təsərrüfatı tamamilə yenilənəcək. İstəyirəm biləsiniz ki, təxminən 4-5 aydan sonra şəhərin su problemi də tamamilə öz həllini tapacaqdır. Şamaxıda su problemi artıq həll olunur.

**Xuraman Həsənova:** Bizdə su ilə bağlı çox narahatlıq olub, indi Allaha şükür ki, hər evdə su var.

**İlham Əliyev:** Amma daha yaxşı olacaqdır.

**Xuraman Həsənova:** Qazımız, işığımız var. Allah Sizdən razı olsun.

**İlham Əliyev:** Şəhərdaxili yollara yenidən asfalt salınacaq. Şamaxı qədim tarixi yerdir. Qədim xəritələrdə Şamaxının adı vardır. Adı əsrlərboyu xəritələrdə öz əksini tapan şəhərlər o qədər də çox deyil. Şamaxı o şəhərlərdəndir, tarixi şəhərdir, Şirvanın mərkəzidir. Elə zəlzələdən sonra Şirvanşahlar buradan Bakıya köçürülüb, Bakıda saray tikiblər. Amma onların yeri buradır. Nəsiminin vətəni buradır. Biz bunu, əlbəttə ki, qiymətləndirməliyik.

**Xuraman Həsənova:** Deyir, cənnət görmək istəyən Azərbaycana gəlsin. Yaxşı olacaq, inşallah. Turistlər gəlir, ölkəmizi bəyənir, hər şeydən razı gedirlər. Yeni məktəbləri, bağçaları, yolları görəndə adamın ürəyi açılır.

**İlham Əliyev:** Mən televizorda gördüm ki, uşaqlar narahatdırlar, deyirlər ki, bu məktəb başımıza uçur. Dərhal göstəriş verdim, komissiya göndərdim, Baş Naziri, Prezident Administrasiyasının vəzifəli şəxslərini, dedim gedin yerində baxın. Baxıb mənə dedilər ki, bərpa ediləsi deyil, sökək. Sökdük, indi yenidən tikilir.

Şamaxıya yeni icra başçısı təyin etmişəm, eşitmişəm ki, vətəndaşlar onu yaxşı qəbul edir, çox fəal işləyir. Biz gərək gənc kadrlara üstünlük verək. Bu gün

«ASAN xidmət»in açılışında idim. İndi gedib baxarsınız, elə bil saraydır. Orada bütün xidmətlər avtomatik olacaq. Gəldin, nömrəni götürdün, heç kim heç kimi incitməyəcək. Bütün işçilər də gülərüzdürlər.

**Xuraman Həsənova:** Allah köməyiniz olsun. Allah Mehriban xanımdan da razı olsun.

**İlham Əliyev:** Sağ olun. Sizi bir daha təbrik edirəm. Burada xoşbəxt yaşayın.

**Xuraman Həsənova:** Çox sağ olun.

## AZƏRBAYCANIN FİLOSOF-ŞAİRİ İMADƏDDİN NƏSİMİNİN 650 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ MÜTƏFƏKKİRİN VƏTƏNİ ŞAMAXIDA KEÇİRİLMİŞ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*6 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 6-da Azərbaycanın filosof-şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu Şamaxı rayonunda keçirilmiş ağac əkmə aksiyasında iştirak etmişlər.*

*Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilmiş bu aksiya çərçivəsində bir gündə ölkəmizdə 650 min ağac əkilibdir.*

**Muxtar Babayev** (*Ekologiya və Təbii Sərvətlər naziri*): Mehriban xanımın təşəbbüsünə əsasən, bütün respublika üzrə bir gündə 650 min ağacın əkilməsi ilə bağlı böyük bir aksiyaya başlamışıq. Ağacların hamısı yerli tingliklərdə yetişdirilib və respublikanın bütün rayonlarının sifarişləri üzrə paylanılıbdır.

**İlham Əliyev:** Şamaxıda neçə min ağac əkilir?

**Muxtar Babayev:** Şamaxıda 50 min. Bakıda, Naxçıvanda, Sabirabad və Saatlı rayonlarının hər birində də 50 min ağac əkiləcəkdir.

**İlham Əliyev:** Şamaxıda neçə yerdə ağac əkilir, ancaq burada?

**Muxtar Babayev:** Şamaxıda 10–12 yerdə əkilir. Bizim aksiyamızın keçirildiyi ərazi 5 hektardır.

**İlham Əliyev:** Hansı ağaclar əkilir?

**Muxtar Babayev:** Burada əsasən tuya və Eldar şamı. Amma bütövlükdə 38 növ ağac paylanılıbdır. Əsasən meyvə ağaclarıdır ki, insanlar həm də meyvə götürsünlər.

**İlham Əliyev:** Ağaclar bölgələrin iqliminə uyğun olmalıdır.

**Muxtar Babayev:** Əlbəttə, nəzərə almışıq.

**İlham Əliyev:** Abşeronda yəqin ki, zeytun əkilir?

**Muxtar Babayev:** Abşeronda əsasən zeytun və badamdır. Burada isə Eldar şamıdır. Əkilən ağaclar əsasən damcı üsulu ilə suvarılacaq. Bu sistem artıq Sabirabadda, Şamaxıda qurulur. Digərlərində isə ağaclar ənənəvi üsulla suvarılacaqdır.

**İlham Əliyev:** Ancaq qulluq etmək lazımdır. Mən gələndə gördüm ki, yolboyu əkilmiş bəzi ağaclar quruyubdur.

**Muxtar Babayev:** Quruyan ağacların hamısı mütləq dəyişdiriləcək, onlara qulluq olunacaq. Ümumiyyətlə, aksiya səhər tezdən başlayıb. Bir neçə gündür hazırlıq işləri görülübdür. Bütün rayonlarda bu işlər çox böyük əhval-ruhiyyə ilə görülür və günün sonuna bizim hesabatımız olacaqdır.

**İlham Əliyev**: Çox yaxşı.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ağac əkdilər.*

**Mehriban Əliyeva:** Bu ərazidə ümumilikdə nə qədər ağac əkilir?

**Tahir Məmmədov** (*Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı*): Yalnız bu ərazidə 5000.

**Anar Ələkbərov** (*Prezidentin köməkçisi*): Mehriban xanım, bu hissədə əkilən ağaclar ilə «Nəsimi 650» yazısı formalaşdırılacaqdır.

*Sonra dövlət başçısı və xanımı aksiyada iştirak edən gənclərlə xatirə şəkilləri çəkdirdilər.*

*Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızın bütün ərazisini əhatə edən ağac əkmə aksiyası çərçivəsində ümumilikdə 83 şəhər və rayonda 38 növdə 650 min ağac əkilib. Aksiya ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların əkiləcəyi ərazilərin elektron xəritəsini hazırlayıb. Şəhər və rayon icra hakimiyyətləri tərəfindən ərazilərdə müvafiq hazırlıq işləri görülüb. Əkiləcək ağacların becərilməsində damcılı suvarma sistemindən və suvarma kanallarından istifadə olunacaqdır.*

*Şamaxı rayonunda ağac əkmə aksiyasında 50 minədək ağac əkilib. Şamaxı şəhərinin girişindəki ərazidə keçirilmiş aksiyada isə 5000 ağac əkilib. Bu ərazinin relyefinə uyğun olaraq, burada əsasən tuya və Eldar şamı əkilib. Aksiyada 300-dək şamaxılı gənc və könüllü ilə yanaşı, IDEA İctimai Birliyinin və Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin üzvləri və könüllüləri də fəal iştirak ediblər.*

## ŞAMAXIDA ŞAHXƏNDAN TÜRBƏSİNİN ƏTRAFINDA APARILMIŞ ABADLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*6 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 6-da Şamaxıda Şahxəndan türbəsinin ətrafında aparılmış abadlıq işləri ilə tanış olmuşlar.*

*Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlət başçısına və xanımına qəbiristanlıqda və türbədə aparılmış abadlıq, bərpa və təmir işləri barədə məlumat verdi.*

**Tahir Məmmədov:** Cənab Prezident, ümumilikdə bu, Nəsiminin qardaşı Şahi Xəndanın xatirəsinə Şahxəndan qəbiristanlığı adlanır. Qəbiristanlıqdakı bu ərazi kənarda gördüyünüz məhəccərlərlə hörülü idi. Biz əhali ilə fərdi söhbət apardıq, xahiş etdik, icazə aldıq, məhəccərləri sökdük və ərazini abadlaşdırdıq.

**İlham Əliyev:** Görürəm, abadlaşdırılıb, qədim məzarlardır.

**Tahir Məmmədov:** Bunlar qədim məzarlardır. Bu məzarların hamısını torpağın altından çıxartdıq.

**İlham Əliyev:** Neçənci əsrə aiddir?

**Tahir Məmmədov:** Ümumilikdə Şahi Xəndanın qəbri XIV əsrə aiddir və bu qəbiristanlıq o dövrdən mövcuddur.

**İlham Əliyev:** Şəhər qəbiristanlığı kimi istifadə olunur?

**Tahir Məmmədov:** Bəli, hələ də istifadə olunur. Əlavə yerlər vardır. Şamaxıda belə 2 böyük qədim qəbiristanlıq vardır. Bu və Yeddi günbəz qəbiristanlığı, hansında ki şahın ailə üzvləri dəfn olunublar. Abadlıq işlərindən sonra burada belə bir genişlik yaranıb.

**İlham Əliyev:** Görürəm, bu əraziyə əl gəzdirilib.

**Tahir Məmmədov**: Biz indi fərdi şəkildə söhbət aparırıq ki, bütün bu məhəccərləri ərazidən götürək və ərazi açılsın. Arxada da çox qədim qəbirlər var, şərait yaradırıq ki, turistlər rahat keçib oraya da baxa bilsinlər. Buraya xaricdən çox turist gəlir və buranın energetikası üçün bu binaya toxunurlar, gəzirlər.

Cənab Prezident, gəldiyimiz bu yol əvvəlcə asfalt idi. Abidənin təxminən müəyyən hissəsi gördüyümüz hündürlükdə torpaqla örtülü idi. Biz avstriyalı bərpaçı-memar Erik Pumerin tövsiyələri və onun təlimatı əsasında, Heydər Əliyev Fondunun dəstəyi ilə bu işləri apardıq. Birinci təlimat bundan ibarət idi ki, biz abidəni sudan azad etməliyik və bura gördüyümüz səviyyəyə – abidənin bünövrəsindən də aşağıya qədər qazıldı.

**İlham Əliyev:** Qapının da bir hissəsini torpaq örtmüşdü.

**Tahir Məmmədov:** Bəli, örtmüşdü. Çöldən sular içəri sızırdı və orada rütubət çox idi. Ona görə binanın

tam konservasiyasına qədər təlimat üzrə üstünü belə örtülü saxlayacağıq. Konservasiya olunana qədər daşların içi qurumalıdır. Türbənin içi havalandırma sistemi ilə qurudulur. Binanın ətrafında torpaq uçqunlarının qarşısını almaq üçün istinad divarları hörülüb. Memarların təklifi ilə binanın eskizini turistlər üçün əyani olsun deyə, səkkizguşəli ulduz formasında yerə həkk etdik.

**İlham Əliyev:** Yəni bu, binanın yuxarıdan görünüşüdür?

**Tahir Məmmədov:** Bəli, ortası da belə dairəvidir.

**Mehriban Əliyeva:** Yəqin ki, bərpa davam edəcəkdir?

**Tahir Məmmədov**: Bəli, konservasiya davam edəcəkdir. Daşlar quru olmadığına görə hələ içərisini bərpa etməmişik.

**Mehriban Əliyeva:** İş quruyandan sonra davam edəcəkdir?

**Tahir Məmmədov:** Bəli, davam edəcəkdir.

*Dövlət başçısı və xanımı türbənin içərisinə daxil oldular.*

**Mehriban Əliyeva:** Burada neçə məzar vardır?

**Tahir Məmmədov:** Burada 2 məzar vardır. Mülahizələrə görə, biri Nəsiminin qardaşı Şahi Xəndanın qəbridir. Digəri isə bir qadının qəbridir, anasının, yaxud da onun nişanlısının olması ehtimalı vardır.

**İlham Əliyev:** Orada nə yazıldığı bəllidir?

**Tahir Məmmədov:** Hazırda bizim alimlərimiz onu araşdırırlar.

**Mehriban Əliyeva:** Yuxarı da yaşıldır.

**Tahir Məmmədov:** Bəli, tavanı tamamilə mamır örtmüşdü. İndi daşlar quruyub, gözlə görünür. Yaza, yaya qədər qurutma prosesi davam etməlidir.

**İlham Əliyev:** Bura mühafizə olunmalıdır. Gözətçilər varmı?

**Tahir Məmmədov**: Bəli.

**Mehriban Əliyeva**: Yəqin ki, məzarlar da torpağın altında olub, üstünü su örtübdür.

**Tahir Məmmədov:** Torpaqdan içəri daim su sızırdı. Ona görə bu məzar daşları rütubətdən kövrəlib qırılıb. Həmin təlimat üzrə arxa tərəfdə, bünövrədən yuxarı xüsusi işlər görülüb. Orada heç bir sementdən və başqa materialdan istifadə olunmayıbdır.

**İlham Əliyev:** Bu da səkkizguşəli ulduzdur. İndi gərək alimlər gəlib bu yazıların tərcüməsini bizə təqdim etsinlər.

**Tahir Məmmədov:** Sovetlər dönəmində bura bir dəfə bərpa olunub. O vaxt sementdən, digər materiallardan istifadə ediblər, hansı ki bu, uyğun deyil. Cənab Prezident, bu Sizin bizə ilk tapşırıqlarınızdan biri idi. Təbii ki, çalışırıq çox məsuliyyətlə və həssas yanaşaq. Tapşıranda da demişdiniz ki, müasir standartlara uyğun konservasiya etmək lazımdır.

**İlham Əliyev:** Yaxşı ki, siz xarici mütəxəssisləri bu işlərə cəlb etmisiniz. Deyəsən, həmin şirkət Qız qalasının da konservasiyası ilə məşğul olubdur?

**Mehriban Əliyeva:** Bəli, Avstriya şirkətidir.

*Dövlət başçısı və xanımı türbənin önündə şəkil çəkdirdilər.*

**İ l h a m Ə l i y e v:** Burada da qədim məzarlar vardır. Turistlər buraya gəlirlər?

**T a h i r M ə m m ə d o v:** Bəli, turistlər çox gəlirlər. Nəsimi festivalında xaricdən Nəsimi irsini araşdıran alimlər çox gəlmişdilər. Türbəyə çox böyük məhəbbətlə, diqqətlə yanaşdılar.

**İ l h a m Ə l i y e v:** Bura çox yaxşı abadlaşdırılıb.

**Tahir Məmmədov:** Cənab Prezident, indi Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxıdakı tarixi Gülüstan qalasının bərpası layihəsinin üzərində iş gedir. Bu işi də Avstriyadan olan bərpaçı alimlər görürlər. Artıq 3D skan prosesini bitirib, indi modelini hazırlayırlar. Sonra isə bərpa prosesi nəzərdə tutulur.

*Şahxəndan türbəsinin ətrafında aparılmış abadlıq işləri ilə tanış olduqdan sonra Prezident İlham Əliyev təmir-bərpa işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıqlarını verdi.*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR ZELENSKİYƏ**

Hörmətli cənab Prezident!

Odessa şəhərində kollecdə baş vermiş yanğın nəticəsində insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Ukrayna xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 dekabr 2019-cu il*

**KENİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB UHURU KENYATTAYA**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu xoş gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 dekabr 2019-cu il*

## RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ, RUSİYA–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ MAKSİM OREŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya–Azərbaycan hökumətlərarası birgə Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir*

**İ l h a m Ə l i y e v:** Hörmətli Maksim Stanislavoviç, hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! Sizi yenidən görməyimə şadam. İl başa çatır. Artıq indidən demək olar ki, bu il bütün istiqamətlər üzrə ikitərəfli münasibətlərimizin inkişafı üçün çox uğurlu olub. Beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlərdən əlavə, prezidentlər arasında 2 görüş olub. Sizin də iştirak etdiyiniz həmin görüşlərdə bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətimizin əsas, o cümlədən iqtisadi-ticari əlaqələrin inkişafı prinsipləri təsdiq edilibdir. Prezidentlər «Yol Xəritələri»nin implementasiyası üzrə işi fəallaşdırmaq barədə tapşırıq veriblər. Şadam ki, bu proses çox uğurla gedir.

Mehriban Əliyevanın Moskvaya səfəri çərçivəsində də «Yol Xəritələri» siyahısının genişləndirilməsi razılaşdırılıb ki, onlar yeni sahələri əhatə etsin. «Yol Xəritələri»nin reallaşmasının yaxşı nəticələr verdiyini nəzərə alsaq, bu çox vacibdir. Ona görə də bu siyahıya yeni istiqamətlərin əlavə edilməsi, əlbəttə, bizim əməkdaşlığımızın məntiqi davamıdır.

Biz ili yaxşı nəticələrlə başa vururuq, əmtəə dövriyyəsi artır. Bu, sevindirici haldır, çünki əmtəə dövriyyəsi ilbəil artır. Mövcud potensialın artırılması ilk baxışda çətindir, çünki baza artır. Bununla bərabər, biz fəal qarşılıqlı əlaqələrin nəticələrini görürük. Bu nəticələr həm əmtəə dövriyyəsinin, həm də investisiyaların artmasında əksini tapır. Bu məsələ yaxın vaxtlarda Mehriban Əliyevanın səfəri çərçivəsində də müzakirə edilib və vurğulanıb ki, həm Rusiyadan Azərbaycana, həm də Azərbaycandan Rusiyaya çoxmilyardlıq investisiyalar ilk növbədə, bizim bir-birimizə etimadımızın, həmçinin Rusiyada da, Azərbaycanda da yaxşılaşmaqda olan əlverişli investisiya mühitinin göstəricisidir. Biz bunu Dünya Bankının «Doing Business» reytinqində də, Davos Forumunun rəqabətqabliyyətlilik reytinqində də görürük. Bu reytinqlərdə həm Azərbaycan, həm də Rusiya öz mövqelərini yaxşılaşdırır. Bu, obyektiv reallıqdır. Bu fakt onu göstərir ki, ölkəmizdə həyata keçirilən islahatlar konkret nəticələr verir.

Mən onu da bilirəm ki, bu gün Azərbaycanda çox mühüm investisiya layihəsinin – əczaçılıq müəssisəsi-

nin açılışı olacaq. Bu istiqamətdə Azərbaycan bazarının genişlənməsini, əhalinin və istehlakın artmasını nəzərə alsaq, bu çox sevindirici haldır. Əlbəttə ki, biz bazarı özümüzün istehsal etdiyimiz məhsullarla zənginləşdirməkdə maraqlıyıq. İndiki halda, Rusiya şirkətinin Azərbaycanda istehsalı başqa istiqamətlərdə – maşınqayırma, energetika və nəqliyyatda olduğu kimi, bizim münasibətlərimizin yaxşı göstəricisidir. Samur çayı üzərindən körpünün tikintisi praktiki olaraq başa çatdırılıb. Bu da onun nəticəsidir ki, yüksək səviyyədə qəbul edilmiş bütün qərarlar yerinə yetirilir. Zənnimcə, bu bizim münasibətlərimizin əsas nailiyyətlərindən biridir. Biz qarşıya konkret məsələlər qoyur, onları konkret həll edir və yaxşı nəticələr görürük.

Əlbəttə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun ilkin görkəmdə bərpa olunmasını məmnuniyyətlə qeyd etməliyəm. Mən bu pavilyonun açılışına televizorda baxmışam, sonra isə bizim telekanallarda çoxlu reportajlar göstərilib. Bu, əlbəttə, bizim münasibətlərimiz üçün çox böyük əhəmiyyət kəsb edən, olduqca əlamətdar hadisə və bizim ortaq tariximizə hörmət əlamətidir. Düşünürəm ki, bu pavilyon Azərbaycan mallarını Rusiya bazarlarında çox fəal təbliğ edəcəkdir.

Başqa sözlə desək, bizim əməkdaşlığımızın bütün istiqamətləri üzrə müsbət nəticələr göz qabağındadır. Artıq yekun vurmaq olar. Əminəm ki, növbəti il də çox uğurlu olacaq, ona görə ki, münasibətlərimizi möhkəmlətmək üçün çox ciddi niyyətlərimiz vardır. Bu gün hökumətlərarası birgə Komissiyanın iclası keçiriləcək, geniş spektrli məsələlər müzakirə olunacaq, reallaşdırılmaq üçün konkret tapşırıqlar veriləcəkdir. İnanıram ki, səfəriniz çox səmərəli olacaq və Bakıda vaxtınızı xoş keçirəcəksiniz.

* * *

*Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya–Azərbaycan hökumətlərarası birgə Komissiyasının həmsədri Maksim Oreşkin Rusiya Prezidenti Vladimir Putinin salamını dövlət başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.*

**M a k s i m  O r e ş k i n:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Görülən işə belə müsbət qiymət Verdiyinizə görə sağ olun. Həqiqətən, cari rəqəmlərə nəzər salsaq, əmtəə dövriyyəsini və dinamikanı əks istiqamətdə müqayisə etsək, məsələn, bu il Avrasiya İqtisadi İttifaqı ilə bizim münasibətlərimizdə dinamika mənfidir, əmtəə dövriyyəsi bir qədər azalıb – Azərbaycanla təqribən 30 faiz artım vardır. Bu, ümumiyyətlə, hər hansı ölkə ilə müqayisədə həqiqətən, ən yüksək göstəricilərdən biridir. Doğrudan da baza bəlkə də bu qədər yüksək olmayıb və hökumətlərarası birgə Komissiya çərçivəsində mənim həmkarlarımla birlikdə həyata keçirdiyimiz ilk tədbirlər, sədlərin aradan qaldırılması, bazarların açılması – bütün bunlar ciddi irəliləyişə nail olmağa və belə yaxşı nəticələr göstərməyə imkan veribdir.

Lakin daha irəli getmək və elə etmək lazımdır ki, bunlar birdəfəlik nəticə deyil, daimi olsun. Buna görə biz burada, əlbəttə, əməkdaşlığın dərinləşdirilməsi

üzərində işləyəcəyik. Çünki bunlar sadəcə, sədlər deyil, bunlar müştərək layihələr məsələsi və əlavə dəyər zənciridir. Bu gün biz kənd təsərrüfatına dair proqram imzalayacağıq. Həmin proqram təkcə kənd təsərrüfatına deyil, onunla bağlı bütün məsələlərə aiddir. Deyək ki, tranzit məsələsi – Rusiya ilə Azərbaycanın birlikdə inkişaf etdirdiyi bir neçə tranzit yol buraya aiddir. Tranzit axınının artması üçün hər yerdə növbəti addımlar atılmalıdır. Biz burada daha çox, daha ciddi artım görürük. Burada müsbət rəqəmlər vardır. Buna görə biz bütün bunların üzərində işləyəcəyik.

Siz müştərək istehsal məsələsini xatırlatdınız. Siz düz dediniz ki, bu gün biz Əczaçılıq zavodunu açacağıq. Keçən dəfə biz Avtomobil zavodunun təməlini qoyduq. Bu gün helikopterlər üçün xidmət mərkəzinin təməlinin qoyulmasını planlaşdırırıq. Hər dəfə nə isə bir layihə, irəliyə doğru nə isə yeni bir hərəkət olur. Əlbəttə, biz burada Rusiya–Azərbaycan və Azərbaycan–Rusiya işgüzar şuralarının fəal işini görürük. Çünki layihələrin sayı artır və biz öz tərəfimizdən həmin layihələri dəstəkləmək üçün nə lazımdırsa edirik. İnnovasiya istiqaməti, Sizin xatırlatdığınız altıncı «Yol Xəritəsi» çox mühüm istiqamətdir. Siz bizim nümayəndə heyətinin tərkibinə nəzər salsanız görərsiniz ki, bu gün mənimlə üç nazir müavini gəlib. Çünki bu, reallaşan layihələrin sayını və hansı miqyasda həyata keçirməli olduğumuzu göstərir.

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ KRALI II ABDULLAH BİN ƏL-HÜSEYNİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn İordaniya Haşimilər Krallığının Kralı II Abdullah bin əl-Hüseynin dekabrın 10-da rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Kral II Abdullahın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev İordaniya Kralı II Abdullahı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İordaniya Kralına raport verdi.*

*İordaniya Kralı Azərbaycan əsgərlərini salamladı.*

*Prezident İlham Əliyev və Kral II Abdullah Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İordaniyanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Kral II Abdullaha, İordaniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın qarşısından keçdi.*

*Prezident İlham Əliyev və Kral II Abdullah rəsmi foto çəkdirdilər.*

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ KRALI II ABDULLAH BİN ƏL-HÜSEYN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*10 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 10-da rəsmi qarşılanma mərasimindən sonra İordaniya Haşimilər Krallığının Kralı əlahəzrət II Abdullah bin əl-Hüseyn ilə təkbətək görüşü olmuşdur.*

**İlham Əliyev:** Əlahəzrət, əziz qardaşım, Azərbaycana xoş gəlmisiniz! Mənim dəvətimi qəbul edib bizə səfər etdiyiniz üçün Sizə təşəkkür edirəm. Bu səfər ikitərəfli gündəliyimizdəki vacib məsələlərlə bağlı bir daha müzakirələr aparmaq üçün çox yaxşı imkandır. Bu yaxınlarda biz Soçidə görüşdük və bizim söhbət etmək imkanımız oldu. Mən bir daha Sizi ölkəmizə səfərə dəvət etdim. Şadam ki, çox məşğul olmağınıza baxmayaraq, qısa müddət ərzində bizi ziyarət etdiniz. Azərbaycanda Sizi qəbul etmək həqiqətən, böyük şərəfdir. Siz burada bizim əziz qonağımızsınız. Əminəm ki, bu səfər ərzində biz qardaşlıq münasibətlərimizin daha da inkişafına birgə töhfə verəcəyik. Bu münasibətlər müxtəlif sahələri əhatə edir.

Biz beynəlxalq arenada səylərimizi əlaqələndirməyə çox şadıq. Beynəlxalq təşkilatlarda bir-

birimizi çox vacib məsələlərlə bağlı dəstəkləyirik. Siyasi təmaslar əladır. Mən iqtisadi göstəricilərə baxdım. Düşünürəm ki, biz daha gərgin çalışmalıyıq. Əlbəttə, biz bunu edəcəyik və bu gün bu məsələ ilə bağlı geniş müzakirə aparacağıq. Şadam ki, bu il İordaniyadan Azərbaycana gələn turistlərin sayında artım olub. Artım 20 faizdən çoxdur. Hesab edirəm ki, biz insanların bir-birilərini daha tez-tez ziyarət etmələri üçün birbaşa hava əlaqəsinin yaradılması imkanını da müzakirə edə bilərik.

Bir daha xoş gəlmisiniz və Sizə Bakıda xoş vaxt keçirməyi arzu edirəm.

**II Abdullah:** Mənim əziz qardaşım, çox sağ olun. Dediyiniz kimi, Sizi bu yaxınlarda Soçidə görmək xoş idi. Son iki onillikdə mənim buraya səfərimlə bağlı çoxlu gözəl xatirələrim vardır. Mən əziz dostumla burada olmaqdan şadam. Bilirəm ki, beynəlxalq arenada Siz çox vacib rol oynayırsınız. Xüsusilə də bu yaxınlarda keçirilmiş «Qoşulmama Hərəkatı»-nın Zirvə görüşü ilə bağlı təbriklərimi Sizə çatdırıram.

Dediyiniz kimi, əziz qardaşım, bizim siyasi, kəşfiyyat, hərbi sahələrdə əlaqələrimiz güclüdür. İqtisadiyyat sahəsini inkişaf etdirə bilərik. Əminəm ki, bu gün müvafiq görüşlərimiz olacaqdır. Lakin buraya gəlib şəxsən Sizə regionda və dünyada oynadığınız rola görə təşəkkürümü bildirmək istədim. İnanıram ki, inşallah, regionumuzda olan çağırışların öhdəsindən gəlmək üçün daha çox məsələlərlə bağlı müzakirələr apara bilərik. Mən Sizin liderliyinizə, ölkəmizə münasi-

bətdə xeyirxahlığınıza və dəstəyinizə hər zaman arxalanıram. Bu xoş dostluğa görə Sizə təşəkkür edirəm.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da təkbətək görüş başa çatdıqdan sonra İordaniya Haşimilər Krallığının Kralı əlahəzrət II Abdullah bin əl-Hüseyn ilə işçi naharı etdi.*

## *bp* QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*11 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də bp qrupunun baş icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

**Robert Dadli:** Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm.

**İlham Əliyev:** Sizi yenidən görməyə şadam. Azərbaycana yenidən xoş gəlmisiniz! Mənə məlumat verilib ki, siz gələn il vəzifənizi tərk edəcəyinizlə bağlı açıqlama vermisiniz. Bu imkandan istifadə edərək, Azərbaycanda biznesin inkişafına verdiyiniz töhfəyə görə sizə minnətdarlığımı bildirmək istərdim. Biz sizinlə bir neçə dəfə birgə layihələrimiz barədə müzakirələr aparmışıq və bildiyimə görə, *bp*-nin prioritetləri siyahısında bu layihələr ən yüksək mövqedədir. Bilirsiniz ki, *bp* ilə əməkdaşlığımız strateji əhəmiyyətə malikdir. Mən dəfələrlə ictimai qaydada bu barədə açıqlamalar vermişəm. Çox şadam və fəxr edirəm ki, bu 25 illik tərəfdaşlıq eyni məqsədi olan və bu məqsədlərə çatmaq üçün səmərəli addımlar atan dostların tərəfdaşlığı olub. Bu çox vacibdir. Bəzən məqsədlər müəyyənləşdirilir, la-

kin onlara necə çatmaq aydın olmur. Biz keçən əsrin 90-cı illərinin əvvəllərində çox çətin geosiyasi vəziyyətdə tarixi layihələri birlikdə həyata keçirə bildik – Bakı–Tbilisi–Ceyhan neft kəməri, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun inkişafı, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və bu yaxınlarda isə tamamlanmış TANAP. Bu layihələrin hər birinin Azərbaycan üçün tarixi əhəmiyyəti vardır. Azərbaycanın bugünkü sürətli inkişafı bizim enerji sektorundan əldə etdiyimiz gəlirlər olmadan mümkün olmazdı. Bütün bu illər ərzində biz həqiqətən də tərəfdaşlar kimi çalışdıq, bir-birimizi dəstəklədik, bir-birimizin problemlərinə anlayış göstərdik. Düşünürəm ki, bu, dünyada nadir bir təcrübədir. Hazırda biz bütün vacib layihələrin tamamlanmasına yaxınıq. TANAP-ın Avropa ilə birləşən hissəsinin açılışı mərasimində iştirakımdan çox şadam. İndi tamamlanmasına yaxın olduğumuz TAP-ın üzərində işləməyimiz lazımdır – 90 faizi artıq tamamlanıb – həmçinin *bp*-nin digər layihələrinin də. Çünki bizim əməkdaşlığımız davam edəcək. «Azəri–Çıraq–Günəşli»nin işlənilməsinin 2050-ci ilə qədər uzadılmasından sonra biz əlavə olaraq, aktiv 30 il və daha çox əməkdaşlıq edəcəyik. Beləliklə, bu indikindən daha da strateji olacaqdır.

Bir daha sizə şəxsən verdiyiniz töhfələrə, tərəfdaşlığınıza görə minnətdarlığımı bildirmək istərdim. Sizə uğurlar arzulayıram və əziz qonağımız kimi, gələcəkdə sizi daha çox görməyə ümid edirəm.

**R o b e r t D a d l i:** Təşəkkür edirəm, cənab Prezident. Bu, Azərbaycanın enerji tarixində çox mühüm hadisədir. Demək istəyirəm ki, onlardan biridir. Sizin uzaqgörən atanız və Siz bunun əsasını qoyarkən bir neçə ölkəni mürəkkəb regionda bir araya gətirdiniz. Yüksək texnologiyalar neft sektoru ilə yanaşı, təbii qaz sektoruna da cəlb edildi və irəlidə hələ də daha çox kəşfiyyat işləri və layihələr vardır. Fikrimcə, bunlar bir neçə ölkənin sərhədlərini aşan dünyanın ən mürəkkəb layihələridir. Yer kürəsinin elə bir yeri yoxdur ki, misal üçün, Azərbaycandan Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyaya gedən boru kəmərinin ekvivalenti orada olsun. Məncə, Azərbaycandan başqa, heç bir ölkə bunu edə bilməzdi. Bu illər ərzində ən mürəkkəb ideyaların reallığa çevrilməsini görmək baxımından Sizinlə və Sizin komanda ilə – Rövnəq və Elşadla birgə işləmək şəxsən mənim üçün çox xoş olub. Bu möhtəşəmdir. *bp*-dəki insanların uzun illər boyunca əzmkarlığı çox diqqətəlayiqdir. Cənab Prezident, mən çox məmnunam – *bp*-də 40 illik fəaliyyətimdən, 10 ilə yaxın baş icraçı direktor olmağımdan və indi də estafeti rahat şəkildə Bernard Luniyə təhvil verməyimdən məmnunam. Bernard çox yaxşı işləyəcək və Azərbaycandakı işlərimizə eyni dərəcədə bağlıdır.

# KOREYA RESPUBLİKASININ STATİSTİKA KOMİTƏSİNİN SƏDRİ KANQ ŞİN-UOKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uokun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uok Koreya Prezidenti Mun Ce-İnin salamlarını dövlət başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, müxtəlifsəviyyəli səfərlərin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyi qeyd olundu. Azərbaycanda müxtəlif layihələrin həyata keçirilməsində Koreya şirkətlərinin iştirakının iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından önəmi vurğulandı.*

*Söhbət zamanı Azərbaycanda digər sahələrdə olduğu kimi, statistika sahəsində də islahatların aparıldığı qeyd edildi, Koreya Respublikasının bu sahədə qazandığı təcrübənin Azərbaycanda maraq doğurduğu bildirildi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasının Prezidenti Mun Ce-İnin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Prezidentinə çatdırmağı xahiş etdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2019-cu il*

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu əslində Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri dekabrın 12-də Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.*

*Milli Məclisin üzvləri, nazirlər, komitə, şirkət və idarə rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlət başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, tanınmiş dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələrini yad etdilər və məzarları üzərinə gül dəstələri qoydular.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak etdilər.*

*Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq heç də hər kəsə nəsib olmur. Xalq yalnız sevdiyi insanları yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaqdır. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.*

*İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxmış və öz təsdiqini tapmış bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb,*

*dünyanı Azərbaycana gətiribdir. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıbdır. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çeviribdir. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.*

*«Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub»– deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti, zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də «Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan» – deyə onu Moskvaya dəvət etdilər. Amma burada o həm də onu gözü götürməyən məkrli «qorbaçovlar»ın xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.*

*Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsipləri düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünya-*

*görüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində «qızıl səhifə»lər yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.*

*Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusunu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin «qızıl dövr»ünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə, təmkinini itirməyən və dünyada geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin mənafeyini praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Odur ki, Azərbaycan müstəqil siyasətyeritmə prinsiplərinin bərqərar olduğu güc mərkəzinə, dünya birliyində hörmət və ehtiram ünvanına çevrilibdir. Ölkəmiz beynəlxalq aləmdə dostluq,*

*tərəfdaşlıq və qardaşlığın mühüm nümunəsi kimi tanınır və sözün əsl mənasında, tam müstəqildir.*

*Dahilik intellektin fövqəladə böyüklüyüdür. Heydər Əliyev isə özünün qeyri-adi intellektini yalnız xalqa, dövlətə və Vətənə xidmətə həsr etdi. Ona görə də müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir.*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ**

Hörmətli Kasım-Jomart Kemelyeviç!

Qazaxıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Qardaş Qazaxıstan müstəqillik illərində dinamik və hərtərəfli inkişaf yolu keçərək, həyatın bütün sahələrində mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır.

Əminəm ki, xalqlarımızın iradəsindən qaynaqlanan dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi, strateji tərəfdaşlığımız bundan sonra da əməkdaşlığımızın bütün sahələrdə müvəffəqiyyətlə davam etdirilməsi üçün geniş imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2019-cu il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS CONSONA**

Hörmətli cənab Baş Nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri vəzifəsinə yenidən təyin olunmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət veririk. Enerji sektorunda səmərəli fəaliyyətimiz xüsusi məmnunluq doğurur.

İnanıram ki, qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etdirilməsi və dərinləşdirilməsi istiqamətində Sizinlə birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2019-cu il*

**BƏHREYN KRALI ŞEYX
HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bəhreyn arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2019-cu il*

# RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU İQOR BABUŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz, sizi görməyimə şadam.

Çox şadam ki, siz Həştərxan vilayətinin rəhbəri təyin ediləndən az sonra Azərbaycana gəlmisiniz. Bu çox yaxşı əlamətdir, bizim tərəfdaşlığımızın, dostluğumuzun əlamətidir. Həştərxan ilə Bakını uzun qarşılıqlı fəaliyyət, tərəfdaşlıq və əməkdaşlıq tarixi bağlayır. Biz Xəzərin sahilində yerləşirik, ona görə də münasibətlərimizin tarixi keçmiş əsrlərin dərinliklərinə gedir. Mən də Həştərxana səfərim zamanı bu şəhərlə tanış olmaq imkanı əldə etdim. O cümlədən, mənə əməkdaşlığımızın tarixi barədə məlumat verildi. Bu əməkdaşlıq həqiqətən, həmişə çox müsbət olub. Bu gün də biz çox fəal qarşılıqlı fəaliyyət göstəririk. Rusiya regionları arasında Həştərxan vilayəti ilə Azərbaycanın xüsusi münasibətləri vardır. Bu bizim tariximizə və son vaxtlar çoxlu müştərək layihələrimizə əsaslanır.

Bildiyiniz kimi, Həştərxanda Azərbaycan İşgüzar Mərkəzi yaradılıb, keçən il həmin mərkəzin açılışı olub. Mənə verilən məlumata görə, Bakıda Həştərxan İşgüzar Mərkəzi də açılış üçün hazırdır və onun tikintisi, demək olar ki, başa çatdırılıb. Bu çox mühüm hadisədir, çünki biz bu işgüzar mərkəzlər vasitəsilə qarşılıqlı ticarəti inkişaf etdirəcəyik. Bu gün mən cari ilin 9 ayının məlumatlarına baxdım. Bizdə əmtəə dövriyyəsi artımının o qədər də çox olmaması müşahidə edilir, amma hər halda, burada da müsbət dinamika vardır.

Həştərxan ilə Bakını bağlayan amillər çoxdur. Əlbəttə, gələcəkdə birgə fəaliyyətimizi elə planlaşdırmalıyıq ki, qarşılıqlı əlaqələrimiz daha sıx olsun. Biz artıq birbaşa aviasiya əlaqəsinə malikik. Bu da çox müsbət məqamdır. Hesab edirik ki, həm bizim turistlər, həm də Həştərxandan olan turistlər daha çox qarşılıqlı səfərlər edəcəklər. Ümumiyyətlə, Azərbaycana gələn rusiyalı turistlərin sayı artır. Fikrimcə, bu il həmin rəqəm 1 milyon nəfərə yaxın olacaqdır. Beləliklə, bu da əməkdaşlığın, dostluğun yaxşı göstəricisidir və bizim vətəndaşlarımız bir-birilə görüşəndə özlərini rahat hiss edirlər.

Bütövlükdə bu il Rusiya–Azərbaycan münasibətləri üçün çox uğurlu olub. Yüksək səviyyədə – nazirlər, qanunverici hakimiyyətin rəhbərləri səviyyəsində əlaqələr, biznes-forumlar xeyli çox olubdur. Bu yaxınlarda Moskvada regional forum keçirilib. Beləliklə, biz ili siyasi sahədə yaxşı nəticələrlə, əmtəə dövriyyəsinin xeyli artması ilə başa vururuq və gələn ilə böyük nikbinliklə baxırıq. Çünki əminəm ki, Rusiya–Azərbaycan münasibətləri ölkələrimizin, xalqlarımızın rifahı naminə durmadan inkişaf edəcək və biz öz tərəfdaşlarımızla ənənəvi əlaqələri

möhkəmləndirəcəyik. Bir daha xoş gəlmisiniz. Bakıda vaxtınızın xoş keçməsini arzu edirəm.

**İqor Babuşkin:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu. İcazə verin, ilk növbədə, Sizə dərin ehtiramımı və şəxsən görüşmək imkanına görə təşəkkürümü bildirim. Həqiqətən, Azərbaycan Respublikası Həştərxan vilayəti üçün Xəzəryanı regionda əsas tərəfdaşlardan biridir. Uzun müddət ərzində əmtəə dövriyyəsi, turizm sahəsində sıx münasibətlər, işgüzar əlaqələr yaranıb. Müasir mərhələdə bizim iqtisadi əlaqələrimizin flaqmanı, heç şübhəsiz, xarici ticarət dövriyyəsidir. Siz dediyiniz kimi, 10 ay ərzində xarici ticarətin həcmi kifayət qədər böyükdür və faiz nisbətində artım müşahidə edirik. Biz ticari əlaqələrimizin genişləndirilməsi perspektivini keçən il Həştərxanda açılmış Azərbaycan İşgüzar Mərkəzinin işi ilə bağlayırıq. Dünən biz Həştərxan İşgüzar Mərkəzinin tikintisinin gedişi ilə tanış olmaq imkanı əldə etdik. Demək istəyirəm ki, işin gedişindən çox razıyıq və hesab edirik ki, iyunun əvvəlində biz bu mərkəzi təntənəli şəkildə aça biləcəyik.

Siz dediyiniz kimi, Həştərxanda və Bakıda belə mərkəzlər həqiqətən, bizim ticari və mədəni əlaqələrimizin inkişafı üçün yaxşı vasitə olacaqdır.

Fikrimizcə, nəqliyyat sahəsində uğurlu əməkdaşlığı nümunə göstərmək olar.

## BAKI GƏMİQAYIRMA ZAVODUNDA İNŞA OLUNMUŞ İLK NEFT TANKERİNİN İSTİSMARA VERİLMƏSİ VƏ «AZƏRBAYCAN» ADLI GƏMİ-BƏRƏNİN SUYA SALINMASI MƏRASİMİ

*13 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı Gəmiqayırma zavodunda inşa olunmuş ilk neft tankerinin istismara verilməsi və «Azərbaycan» adlı gəmi-bərənin suya salınması mərasimində iştirak etmişdir.*

*«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlət başçısına tanker barədə məlumat verdi.*

*Bildirildi ki, özünəməxsusluğu ilə seçilən «Laçın» adlı ilk neft tankeri Odessa Dəniz Mühəndisliyi Bürosunun layihəsi əsasında yerli mütəxəssislər tərəfindən inşa edilib.*

**Rauf Vəliyev**: Ümumiyyətlə, Azərbaycan tarixində bu ilk dəfədir. Buna böyük ehtiyac var idi. Özü də Azərbaycanda sıfırdan inşa olunubdur.

**İlham Əliyev**: Bu bir daha göstərir ki, nə qədər düzgün qərar qəbul etmişik. Gəmiqayırma zavo-

dunun tikintisi doğrudan da böyük hadisədir. İndi bizə lazım olan bütün gəmilər Azərbaycanda istehsal edilə bilər. Ölkəmizin tarixində ilk dəfə həm tanker, həm də ki, gəmi-bərə tikilibdir.

**Rauf Vəliyev:** Cənab Prezident, tankerin uzunluğu 141 metr, eni 16,9 metrdir. Gəminin ağırlığı isə 7875 tondur.

**İlham Əliyev:** Layihə burada işlənilib?

**Rauf Vəliyev:** Bəli, «Volqa–Don MAX» layihəsidir. Volqa–Don kanalından keçmək imkanı olan və maksimum yükgötürmə qabiliyyətinə malik tankerdir. Başqalarından fərqli olaraq, 4-5 min tondan artıq yüklə ölçülərinə görə bu kanaldan keçmək imkanına malikdir.

**İlham Əliyev:** Volqa–Dondan, adətən, daha kiçik gəmilər keçir. Bu da keçə bilir?

**Rauf Vəliyev:** Bəli, maksimum 5600 ton yüklə oradan keçmək imkanına malikdir.

**İlham Əliyev:** Çox yaxşı, bu tankerlərdən bizdə neçəsi inşa edilib?

**Rauf Vəliyev:** Ümumiyyətlə, bizdə 20 tanker vardır. Sizin dəstəyinizlə hazırda 4-ü sifariş olunub və inşa edilir.

**İlham Əliyev**: Zavod da işləyir. İş yerləri açılıb. İndi zavodu sifarişlərlə biz özümüz təmin edirik və gəmi tikintisinin maliyyə yükünün əsas hissəsini «Xəzər Dəniz Gəmiçiliyi» öz üzərinə götürübdür. Elədirmi?

**Rauf Vəliyev:** Bəli, 30 faizi dövlət tərəfindən təmin olunur.

**İ l h a m Ə l i y e v:** 30 faiz dövlət, 70 faiz Gəmiçilik. Bu da onu göstərir ki, Gəmiçilik indi gəlirlə işləyir və əldə edilmiş gəlir kənara getmir, Azərbaycanda qalır. Azərbaycanda tankerlər, bərələr inşa edilir. Yəni pul qalır ölkəmizdə. Vaxt var idi ki, «Xəzər Dəniz Gəmiçiliyi» dövlətdən dotasiya alırdı. Vergi şəklində cəmi 1 milyon manat ödəyirdi. Sonra tədbirlər görüldü, o cümlədən kadr islahatları aparıldı. İndi Azərbaycan «Xəzər Dəniz Gəmiçiliyi» gözəl standartlara çatıb və beynəlxalq şirkət kimi fəaliyyət göstərir.

**R a u f V ə l i y e v:** Çox sağ olun, cənab Prezident, Sizin dəstəyinizlə.

**İ l h a m Ə l i y e v:** Biz indi Xəzərdə ən böyük donanmaya malikik, 200-dən çox gəmimiz var və indi yeni gəmilər də istismara verilir. Gəmilərin sayı artacaqdır.

«Laçın» tankeri nəinki Xəzərdə neft və neft məhsullarının daşınmasını, həmçinin Volqa–Don və Volqa–Baltik kanalları ilə Xəzərdən kənar hövzələrə də maye yüklərin daşınmasını təmin edəcəkdir. Yeni nəsil tankerin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan Bakı Gəmiqayırma zavodunun növbəti uğurudur. Hazırda zavodda «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin donanması üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında quru yük, konteyner daşıyan, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri vardır.

*Prezident İlham Əliyev «Laçın» tankerinin istismara verilməsini bildirən düyməni basdı.*

**İlham Əliyev:** Zavodu Azərbaycan özü sifarişlərlə təmin edəcək. Ancaq çalışın, qonşu ölkələrə də bu xidmətləri göstərə bilək ki, daha çox pul qazanaq.

**Rauf Vəliyev:** İlk gəminin də adını Siz qoydunuz – «Azərbaycan».

**İlham Əliyev:** Bəli, adı da «Azərbaycan» olmalıdır. Bu layihə harada hazırlanıb?

**Rauf Vəliyev:** Bu layihəni də Odessa Dəniz Mühəndisliyi Bürosu hazırlayıb. Bizim müəssisə onunla birgə işləyir. Bu, Xəzərdə ən çox avtomobil və TIR götürən gəmi olacaqdır.

**İlham Əliyev:** Bizdə olan bərələrdən daha böyükdür?

**Rauf Vəliyev**: O, 56 vaqon və 50 TIR götürəcək. Onu çoxfunksiyalı etmişik. Yəni vaqon və TIR-dan başqa, həm də 100 sərnişin.

*Sonra Prezident İlham Əliyev Bakı Gəmiqayırma zavodunda inşa olunmuş ilk sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyan «Ro-Pax» tipli «Azərbaycan» adlı gəmi-bərənin suya salınması mərasimində iştirak etdi.*

*Məlumat verildi ki, gəmi-bərənin gövdə hissəsinin inşası 100 faiz başa çatıb. Qalan tikinti və quraşdırma işləri Gəmiqayırma zavodunun yanalma körpüsündə davam etdiriləcəkdir. Nadir dizayna malik «Ro-Pax» tipli gəmi-bərə yüksək texniki göstəricilərinə görə fərqlənir.*

*Prezident İlham Əliyev «Azərbaycan» gəmi-bərəsinin suya salınmasını bildirən düyməni basdı.*

*Hazırda «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Xəzər dənizində yeganə bərə operatorudur. Qurumun bərələri Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm halqası olmaqla, Xəzərin şərq və qərb sahillərindəki dəmir yollarını dəniz üzərində birləşdirir, Azərbaycan ərazisindən tranzit yüklərin daşınmasına, ölkənin əlverişli coğrafi mövqeyi və tranzit potensialının reallaşdırılmasına xidmət edir.*

*Prezident İlham Əliyev «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» və onun alyans tərəfdaşı olan «Caspian Marine Services» tərəfindən alınmış 5 platforma-təchizat gəmisinin istifadəyə verilməsi mərasimində də iştirak etdi.*

*Məlumat verildi ki, «Xocalı», «Quba», «Murovdağ», «Savalan» və «Şahdağ» adlarını daşıyan müasir platforma-təchizat gəmiləri İtaliyanın bu sahədə aparıcı Gəmiqayırma zavodunda inşa edilib. Əsas təyinatı neft-qaz platformalarının təchizatı olsa da, bu gəmilər seysmik və tədqiqat işləri, sualtı əməliyyatlara dəstək, dəniz səthinin neft və neft məhsullarından təmizlənməsi kimi əməliyyatları da həyata keçirir.*

**R a u f V ə l i y e v:** Cənab Prezident, son 20 ildə öz tərəfdaşlarımızla bu tip 10 gəmi gətirmişik. Amma onlar bunun bir az kiçik formasıdır.

**İ l h a m Ə l i y e v:** Bu 5 gəmi bizə kifayətdir?

**R a u f V ə l i y e v:** Hələ ki, bu günə kifayətdir. Adətən, bu tip gəmilər öncədən uzunmüddətli kontrakt-

larla gətirilir. Sadəcə, biz gələcək tələbatı və yaranmış vəziyyəti nəzərə alaraq gətirdik və bu gün alınan gəmilərin hamısı artıq kontraktdadır. Bunun 5-ini bu il gətirmişik, 4-ünü keçən il, 2-sini isə ondan əvvəl. 2 ilə gətirdiyimiz bu 11 gəminin hamısı kontraktdadır.

**İ l h a m Ə l i y e v:** Boş dayanan gəmi yoxdur?

**R a u f V ə l i y e v:** Xeyr, yoxdur. Bayaq Sizə məruzə etdiyim kimi, bu gəmilərdən təchizatla yanaşı, həm də yanğından mühafizə işlərində istifadə olunur. «Xocalı» və «Quba» gəmiləri Xəzərdə bu tipli gəmilərin ən böyükləridir.

**İ l h a m Ə l i y e v**: Bunlar digər gəmilərdən fərqlənir?

**R a u f V ə l i y e v:** Bəli, bu gəmilər həcmcə daha böyükdür. Şükürlər olsun, gəmilərin 5-i də gəldi, 5-i də kontraktdadır.

**İ l h a m Ə l i y e v**: Çox yaxşı. Heyət də formalaşıb?

**R a u f V ə l i y e v:** Bəli, heyət də 100 faiz azərbaycanlılardan formalaşıb. Ən önəmlisi odur ki, adətən, neft-qaz layihələrini yerinə yetirmək üçün operator olan xarici şirkətlərlə uzunmüddətli kontraktlar bağlanırdı. Bu gəmilər bəzən 1 il müddətinə sifariş olunurdu, lakin 6 aydan sonra növbəti kontrakt imzalamaq lazım gəlirdi, beləliklə, qalan 6 ayın pulu xarici şirkətlərə ödənilirdi. Bizim isə Dövlət Neft Şirkəti, *bp*, Total S.A. ilə danışıqlarımız belə oldu ki, onlar bizə öz proqnozlarını verir, biz də çalışırıq ki, verilən proqnoz əsasında burada gələcək layihələr üçün tələb oluna bi-

ləcək sayda gəmi saxlayaq. Onlar yalnız lazım olan dövrün pulunu ödəyirlər.

**İlham Əliyev:** Çox yaxşı, əlbəttə, bu daha məntiqlidir.

*Sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verən DP-2 sisteminə, eləcə də dəniz obyektlərində yanğın zamanı hadisəyə ilkin müdaxilə etməyə şərait yaradan FiFi-1 təsnifat dərəcəsinə malik bu yeni gəmilər Xəzərdə neft-qaz hasilatı sahəsində fəaliyyət göstərən şirkətlərə xidmət göstərəcəkdir.*

*Bu gün istismara verilmiş gəmilər Xəzərdə aparıcı mövqemizin qorunub saxlanılmasında, xarici sularda fəaliyyətin genişləndirilməsi ilə bir bazardan asılılığın aradan qaldırılmasında, Azərbaycan ərazisindən artan tranzit yüklərin daşınmasında, dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm əhəmiyyət kəsb edir. Həmçinin «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi»nin donanmasında gəmilərin sayının artması dənizçilər üçün yeni iş yerlərinin açılması baxımından da önəmlidir.*

## «AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ BABA RZAYEV İLƏ GÖRÜŞ

*16 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayevi qəbul etmişdir.*

**İlham Əliyev**: Son illərdə bir çox yeni elektrik stansiyaları tikilibdir. Hazırda Azərbaycan özünü elektrik enerjisi ilə tam təmin edir və eyni zamanda, bizdə ixrac imkanları yaradılıbdır. Bu il biz önəmli addımların atılması nəticəsində yeni istehsal güclərini işə saldıq. İlk növbədə, «Şimal-2» Elektrik Stansiyasının fəaliyyətə başlaması önəmli hadisədir. Sentyabr ayında mənim iştirakımla stansiyanın açılışı oldu. Gücü 400 meqavat olan stansiya bizim enerji potensialımızı xeyli artırır. Şərti yanacağın sərfiyyatı da çox aşağı səviyyədədir. Ona görə bu stansiya bütün standartlara cavab verir. Artıq bir neçə ay keçibdir, stansiyanın fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?

**Baba Rzayev:** Cənab Prezident, qeyd etdiyiniz kimi, Sizin birbaşa tapşırığınız əsasında biz bu stansiyanı işə salmaq üçün böyük bir qrup yaratdıq. Biz analizlər apardıq və bu il sentyabrın 5-də Sizin iştirakınızla 400 meqavatlıq bu istilik elektrik stansi-

yasını işə saldıq. Qeyd etdiyiniz kimi, bu, Cənubi Qafqazda yük rejimindən asılı olaraq, 214–216 qram xüsusi şərti yanacaq işlədən yeganə yarımstansiyadır. Yəni çox qənaətcildir və onun faydalı iş əmsalı 57,4 faizdir. İl ərzində 3,2 milyard kilovat-saat enerji istehsal edir.

**İ l h a m Ə l i y e v:** Hazırda stansiya hansı səviyyədə işləyir, tam gücü nə qədərdir?

**B a b a R z a y e v:** Tam gücü ilə işləyir. Biz rejimdən asılı olaraq 380 meqavat yükləyirik, hazırda 380 meqavatla işləyir.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Bu bizim enerji potensialımızı yüksək dərəcədə gücləndirir və artan tələbatı da təmin edəcəkdir. Eyni zamanda, ilin əvvəlində sizə göstəriş vermişdim ki, «Azərbaycan» İstilik Elektrik Stansiyasının təmir-bərpa işləri təmin edilsin, 8 blokdan 5-ində yenidən qurulma işləri aparılmalı və tamamlanmalı idi. Bu sahədə vəziyyət necədir?

**B a b a R z a y e v:** Cənab Prezident, 5 blokda yenidən qurulma işləri artıq başa çatıb. Bundan başqa, məruzə etdiyim kimi, 500 kilovoltluq açıq paylayıcı qurğu tamamilə yenidən qurulub, 330 kilovoltluq paylayıcı qurğuda isə işlərin 80 faizdən çoxu icra olunubdur. Bu, qəzaların qarşısını tamamilə almağa kömək edəcəkdir.

Cənab Prezident, mən Sizə məruzə etmək istəyirəm ki, bu stansiyanın təməlini ulu öndər qoyub. Çox çətinliklə də olsa, sovetlər birliyindən bu layihəni alıb Azərbaycanda yerləşdirməyə nail olubdur. Siz də bu

stansiyaya ikinci həyat verdiniz. Bu, Mingəçevir camaatında həqiqətən, çox böyük ruh yüksəkliyi yaradıb. «Azərbaycan» İstilik Elektrik Stansiyasında və Mingəçevir Su-Elektrik Stansiyasında 1600 nəfərdən çox adam işləyir. Onlar ümidlərini itirmişdilər. Düşünürdülər ki, bunun dövrü artıq bitib, bundan sonra 3 il, 5 il iş yeri olmayacaq. Bugünkü vəziyyəti görürlər və bilirlər ki, həqiqətən, orada hələ 20–30 il də işləmək mümkün olacaqdır.

**İlham Əliyev:** Elədir. Amma əfsuslar olsun ki, əvvəlki dövrlərdə stansiya öz potensialını xeyli dərəcədə itirmişdi. Ona görə mən «Azərenerji»nin yeni rəhbərliyi qarşısında vəzifə qoydum ki, itirilmiş güclər bərpa edilsin. O vaxt belə hesablanmışdı ki, ən azı 300 meqavat elektrik enerji potensialı bərpa edilməlidir. Bu istiqamətdə hansı addımlar atılıb və gələn il hansı işlər gözlənilir?

**Baba Rzayev:** Cənab Prezident, artıq 200 meqavatı bərpa olunub və biz 300 meqavat yox, 400 meqavat gözləyirik, hətta bir az da ondan çox. Biz 400 meqavatı yay rejimində, qış rejimində isə təqribən 500–550 meqavat artırılmasını gözləyirik.

**İlham Əliyev:** Yəni qalan 3 blok da təmir olunacaq?

**Baba Rzayev:** Bəli, tamamilə. Əsas məsələ odur ki, biz onun həm soyutma sistemini, həm də kimyəvi reagentlər olan sahəsini tamamilə yenidən qurmuşuq. Orada blokların özünü, generator, turbin və qazanları tamamilə yenidən qururuq. Amma

köməkçi qurğu və binaların hamısını, demək olar ki, sıfırdan tikməyə başlamışıq.

**İ l h a m  Ə l i y e v:** Çox vacibdir, bu bizim strateji obyektimizdir. Keçən ilin yayında baş vermiş qəza, əlbəttə, bizə çox baha başa gəldi. Bundan həm bizim vətəndaşlar əziyyət çəkdilər, metroda qalanlar oldu, həm də sənaye müəssisələri ziyan çəkdi. Ona görə qəzanın səbəblərinin araşdırılması üçün komissiya yaradıldı və səhlənkarlığa, pozuntulara yol verən bütün vəzifəli şəxslər işdən kənarlaşdırıldı. Bizim strateji obyektimiz olan Mingəçevir Elektrik Stansiyasının bərpası və qəzadan özümüzü sığortalamaq məsələləri «Azərenerji»nin yeni rəhbərliyi qarşısında əsas vəzifə kimi dayanıbdır. Eyni zamanda, 400 meqavat gücündə olan «Şimal-2» stansiyasının məhz Bakıda inşa edilməsi bizim enerji generasiya güclərimizin ölkə ərazisində daha bərabər şəkildə paylanılmasına xidmət göstərir.

Qəzadan sonra mən göstəriş vermişdim ki, bununla paralel olaraq, bizim bütün metro stansiyalarında generatorlar quraşdırılsın. Generatorların əsas işi ondan ibarətdir ki, əgər qəza baş verərsə, qatarlar perrona qədər hərəkət edə bilsin və eskalatorlar da işləsin. Generatorların quraşdırılması nə yerdədir? Bu iş başa çatıb, yoxsa yox?

**B a b a  R z a y e v**: Cənab Prezident, məruzə edim ki, bu iş artıq 100 faiz başa çatıbdır. Artıq mərkəzi idarəetmə pultu Bakı Metropoliteninin baş ofisindədir və orada təhvil-təslim işləri başa çatıb. Bizim 10 ya-

rımstansiyada gücü 2500, 2000 və 1000 kilovolt olan 17 generator quraşdırılıb, 39 meqavat yeni güc mənbəyi yaradılıb və ehtiyata verilibdir. İşlər çox yüksək səviyyədə tam başa çatdırılıbdır.

**İlham Əliyev:** Çox yaxşı. Bir məsələ də daim diqqət mərkəzində olmalıdır. Bu da bərpa olunan enerji növlərinin yaradılmasıdır. Şadam ki, bu sahəyə xarici investorlar da böyük maraq göstərirlər. Hazırda Azərbaycan Energetika Nazirliyi bu işlərlə məşğul olur, tender elan olunub və bu sahədə böyük təcrübəsi olan şirkətlər tenderdə iştirak edirlər. Yəni sevindirici hal ondan ibarətdir ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlər öz aralarında rəqabət aparır. Vaxtilə biz investorları inandırmağa çalışırdıq ki, gəlib vəsait qoysunlar. Ancaq indi investorlar özləri maraq göstərirlər. Biz tenderin qalibini açıq və şəffaf tender şərtlərinə uyğun müəyyən etməliyik. Bu çox sevindirici haldır. Çünki söhbət təqribən 400–500 meqavat gücündə bərpa olunan elektrik stansiyalarının inşasından gedir. Eyni zamanda, keçən il biz Azərbaycanda dövlət xətti ilə yaradılmış Külək Elektrik Stansiyasının açılışını mənim iştirakımla qeyd etdik. Stansiyanın gücü 50 meqavatdır və bu stansiya indi necə işləyir? Əlavə stansiyanın tikintisi nəzərdə tutulur, yoxsa yox?

**Baba Rzayev:** Cənab Prezident, qeyd etdiyiniz kimi, 50 meqavat gücündə Yaşma Külək Elektrik Stansiyası tam gücü ilə işləyir. Biz 2018-ci ildə 60 milyon kilovat-saat, 2019-cu ildə isə 80 milyon kilovat-saat enerji istehsalına nail olmuşuq. Artıq bu günə olan

məlumatlar bizdə vardır. Bu da təxminən 13-14 milyon kubmetr qazın qənaəti deməkdir, buna böyük ehtiyac vardır. Sizin tapşırığınızla Bakı–Quba magistralının sağ tərəfində – təzə yolla köhnə yolun arasında 84 meqavat gücündə Şurabad Külək Elektrik Stansiyasının bütün layihə-smeta sənədləri artıq hazırlanıb, torpaqların alınması, ötürmə xətləri məsələləri həll edilib və «Vestas» şirkəti bu işə cəlb olunubdur.

**İ l h a m Ə l i y e v**: Yəni gələn il işlərə başlaya bilərik?

**B a b a R z a y e v:** Bəli, gələn il işlərə başlaya biləcəyik.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı, buna ehtiyac vardır. Çünki bizim indi generasiya gücümüz daxili tələbatdan daha böyük həcmdə istehsal olunur. Bu da təbiidir. Çünki bizdə həmişə ehtiyat olmalıdır. Eyni zamanda, yaradılmış şərait imkan verir ki, biz elektrik enerjisini ixrac edək və bu gün bu sahə ölkəmizə valyuta gətirir. İxrac da olmalıdır, daxili tələbat da təmin edilməlidir. Ancaq biz hamımız onu da bilməliyik ki, daxili tələbat artır və artacaqdır. İlk növbədə, artan əhali təbii ki, yeni güclərin işə salınmasını diktə edir, digər tərəfdən, ölkəmizə gələn xarici qonaqların sayı artıq bu il 3 milyonu keçib və təbii ki, bu xidmət sektorunda mövcud olan enerji potensialı daha da artmalıdır və əlbəttə, əsas məsələ artan sənayedir. Bu il qeyri-neft sektorumuzda sənaye istehsalı 14 faiz artıb və bizim sənayeləşmə ilə bağlı olan digər layihələr bu

gün reallaşır. Sənaye parkları, sənaye zonaları, yeni sənaye müəssisələri yaradılır ki, bütün bunlar da enerji tələb edir. Ona görə biz öz strateji addımlarımızı elə atmalıyıq ki, daim Azərbaycanın tələbatı, o cümlədən sənaye istehsalı ilə bağlı olan tələbat enerji generasiya gücləri ilə, yarımstansiyalarla, ötürücü xətlərlə təmin edilsin ki, heç bir problem olmasın. Necə ki, bu gün heç bir problem yoxdur. Əminəm ki, gələn il də «Azərenerji» və onun bütün kollektivi öz vəzifə borcunu ləyaqətlə yerinə yetirəcək və Azərbaycanda enerji dayanıqlığı daim təmin ediləcəkdir.

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ**
**ƏLAHƏZRƏT ŞEYX TƏMİM**
**BİN HƏMƏD ƏL-TANİYƏ**

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Qətər əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 dekabr 2019-cu il*

## UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİNİN QARŞILANMA MƏRASİMİ

*17 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenskinin dekabrın 17-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident Vladimir Zelenskinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidenti Vladimir Zelenskini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Ukrayna Prezidentinə raport verdi.*

*Vladimir Zelenski Azərbaycan əsgərlərini salamladı.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Ukraynanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Vladimir Zelenskiyə, Ukrayna nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan və Ukrayna prezidentlərinin qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*17 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 17-də Ukrayna Prezidenti Vladimir Zelenski ilə təkbətək görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident, mən Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Əminəm ki, səfəriniz uğurlu olacaq və Ukrayna–Azərbaycan əlaqələrinin inkişafına təkan verəcəkdir. Fürsətdən istifadə edərək, Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi təbrik edirəm. Şadam ki, qələbədən bir neçə ay sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu onu göstərir ki, Siz Ukrayna–Azərbaycan əlaqələrinin inkişafına böyük diqqət göstərirsiniz. Biz də bu münasibətlərə eyni diqqəti göstəririk.

İkitərəfli gündəlik kifayət qədər genişdir. Bu gün həm siyasi əlaqələr, həm humanitar digər sahələrdə əlaqələr, eyni zamanda, iqtisadi sahədə əməkdaşlıq müzakirə olunacaq. Əminəm ki, keçiriləcək danışıqlar və imzalanacaq sənədlər bizim əlaqələrimizi daha da möhkəmləndirəcək. Bir daha xoş gəlmisiniz!

**Vladimir Zelenski:** Cənab Prezident, xoş sözlərinizə görə təşəkkür edirəm. Azərbaycana rəsmi səfərə dəvət edilməyimə görə də Sizə dərin minnətdarlığımı bildirirəm. Səmimi demək istəyirəm ki, mən bundan əvvəl də Azərbaycanda səfərdə olmuşam. Azərbaycana hər səfərimdən sonra mən Ukraynaya yeni hisslərlə, yeni emosiyalarla və yeni dostlarla qayıdıram. Azərbaycan çox qonaqpərvər torpaqdır. Fürsətdən istifadə edərək, Sizi də Ukraynaya rəsmi səfərə dəvət edirəm. Əmin edirəm ki, biz də olduqca qonaqpərvər bir ölkəyik.

Ölkələrimiz arasında da hazırda möhkəm münasibətlər vardır. Əminəm ki, bu səfərin nəticəsi olaraq, biz onu yeni mərhələyə qaldıra biləcəyik. Azərbaycana minnətdarlığımızı bildirmək istəyirik ki, Ukraynanın suverenliyini və ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Xahiş edirəm biləsiniz ki, biz də eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*17 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin nümayəndə heyətlərinin iştirakı ilə dekabrın 17-də təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüş keçirilmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, hörmətli qonaqlar! Mən sizi bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Biz sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz iki ölkə arasındakı əlaqələrə güclü təkan verəcək. Biz artıq təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik və bir daha gördük ki, ikitərəfli gündəlik kifayət qədər genişdir. İndi geniş tərkibdə danışıqlarda biz məsələləri ətraflı müzakirə edəcəyik. Əminəm ki, səfərin çox gözəl nəticələri olacaqdır. Bir çox önəmli məsələlər müzakirə olundu, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər. Ənənəvi olaraq energetika, nəqliyyat sahələrində əməkdaşlıq uğurla davam etdirilir. Təkbətək görüşdə biz bu əlaqələrin gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi apardıq. Bir önəmli sahə də kənd təsərrüfatıdır. Biz əvvəlki illərdə Ukraynadan bir çox

kənd təsərrüfatı texnikası almışıq. Əlbəttə, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı məsələlər böyük maraq doğurur. Əminəm ki, bu gün keçiriləcək Ukrayna–Azərbaycan biznes-forumu biznes dairələri arasındakı əlaqələrə də müsbət təsir göstərəcəkdir. Bir daha xoş gəlmisiniz!

**Vladimir Zelenski:** Möhtərəm cənab Prezident, hörmətli nümayəndə heyəti!

Bir daha hamınıza təşəkkürümü bildirirəm. Bu gün Azərbaycanda ilk rəsmi səfərdə olmağım çox böyük məmnunluq doğurur. Xüsusilə ona görə ki, Azərbaycan bizim üçün çox qonaqpərvər və dost ölkədir.

Cənab Prezident, biz müzakirələrdə münasibətlərimizin yaxşı səviyyədə olduğunu qeyd etdik. Ancaq düşünürəm ki, Azərbaycan–Ukrayna münasibətlərini növbəti daha yüksək mərhələyə qaldırmağa böyük imkanlar vardır.

Cənab Prezidentlə razılığa gəldik ki, yaxın zamanda Azərbaycandan bir işçi heyəti Ukraynaya səfər edəcək və orada bizim bütün şirkət və müəssisələrdə olub imkanları yerində araşdıracaqdır. Energetika, kənd təsərrüfatı, turizm, infrastrukturun inkişafı sahələri bizim üçün böyük maraq kəsb edir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*17 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin iştirakı ilə dekabrın 17-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Gəncə şəhəri və Odessa şəhəri arasında Niyyət Protokolu»nu, «Quba şəhəri ilə Truskavets şəhəri arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Müqavilə»ni Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev və Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski imzaladılar.*

*«Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ukraynanın Dövlət Tənzimləmə Xidməti arasında biznesin aparılması şəraitinin tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında Saziş»i, «Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə Ukraynanın Dövlət Xüsusi Rabitə və Məlumatın Mühafizəsi Xidməti Administrasiyası arasında Bakı–Kiyev dövlətlərarası hökumət rabitə xəttinin təşkil edilməsi haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ukraynanın Xarici İşlər naziri Vadim Pristayko imzaladılar.*

## UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*17 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Vladimir Zelenski dekabrın 17-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük önəm veririk və şadam ki, səfər çox uğurlu keçir. Bu gün aparılan danışıqlar bir daha onu göstərir ki, gələcək əməkdaşlıq üçün çox gözəl imkanlar və perspektivlər vardır.

Mən çox şadam ki, Prezident vəzifəsinə seçilməyinizdən bir neçə ay sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu Sizin bizim ölkəmizə olan diqqətinizin təzahürüdür. Biz də Ukrayna–Azərbaycan əlaqələrinin inkişafına çox böyük diqqət yetiririk. Bu gün həm təkbətək formatda, eyni zamanda, nümayəndə

heyətlərinin iştirakı ilə danışıqlarda Ukrayna–Azərbaycan ikitərəfli əlaqələrinin müxtəlif aspektləri geniş müzakirə olundu və çox səmərəli fikir mübadiləsi aparıldı.

Bizim siyasi əlaqələrimiz yüksək səviyyədədir. Prezidentin Azərbaycana rəsmi səfəri bunu təsdiqləyir. Bu gün biz ticarət dövriyyəsinin artırılması istiqamətində atılacaq addımlar haqqında da danışdıq. Düzdür, bu il ticarət dövriyyəmiz təqribən 20 faiz artıbdır. Ancaq mütləq rəqəmlər bizi qane edə bilməz və bu gün gələcək əməkdaşlıqla bağlı konkret məsələlər müzakirə olundu.

Bir qədər sonra keçiriləcək Ukrayna–Azərbaycan biznes-forumu da əminəm ki, iqtisadi sahədə, biznes dairələrinin birgə fəaliyyəti sahəsində çox önəmli addım olacaqdır. Bu biznes-foruma həm Ukrayna, həm də Azərbaycanın biznes dairələrində çox böyük maraq vardır. Əminəm ki, konkret məsələlər müzakirə ediləcəkdir.

Təbii ki, Ukrayna–Azərbaycan ikitərəfli hökumətlərarası birgə Komissiyasının fəaliyyətindən çox şey asılıdır. Əfsuslar ki, son bir neçə il ərzində Komissiya, demək olar, fəaliyyət göstərmirdi. Ancaq biz indi birgə qərarla Komissiyanın fəaliyyətinə yeni təkan veririk. Razılaşdırdıq ki, gələn ay artıq Komissiya yığışacaq və prezidentlər tərəfindən verilmiş tapşırıqlar geniş müzakirə ediləcəkdir.

Ticarət dövriyyəsinin artırılması ilə yanaşı, birgə sərmayə qoyuluşu layihələri böyük maraq doğurur.

Biz bu barədə də geniş fikir mübadiləsi apardıq. Həm Ukraynanın Azərbaycana, həm də Azərbaycanın Ukraynaya sərmayə qoyuluşu ilə bağlı konkret təkliflər vardır. Hesab edirəm ki, bu təkliflər həyatda öz əksini tapa bilər. Bir çox sahələrdə birgə sərmayə layihələri bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Energetika sahəsində əməkdaşlıq müzakirə edildi. SOCAR artıq uzun illərdir ki, Ukraynada fəaliyyət göstərir, 60-dan çox yanacaqdoldurma məntəqəsi, 4 neft bazası vardır. Bu gün biz bir daha bu məsələni müzakirə edərkən razılığa gəldik ki, SOCAR Ukraynadakı fəaliyyətini genişləndirəcək və konkret addımlar atılacaqdır.

Əvvəlki illərdə kənd təsərrüfatı sahəsində əməkdaşlıq aparılırdı. Biz Ukraynadan 400-dən çox kənd təsərrüfatı texnikası almışıq və bu əməkdaşlığı davam etdirmək istəyirik.

Digər önəmli məsələ – bu gün bu məsələyə kifayət qədər böyük vaxt ayrıldı – turizmin inkişafıdır. Həm Azərbaycanın, həm Ukraynanın çox böyük və zəngin turizm imkanları vardır. Bu sahədə də birgə əməkdaşlıq, təcrübə mübadiləsi, birgə layihələr müzakirə edildi, geniş fikir mübadiləsi aparıldı və konkret tapşırıqlar verildi.

Həm Ukraynada, həm Azərbaycanda nəqliyyat sahəsində müasir logistika və infrastruktur mövcuddur. Xəzər dənizi, Qara dəniz nəqliyyat dəhlizləri bizim ölkəmizin iştirakı ilə fəaliyyət göstərir. Mən Prezidentə məlumat verdim ki, son illərdə Azərbaycanda bu

sahəyə çox böyük investisiyalar qoyulub. Artıq Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçməklə, geniş beynəlxalq əməkdaşlığa da təkan verir, əməkdaşlıq üçün yeni imkanlar açır. Ona görə bu sahədə birgə səylərlə reallaşdırılan Şərq–Qərb nəqliyyat dəhlizi, Bakı–Tbilisi–Qars dəmir yolu, «Vikinq» layihəsi – bütün bu layihələr geniş mənada regional əməkdaşlığı daha da möhkəmləndirəcək, ölkələrimizə fayda verəcəkdir.

Təbii ki, humanitar sahədə əməkdaşlığa da yer ayrıldı. Azərbaycanda Ukrayna mədəniyyətinə çox böyük hörmət var, Ukrayna dili tədris edilir. Bakı Slavyan Universitetində Ukrayna Mərkəzi vardır. Eyni zamanda, Ukraynanın ali məktəblərində Azərbaycan tarixinə, ədəbiyyatına kifayət qədər böyük yer ayrılır. Təbii ki, humanitar sahədə əməkdaşlıq ümumi əməkdaşlığa da müsbət təsir göstərir.

Əlbəttə, biz mətbuata verilən bu açıqlamada müzakirə edilmiş bütün məsələləri sadalaya bilmərik. Çünki çox vaxt aparacaq. Ancaq deyə bilərəm ki, davam etməsinə baxmayaraq, bu səfər bütövlükdə çox uğurlu səfər kimi qiymətləndirilə bilər. Əminəm ki, bu səfər Ukrayna–Azərbaycan əlaqələrinin inkişafında yeni səhifənin açılmasına gətirib çıxaracaqdır. Biz konkret məsələləri müzakirə edib konkret tapşırıqlar verdik. Ümid edirəm ki, bu tapşırıqlar aidiyyəti qurumlar tərəfindən uğurla icra ediləcəkdir.

Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz! Sizə və Ukrayna xalqına bir daha yeni uğurlar arzulayıram. Sağ olun.

**Ukrayna Prezidenti Vladimir Zelenskinin bəyanatı**

Hörmətli cənab Prezident, hörmətli media mənsubları!

Cənab Prezident, əvvəlcə, Sizə bu dəvətə görə təşəkkürümü bildirirəm, gözəl ölkənizə səfər edirik. Sizin bu qonaqpərvərliyinizə görə minnətdaram.

Bizim münasibətlərimiz zamanın sınağından keçib. Biz çətin vaxtlarda bir-birimizə hər zaman dayaq olmuşuq. Azərbaycan Ukrayna üçün həmişə etibarlı dost və mühüm strateji tərəfdaş olub və bu gün də bu belədir.

Cənab Prezident, artıq qeyd etdiyiniz kimi, biz müzakirələrimizi bitirmişik, həm təkbətək, həm də geniş tərkibdə görüşlərimiz çox səmimi şəraitdə keçdi. Biz cənab Prezidentlə tərəfdaşlığımızın sözdə deyil, əməldə gücləndirilməsini müzakirə etdik. Xüsusilə də iqtisadi sahəyə diqqət yetirildi. Əminəm ki, hər iki ölkədə Ticarət evlərinin açılması da buna təkan verəcəkdir. Məlumdur ki, 2018-ci ildən Ukraynada Azərbaycan Ticarət Evi fəaliyyət göstərir, bu gün isə mən Azərbaycanda Ukrayna Ticarət Evinin açılışında iştirak edəcəyəm. Bu münasibətlə hər birimizi təbrik edirəm.

Bununla yanaşı, bu gün Bakıda Azərbaycan–Ukrayna biznes-forumu təşkil ediləcəkdir. Əminəm ki, ölkələrimizin işgüzar dairələri qarşılıqlı maraq doğuran müxtəlif məsələləri müzakirə edəcək və konkret nəticələr əldə edəcəkdir.

Qarşılıqlı sərmayə qoyuluşu hər iki ölkənin mənafelərinə xidmət edir, burada müxtəlif birgə layihələrdən söhbət gedə bilər. Məsələn, Azərbaycanın mobil operatoru olan «Bakcell» tərəfindən «Vodafone Ukrayna» səhmlərinin alınması yaxşı bir nümunədir. Bu bizim bu sahədə olan xidmətlərin yüksəldilməsinə kömək edəcəkdir. Bununla yanaşı, mən Azərbaycan şirkətlərini də Ukraynada özəlləşdirmədə fəal iştiraka dəvət edirəm. Artıq 10 ildir ki, SOCAR Ukraynada uğurla fəaliyyət göstərir. Biz də əlimizdən gələni edəcəyik ki, neft-qaz məhsullarının hasilatı və daşınmasına hər cür dəstək göstərək.

«Cənub Qaz Dəhlizi» layihəsi də bizim ölkəmiz tərəfindən xüsusi izlənilir. Bu layihənin genişləndirilərək, Avropa istehlakçılarına çatdırılmasına öz töhfəmizi müzakirə etdik. Xüsusilə də hesab edirəm ki, bizim – həm Ukraynanın, həm Azərbaycanın misilsiz nəqliyyat potensialı vardır. Biz belə qərara gəldik ki, nəqliyyat və aviasiya daşımaları sahələrində də təmaslarımızı, əməkdaşlığımızı gücləndirək. Növbəti il yanvarın sonunadək biz Kiyev şəhərində ikitərəfli hökumətlərarası birgə Komissiyanın iclasını təşkil edəcəyik.

Aerokosmik sahədə əməkdaşlığa xüsusi diqqət yetirildi. Müxtəlif sahələrdə – təyyarə istehsalı sahəsində, humanitar sahədə məsələləri müzakirə etdik. Azərbaycanda Ukrayna Kinosu günləri təşkil ediləcəkdir. Sizin də şahidi olduğunuz kimi, burada bir neçə sənəd – biznesin inkişafı, məxfi məlumatların qorunması, Ukrayna və Azərbaycanın müxtəlif bölgələrinin birgə əməkdaşlığının təşviqi ilə bağlı sənədlər imzalandı.

Təbii ki, bizim bugünkü söhbətimizin əsas hissəsini milli və regional təhlükəsizlik məsələləri təşkil edirdi. Biz Azərbaycanda Dağlıq Qarabağ  və Ukraynanın şərqində baş verən münaqişələri müzakirə etdik. Biz bir-birimizi ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi məsələsində də dəstəkləyirik. Burada söhbət beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bərpadan gedir. Bu baxımdan bu prinsip həm ikitərəfli təmaslarda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bizim əməkdaşlığı özündə ehtiva edir. Bu bizim ölkələrimiz arasında olan münasibətlərin səviyyəsinin göstəricisidir. Biz həm regional, həm də qlobal səviyyədə birgə mövqedən çıxış edirik. Azərbaycana 2020-ci ildə GUAM-a uğurlu sədrlik arzu edirəm.

Cənab Prezident, Siz qeyd etdiyiniz kimi, bu mənim ölkənizə ilk rəsmi səfərimdir. Bu səfər yeni başlanıb, amma artıq məndə belə bir əminlik var ki, bu bizim əməkdaşlığımızın yeni səviyyəsinin göstəricisi olacaqdır. Əminəm ki, bu bizim gələcək potensialımızın inkişafına xidmət edəcəkdir. Təşəkkür edirəm.

## AZƏRBAYCAN – UKRAYNA BİZNES-FORUMUNDA İŞTİRAK

*17 dekabr 2019-cu il*

*Bakıda dekabrin 17-də Azərbaycan–Ukrayna biznes-forumu keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski biznes-forumda iştirak etmişlər.*

*Dövlət başçıları biznes-forumda çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycan–Ukrayna biznes-forumunda Ukraynadan 90-dan çox şirkət, Azərbaycandan isə 100-dən artıq şirkət təmsil olunur. Bu rəqəmlər özlüyündə bir göstəricidir. Onu göstərir ki, belə biznes-forumun keçirilməsinə böyük maraq var. Sözün düzü, çoxdandır ki, Ukrayna–Azərbaycan biznes-forumları keçirilmirdi. Onu da bildirməliyəm ki, çoxdandır hökumətlərarası birgə Komissiya fəaliyyət göstərmirdi. Bu gün Prezident Zelenskinin səfəri zamanı bütün bu məsələlər geniş müzakirə olundu. Müzakirə

edilən məsələlərin arasında iqtisadi-ticari məsələlər xüsusi yer tuturdu.

Mən hesab edirəm ki, Prezidentin səfəri bütövlükdə çox uğurludur. Biz bu gün çox geniş fikir mübadiləsi apardıq, bir neçə önəmli sənəd imzalandı. Əsas odur ki, bizim aramızda yaranan qarşılıqlı etimad, əminəm ki, Ukrayna–Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli rol oynayacaq.

O ki qaldı iqtisadi əlaqələrə, burada istifadə olunmamış çox böyük potensial var. Bu gün biz bu barədə fikir mübadiləsi apardıq, gördük ki, bu il ticarət dövriyyəsinin artmasına baxmayaraq, mütləq rəqəmlər bizi qane edə bilməz. Xüsusilə Azərbaycanın Ukraynaya ixracı birtərəflidir, yəni bu, enerjidaşıyıcıları əsasında formalaşır. Biz çox istərdik ki, Ukraynaya ixracımızı şaxələndirək və bu məqsədlə bir neçə addım atılıb, o cümlədən keçən il Kiyevdə Azərbaycanın Ticarət evi açılıb. Hesab edirəm ki, belə ticarət evlərinin sayı çox olmalıdır və bu gün Bakıda Ukraynanın ticarət mərkəzi açılıbdır. Bu da çox gözəl hadisədir.

Beləliklə, qarşılıqlı ticarətin təşviqi üçün çox önəmli addımlar atılacaq. Eyni zamanda, hesab edirəm ki, biz sərmayə qoyuluşu məsələlərində yeni mərhələyə qədəm qoya bilərik. Son 15 il ərzində Azərbaycana 270 milyard dollar sərmayə qoyulubdur. Bu sərmayənin yarısı xarici sərmayədir. Bu onu göstərir ki, ölkəmizdə çox gözəl investisiya iqlimi vardır, xarici investorların maraqları və buraya qoyulan vəsait dövlət tərəfindən qorunur. Ukraynada da investisiya iqlimi

yaxşılaşır. Biz bunu görürük və böyük investisiyalarla, özəlləşdirmə ilə bağlı böyük planlar vardır. Bu barədə biz Prezidentlə danışdıq, hesab edirəm ki, Azərbaycan şirkətləri müxtəlif investisiya layihələrində fəal iştirak etməlidir. Biz razılaşdıq ki, gələn ilin əvvəlində Ukraynada hökumətlərarası birgə Komissiyanın iclası keçiriləcək. Biz bu Komissiyanın iclasına ciddi hazırlaşmalıyıq. İclasda həm dövlət qurumlarının, həm də özəl sektorun nümayəndələri iştirak etməlidirlər. Bu Komissiyanın işinin konkret nəticələri olmalıdır və ondan sonra bizə məruzə edilməlidir.

Biznes dairələri çox həssasdır. Onlar, adətən, sərmayə qoyuluşu məsələlərinə çox böyük həssaslıqla, ehtiyatla yanaşır və dövlət qurumlarından müvafiq siqnallar gözləyirlər. Hesab edirəm ki, bizim Prezident Zelenski ilə bu biznes-forumda birgə iştirakımız biznes dairələrinə ən gözəl siqnaldır. Hesab edirəm ki, onlar da bunu düzgün başa düşməli və nəticə çıxarmalıdırlar. Nəticə də o olmalıdır ki, bizim iqtisadi əlaqələrimiz daha sıx olsun. Əməkdaşlıq üçün çox geniş imkanlar vardır. Mən sərmayə qoyuluşunu qeyd etdim, eyni zamanda, həm Azərbaycanda, həm də Ukraynada turizm sahəsində böyük imkanlar var. Bizim ölkələrimizin çox zəngin, füsunkar təbiəti, inkişaf etmiş infrastrukturu var, ona görə bu sahəyə də diqqət yetirilməlidir.

Kənd təsərrüfatında əməkdaşlıq uğurla davam etdirilə bilər. Bugünkü əməkdaşlığın səviyyəsi, əlbəttə, bizi qane edə bilməz. Bütövlükdə bütün sahələrdə biz

əməkdaşlığa açığıq və hesab edirəm ki, səfərin bu məsələlərin həllində çox önəmli rolu olacaqdır.

O ki qaldı Azərbaycanda iqtisadi vəziyyətin inkişafına, ukraynalı qonaqlara bildirməliyəm ki – artıq bunu qeyd etmişəm – ölkəmizdə investisiya iqlimi çox müsbətdir və qoyulan sərmayənin həcmi bunu əyani şəkildə göstərir. Son 15 il ərzində Azərbaycanda iqtisadi artım çox sürətlə gedib, deyə bilərəm ki, iqtisadiyyat 3 dəfədən çox artmışdır. Yəni ümumi daxili məhsul 300 faizdən çox artmışdır və əlbəttə, bu, imkan verdi ki, biz həm iqtisadi gücümüzü artıraq, həm də infrastruktur layihələrini icra edək. Əgər 15 il bundan əvvəl yoxsulluq təxminən 50 faiz səviyyəsində idisə, bu gün bu, 5 faiz səviyyəsindədir. Bu onu göstərir ki, təbii resurslardan əldə edilmiş gəlirlər cəmiyyətdə bərabər şəkildə bölünür və cəmiyyətin hər bir təbəqəsi bundan fayda görür. Bu il biz çox ciddi sosial paket təqdim etdik. Əhalimizin təxminən yarısı – 4 milyon 200 min nəfər geniş sosial paketlə əhatə olundu, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəziləri isə 100 faiz artırıldı və Azərbaycan dövləti öz siyasətinin mahiyyətini bir daha göstərdi. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və biz əldə edilmiş əlavə gəlirləri ilk növbədə sosial layihələrə yönəldirik. Eyni zamanda, təbii ki, infrastruktur layihələri də önəmli yer tutur.

Biznes mühitini xarakterizə etmək üçün bildirməliyəm ki, Azərbaycan iqtisadiyyatının 85 faizi özəl

sektorda formalaşır. Bu o deməkdir ki, geniş özəlləşdirmə prosesi artıq tamamlanmaq üzrədir. Dövlətin inhisarında yalnız strateji aktivlər qalıbdır. Məsələn, Dövlət Neft Şirkəti – bizim enerji şirkətimiz, su şirkətimiz, yol tikintisi şirkəti, dəmir yolu, Xəzər Gəmiçiliyi, AZAL – bizim hava yolları və bir neçə başqa şirkət. Onlardan başqa, bizim bütün digər qurumlarımız özəl sektorda fəaliyyət göstərir və əlbəttə ki, bu, xarici investorlar üçün də çox gözəl iqlim yaradır.

Son dövrlərdə vergi və gömrük orqanlarında aparılan islahatlar bu sahələrdə öz nəticəsini verməkdədir. Ölkəmizdə bu sahələr çox problemli sahələr idi. Amma son bir neçə ildə çox ciddi islahatlar aparıldı və artıq bu sahələr şəffaflaşdı və biznes dərhal müsbət reaksiya verdi. Bu ilin 11 ayında vergi və gömrük orqanları xəzinəyə plandan əlavə, təqribən 600 milyon dollar vəsait daxil etmişdir. Xarici borcumuz çox aşağı səviyyədədir, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə artıqdır. Yəni biz istənilən vaxtda xarici borcu sıfırlaya bilərik. Bu yaxınlarda Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatına görə Azərbaycan təmiz donor ölkəsinə çevrilibdir. Yəni biz indi borc alan ölkə deyil, borc verən ölkəyik. Biz özümüz də xarici ölkələrə sərmayə qoyuruq. Bu sərmayələr 20 milyard dollardan artıqdır. Bizim təşəbbüsümüzlə bölgədə çox önəmli enerji və nəqliyyat layihələri həyata keçirilib. Bu layihələrin həyata keçirilməsində

xarici banklar, Avropa bankları, Asiya bankları bizə öz maliyyə dəstəyini göstərib. Biz bu dəstək və daxili resurslarımız hesabına Xəzər dənizini neft kəmərləri vasitəsilə Qara dəniz və Aralıq dənizi ilə birləşdirdik. Eyni zamanda, Azərbaycandan Avropaya uzanan 3500 kilometrlik qaz xətti artıq tamamlanmaq üzrədir. Gələn il biz bunun açılışını qeyd edəcəyik və beləliklə, Azərbaycan nəinki neft ixracatçısı, eyni zamanda, qaz ixracatçısı kimi, dünyada öz sözünü deyəcək.

Bununla paralel olaraq, biz artıq elektrik enerjisini ixrac edirik, o cümlədən də Avropaya. Artan enerji generasiya güclərimiz imkan yaradır ki – təbii ki, biz daxili tələbatımızı ödəmişik – başqa ölkələrin enerji təhlükəsizliyinə də töhfə verək.

Bu gün müzakirə olunan məsələlərdən biri də nəqliyyatla bağlıdır və burada da əməkdaşlıq üçün çox geniş imkanlar var. Biz Ukraynanın nəqliyyat infrastrukturunu Azərbaycanın nəqliyyat infrastrukturu ilə birləşdirə və vahid tarif siyasəti apara bilsək, hesab edirəm ki, ölkələrimizin ərazisindən keçən yükdaşımaların həcmi kəskin artacaq. Biz keçən ilə nisbətən artımı görürük, ancaq hesab edirik ki, bu daha da təsirli ola bilər.

Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. Amma buna baxmayaraq, biz çox böyük investisiya layihələri ilə Azərbaycanı beynəlxalq nəqliyyat-logistika mərkəzlərindən birinə çevirdik və ərazimizdən keçən Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri

bizim bu rolumuzu artırır. Bu layihələr sonrakı digər layihələrə də təkan verdi, o cümlədən Şimal–Qərb və Cənub–Qərb nəqliyyat dəhlizi layihələri. Yəni bütün bu yollar Azərbaycan ərazisindən keçir. Bu layihələr sırf iqtisadi və nəqliyyat layihələri deyil, geniş mənada beynəlxalq əməkdaşlığa da öz töhfəsini verir. Çünki bu dəhlizlər üzərində yerləşən ölkələr təbii müttəfiqlər statusuna qalxırlar. Beləliklə, bu layihələr, o cümlədən təhlükəsizliyə, əmin-amanlığa, qarşılıqlı anlaşmaya da xidmət göstərir. Hesab edirəm ki, bütün müsbət əsasları nəzərə alaraq, biz qısa müddət ərzində həm ticarət dövriyyəmizi artıra, həm də böyük sərmayə qoyuluşu layihələrini icra edə bilərik. Beləliklə, bu biznes-forumun konkret nəticələri olacaqdır. Biz bunu arzulayırıq, buna inanırıq. Azərbaycan və Ukrayna iş adamlarına uğurlar arzulayıram.

Sağ olun.

**Ukrayna Prezidenti Vladimir Zelenskinin çıxışı**

Təşəkkür edirəm, cənab Prezident. Sizi və forumun bütün iştirakçılarını salamlamaq istəyirəm. Bu həm Ukrayna, həm də Azərbaycan üçün çox mühüm hadisədir. Bilirəm ki, burada 90-dan çox Ukrayna şirkəti və 100-dən artıq Azərbaycan şirkəti iştirak edir. Bu gün bizim birlikdə olmağımız çox vacibdir. Təəssüf ki, bir neçə il ərzində belə forum keçirilməyib. Aydındır ki, əgər biz görüşməsək, dialoqa başlamasaq, normal investisiya mühiti ola bilməz. Əgər biz real işlər, real

rəqəmlər barədə danışmasaq, biznes Ukraynaya gəlməyəcək və əksinə. Cənab Prezident çox mühüm iradını bildirdi. Bu, qarşılıqlı etimad məsələsidir.

Bu gün mən Sizin gözəl paytaxtınızda ilk dəfə rəsmi səfərdəyəm. Azərbaycan Prezidenti cənab İlham Heydər oğlu ilə ilk dəfə görüşdüm. Mən hiss edirəm ki, bizdə dialoq başlandı. Bundan sonra konkret addımlar atılmalıdır. Ona görə ki, insanlar nəyisə vəd edəndə öhdəliklərini yerinə yetirməlidirlər. Belə hallar olub və öhdəliklər yerinə yetiriləndə biz etimad qazanırıq. Biz artıq razılaşdıq ki, gələn ay böyük nümayəndə heyəti Ukraynaya səfər edəcək və danışıqlar çərçivəsində iqtisadi sahədə ikitərəfli əməkdaşlığın mühüm məsələləri – infrastruktur, özəlləşdirmə məsələləri müzakirə olunacaq. Ukraynanın 400-dən çox müəssisəsi özəlləşdirmə üçün hazırdır. Biz real investisiyalar görmək istəyirik və hamını görməyə şadıq.

Ukrayna nümayəndə heyətinin tərkibində İnfrastruktur naziri də gəlib. Biz çoxlu infrastruktur layihələrini həyata keçirmək niyyətindəyik, 16 min kilometr yol inşa etməyə hazırıq. Biz bunun marağındayıq ki, Azərbaycan şirkətləri Ukraynada yollar tiksin. Bilirik ki, onlar başqa ölkələrdə uğurla işləyirlər. Hamıya məlumdur ki, Azərbaycanın «Bakcell» mobil operatoru Ukrayna bazarına daxil olub və onun investisiyaları 700 milyon dollara yaxındır. Ukrayna dövləti olaraq, bizim vəzifəmiz bu investisiyaları qorumaqdır. Əlbəttə, bütün bunlar qarşılıqlı etimad səviyyəsində həyata keçirilir. Biz çox istəyirik ki, Azərbaycan Ukraynaya

sərmayə yatırsın. Həmçinin Ukrayna da Azərbaycanda təmsil olunsun. Bizim güclü iqtisadi münasibətlərimiz, həmçinin tarixi münasibətlərimiz vardır.

Daha bir investisiya sahəsi turizm sferasıdır. Məsələn, Xerson vilayətinin rəhbəri burada iştirak edir. Cənab Qusev Xerson vilayətini təmsil etməyə hazırdır. Bu vilayət Ukraynada turizm üçün ən cəlbedici yerlərdən biridir. O bu fəaliyyətə hazırdır, lakin infrastruktur çatışmazlığını hiss edir. Buna görə biz bu sahədə də investisiya layihələrinə dair təklifi nəzərdən keçirməyə hazırıq.

SOCAR şirkəti ilə bizim çox səmimi tərəfdaşlıq, dostluq münasibətlərimiz var. Ukrayna–Azərbaycan əməkdaşlığından söz düşəndə dərhal SOCAR-ı xatırlayırıq. Biz istəyirik ki, SOCAR şirkətinin Ukraynada fəaliyyəti genişlənsin. Biz SOCAR şirkətinin köməyi ilə sərhədin ayrı-ayrı hissələrində xidmətlər təqdim edilməsi üzrə bütöv komplekslər tikmişik və gələcəkdə bu fəaliyyəti genişləndirməyə hazırıq.

Əminəm ki, bu bizim ən maraqlı infrastruktur layihələrindən biri olacaqdır. Mənim bir ideyam var. Siz bir neçə dəfə rəqəmlər səsləndirdiniz – Azərbaycanda dövlət borcu azdır, son 15 ildə ümumi daxili məhsul 300 faizdən çox artıb. Bütün bunlar sizdə var, istərdik ki, bizdə də belə olsun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*17 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından dekabrin 17-də Ukrayna Prezidenti Vladimir Zelenskinin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Ziyafətdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Ukraynanın birinci xanımı Yelena Zelenskaya da iştirak etdilər.*

*Azərbaycan və Ukrayna prezidentləri ziyafətdə çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli Yelena Vladimirovna!

Xanımlar və cənablar!

Cənab Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm. Bu sizin Azərbaycana ilk rəsmi səfərinizdir və şadam ki, səfər çox uğurlu keçir. Bunu apardığımız müzakirələr, imzalanan sənədlər də bir daha təsdiqləyir.

Ölkələrimizi və xalqlarımızı dostluq münasibətləri birləşdirir. Əlamətdar haldır ki, hələ 1918–1920-ci illərdə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda fəaliyyət göstərən 16 xarici dövlətin diplomatik missiyaları arasında Ukraynanın da nümayəndəliyi olmuşdur.

Bu gün biz ikitərəfli əlaqələrimizi nəzərdən keçirdik. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. İnanıram ki, səfəriniz zamanı əldə olunan razılaşmalar və imzalanan sənədlər əlaqələrimizin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

İqtisadi əlaqələrin inkişafı geniş müzakirə edildi. 2018-ci ildə ölkəmizlə xarici ticarət dövriyyəsinin həcminə görə Ukrayna 10-cu yeri tutmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar–sentyabr aylarında Ukrayna ilə ticarət dövriyyəsi 20 faiz artmışdır. 2018-ci ildən Kiyevdə Azərbaycan Ticarət evi fəaliyyət göstərir, bu gün də Sizin iştirakınızla «Ukrayna məhsulları» Mərkəzi Kompleksinin açılışı oldu. Bu gün Azərbaycan və Ukrayna iş adamlarının biznes-forumunun açılışı mərasimində iştirak etdik. Forumda təmsilçilik səviyyəsi və orada aparılan müzakirələr iqtisadi-ticarət əlaqələrimizin inkişafına marağın yüksək səviyyədə olduğunu göstərir.

Ölkələrimiz arasında enerji sahəsində uğurlu əməkdaşlıq mövcuddur. Ukraynada SOCAR-ın nümayəndəliyi

fəaliyyət göstərir. Ukrayna ərazisində SOCAR-ın 62 yanacaqdoldurma məntəqəsi və «SOCAR Energy Ukraine» şirkətinə aid 4 neft bazası mövcuddur.

Azərbaycanla Ukrayna arasında mədəni və humanitar sahələrdə də əməkdaşlığın uğurlu təcrübəsi vardır. 2001-ci ildən Bakı Slavyan Universitetində Ukrayna Tədris-Mədəniyyət Mərkəzi, Ukraynanın da bir sıra təhsil ocaqlarında Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Ukraynanın böyük oğlu şair Taras Şevçenkonun xatirəsi Azərbaycanda əbədiləşdirilib. Onun heykəli Bakı və Zaqatalada ucaldılmışdır. Paytaxtımızın parklarından biri məşhur şairə-dramaturq Lesya Ukrainkanın adını daşıyır, həmin parkda onun büstü qoyulub. 2019-cu ildə Azərbaycanın görkəmli mütəfəkkir şairi İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunub. Əlamətdar haldır ki, bu ilin mayında Kiyevdə böyük şair Nəsiminin heykəlinin rəsmi açılışı olmuşdur. Bakının əsas nəqliyyat qovşaqlarından biri Ukrayna dairəsi adlanır. Bütün bunlar xalqlarımız arasında mövcud olan möhkəm dostluğun göstəricisidir.

Ölkələrimizin regionları da bir-biri ilə sıx əməkdaşlıq edir. Bu istiqamətdə növbəti addım kimi, Quba və Truskavets, Gəncə və Odessa şəhərləri arasında əməkdaşlığın qurulmasını göstərmək olar.

Azərbaycan regionda təhlükəsizliyin və əməkdaşlığın tərəfdarıdır. Lakin regionun ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın

hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilmiş və 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların da bununla bağlı bənzər qətnamələri var. 2018-ci ilin iyulunda Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış Tərəfdaşlıq Prioritetləri sənədində də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunmuşdur.

Hörmətli cənab Prezident, hörmətli Yelena Vladimirovna, sizi bir daha salamlayıram.

**Ukrayna Prezidenti Vladimir Zelenskinin çıxışı**

Çox hörmətli İlham Heydər oğlu!

Çox hörmətli Mehriban Arif qızı!

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Əvvəlcə Azərbaycan Respublikasına rəsmi səfərə dəvətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm.

Mən əvvəllər Azərbaycanda olsam da, yeni statusda Azərbaycana ilk dəfədir səfər edirəm. Ölkəni-

zi ziyarət etdikcə onun gözəlliyinə və bənzərsiz rəngarəngliyinə, ən əsası azərbaycanlıların qonaqpərvərliyinə heyran qalıram.

Dostluq münasibətləri ildən-ilə möhkəmlənən xalqlarımızı bu oxşar xüsusiyyət də birləşdirir. Məşhur Azərbaycan atalar sözündə deyilir: «Xalqların dostluğu sülhün təməlidir».

Ukrayna ilə Azərbaycanın dövlətlərarası münasibətlərinin tarixi uzaq 1919-cu ildən başlayır. Məhz o zaman – 1919-cu il fevralın 8-də Ukraynanın Azərbaycandakı xüsusi diplomatik missiyasının başçısı İvan Kraskovski etimadnaməsini Azərbaycan Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskiyə təqdim etmişdir.

Ötən 100 ildə ölkələrimiz bir çox çətinliklərlə üzləşdilər, böyük uğurlara sevindilər, lakin hər zaman dostluq və iki müstəqil dövlətə qarşılıqlı hörmət prinsiplərinə sadiq qaldılar. Bu prinsiplərə Ukraynanın böyük dostu – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də riayət edirdi. Onun müdrik kəlamlarından birini xatırlatmaq istərdim: «Azadlıq və müstəqillik hər bir xalqın milli sərvətidir». Ukrayna öz azadlığı və suverenliyini müdafiə etmək məcburiyyəti ilə üzləşdi. Biz sülhü və dövlətimizin ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edirik. Təəssüflər olsun ki, eyni təhdid öz ərazi bütövlüyünü bərpa etməyə çalışan Azərbaycan qarşısında da durub. Əminəm ki, dövlətlərimiz bu sınaqlardan müvəffəqiyyətlə çıxacaq. İnanıram ki, uzun zamandır gözlənilən sülh həm Ukrayna, həm də Azərbaycan torpaqlarında zəfər çalacaq.

Bu gün aparılan danışıqlar Ukrayna və Azərbaycan arasındakı münasibətlərə yeni təkan vermək üçün ortaq səy və siyasi iradənin olduğunu təsdiqlədi. Bunun üçün böyük potensiala və gözəl perspektivlərə malikik.

Hörmətli İlham Heydər oğlu, Azərbaycana dəvət etdiyinizə və səmimi qəbula, eləcə də ölkələrimiz üçün vacib olan bütün məsələlər üzrə aparılan açıq və konstruktiv dialoqa görə Sizə səmimi təşəkkürümü bildirirəm. Ukraynaya edəcəyiniz səfər zamanı bu dialoqun davam etdirilməsinə şad olaram. Əminəm ki, birgə səylərlə dövlətlərimiz arasında mövcud strateji tərəfdaşlığı möhkəmlədə bilərik.

Yaşasın Ukrayna, yaşasın Azərbaycan!

## QIRĞIZ RESPUBLİKASI PARLAMENTİNİN – JOQORKU KENEŞİN SƏDRİ DASTANBEK CUMABEKOV İLƏ GÖRÜŞ

*17 dekabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Qırğız Respublikası parlamentinin – Joqorku Keneşin Sədri Dastanbek Cumabekovu qəbul etmişdir.*

*Joqorku Keneşin Sədri Dastanbek Cumabekov Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarını dövlət başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğız Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə bu ilin oktyabrında Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünün uğurla keçirildiyi, Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun da bu toplantıda iştirak etdiyi və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı. Bu görüş zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə olunduğu bildirildi.*

*Azərbaycanın TÜRKPA-nın IX plenar iclasına uğurla ev sahibliyi edəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı xalqlarımızın ortaq köklərə və mədəniyyətə malik olduğu qeyd edildi, Türk Şurası, Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində də əməkdaşlığın önəmi bildirildi.*

*Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı, Bakı və Bişkek şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

# QEYDLƏR

**1. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı iki-palatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5–8, 9–10, 17–25, 29, 30, 32–33, 100, 107–109, 157, 173, 185–189, 209, 255–259, 278–280.

**2. Patriarx Kirill** (d.1946) – Rusiyanın din xadimi. 2009-cu ildən Moskva və bütün Rusiyanın patriarxıdır. – 5–8, 10.

**3. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə

«Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı

xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5–8, 13, 32, 57,80, 86, 92, 93, 98, 108, 186, 187, 188, 209, 210, 212, 214, 215, 241, 242, 244, 245, 247, 248, 256, 270.

**4. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 5–8, 32.

**5. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci il-

də yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 9, 18, 24, 25, 109, 173, 185, 186, 187, 241, 248.

**6. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 11–12, 90, 100, 155–172, 191–195, 201, 209, 267.

**7. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilmiş növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində isə yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 11, 12, 156–172, 191, 195.

**8. Fələstin,** F ə l ə s t i n D ö v l ə t i – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsa-

sən, Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir. – 14.

**9. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının Sədri (Fələstin Dövlətinin Prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 14.

**10. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 15.

**11. Egils Levits** (d.1955) – hüquqşünas, Latviyanın dövlət və siyasi xadimi. 2019-cu ildən Latviya Respublikasının Prezidentidir. – 15.

**12. Oman,** O m a n S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə

bölünür. Dövlət başçısı Sultandır. Paytaxtı Məskət şəhəridir. – 16.

**13. Qabus bin Səid** (1940–2020) – 1970–2020-ci illərdə Oman Sultanı olmuşdur. Sultan həm də ölkənin Baş Naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edirdi. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınmışdı. – 16.

**14. Elçibəy,** Ə b ü l f ə z  Q ə d i r q u l u  o ğ l u (1938–2000) – şərqşünas. Azərbaycanın dövlət və siyasi xadimi. Azərbaycan Xalq Cəbhəsinin lideri. 1992–1993-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuşdur. – 20.

**15. İsmayıl Berdiyev** (d.1954) – ilahiyyatçı. Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz müftisi. Rusiya Federasiyası Prezidenti yanında Dinlərin Birgə və Qarşılıqlı Şurasının, MDB və Rusiya Dinlərarası Şurası Rəyasət Heyətinin üzvüdür. – 20–25.

**16. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi,

elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 21, 22, 23, 25, 54, 61, 62, 64, 65, 66, 67, 68, 69, 71, 72, 84, 86, 87, 95, 96,99, 100, 114, 115, 116, 117, 118, 119, 124, 181, 182, 183, 193, 194, 221, 270–274, 325.

**17. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının şöbə müdiri, 1995–2019-cu ilin oktyabrına qədər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların

müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. «Heydər Əliyev», «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 3–4.

**18. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak ol-

muş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 29.

**19. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri vardır. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 29, 30.

**20. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 28–31, 90, 209, 213.

**21. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67

milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 29, 30, 209.

**22. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 27, 28, 62, 64, 65, 66, 81, 125, 126, 189, 309.

**23. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Ha-

zırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 23,34–41.

**24. Aleksandr Soljenitsın** (1918–2008) – görkəmli Rusiya yazıçısı, dramaturqu, ictimai və siyasi xadimi. Ədəbiyyat üzrə Nobel mükafatı laureatı. – 30, 127.

**25. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 29, 30, 127.

**26. Vasif Talıbov,** Vasif Yusif oğlu (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 34–41.

**27. Qətər,** Qətər Dövləti – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2,6 milyon nəfərdir. Dövlət başçısı Əmirdir. Paytaxtı Doha şəhəridir. – 42–44, 295.

**28. Şeyx Təmim bin Həməd əl-Tani** (d.1980) – 2013-cü ildən Qətər Dövlətinin Əmiridir. – 44, 295.

**29. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı Kral, qanunverici orqanı iki-

palatalı parlamentdir. Paytaxtı Amman şəhəridir. – 45–48, 260–264.

**30. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. – 47, 260–264.

**31. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – mühəndis, texniki elmlər üzrə fəlsəfə doktoru. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, 2005-ci ildən isə Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 49–53.

**32. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min $km^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 64, 68, 90, 125, 253, 296–309, 312–326.

**33. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 64, 90, 100, 125, 161, 267.

**34. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 56.

**35. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 57.

**36. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 57, 128.

**37. UNESKO –** BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin no-

yabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 58.

**38. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 57, 58, 92.

**39. Sumqayıt hadisələri** – 1988-ci ilin fevralında Sumqayıt şəhərində ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş təxribat xarakterli qırğınlar. – 65.

**40. 1990-cı il 20 Yanvar hadisələri** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yan-

varın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 66, 116, 117.

**41. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilkin partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 67.

**42. Ziya Bünyadov,** Ziya Musa oğlu (1923–1997) – görkəmli Azərbaycan şərqşünası, tarixçi. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı. Tarix elmləri doktoru. Akademik Vasim Məmmədəliyevlə birlikdə Quranın Azərbaycan dilinə tərcüməçisi, Sovet İttifaqı Qəhrəmanı. – 69.

**43. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 70, 71, 125, 128.

**44. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 71.

baycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. – 85.

**50. Cəlil Məmmədquluzadə,** C ə l i l M ə m m ə d- q u l u o ğ l u (1869–1932) – görkəmli Azərbaycan yazıçısı, dramaturq, jurnalist, ictimai xadimi. «Molla Nəsrəddin» ədəbi məktəbinin banisi və ideya rəhbəri. «Çay dəstgahı», «Danabaş kəndinin əhvalatı», «Poçt qutusu», «Qurbanəli bəy», «Ölülər» kimi əsərlərin müəllifidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Cəlil Məmmədquluzadə Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. – 85.

**51. İsmayıl Şıxlı,** İ s m a y ı l Q ə h r ə m a n o ğ- l u (1919–1995) – ədəbiyyatşünas, nasir, publisist, pedaqoq, ssenarist, filologiya elmləri namizədi, Azərbaycan Xalq yazıçısı. 1986–87-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri, Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 85.

**52. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 90.

**53. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 9,7 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 90, 152, 153, 209.

**54. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə ərazisindən Qərb bazarlarına nəql edir. «Cənub Qaz Dəhlizi» layihəsinin məqsədi «Şahdəniz» qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndirilərək, «Cənubi Qafqaz» qaz-boru kəməri, TANAP və Trans–Adriatik boru kəməri vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir. – 103, 105, 145, 155, 158,160, 218, 266, 308.

**55. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman boşnak, serb və xorvat) milli-dini zəmində yaranmış qarşıdurma qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında Saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Herseqovinadan ibarət federativ respublika yarandı. Sahəsi 51,2 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 106, 161, 162.

**56. Jelko Komşiç** (d.1964) – Bosniya və Herseqovina siyasətçisi. 2006–2014-cü illərdə və 2018-ci ildən xorvat

icmasından Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü olmuşdur. – 106.

**57. Valeri Gerasimov** (d.1955) – ordu generalı. 2012-ci ildən Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisidir. – 107–109.

**58. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşdur. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 110–112.

**59. Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur. 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 17 fakültəsi, 121 kafedrası, 37 elmi-tədqiqat və tədris laboratoriyası, 2 institutu, elmi kitabxanası, 6

muzeyi, 4 elmi-tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi vardır. Universitetin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 65 ixtisas, magistr pilləsində 43 ixtisas və 210 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-yədək elmlər doktoru, professor, 800-ədək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 113–136, 225.

**60. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri

**45. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 125.

**46. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 $km^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə

isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 71, 117.

**47. «SOCAR Polymer»** – Azərbaycanın neft-kimya sənayesində dövlət və özəl sektor tərəfdaşlığı ilə yaradılmış ilk şirkət. – 78.

**48. İmadəddin Nəsimi,** S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. Əsərlərini Azərbaycan, ərəb və fars dillərində yazmışdır. Şairin əsərləri dəfələrlə çap edilmiş, haqqında tətqiqat əsərləri yazılmışdır. UNESKO-nun qərarı ilə Nəsiminin anadan olmasının 600 illiyi dünya miqyasında geniş qeyd edilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, 2019-cu il «Nəsimi ili» elan edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə İmadəddin Nəsimi Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. – 85, 228, 243, 245, 248.

**49. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı və dramaturqu.

Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Onun zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. «Ulduz», «Ədirnə fəthi», «Aydın», «Oqtay Eloğlu» kimi əsərlərin müəllifidir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Cəfər Cabbarlı Azər

(1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 113, 114, 117, 120, 322.

**61. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 123, 129, 324.

**62. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu – İsveçrənin kurort şəhəri Davosda keçirilir. 1971-ci ildə yaradılmış, siyasi liderlər isə foruma ilk dəfə 1974-cü ildə dəvət edilmişlər. Forum bu tarixdən qısa müddət sonra siyasi liderlər tərəfindən tərəfsiz bir platforma olaraq, istifadə edilməyə başlanıldı. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 131, 150, 174, 256.

**63. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu –** Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin ali təhsil müəssisəsi. Əsası 1944-cü ildə qoyulmuşdur. Yüksək səviyyəli peşəkar diplomat, tədqiqatçı, jurnalist, siyasi və ictimai xadimlər hazırlayır. – 133–134.

**64. Elçin Babayev,** Elçin Səfəralı oğlu (d.1965) – fəlsəfə doktoru. 2009–2019-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişaf Fondunun icraçı direktoru, 2019-cu ildən Bakı Dövlət Universitetinin rektorudur. – 135.

**65. Rumıniya –** Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 137.

**66. Klaus İohannis** (d.1959) – alman əsilli rumın siyasətçisi və dövlət xadimi. 2014-cü ildən Rumıniyanın Prezidentidir. – 137.

**67. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 143–151.

**68. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 145, 161, 193, 218, 306.

**69. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentidir. – 152.

**70. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949)– Birləşmiş Ərəb Əmirliklərinin Baş Naziri və vitse-prezidenti, Dubay Əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 153.

**71. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard $m^3$ qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə – Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcəkdir. – 155–172, 191, 192, 193, 266.

**72. SOCAR,** Azərbaycan Respublika-sı Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 155, 305, 308, 316, 320, 322, 323.

**73. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğ- lu (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft

Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 155.

**74. Fatih Dönməz** (d.1965) – Türkiyə siyasətçisi. 2018-ci ildən Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər naziridir. – 155.

**75. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan kəmər 2006-cı ildə istifadəyə verilmişdir. – 157, 161, 194, 208, 266.

**76. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 157, 161, 194, 266.

**77. Giorgi Qaxaria** (d.1975) – Gürcüstanın siyasi xadimi. 2019-cu ildən Gürcüstanın Baş Naziridir. – 161.

**78. Cisco** – əsasən böyük təşkilatlar və telekommunikasiya müəssisələri üçün rabitə şəbəkə avadanlığını hazırlayıb satan transmilli amerikan kompaniyası. Dünyada yüksək texnologiyalar sahəsində ixtisaslaşan ən iri kompaniyadır. Kompaniyanın xüsusiyyətlərindən biri biznes modelində mühəndislərin kompüter şəbəkəsində çoxəhatəli sertifikasiya sisteminə yiyələnmələridir. – 177–180.

**79. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 185–189.

**80. Valentina Matviyenko** (d.1949) – Rusiyanın dövlət xadimi. 2003–2011-ci illərdə Sankt-Peterburqun qubernatoru, 2011-ci ildən Rusiya Federasiyası Federal Şurasının, 2013-cü ildən isə MDB Parlamentlərarası Assambleya Şurasının Sədridir. – 188.

**81. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a -s ı – Şimali Avropada dövlət. Sahəsi 338,4 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 190.

**82. Sauli Niinistö** (d.1948) – Finlandiyanın dövlət və siyasi xadimi. 2012-ci ildən Finlandiya Respublikasının Prezidentidir. – 190.

**83. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratmış, məclisin və təşkil edilmiş hökumətin sədri seçilmişdir. Sakarya çayı yaxınlığında qələbəyə görə

TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə onun komandanlığı ilə Türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etmişdir.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 194.

**84. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 196–197, 209.

**85. Həsən Ruhani** (d.1948) –İranın siyasi və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 196, 197.

**86. Naftalan** – Azərbaycan Respublikasında şəhər. Salındığı tarix məlum deyildir. Naftalan sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır. Ehtimala görə hələ qədimdən təbii şəkildə çıxan neftin müalicəvi əhəmiyyətini bilən adamlar onu tuluqlara doldurub müxtəlif yerlərə aparmış və satmışlar. Naftalan neftindən müalicə məqsədilə istifadə olunmasına dair ilk yazılı məlumat XII əsrə aiddir. Dünyada yeganə müalicə nefti Naftalanda çıxarılır.

Balneoloji kurort kimi, 1935-ci ildən fəaliyyət göstərir. Kurortda sümük-əzələ, periferi damar, dəri, ginekoloji xəstəliklər müalicə olunur. – 202–208.

**87. Arzu Əliyeva,** A r z u İ l h a m q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın kiçik qızı. Film prodüseri. – 209.

**88. Ramin Quluzadə,** R a m i n N a m i q o ğ l u (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda fəaliyyət göstərmişdir. 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini işləmiş, 2016–2017-ci illərdə Rabitə və Yüksək Texnologiyalar naziri olmuşdur. 2017-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziridir. – 209.

**89. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–

Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 217.

**90. TRASEKA,** T r a n s – X ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Trans–Xəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 217–219.

**91. Fuad Ələsgərov,** F u a d M u r t u z o ğ l u (d. 1959) – hüquqşünas, 1-ci dərəcəli Dövlət müşaviri. 1998–2017-ci illərdə Azərbaycan Respublikası Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri, 2017-ci ildən isə hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - şöbə müdiridir. – 221.

**92. Ülvi Mehdiyev,** Ü l v i R a m i z o ğ l u (d. 1985) – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri. – 222.

**93. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t- t a h o ğ l u (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 239–244.

**94. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 271.

**95. Vladimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi, siyasətçi, rejissor, bədii direktor, aktyor. 2019-cu ildən Ukrayna Prezidentidir. – 253, 296–309, 312–326.

**96. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi

və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 256.

**97. *bp*,** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 265–267.

**98. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 265–267.

**99. Koreya,** K o r e y a  R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min $km^2$, əhalisi 51,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 268–269.

**100. Mun Ce-İn** (d.1953) – Cənubi Koreyanın siyasi və dövlət xadimi. 2017-ci ildən Koreya Respublikasının Prezidentidir. – 268, 269.

**101. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Sə-

hiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 271.

**102. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ- l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 271.

**103. Əli Əsədov,** Ə l i H i d a y ə t o ğ l u (d.1956) – iqtisadçı. Azərbaycanın siyasi və dövlət xadimi. 1995–2000-ci illərdə Milli Məclisin üzvü, 1998–2012-ci illərdə Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrəköməkçisi, 2012–2019-cu illərdə Prezident Administrasiyası rəhbərinin müavini olmuşdur. 2019-cu ildən isə Azərbaycan Respublikasının Baş Naziridir. – 271.

**104. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron

Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 271.

**105. Samir Nuriyev,** Samir Rafiq oğlu (d.1975) – mühəndis-iqtisadçı. 2018–2019-cu illərdə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, 2019-cu ildən isə Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəridir. – 271.

**106. Qazaxıstan,** Qazaxıstan Respubli-kası – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 275.

**107. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013– 2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 275.

**108. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan

şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 276.

**109. Boris Conson** (d.1964) – Britaniya siyasətçisi. 2019-cu ildən Mühafizəkarlar Partiyasının lideri və Böyük Britaniyanın Baş Naziridir. – 276.

**110. Bəhreyn,** B ə h r e y n  K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 766 $km^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı Əmirdir. Paytaxtı Manama şəhəridir. – 277.

**111. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreyn Əmiri, 2002-ci ildən isə özünü Kral elan etmişdir. Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. –277.

**112. Rauf Vəliyev,** R a u f  G ö y ü ş  o ğ l u (d.1965) – Əməkdar mühəndis. 2007–2013-cü illərdə ARDNŞ-nin Nəqliyyat İdarəsinin rəisi, 2013-cü ildən isə «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin sədridir.– 281–287.

**113. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r - r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 302.

**114. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il) və 2005-ci ildə qurumu tərk etdi. – 309.

**115. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min $km^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 310–311.

**116. Sooronbay Jeenbekov** (d.1958) – Qırğızıstanın siyasi və dövlət xadimi. 2017-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 310.

**117. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 324.

## Şəxsi adlar göstəricisi

**Abbasova Firuzə** – 135
**II Abdullah** – 47, 260–267
**Abdullayev Rövnəq** – 155
**Ağayev Əliağa** – 98
**Amar Şlomo** – 26
**Arzumanzadə İmran** – 55
**Atatürk Mustafa Kamal** – 194
**Babayev Aqşin** – 99
**Babayev Elçin** – 135
**Babayev Muxtar** – 245–247
**Babayeva Ofeliya** – 84–86
**Babuşkin İqor** – 278–280
**Berdiyev İsmayıl** – 20–25
**Bilan Dima** – 33
**Bünyadov Ziya** – 69
**Cabbarlı Cəfər** – 85
**Caferoviç Şefik** – 161
**Cəfərov Toğrul** – 230–231
**Cəhromi Məhəmməd** – 196–197
**Conson Boris** – 276
**Cumabekov Dastanbek** – 310–311
**Dadaşov Məlik** – 99
**Dadli Robert** – 265–267

**Dassen Co** – 33
**Didrix Qay** – 177–180
**Dönməz Fatih** – 155
**Elçibəy Əbülfəz** – 20
**Əfqanlı Rza** – 20
**Əl-Hinzab Feysal** – 432–44
**Əl-Xəlifə Həməd** – 277
**Əl-Məktum Məhəmməd** – 153
**Əl-Nəhəyyan Zaid** – 152
**Əl-Tani Təmim** – 44, 295
**Ələsgərov Fuad** – 221
**Əliyev Heydər** – 21, 22, 23, 25, 54, 61, 62, 64, 65, 66, 67, 68, 69, 71, 72, 84, 86, 87, 95, 96,99, 100, 114, 115, 116, 117, 118, 119, 124, 181, 182, 183, 193, 194, 221, 270–274, 325
**Əliyev Əziz** – 271
**Əliyev Tamerlan** – 271
**Əliyeva Arzu** – 209
**Əliyeva Leyla** – 5–8, 32
**Əliyeva Mehriban** – 5–8, 13, 32, 57,80, 86, 92, 93, 98, 108, 186, 187, 188, 209, 210, 212, 214, 215, 241, 242, 244, 245, 247, 248, 256, 270

**Əliyeva Zərifə xanım** – 247, 271
**Ərdoğan Bilal** – 11–12
**Ərdoğan Rəcəb Tayyib** – 11, 12, 156–172, 191, 195
**Əsədli Etibar** – 136
**Əsədov Əli** – 271
**Əsədov Oqtay** – 271
**Fərəcov Zakir** – 54, 75–84
**Gerasimov Valeri** – 107–109
**German Anna** – 33
**Gəncəvi Nizami** – 56
**Ğoşeh Sami** – 45–48
**Heydərov Kəmaləddin** – 239–244
**Həsənov Fərdar** – 239–244
**Həsənova Xuraman** – 239–244
**Hitler Adolf** – 128, 129
**Hüseynova Jalə** – 228–229
**Xəlilov Rüstəm** – 202–208
**Xoyski Fətəli Xan** – 325
**Xudiyev Azər** – 302
**İmanov Rəşad** – 136
**İohannis Klaus** – 137
**Jao Haulin** – 198–200
**Jeenbekov Sooranbay** – 310
**Kanevski Vladislav** – 32
**Kanq Şin-Uok** – 268–269
**Kenyatta Uhuru** – 254
**Kərimova Səbinə** – 225–236

**Kirill** *(Moskvanın və bütün Rusiyanın patriarxı)*– 10
**Kirkorov Filipp** – 33
**Kuper Abraham** *(ravvin)* – 28–31
**Komşiç Jelko** – 106
**Kutinyo Toto** – 33
**Qabus bin Səid** – 16
**Qaxaria Giorgi** – 161
**Qalkin Maksim** – 32–33
**Qorbaçov Mixail** – 64,66
**Qoykoviç Maya** – 161
**Quluzadə Ramin** – 209
**Qurbanov Cavid** – 49–53
**Lavrov Sergey** – 185–189
**Layçak Miroslav** – 139–142
**Leontyev Valeri** – 33
**Leşşenko Lev** – 33
**Levits Egils** – 15
**Mahmud Abbas** – 14
**Mahmudova Ülkər** – 232–233
**Maqsudov Maqsud** – 94–97
**Marinov Mladen** – 102–105
**Matviyenko Valentina** – 188
**Medvedev Dmitri** – 188
**Mehdiyev Ülvi** – 222
**Meladze Valeri** – 33
**Meta İlir** – 138
**Məmmədov Cəlal** – 97– 101

**Muammar Feysəl** – 27
**Məmmədov İsrafil** – 143–151
**Məmmədov Saleh** – 220
**Məmmədov Tahir** – 221, 248, 252
**Məmmədquluzadə Cəlil** – 85
**Məmmədyarov Elmar** – 302
**Mövsümov Şahmar** – 143
**Mun Ce-İn** – 268, 269
**Mur Conni** – 28–31
**Nərimanov Nəriman** – 99
**Nəsimi İmadəddin** – 85, 228, 243, 245, 248
**Niinistö Sauli** – 190
**Novruzov Vüqar** – 202–208
**Nuriyev Samir** – 271
**Oreşkin Maksim** – 255–259
**Pakdəmirli Bəkir** – 201
**Piç Ser** – 110–112
**Pristayko Vadim** – 302
**Puqaçova Alla** – 33
**Putin Vladimir** – 9, 18, 24, 25, 109, 173, 185, 186, 187, 241, 258
**Ruhani Həsən** – 196, 197
**Rzayev Baba** – 288–294
**Sadıqzadə Nəsir** – 99
**Seyidzadə Dilarə** – 181–184
**Şahi Xəndan** – 248–252
**Soljenitsın** – 30, 127

**Şıxlı İsmayıl** – 85
**Talıbov Nazim** – 86–91
**Talıbov Vasif** – 34–41
**Temrezov Rəşid** – 9–10
**Turhan Məhmət** – 191–195
**Tokayev Kasım-Jomart** – 275
**Vəzirov Əbdürrəhman** – 66
**Vaçiralonqkorn Maha** – 176
**Vəliyev Rauf** – 281–287
**Vinokur Vladimir** – 33
**Voraçit Bounyanq** – 154
**Zelenski Vladimir** – 253, 296–309, 312–326
**Zıkina Lyudmila** – 33

## Coğrafi adlar göstəricisi

**Ağdam** – 57, 128
**Ağsu** – 222
**Albaniya** – 138, 162, 267
**Amerika Birləşmiş Ştatları** – 28–31, 90, 209, 213
**Araz çayı** – 36
**Armavir** – 31
**Asiya** – 168
**Aralıq dənizi** – 166, 317
**Astara** – 52
**Aşqabad** – 29, 128
**Avropa** – 31, 129, 155, 156, 168
**Belarus** – 209, 212
**Bəhreyn** – 277
**Birləşmiş Ərəb Əmirlikləri** – 90, 152, 153, 209
**Bişkek** – 311
**Bosniya və Herseqovina** – 106, 161, 162
**Bolqarıstan** – 102–105
**Böyük Britaniya** – 276
**Ceyhan** – 157

**Ceyranbatan** – 79
**Cənubi Qafqaz** – 78, 205
**Corat** – 79
**Culfa** – 37
**Dağlıq Qarabağ** – 27, 28, 62, 64, 65, 66, 81, 125, 126, 189, 309
**Danimarka** – 90
**Ədirnə** – 155
**Əskişəhər** – 170
**Fələstin** – 14
**Finlandiya** – 190
**Fransa** – 29, 30, 209
**Füzuli** – 57
**Gəncə** – 23, 125
**Gürcüstan** – 64, 90, 100, 125, 161, 267
**Göyçay** – 222
**Hacıqabul** – 202–208
**Həştərxan** – 278–280
**Hindistan** – 100
**Xəzər dənizi** – 281–287, 305, 317
**Xırdalan** – 49
**Xorvatiya** – 209
**İordaniya** – 45–48, 260–264
**İpsala** – 155
**İran** – 196–197, 209
**İsmayıllı** – 222

**İsrail** – 209
**İstanbul** – 156
**İtaliya** – 209
**Keniya** – 254
**Kələki** – 125
**Kəlbəcər** – 71
**Kiyev** – 308, 313
**Koreya Respublikası** – 268–269
**Qaraçay-Çərkəz Respublikası** – 9–10
**Qara dəniz** – 305–317
**Qars** – 156
**Qətər** – 42–44, 295
**Qazaxıstan** – 157, 275
**Qırğız Respublikası** – 125, 310–311
**Qobustan** – 222
**Qüds** – 26
**Laçın** – 125
**Lahıc** – 227
**Laos** – 154
**Latviya** – 15
**Leninqrad** *(Sankt-Peterburq)* – 115
**Makedoniya** – 162
**Masallı** – 206
**Mərmərə dənizi** – 170
**Mingəçevir** – 206, 289
**Moldova** – 64
**Moskva** – 6, 62, 115, 116, 256

**Naftalan** – 202–208
**Naxçıvan** – 35, 71, 117
**Naxçıvan Muxtar Respublikası** – 23, 34–41
**Neftçala** – 206
**Novxanı** – 71, 79
**Nyu York** – 124
**Odessa** – 253
**Oman** – 16
**Ordubad** – 37
**Orta Asiya** – 63, 64, 159
**Pekin** – 185
**Pirşağı** – 50
**Polşa** – 90
**Rumıniya** – 137
**Rusiya** – 5–8, 9–10,17–25, 29, 30, 32–33, 100, 107–109, 157, 173, 185–189, 209, 255–259, 278–280
**Serbiya** – 161, 162
**Sədərək** – 37
**Slovakiya** – 139–142
**Sloveniya** – 209
**Soçi** – 185
**Sumqayıt** – 49, 54–101, 206
**Şahbuz** – 37

**Şamaxı** – 220–252
**Şimali Qafqaz** – 17–25
**Şuşa** – 70, 71, 125, 128
**Tailand** – 176
**Türkiyə** – 11–12, 90, 100, 155–172, 191–195, 201, 209, 267
**Türkmənistan** – 100, 157
**Ukrayna** – 64, 68, 90, 125, 253, 296–309, 312–326
**Venesiya** – 234
**Yaponiya** – 90
**Yunanıstan** – 162, 267
**Zabrat** – 50
**Zabaykalye** – 173

# MÜNDƏRİCAT

MOSKVA VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLL İLƏ GÖRÜŞ

*14 noyabr 2019-cu il* ............................................................................ *5*

RUSİYA FEDERASİYASI QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TEMREZOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 noyabr 2019-cu il* ............................................................................ *9*

DÜNYA ETNOİDMAN KONFEDERASİYASININ SƏDRİ BİLAL ƏRDOĞANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 noyabr 2019-cu il* ............................................................................ *11*

DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*14 noyabr 2019-cu il* ............................................................................ *13*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA

*14 noyabr 2019-cu il* ............................................................................ *14*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EGİLS LEVİTSƏ

*15 noyabr 2019-cu il*..........................................................................*15*

OMAN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*15 noyabr 2019-cu il*..........................................................................*16*

RUSİYA FEDERASİYASININ ŞİMALİ QAFQAZ
RESPUBLİKALARINDAN OLAN BİR QRUP
MÜSƏLMAN DİN XADİMLƏRİNDƏN İBARƏT
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 noyabr 2019-cu il* ..........................................................................*17*

QÜDS SEFARDİ ORTODOKS BAŞ RAVVİNİ ŞLOMO
AMAR İLƏ GÖRÜŞ

*15 noyabr 2019-cu il* ..........................................................................*26*

BEYNƏLXALQ DİNLƏRARASI VƏ MƏDƏNİY-
YƏTLƏRARASI DİALOQ MƏRKƏZİNİN BAŞ KATİBİ
FEYSƏL BİN MUAMMAR İLƏ GÖRÜŞ

*15 noyabr 2019-cu il* ..........................................................................*27*

SİMON VİZENTAL MƏRKƏZİNİN HƏMTƏSİSÇİSİ
VƏ SƏDR MÜAVİNİ, YƏHUDİ DİN XADİMİ RAVVİN
ABRAHAM KUPER VƏ ABŞ-ın XRİSTİAN LİDERLƏR
KONQRESİNİN RƏHBƏRİ CONNİ MUR İLƏ GÖRÜŞ

*15 noyabr 2019-cu il*..........................................................................*28*

TANINMIŞ RUSİYALI YUMORİST, TELE- APARICI, ŞOUMEN VƏ MÜĞƏNNİ MAKSİM QALKİNİN YARADICILIQ GECƏSİNDƏ İŞTİRAK

*15 noyabr 2019-cu il* ..........................................................................32

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOV İLƏ GÖRÜŞ

*18 noyabr 2019-cu il* ..........................................................................34

QƏTƏR DÖVLƏTİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ FEYSAL BİN ABDULLAH HƏMƏD ABDULLAH ƏL-HİNZAB İLƏ GÖRÜŞ

*18 noyabr 2019-cu il* ..........................................................................42

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ SAMİ ABDULLAH ĞOŞEH İLƏ GÖRÜŞ

*18 noyabr 2019-cu il* ..........................................................................45

«AZƏRBAYCAN DƏMİR YOLLARI» QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN BAKI DAİRƏVİ DƏMİR YOLU SABUNÇU–PİRŞAĞI XƏTTİNİN YENİDƏN QURULMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*19 noyabr 2019-cu il* ..........................................................................49

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*21 noyabr 2019-cu il* ..........................................................................54

SUMQAYIT ŞƏHƏRİNDƏ «NİZAMİ» KİNO-
TEATRININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*21 noyabr 2019-cu il ........................................................................55*

SUMQAYIT ŞƏHƏRİNİN 70 İLLİYİNƏ
HƏSR OLUNMUŞ TƏDBİRDƏ İŞTİRAK

*21 noyabr 2019-cu il ........................................................................60*

BOLQARISTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR
NAZİRİ MLADEN MARİNOVUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 noyabr 2019-cu il ......................................................................102*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT
HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JELKO
KOMŞİÇƏ

*22 noyabr 2019-cu il......................................................................106*

RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN
BAŞ QƏRARGAH RƏİSİ VALERİ GERASİMOVUN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*26 noyabr 2019-cu il ......................................................................107*

NATO HƏRBİ KOMİTƏSİNİN SƏDRİ
SER STÜART PİÇİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 noyabr 2019-cu il* ........................................................................ *110*

BAKI DÖVLƏT UNİVERSİTETİNİN 100 İLLİK
YUBİLEY MƏRASİMİNDƏ İŞTİRAK

*26 noyabr 2019-cu il* ........................................................................ *113*

RUMINİYA PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB KLAUS VERNER İOHANNİSƏ

*27 noyabr 2019-cu il* ........................................................................ *137*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB İLİR METAYA

*27 noyabr 2019-cu il* ........................................................................ *138*

SLOVAKİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ
AVROPA NAZİRİ MİROSLAV LAYÇAKIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2019-cu il* ........................................................................ *139*

DÖVLƏT NEFT FONDUNUN İCRAÇI DİREKTORU
VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ İSRAFİL
MƏMMƏDOV İLƏ GÖRÜŞ

*29 noyabr 2019-cu il* ........................................................................ *143*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*29 noyabr 2019-cu il* ........................................ *152*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*29 noyabr 2019-cu il* ........................................ *153*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VORAÇİTƏ

*29 noyabr 2019-cu il* ........................................ *154*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*30 noyabr 2019-cu il* ........................................ *155*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*30 noyabr 2019-cu il* ........................................ *171*

TANAP QAZ KƏMƏRİNİN AVROPA İLƏ BİRLƏŞƏN HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*30 noyabr 2019-cu il* ........................................ *172*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*2 dekabr 2019-cu il ......................................................................... 173*

XXV BEYNƏLXALQ «BAKUTEL–2019» TELE-KOMMUNİKASİYA, İNNOVASİYA VƏ YÜKSƏK TEXNOLOGİYALAR SƏRGİSİ İŞTİRAKÇILARINA

*2 dekabr 2019-cu il ......................................................................... 174*

TAİLAND KRALI ƏLAHƏZRƏT MAHA VAÇİRALONQKORN BODİNDRADEBA-YAVARANQKUNA

*2 dekabr 2019-cu il ......................................................................... 176*

CİSCO ŞİRKƏTİNİN QLOBAL İNNOVASİYALAR ÜZRƏ VİTSE-PREZİDENTİ QAY DİDRİXİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 dekabr 2019-cu il ......................................................................... 177*

DİLARƏ SEYİDZADƏ İLƏ GÖRÜŞ

*2 dekabr 2019-cu il ......................................................................... 181*

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*2 dekabr 2019-cu il ......................................................................... 185*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

*2 dekabr 2019-cu il ........................................................................ 190*

TÜRKİYƏ RESPUBLİKASININ NƏQLİYYAT VƏ
İNFRASTRUKTUR NAZİRİ MƏHMƏT CAHİT
TURHANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*3 dekabr 2019-cu il ........................................................................ 191*

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ
İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ
MƏHƏMMƏD CAVAD AZƏRİ CƏHROMİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*3 dekabr 2019-cu il ........................................................................ 196*

BEYNƏLXALQ TELEKOMMUNİKASİYA
İTTİFAQININ BAŞ KATİBİ HAULİN JAO
İLƏ GÖRÜŞ

*3 dekabr 2019-cu il ........................................................................ 198*

TÜRKİYƏ RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI
VƏ MEŞƏÇİLİK NAZİRİ BƏKİR PAKDƏMİRLİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 dekabr 2019-cu il ........................................................................ 201*

HACIQABUL RAYON VƏ NAFTALAN ŞƏHƏR İCRA
HAKİMİYYƏTLƏRİNİN
YENİ TƏYİN OLUNMUŞ BAŞÇILARI

RÜSTƏM XƏLİLOV VƏ VÜQAR NOVRUZOV İLƏ GÖRÜŞ

*4 dekabr 2019-cu il* ........................................................................*202*

XXV AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA, İNNOVASİYA VƏ YÜKSƏK TEXNOLOGİYALAR SƏRGİSİ – «BAKUTEL–2019» İLƏ TANIŞLIQ

*4 dekabr 2019-cu il* ........................................................................*209*

AVROPA–QAFQAZ–ASİYA BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN (TRASEKA) 20 İLLİK FƏALİYYƏTİNƏ HƏSR OLUNMUŞ YUBİLEY KONFRANSININ İŞTİRAKÇILARINA

*5 dekabr 2019-cu il*.........................................................................*217*

ŞAMAXI RAYONUNA SƏFƏR

*5 dekabr 2019-cu il*.........................................................................*220*

ŞAMAXIDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

*5 dekabr 2019-cu il*.........................................................................*221*

ŞAMAXI RAYONUNDA ZƏLZƏLƏ NƏTİCƏSİNDƏ ZİYAN ÇƏKMİŞ AİLƏLƏR ÜÇÜN YENİ İNŞA EDİLMİŞ 44 MƏNZİLLİ YAŞAYIŞ BİNASINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*5 dekabr 2019-cu il* ........................................................................*239*

AZƏRBAYCANIN FİLOSOF-ŞAİRİ İMADƏDDİN NƏSİMİNİN 650 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ

MÜTƏFƏKKİRİN VƏTƏNİ ŞAMAXIDA KEÇİRİLMİŞ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*6 dekabr 2019-cu il ............................................................................245*

ŞAMAXIDA ŞAHXƏNDAN TÜRBƏSİNİN ƏTRAFINDA APARILMIŞ ABADLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*6 dekabr 2019-cu il ................................................................248*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR ZELENSKİYƏ

*9 dekabr 2019-cu il..........................................................................253*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UHURU KENYATTAYA

*9 dekabr 2019-cu il..........................................................................254*

RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ, RUSİYA–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ MAKSİM OREŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 dekabr 2019-cu il..........................................................................255*

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ KRALI II ABDULLAH BİN ƏL-HÜSEYNİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 dekabr 2019-cu il .....................................................................160*

İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ KRALI II ABDULLAH BİN ƏL-HÜSEYN

İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*10 dekabr 2019-cu il* ........................................................................*262*

*bp* QRUPUNUN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*11 dekabr 2019-cu il* ........................................................................*265*

KOREYA RESPUBLİKASININ STATİSTİKA KOMİTƏSİNİN SƏDRİ KANQ ŞİN-UOKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2019-cu il* ........................................................................*268*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2019-cu il* ........................................................................*270*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ

*13 dekabr 2019-cu il*..........................................................................*275*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS CONSONA

*13 dekabr 2019-cu il*..........................................................................*276*

BƏHREYN KRALI ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*13 dekabr 2019-cu il*..........................................................................*277*

RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU İQOR BABUŞKİNİN

BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 dekabr 2019-cu il* ........................................................................*278*

BAKI GƏMİQAYIRMA ZAVODUNDA İNŞA OLUNMUŞ İLK NEFT TANKERİNİN İSTİSMARA VERİLMƏSİ VƏ «AZƏRBAYCAN» ADLI GƏMİ-BƏRƏSİNİN SUYA SALINMASI MƏRASİMİNDƏ İŞTİRAK

*13 dekabr 2019-cu il* ........................................................................*281*

«AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ BABA RZAYEV İLƏ GÖRÜŞ

*16 dekabr 2019-cu il* ........................................................................*288*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*16 dekabr 2019-cu il*..........................................................................*295*

UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİNİN QARŞILANMA MƏRASİMİ

*17 dekabr 2019-cu il* ........................................................................*296*

UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*17 dekabr 2019-cu il* ........................................................................*298*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*17 dekabr 2019-cu il* ........................................................................ *300*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*17 dekabr 2019-cu il* ........................................................................ *302*

UKRAYNA PREZİDENTİ VLADİMİR ZELENSKİ İLƏ
BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*17 dekabr 2019-cu il* ........................................................................ *303*

AZƏRBAYCAN – UKRAYNA BİZNES-FORUMUNDA
İŞTİRAK

*17 dekabr 2019-cu il* ........................................................................ *310*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ
ZİYAFƏTDƏ İŞTİRAK

*17 dekabr 2019-cu il* ........................................................................ *322*

QIRĞIZ RESPUBLİKASI PARLAMENTİNİN –
JOQORKU KENEŞİN SƏDRİ DASTANBEK
CUMABEKOV İLƏ GÖRÜŞ

*17 dekabr 2019-cu il* ........................................................................ *325*

QEYDLƏR........................................................................................ *328*

*Şəxsi adlar göstəricisi*................................................................... *367*

*Coğrafi adlar göstəricisi* ............................................................... *373*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiymıəti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.